HƏSƏN ALLAHVERDİYEV

İQTİSADİYYATIN HÜQUQİ TƏNZİMLƏNMƏSİNİN ƏSASLARI

Ali məktəblər üçün dərs vəsaiti

Azərbaycan Respublikası təhsil nazirinin 01.05.2002-ci il 399 saylı əmri ilə dərs vəsaiti kimi tövsiyə edilmişdir.

Bakı – 2009

Rəyçilər: iqtisad elmlər doktoru, professor **Qarayev İ.Ş**

iqtisadi elmlər namizədi, **Hacılı Ə.A**

Allahverdiyev H.B. İqtisadiyyatın hüquqi tənzimlənməsinin əsasları: Dərs vəsaiti. Bakı: «İqtisad Universiteti» nəşriyyatı, 2009. 342 səh.

Dərs vəsaitində Milli iqtisadiyyatın hüquqi tənzimlənməsinin əsasları, onun tənzimlənməsinin hüquqi aspektləri, «iqtisadiyyatın hüquqi tənzimlənməsinin əsasları» tədris proqramına uyğun olaraq şərh edilir. Müəllif İqtisadiyyatın hüquqi tənzimlənməsinin nəzəri əsasları, prinsipləri və metodlarını, müasir bazar iqtisadiyyatı şəraitinə uyğun olaraq açıqlamağa səy göstərmişdir.

Dərs vəsaitində müasir qarışıq iqtisadiyyat şəraitində, makro və mikro səviyyələrdə iqtisadiyyatın hüquqi tənzimlənməsinin əsasları şərh edilir. Dərs vəsaiti ali məktəb tələbələri üçün nəzərdə tutulur. Lakin ondan geniş oxucu kütləsi və bu sahədə marağı olanlar da istifadə edə bilərlər.

© Allahverdiyev H.B., 2009
© «İqtisad Universiteti», 2009

M Ü N D Ə R İ C A T

ÖN SÖZ…… *6*
1. İqtisadiyyatın hüquqi tənzimlənməsinin nəzəri və metodoloji əsasları…… *8*
2. İqtisadiyyatın hüquqi tənzimlənməsinin mənbələri..... *14*
3. Dövlət əmlakının özəlləşdirilməsinin hüquqi tənzimlənməsi…… *21*
4. İnhisarçılıq fəaliyyətinin və rəqabətin hüquqi tənzimlənməsi…….. *31*
5. Qiymətli kağızlar bazarının hüquqi tənzimlənməsi…… *57*
6. Vergi sisteminin hüquqi tənzimlənməsi……. *69*
7. Dövlətin büdcə sistemi və onun fəaliyyətinin hüquqi tənzimlənməsi……... *78*
8. Pul-kredit sisteminin hüquqi tənzimlənməsi……..... *87*
9. Valyuta tənzimlənməsinin hüquqi əsasları……. *104*
10. İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi…… *115*
11. Qiymət və tariflərin hüquqi tənzimlənməsinin əsasları… *139*
12. Aqrar bölmənin tənzimlənməsinin hüquqi əsasları……. *168*
13. Sosial sferanın tənzimlənməsinin hüquqi əsasları…… *178*
14. Təbiətdən istifadə və ətraf mühitin mühafizəsinin hüquqi tənzimlənməsi……..... *197*
15. Xarici – iqtisadi əlaqələrin hüquqi tənzimlənməsi …….. *208*
16. Normativ Hüquqi Aktlar Haqqında Azərbaycan Respublikasının Qanunu.I Fəsil Ümumi müddəalar..... *222*
17. II Fəsil. Normativ Hüquqi Aktların Hazırlanmasının Planlaşdırılması…….. *225*
18. III Fəsil. Normativ Hüquqi Aktların Layihələrinin Hazırlanması…….. *227*
19. IV Fəsil. Normativ Hüquqi Aktların Müstəqil Elmi Ekspertizası…….. *232*
20. V Fəsil. Normativ Hüquqi Aktların Dərci Və Başqa Formada Yayılması…….. *234*
21. VI Fəsil. Normativ Hüquqi Aktların Zaman, Məkan və Subyektlərə Görə Qüvvəsi……... *236*

22. VII Fəsil. Normativ Hüquqi Aktların Şərhi…….. *239*
23. VIII Fəsil. Normativ Hüquqi Aktların Sistemləşdirilməsi və Uçotu…….. *240*
24. IX Fəsil. Son Müddəalar…….. *241*
25. Büdcə sistemi haqqında Azərbaycan Respublikasının qanunu. I Fəsil. Ümumi Müddəalar……... *242*
26. II Fəsil. Dövlət Büdcəsi……. *249*
27. III Fəsil. Naxçıvan Muxtar Respublikasının Büdcəsinin Tərtibi, Təsdiqi, İcrası Və İcrasına Nəzarət…….. *266*
28. IV Fəsil. Yerli Büdcələrin Tərtibi, Təsdiqi, İcrası və İcrasına Nəzarət…….. *268*
29. «Azərbaycan Respublikasının Milli Bankı Haqqında» Azərbaycan Respublikasının Qanunu. (2004-cü il 12 dekabr) I Fəsil Ümumi Müddəalar……..... *273*
30. II Fəsil. Milli Bankın Kapitalı……. *277*
31. III Fəsil. Milli Bankın Dövlət Hakimiyyəti Orqanlarilə Münasibətləri……. *279*
32. IV Fəsil. Milli Bankın Təşkilati Strukturu və İdarə olunması……..……. *281*
33. V Fəsil. Pul Siyasəti…….. *288*
34. VI Fəsil. Nağd Pul Tədavülünün Təşkili…….. *291*
35. VII Fəsil. Beynəlxalq Qızıl Valyuta Ehtiyatlarının İdarə olunması……. *294*
36. VIII Fəsil. Ödəniş Sistemlərinin Təşkili……. *296*
37. IX Fəsil. Kredit Təşkilatları ilə Münasibətlər…….. *297*
38. X Fəsil. Əqdlər Və Əməliyyatlar……. *301*
39. XI Fəsil. Milli Bankın Maliyyə Uçotu Və Hesabatı…… *303*
40. XII Fəsil. Yekun Müddəalar…… *304*
41. Azərbaycan Respublikasının Qanunu. İnvestisiya fəaliyyəti haqqında, I Fəsil. Ümumi Müddəalar…….. *307*
42. II Fəsil. İnvesisiya Fəaliyyətinin Həyata Keçirilməsi ….. *310*
43. III Fəsil. İnvestisiya Fəaliyyətinin Dövlət Təzimlənməsi... *313*
44. IV Fəsil. İnvestisiya Fəaliyyəti Subyektlərinin Hüquqlarının Təminatı Və İnvestisiyanın Qorunması……..... *317*
45. Azərbaycan Respublikasının Milli Məclisinin Qərarı…… *321*

46. Xarici İnvestisiyanın Qorunması Haqqında Azərbaycan Respublikasının Qanunu. I Bölmə. Ümumi Müddəalar…….. *322*
47. II Bölmə. Xarici İnvestisiya Üçün Dövlət Təminatları…... *325*
48. III Bölmə. Xarici İnvestisiya Qoyulmuş Müəssisələrin Yaradılması Və Fəaliyyəti…….. *328*
49. IV Bölmə. Xarici İnvestistorların Qiymətli Kağızlar Əldə Etməsi…… *335*
50. V Bölmə. Xarici İnvestistorların Torpaqdan İstifadə Hüquqlarını və Başqa Əmlak Hüquqlarını Əldə Etməsi…… *336*
51. VI Bölmə. Sərbəst İqtisadi Zonalarda Xarici İnvestisiya… *337*
52. VII Bölmə. Yekun Müddəaları……. *338*
53. İstifadə olunan ədəbiyyat……. *339*

Ön söz

Müasir bazar münasibətləri şəraitində milli iqtisadiyyatın formalaşması və inkişafı, onun elmi cəhətdən əsaslandırılmış iqtisadi-hüquqi tənzimlənməsini bir vəzifə olaraq qarşıya qoyur. Bu baxımdan iqtisadiyyatın mikro-makro səviyyələrdə hüquqi tənzimlənməsi xüsusi elmi-praktiki əhəmiyyət kəsb edir. Belə ki, keçid iqtisadiyyatı şəraitində çoxsaylı, mürəkkəb sosial-iqtisadi proseslərin hüquqi baxımdan tənzimlənməsi müasir dövrümüzün reallığından irəli gəlir.

İqtisadiyyatın dövlət, hüquqi tənzimlənməsi, hər şeydən əvvəl müvafiq normativ-hüquqi bazaya əsaslanmalıdır. Odur ki, dövlətin bu istiqamətdə həyata keçirmiş olduğu tədbirlər sistemində ən başlıca yerlərdən biri, müvafiq qanunvericiliyin işlənib hazırlanması, qəbulu və yerinə yetirilməsinin təşkili, maliyyə, bank, büdcə, vergi, investisiya mexanizmlərinin tənzimlənməsinin iqtisadi-hüquqi əsaslarının yaradılmasıdır.

Dövlət, bütövlükdə cəmiyyətin sosial-iqtisadi maraqlarını həyata keçirərək, iqtisadiyyatın bütün subyektlərinə təsir etməklə, müxtəlif vasitə və formalarla, onların fəaliyyətinin tənzimlənməsi sistemində baş verən iqtisadi münasibətləri hüquqi prinsiplər əsasında tənzimləyir ki, bu onun predmetini təşkil edir.

«İqtisadiyyatın hüquqi tənzimlənməsinin əsasları» fənni dövlət tənzimlənməsinin əsas istiqamətlərini, sfera və obyektlərinin qanunvercilik bazasını əhatə etməklə, «İqtisadiyyatın dövlət tənzimlənməsi» fənni ilə sıx bağlıdır. Müasir dövrdə, dövlət və qeyri-dövlət ixtisas məktəblərində «İqtisadiyyatın hüquqi tənzimlənməsi» üzrə mütəxəssislərin hazırlanmasına baxmayaraq, təəssüflər olsun ki, hələ bugünə kimi respublikada «İqtisadiyyatın hüquqi tənzimlənməsi»nə dair dərslik və dərs vəsaitləri hazırlanıb nəşr edilməmişdir.

Odur ki, qeyd edilənləri nəzərə alaraq müəllif ilk təşəbbüs olaraq «İqtisadiyyatın hüquqi tənzimlənməsinin əsasları» adlı dərs vəsaitini işləyib hazırlamışdır. Dərs vəsaiti «İqtisadiyyatın

hüquqi tənzimlənməsinin əsasları» tədris proqramına uyğun olaraq yazılmışdır.

Dərs vəsaiti «İqtisadiyyatın hüquqi tənzimlənməsi» ixtisası üzrə hazırlanan tələbələr üçün nəzərdə tutulur. Lakin ondan iqtisadçılar, hüquqşünaslar və digər mütəxəssislər də istifadə edə bilərlər.

«İqtisadiyyatın hüquqi tənzimlənməsinin əsasları» fənni bütün iqtisad fənləri ilə, xüsusilə «Strateji planlaşdırma», «Makroiqtisadi planlaşdırma», «Milli iqtisadiyyatın dövlət tənzimlənməsi» fənləri ilə sıx əlaqədə öyrənilir.

Dərs vəsaiti iqtisadiyyatın hüquqi tənzimlənməsinin əsaslarını əhatə etməklə, 15 adda mövzunu özündə birləşdirir. Burada iqtisadiyyatın hüquqi tənzimlənməsinin nəzəri və metodoloji əsasları, dövlət əmlakının özəlləşdirilməsinin normativ-hüquqi bazası, inhisarçılıq fəaliyyətinin və rəqabətin hüquqi tənzimlənməsi, qiymətli kağızlar bazarının, vergi, büdcə, maliyyə, pul-kredit, valyuta sistemlərinin, investisiya fəaliyyətinin, qiymət və tariflərin, sosial sferanın, təbiətdən və təbii resurslardan istifadənin, aqrar istehsalın və xarici-iqtisadi əlaqələrin hüquqi tənzimlənməsinin əsas prinsipləri və qaydaları şərh edilmişdir.

Dərs vəsaiti ilk təşəbbüs olduğundan onun təkmilləşdirilməsinə ehtiyac olduğunu nəzərə alaraq oxuculardan xahiş olunur ki, öz irad və təkliflərini Azərbaycan Dövlət İqtisad Universitetinə – İstiqlaliyyət küçəsi, 6 ünvanına göndərsinlər. Müəllif əvvəlcədən onlara öz təşəkkürlərini bildirir.

i.e.d., professor Allahverdiyev Həsən Bəkir oğlu

MÖVZU 1. İQTİSADİYYATIN HÜQUQİ TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI

Plan:

1. Hüquqi tənzimlənmə anlayışı və hüquqi tənzimlənmənin mahiyyəti.
2. Hüquqi tənzimlənmənin predmeti və metodları.
3. İqtisadiyyatın hüquqi tənzimlənməsinin prinsipləri.
4. İqtisadiyyatın hüquqi tənzimlənməsinin obyekt və subyektləri.
5. «İqtisadiyyatın hüquqi tənzimlənməsi» fənninin vəzifələri və onun digər fənlərlə əlaqəsi.

Bazar münasibətlərinin formalaşması və inkişafına sistemli proses kimi yanaşılması, radikal iqtisadi islahatlar üçün hüquqi bazanın yaradılmasında obyektiv iqtisadi qanunlardan, qanunauyğunluqlardan istifadə, Konstitusiya aktı və prezident fərman və sərəncamları, müxtəlif səpgili normativ – hüquqi aktlar və habelə geniş təkrar istehsalın əsas prinsipləri iqtisadiyyatın hüquqi tənzimlənməsinin nəzəri və metodoloji əsaslarını təşkil edir.

Bu mühüm prinsiplər əsasında dövlət iqtisadi inkişafın cari və perspektiv problemlərini ardıcıl surətdə həll edərək, iqtisadiyyatın məqsədyönlü tənzimlənməsini həyata keçirir. Bu baxımdan, bazar iqtisadiyyatının tələblərinə uyğun müvafiq qanunların, normativ-hüquqi aktların qəbul edilməsi yeni iqtisadi münasibətlər sisteminin mahiyyətindən irəli gəlir. Bir sözlə, iqtisadiyyatın hüquqi tənzimlənməsi mülki, əmək, inzibati, gömrük, torpaq, müəssisələr, sahibkarlıq və s. haqqındakı qanunvericilikdən istifadə edərək, iqtisadi münasibətlərin düzgün tənzimlənməsi həyata keçirilir. İqtisadiyyatın hüquqi tənzimlənməsinin mahiyyətinə aşağıdakı nöqteyi – nəzərdən yanaşmaq olar:

1. İqtisadiyyatın hüquqi tənzimlənməsi, qanunvericilik sistemi kimi, hüquqi normalar əsaslanmaqla, iqtisadi fəaliyyətin

həyata keçirilməsinin üsul və qaydalarını müəyyənləşdirir. Qanunvericiliyin öyrənilməsi arbitraj – məhkəmə (iqtisad məhkəməsi) təcrübəsini təhlil edilərək, hüquqi normaların qəbulunda, dərk edilməsində və tətbiqində vahidliyə nail olma məqsədini güdür.

2. İqtisadiyyatın hüquqi tənzimlənməsi elmi, hüquqi tənzimlənmənin obyekt və subyektlərini araşdırmaqla, toplanan informasiya əsasında, onun gələcək inkişaf istiqamətlərini müəyyənləşdirir.

3. İqtisadiyyatın hüquqi tənzimlənməsi tədris fənni kimi qanunveiciliyin, təcrübənin və müvafiq elmlərin ümumiləşdirilmiş məlumatlarının sistemi deməkdir.

Ümumi şəkildə demiş olsaq, iqtisadiyyatın hüquqi tənzimlənməsi fənninin predmetini iqtisadi fəaliyyət ilə bağlı yaranan istehsal, bölgü, mübadilə, istehlak, idxal – ixrac və mülki – hüquqi mahiyyətli münasibətlərin tənzimlənməsi təşkil edir. İqtisadiyyatın liberallaşması və bazar münasibətlərinə keçid, tam təsərrüfat müstəqilliyinin əldə edilməsi, müxtəlif təşkilati – hüquqi formalı müəssisələrin yaranmasına gətirib çıxarmışdır. Bunların hamısının nizamlamaya, tənzimləməyə ehtiyacı olan çoxsaylı istehsal – təsərrüfat və kommersiya fəaliyyəti, qarşılıqlı əlaqələri, o cümlədən dövlət idarəetmə orqanları ilə sıx əlaqələri vardır. Ona görə iqtisadiyyatın hüquqi tənzimlənməsinin predmeti olan münasibətləri üç qrupa ayırmaq olar:

- bazarın bir subyektlərinin öz əsas vəzifələrinin icrası ilə bağlı, digər subyektlərlə əlaqəsindən yaranan iqtisadi və hüquqi münasibətlər (istehsal, vasitəçilik, marketinq, daxili və xarici bazarda məhsul satışı, xidmətlərin göstərilməsi və s.)
- müəssisə və firmaların işçilərinin hüquq, vəzifə və məsuliyyətinin müəyyən edilməsilə bağlı olan, müəssisənin daxili təşkilinin şərtlərini və qaydalarını müəyyən edən, iqtisadi və hüquqi münasibətləri müəssisənin idarə olunma və ona nəzarət sahəsindəki normalar, iştirakçıların tərkibinin dəyişdirilməsi və onların hüquqlarının müdafiəsi və s.;

- bütövlükdə cəmiyyətin mənafei üçün iqtisadiyyatı tənzimləyən dövlət idarəetmə orqanlar ilə fiziki, hüquqi şəxslər arasında yaranan münasibətlər bir qayda olaraq, bu mü-nasibətlər, müəssisənin bilavasitə istehsal və təsərrüfat sahəli fəaliyyətinə müdaxilə etməyərək, iqtisadi və sosial sahələrlə bağlı fəaliyyətini əhatə edir. (məsələn, vergi – gömrük orqanları ilə münasibətlər).

Bu münasibətlərin qeyd olunan qrupları, qanunvericiliyin müvafiq normaları ilə tənzimlənir, onlar təsərrüfat mübahisələrinin iqtisad məhkəməsində baxılmasını müəyən edən normalar sistemi ilə birlikdə iqtisadi fəaliyyətin hüquqi tənzimləmə mexanizmini təşkil edir.

İqtisadi fəaliyyətin tənzimlənməsini təmin edən hüquqi normaların bütün kompleksinə şamil edilən əsas prinsiplərə aşağıdakılar xasdır:

1. İqtisadi təsərrüfat subyektlərinin fəaliyyətləri nəticəsində iki tərəfli maraqlara nail olmasına məqsədli təsirin göstərilməsi və tənzimlənməsi prinsipi .

2. İqtisadi təsərrüfat subyektlərinin bərabərlik prinsipi.

3. Təsərrüfatçılıq fəaliyyətdə iqtisadi azadlıq və onun həvəsləndirilməsi prinsipi.

4. İnhisar və haqsız rəqabətdən müdafiə prinsipi.

5. İqtisadi – inzibati və siyasi mexanizmlər vasitəsilə təsərrüfat münasibətlərinin dövlət tənzimlənməsi prinsipləri.

6. Qanunçuluq prinsipi. Bu qadağa və digər şəxslərin hüquqlarının pozulması, şəxsi, ictimai və dövlət mənafeləri üçün fəaliyyətdə iqtisadi səmərəliliyə nail olunması, bazar iqtisadiyyatı şəraitində qanunların qeyri-şərtsiz yerinə yetirilməsinin əsasını təşkil edir.

Subyektlər arasında yaranmış münasibətlər nizamlayan üsul və vasitələri məcmusu hüquqi tənzimləmə metodu kimi qəbul edilir.

Hüquqi tənzimləmənin metodunu müəyyən edərkən, iqtisadiyyatın hüquqi tənzimlənməsinin predmetinə məxsus olan bir sıra xüsusiyyətlərin nəzərə alınması zəruridir, yəni:

1. real təsərrüfat münasibətlərinin geniş müxtəlifliyi;

2. müəssisənin təşkilati – hüquqi formasının, fəaliyyət istiqamətinin, istehsal olunan məhsulun və xidmətləin çeşidinin, təchizat və satış bazarının seçilməsində və müəyyən edilməsində iqtisadi fəaliyyət subyektlərinin müstəqilliyi;

3. iqtisadi fəaliyyət subyektləri arasında bazar xarakterli münasibətlərin olması;

4. mahiyyətinə görə müxtəlif olan mexanizmlərin əsasında fəaliyyətin təşkili, idarə olunması və tənzimlənməsi;

İqtisadiyyatın hüquqi tənzimlənməsi kompleks xarakterə malikdir. Yəni dövlətin iqtisadiyyata hüquqi təsiri icazə, göstəriş və qadağan xarakteri daşıyan hüquqi tənzimləmə metodlarında ifadə olunur.

Dövlət qarşısında daimi olaraq iqtisadi sistemi tənzimləyən qanun və qaydaların qəbul edilməsi məsuliyyəti durur. Bu qaydalara aşa-ğıdakıları misal göstərmək olar:

1. iqtisadi proseslərin dövlət tənzimlənməsinin ümumi qaydalarının hüquqi təyini;

2. xüsusi mülkiyyətin hüquqi müdafiəsi və rəqabət mühitinin formalaşması;

3. dövlət bölməsinin fəaliyyətinin tənzimlənməsi qayda və prosedurlarına dair müvafiq qanunvericilik aktlarının qəbulu.

İqtisadi proseslərin dövlət tənzimlənməsinin ümumi qaydalarının hüquqi təyini ilk növbədə iqtisadiyyatın dövlət tənzimlənməsinin məqsəd, vəzifə və vasitələrin müəyyən edilməsini özündə əks etdirir. Bu zaman iqtisadiyyatın dövlət tənzimlənməsinin məqsədi ölkənin sosial – iqtisadi inkişaf məqsədlərindən irəli gəlir. Dövlət, idarəedici hakimiyyət orqanlarının gələcəkdə funksiyalarını saxlamaq üçün, ölkənin sosial və iqtisadi inkişafı qanunvericilik əsasında müəyyənləşdirilir.

«İqtisadiyyatın hüquqi tənzimlənməsi» fənni «İqtisadiyyatın dövlət tənzimlənməsi» fənni ilə bilavasitə əlaqədar olmaqla, qanunvericiliyinöyrənilməsi ilə qarşılıqlı müştərək halda tədris edilməlidir. Bununla belə, o, «Strateji planlaşdırma», «Sosial-iqtisadi proqnozlaşdır-ma», «İnvestisiya proseslərinin dövlət

tənzimlənməsi», «Makro-iqtisadi planlaşdırma», «İqtisadi təhlükəsizliyin tənzimlənməsi», «Milli iqtisadiyyatın tənzimlənməsi» fənləri ilə də sıx əlaqədardır.

Qeyd etmək lazımdır ki, bu fənn istehsal və xidmət sahələrinin fəaliyyət və təşkilinə aid bütün iqtisadi fənlər ilə əlaqəli şəraitdə tədris edilir.

Bazar şəraitində ölkənin sosial – iqtisadi inkişafının əsas məqsədlərinə aid edilir:

1. Ölkə əhalisinin rifahının getdikcə yüksəldilməsi;

2. İctimai təkrar istehsal proseslərinin kordinasiyası və qarşıya qoyulmuş prioritetlərə uyğun olaraq iqtisadiyyatın bölmə və sahələrinin inkişafının stimullaşdırılması;

3. İş yerləri çatışmamazlığı probleminin həlli və məşğulluğun səmərəli səviyyəsinə nail olmaq;

4. Sosial ədalətliyə riayət etməklə, əhalinin sosial qruplar üzrə təminatının tənzimlənməsi;

5. Bazarların açıqlığının təmin edilməsi, müqavilələrin bağlanması azadlığına riayət olunması daxil edilməklə, tam rəqabət mexanizminin yaradılması və saxlanmasının müdafiə olunması;

6. Dünya bazarında milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyini təmin etmək üçün və sahibkarlığın inkişafı üçün əlverişli müsbət şəraitin, rəqabətli bazar mühitinin inkişafı. Dövlət bazar mexanizm ilə həyata keçirilməsi mümkün olmayan sahələrdə də yüksək səviyyəli rəqabət qabiliyyətliliyin təmin edilməsinə çalışmalıdır.

7. İqtisadi inkişafın keyfiyyət cəhətdən yüksəldilməsi, o cümlədən yaşayış mühitinin və həyat keyfiyyətinin yaxşılaşdırılması üzrə işçilərin hərtərəfli inkişafının stimullaşdırılması və istehlakçıların hüquqlarının müdafiəsinə dair tədbirlər sisteminin həyata keçirilməsi.

Qeyd edilən mühüm problemlərin həlli ilk növbədə iqtisadiyyatda balanslaşdırılmış artım və əmək məhsuldarlığının yüksəldilməsi üçün şəraitin yaradılmasını, ETT-nin sürətlənməsini, qiymətlərin mümkün sabitliyinə və müsbət tədiyyə balansının yaradılmasına nail olunmasını tələb edir.

Ümumiyyətlə, dövlətin iqtisadiyyata qeyri – səmərəli, məqsədyönsüz müdaxiləsi ümumi tarazlığı poza bilər. Odur ki, bu cəhətlər dövlət tərəfindən daim nəzərə alınmalıdır.

Dövlət tənzimlənməsinin obyekti kimi milli iqtisadiyyatın dinamik, proporsional inkişafı əsas götürülərək, ölkənin mikro və makro səviyyələrdə balanslaşdırılmış inkişafının təmin edilməsi nəzərdə tutulur. Milli iqtisadiyyatın inkişafı isə təsərrüfat subyektlərini ölkəmizin və xarici ölkələrin ərazilərində, həmçinin xarici ölkələrlə birgə fəaliyyət göstərən istehsal və xidmət sahələrini əhatə edir. Bu zaman ölkənin hüquqi tənzimləmənin obyektlərinə aid edilir:

1. Sahibkarlar arasında qarşılıqlı münasibətlər;

2. Dövlətlə iqtisadi subyektlər, ölkə ərazisində təsərrüfat fəaliyyətini həyata keçirən(hüquqi və fiziki şəxslərin) qarşılıqlı əlaqəsi;

İqtisadiyyatın hüquqi tənzimlənməsi sistemində obyekt kimi əşyalar, yəni istehsal olunan və dövriyyəyə buraxılan, həmçinin istehsalı və satışı qanunla qadağan olunan və ya ölkənin strateji maraqlarına uyğun gəlməyən əmtəələr və əmtəə qrupları götürülə bilər. Həmçinin iqtisadiyyatda mövcud olan iqtisadi fəaliyyət və xidmət növləri obyekt kimi hüquqi tənzimləməyə daxil edilir.

Dövlət tənzimlənməsinin subyekti kimi Azərbaycan Respublikası Konstitusiya və Qanunlarına əsasən fəaliyyət göstərən öz institutları simasında çıxış edir. Azərbaycan Respublikasın-da dövlət hakimiyyəti mərkəzi və regional səviyyələrdə həyata keçirilir.

Milli iqtisadiyyatın dövlət idarə edilməsi funksiyasının yerinə yetirilməsi üçün icraedici orqanlar yaradılır. Onlardan başqa koordinasiya və konsultativ (məsləhətçi) orqanlar da yaradılır. Koordinasiya orqanları komissiya adlandırılır və marağı olan icra hakimiyyəti orqanlarının müəyyən sosial — iqtisadi məsələlərinin həllində razılaşdırılmış hərəkətlərinin təminini təşkil edir.

İqtisadiyyatın hüquqi tənzimlənməsinin subyekti kimi həm də hər hansı bir iqtisadi fəaliyyətlə məşğul olan fiziki və hüquqi şəxslər nəzərdə tutulur ki, onların da fəaliyyətləri Azərbaycan Respublikasının müvafiq qanunları və hüquqi-normativ aktları ilə tənzimlənir.

MÖVZU 2. İQTİSADİYYATIN HÜQUQİ TƏNZİMLƏNMƏSİNİN MƏNBƏLƏRİ

Plan:

1. İqtisadiyyatın hüquqi tənzimlənməsinin mənbə anlayışı və onun növləri.
2. Hüquqi tənzimlənmə mənbələrinin təsnifatı.
3. Hüquqi tənzimlənmə mənbələrində: qanunlar və hüquqi aktlar.

Fəaliyyətdə olan iqtisadiyyatın hüquqi tənzimlənməsinin mövcud sistemi birdən birə yaranmamışdır. O müəyyən mərhələlərdən keçmişdir.

Səlahiyyətli dövlət orqanının aktında ifadə olunan dövlətin iradəsi hüquqi tənzimləmənin mənbəyi kimi anlaşılır.

Qanunverciliyin sistemini təşkil edən bu aktlar aşağıdakılardır:

1. Azərbaycan Respublikası Konstitusiyası;
2. Referendumla qəbul olunmuş aktlar;
3. Azərbaycan Respublikasının qanunları (məcəllələri);
4. Azərbaycan Respublikası Prezidentinin fərmanları;
5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları;
6. Mərkəzi İcra Hakimiyyəti orqanlarının normativ aktları (nazirlik, dövlət komitələri, respublika idarələri, Nazirlər Kabineti yanında komitə və idarələr);
7. Həmçinin, Naxçıvan Muxtar Respublikasının qanunları, bu respublikanın Nazirlər Kabinetinin qərarları, yerli icra hakimiyyəti orqanlarının normativ xarakterli aktları (qeyd olunan aktlar Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxildir). Habelə bələdiyyələrin aktları hüquqi tənzimləmə mənbələri kimi istifadə edilir.

Bələdiyyələr, dövlət hakimiyyəti orqanlarına aid deyildir, lakin Konstitusiyaya uyğun olaraq onların aktlarının icrası ərazisində yaşayan vətəndaş və hüquqi şəxslər üçün məcburidir.

Qeyd edək ki, yuxarıda qeyd olunan aktlar Azərbaycan Respublikasının Kanstitusiyasına zidd olmamalıdır.

Azərbaycan Respublikası Konstitusiyası birbaşa təsiri olan normativ hüquqi aktdır. Burada dövlətin iqtisadiyyata təsiri maddə 15-də belə ifadə olunur:

«Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.»

Ümumiyyətlə, Qanunvercilik iqtisadi fəaliyyətlə məşğul olan şəxslər arasında və ya onların iştirakı ilə yaranan münasibətləri tənzimləyir. O, tənzimlənən münasibətlər iştirakçıların bərabərliyinin tanınmasına, mülkiyyətin toxunulmazlığına, müqavilə azadlıqlarına və s. əsaslanır. Münasibətlərin qanunvericiliklə və ya tərəflərin razılığı ilə tənzimlənməsi mümkün olmadığı halda, eyni mahiyyətli münasibətləri tənzimləyən qanun tətbiq olunur (buna qanunun analogiyası da deyilir) Azərbaycan Respublikasının daxili normativ – hüquqi aktları (Konstitusiya və referendumla qəbul olunan aktlar istisna olmaqla) və beynəlxalq müqavilələr arasında ziddiyyət yarandıqda, beynəlxalq müqavilələrin normaları tətbiq olunur.

Beləliklə, bazar münasibətləri şəraitində milli iqtisadiyyatın hüquqi tənzimlənməsinin əsas mənbələri aşağıdakı sxemdə verilir:

Sxem 1.



Mərkəzi İcra Hakimiyyəti orqanlarının aktları Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına zidd olmamalıdır.

Bələdiyyələrin qəbul etdikləri aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə, bərabər münasibətə) əsaslanmalı, Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan

Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) zidd olmamalıdır. Bələdiyyənin qəbul etdiyi aktın icrası onun ərazisində yaşayan vətəndaşlar və onun ərazisində yerləşən hüquqi şəxslər üçün məcburidir. (Azərbaycan Respublikasının Konstitusiyası, maddə 150)

Azərbaycan Respublikasının qanunvericilik sisteminin tərkib hissəsi olan beynəlxlaq aktların hüquqi qüvvəsi Azərbaycan Respublikasının Konstitusiyasının maddə 151-də müəyyən olunmuşdur. Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

Normativ aktların təsnifatı müxtəlif əsaslanmaya görə, yəni aktların hüquqi qüvvəsinə görə, onların təsir miqyasına görə, onların əhəmiyyətinə görə və s. aparıla bilər.

Normativ hüquqi aktların hüquqi qüvvəsinə görə qanun və digər normativ aktlara bölgüsünün praktiki əhəmiyyəti odur ki, bunlar arasında ziddiyyət olarsa, qanun əsas kimi götürülür. O cümlədən, İqtisad Məhkəməsi işə baxılma zamanı dövlət orqanının, yerli özünüidarəetmə orqanının və digər orqanların normativ aktlarının qanuna uyğun olmadığını, o cümlədən öz səlahiyyətlərindən artıq verildiyini aşkar edirsə, onda qanuna uyğun olaraq qərar qəbul edilir.

Qanunlar yalnız müvafiq dövlətin hakimiyyət orqanlar tərəfindən qəbul edilir. Hakimiyyətin digər qolları qanunvericilik fəaliyyəti ilə məşğul ola bilməz, yəni icra hakimiyyət orqanları qanunların yerinə yetirilməsinin təşkili ilə məşğul olmalı, məhkəmə hakimiyyəti orqanları isə hüquqi konfliktləri həll etməlidir.

Qanunlar-konstitusiya və digər qanunlara bölünür. Bu zaman konstitusiya qanunları digər qanunlara nisbətən daha yüksək hüquqi qüvvəyə malikdirlər.

Konstitusiya qanunları içərisində ən ali hüquqi qüvvəyə cəmiyyətin əsas həyat normaları, o cümlədən şəxsin və dövlətin qarşılıqlı münasibətləri, şəxsin əsas hüquqları və azadlıqları, dövlət hakimiyyəti orqanlarının növləri və səlahiyyətləri haqda normaları əhatə edən Azərbaycan Respublikasının Konstitusiyası malikdir. Belə ki, Konstitusiyanın hüquqi qüvvəsi Azərbaycan Respublikası Konstitusiyasının maddə 147-də müəyyən edilir:

1. Azərbaycan Respublikasının Konstiutsiyası Azərbaycan Respublikasında ən yüksək hüquqi qüvvəyə malikdir.

2. Azərbaycan Respublikasının Konstitusiyası birbaşa qüvvəyə malikdir.

3. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasıdır.

Azərbaycan Respublikasının Konstitusiyasından sonra ən yüksək hüquqi qüvvəyə referendumla qəbul edilmiş Konstitusiya qanunları malikdir. Bu qanunlardan ölkə iqtisadiyyatının formalaşmasında böyük əhəmiyyəti olan «Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında» Konstitusiya qanununu misal gətirmək olar. Bu Qanunda Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin məzmunu, məqsədi və əsas prinsipləri, o cümlədən, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin əsas funksiyaları (maddə 8) müəyyən edilmişdir.

Qanuna aid olmayan normativ aktlara Azərbaycan Respublikası Prezidentinin və nazirlik və idarələrin, yerli hakimiyyət və idarəetmə orqanlarının normativ aktları aid edilir. Onlar arasında əsas rola Azərbaycan Respublikası Prezidenti tərəfindən verilən normativ aktlar malikdir.

Qanun və qanunlara aid olmayan normativ aktların haqda məsələni yekunlaşdırarkən, qeyd etmək lazımdır ki, hazırki dövrdə hüquq mənbələri arasında qanunların sayının və rolunun artması tendensiyası müşahidə olunur. Bu isə iqtisadiyyatın

inzibati (birbaşa) idarə edilməsindən iqtisadi (dolayı) tənzimlənməsinə keçid hesabına mümkün olmuşdur.

Mərkəzləşdirilmiş sərt planlaşma dövründə cəmiyyət qanunlara deyil, Mərkəzi hakimiyyətin göstərişlərinə, yəni vahid idarəetmənin inzibati metodlarına əsaslanırdı.

Bazar şəraitində iqtisadiyyatın subyektləri öz fəaliyyətini «yuxarı instansiyaların» göstərişlərinə deyil, Azərbaycan Respublikasında fəaliyyətdə olan qanunlar və hüquqi-normativ aktlar əsasında həyata keçirilir.

Məhz buna görə də qanunlar birbaşa təsir etməsi üçün o, mümkün qədər müfəssəl, müvafiq münasibətləri bilavasitə tənzimləyə biləcək qədər detallaşdırılmış olmalıdır.

Təsir miqyasına görə normativ aktlar bu və ya digər dövlət orqanları tərəfindən qəbul edilmiş mərkəzi tənzimləmə normativ aktlarına və lokal normativ aktlara bölünür.

Lokal aktlar sahibkarın fərdi-hüquqi statusunu möhkəmləndirməklə, təşkilatın idarəetmə orqanları tərəfindən qəbul edilir və həmin təşkilatda yerinə yetirilməsi mütləq sayılır. Burada hüquqi şəxslərin əsasnamələri, hüquqi şəxsin struktur bölmələri haqda əsasnamələr, daxili əmək intizamı qaydaları və təşkilatda fəaliyyət göstərən digər aktlar nəzərdə tutulur. Mahiyyət etibarı ilə bu lokal normativ aktlar lokal (daxili istehsal) münasibətlərinin tənzimlənməsini təmin edir.

Ümumi və xüsusi normativ aktlar. Normativ aktların bu cür bölgüsü onların təyinatından asılı olaraq edilir. Yuxarıda qeyd edilən və universal xarakter daşıyan normativ aktların hüquqi təsir gücünə və fəaliyyət miqyasına görə bölgüsü xüsusi əhəmiyyətə malikdir.

Ümumi normativ aktlar iqtisadiyyatın bütün subyektləri üçün nəzərdə tutulur və onların bu və ya digər fəaliyyət xüsusiyyətləri nəzərə alınmamaqla, ümumi qaydaları əks etdirir.

Xüsusi normativ aktlar konkret fəaliyyət sferasının hüquqi tənzimlənməsi xüsusiyyətlərini əks etdirir.

Normativ aktların ümumi və xüsusiyə bölünməsinin praktiki əhəmiyyəti ondan ibarətdir ki, xüsusilər ümumilərə

nisbətən müəyyən üstünlüyə malikdir. Münasibətlər, xüsusi aktlarla nizamlanmadıqda və yaxud tam nizamlanmadıqda onda yalnız ümumi aktlar tətbiq oluna bilər.

Ümumi qanunvericilik obyektiv hüquq sistemini əks etdirdiyindən və kifayət qədər ümumi normaları tərkibinə daxil etdiyindən daha sabitdir. Xüsusi qanunvericilik isə obyektiv hüquq sistemi ilə ümumi qanunvericilik, yəni dolayısı ilə əlaqələndirildiyindən daha dəyişkəndir. O, cəmiyyətin hazırki inkişaf mərhələsində iqtisadi siyasəti əks etdirən daha konkret normalardan idarətdir. Bu əsasən son dövrlərdə bir çox xüsusi qanunların dəyişməsində və daha da təkmilləşdirilməsində öz əksini tapır.

Xüsusi qanunların qəbul edilməsi şübhəsiz ki, müasir bazar iqtisadiyyatı dövrünün xüsusiyyətlərindən irəli gəlir. Eyni zamanda qeyd olunmalıdır ki, xüsusi qanunların sayının həddindən artıq çox olması dövlətin iqtisadiyyata müdaxiləsinin arzu olunmaz dərəcədə artmasından xəbər verir.

Odur ki, müasir dövrdə ən əsas problemlərdən biri dövlətin iqtisadiyyata müdaxiləsinin həddi və hüdudlarının iqtisadi və hüquqi cəhətdən əsaslandırılmasıdır.

MÖVZU 3. DÖVLƏT ƏMLAKININ ÖZƏLLƏŞDİRİLMƏSİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

Plan:

1. əmlakın özəlləşdirilməsinin mahiyyəti və zəruriliyi.
2. əmlakın özəlləşdirilməsinin həyata keçirilməsinin iqtisadi – hüquqi mexanizmləri.
3. əmlakın özəlləşdirilməsində müqavilələr sistemi və onun əhəmiyyəti.

Bazar iqtisadiyyatının fəaliyyət göstərilməsinin əsas şərtlərindən və xüsusiyyətlərindən biri rəqabətin təşkilidir. Məhz bu da inzibati – amirlik sistemindən bazar iqtisadiyyatına keçən dövlətlərdə xüsusi mülkiyyətin və sahibkarlığın yaradılması üçün dövlət əmlakının özəlləşdirilməsinin həyata keçirilməsini vacib edir. Strateji məqsəd daşıyan, Milli iqtisadiyyatın inkişafına xidmət edən özəlləşdirmə prosesinin müvəffəqiyyətlə həyata keçirilməsi, ölkənin gələcək iqtisadi – sosial taleyini müəyyənləşdirir. Buna görə iqtisadi islahatların aparılması iqtisadiyyatın xüsusi mülkiyyətçilərə verilməsini, rəqabətin formalaşmasını, dövlət əmlakının özəlləşdirilməsini tələb edir. Lakin göstəilən məsələlər heç də həmişə səmərəli vasitələrlə həll edilmir. Belə ki, özəlləşdirmə çox vaxt ya tələsik aparılır, ya da gecikdirilir, qanun pozuntuları ilə müşahidə edilir ki, bu da aşağıda göstərilən bir sıra iqtisadi və sosial nəticələrə gəlib çıxarır: külli miqdarda dövlətin əmlakının xüsusi seçimli insanlara verilməsi, xüsusi strateji əhəmiyyət kəsb edən müəssisələrin səhmlərinin nəzarət paketinin itirilməsi, büdcə gəliri üzrə məsələlərin həll edilməməsi və s. göstərmək olar. Onu da qeyd etmək lazımdır ki, bir sıra ədəbiyyatlarda «özəlləşdirmə» və dövlətsizləşdirmə anlayışlarının, fərqləndirilməsinə dair konkret nəticə və təkliflər verilməmişdir.

Özəlləşdirmə anlayışının müəyyənləşdirilməsində təyin olunmuşdur ki, dövlətin mülkiyyətində olan əmlak onun sahibi

tərəfindən fiziki və hüquqi şəxslərin mülkiyyətinə dövlət mülkiyyətinin özəlləşdirilməsi haqda qanunla nəzərdə tutulan qaydada həmişəlik verilə bilər.

Azərbaycan Respublikasında dövlət mülkiyyətində olan əmlakın özəlləşdirilməsinin, təşkilati, iqtisadi və hüquqi əsaslarını müəyyən edən «Dövlət əmlakıın özəlləşdirilməsi haqqında» Azərbaycan Respublikasının qanunda bənd 2-də dövlət əmlakının özəlləşdirilməsinin əsas məqsəd və prinsipləri qeyd olunaraq göstərilmişdir ki:

Dövlət əmlakının özəlləşdirilməsinin əsas məqsədi iqtisadiyyatın liberallaşması, sahibkarlığın genişləndirilməsi, rəqabət mühitinin formalaşdırılması və iqtisadiyyata investisiyaların cəlb olunması yolu ilə onun səmərəliliyinin artırılmasından və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə nail olmaqdan ibarətdir.

Dövlət əmlakının özəlləşdirilməsinin əsas prinsipləri aşağıdakılardır:

1. özəlləşdirməyə dair tədbirlərin aşkarlıq şəraitində həyata keçirilməsi və onun gedişi üzərində dövlət və ictimai nəzarətin təmin edilməsi;
2. dövlət əmlakının özəlləşdirilməsi prosesində əmək kollektivinin qanunvericiliklə müəyən olunmuş mənafelərinin qorunması;
3. sağlam rəqabət mühitinin formalaşdırılması və inkişafı;
4. özəlləşdirmə prsesində bütün alıcılar üçün bərabər şəraitin yaradılması .

Dövlət mülkiyyətində olan əmlak, özəlləşdirmə baxımından özəlləşdirilməsi qadağan olan əmlaka, özəlləşdirilməsi barədə qərar qəbul edilən anadək dövlət mülkiyyətində saxlanılan əmlaka, müvafiq icra hakimiyyəti orqanının qərarı ilə özəlləşdirilən əmlaka və dövlət əmlakı satıcısının qərarı ilə özəlləşdirilən əmlaka bölünür.

SSRİ-nin 1990-cı ildə süquta uğrmasından sonra hər bir respublika dövlət əmlakının özəlləşdirilməsi prosesini həyata keçirməyə başladı. Azərbaycanda baş verən əsaslı sosial – iqtisadi proseslər nəticəsində dövlət ölkədə əmlakın özəlləşdirilməsinə başlanmışdır. Bununla əlaqədar 1993-cü ildə Azərbaycan

Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında «Azərbaycan Respublikasının qanunu», Azərbaycan Respublikasında 1995–1998–ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin, I dövlət Proqrammı qəbul edilmiş və həyata keçirilmiş və 2000-ci il mayın 16-da Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı qəbul edilmişdir.

Qanunda, maddə 16-da dövlət əmlakının özəlləşdirilməsi üsulu göstərilir və onlar aşağıdakılardan ibarətdir:

1. özəlləşdirilən dövlət müəssisələrinin əmlakının əmək kollektivinin üzvlərinə və onlara bərabər tutulan şəxslərə güzəştli satışı;
2. dövlət müəssisələrinin fərdi layihələr üzrə özəlləşdirilməsi;
3. dövlət əmlakının ixtisaslaşdırılmış çek və pul hərraclarında satışı;
4. dövlət əmlakının hərraclar vasitəsilə satışı;
5. dövlət əmlakının investisiya müsabiqəsi vasitəsilə satışı;
6. icarəyə qoyulmuş dövlət əmlakının satışı;
7. dövlət müəssisələrinin müflis elan olunması yolu ilə satışı.

Məlum olduğu kimi ölkədə kütləvi özəlləşdirmə əsasən kiçik müəssisələrdən başlanmışdır. Bunu aşağıdakı cədvəlin materiallarından daha aydın görmək olar:

Cədvəl 1

Kiçik müəssisələrin özəlləşdirilməsi

Göstəricilər	1995	2000	2004	2005	2006
Cəmi	872	1617	1954	2463	3063
O cümlədən sənaye	-	43	34	57	48
Kənd təsərrüfatı	-	7	1	-	-
Nəqliyyat	872	695	725	708	1186
Ticarət	-	162	166	231	167
Tikinti	-	31	37	38	42
İctimai iaşə	-	62	46	93	47
Məişət xidməti	-	50	51	128	127
Kommunal təsərrüfatı	-	7	17	38	16
Yanacaq doldurma məntəqələri	-	37	9	20	26
Digər sahələr	-	507	860	1150	1404

Kiçik müəssisələrin özəlləşdirilməsi aşağıdakı qaydada həyata keçirilir:

- Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada kiçik müəssisənin nizamnamə kapitalı (obyektin start qiyməti) müəyyən olunur;
- kiçik müəssisənin nizamnamə kapitalının (obyektin start qiymətinin) 15%-i II Dövlət Proqramının 4.2-ci bölməsində nəzərdə tutulmuş qaydada əmək kollektivi üzvlərinə və onlara bərabər tutulan şəxslərə güzəştli satışa yönəldilir;
- kiçik müəssisənin nizamnamə kapitalının (obyektin start qiymətinin) 85%-i II Dövlət proqramının 4.4.-cü bölməsində nəzərdə tutulmuş satış üsuluna uyğun olaraq satılır.

Kiçik müəssisələrin özəlləşdirilməsi zamanı müəssisənin əmək kollektivi onların hüquqlarını həyata keçirilən vəkil edilmiş şəxs (hüquqi və ya fiziki şəxs) müəyyən etməlidir.

Dövlət əmlakının özəlləşdirilməsi üsulları II Dövlət Proqramına uyğun olaraq dövlət əmlakının özəlləşdirilməsi barədə qərar qəbul edən Azərbaycan Respublikasının Prezidenti və Dövlət Əmlakı Komitəsi tərəfindən müəyyən edilir.

Dövlət müəssisələri özəlləşdirilərkən həmin müəssisələrdə çalışan işçilərin hüquqları və onların sosial müdafiəsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təmin edilir.

Özəlləşdirilən dövlət müəssisələrinin işçilərinin həmin müəssisənin əmlakının və ya səhmlərinin 15%-ni güzəştli şərtlə almaq hüququ vardır.

Güzəştlərin verilməsi və müəssisə işçilərinin özəlləşdirmədə iştirakı II Dövlət Proqramında nəzərdə tutulmuş qaydalara uyğun tənzimlənir.

Dövlət müəssisələrində fərdi layihələr üzrə özəlləşdirilməsi.

Ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edən dövlət müəssisə və obyektləri fərdi layihələr üzrə özəlləşdirilir və bu zaman həmin müəssisəyə strateji investor cəlb etmək məqsədi ilə satışa onun səhmlərinin 515-i və ya daha çox hissəsi çıxarılır.

Fərdi layihələr üzrə dövlət müəssisələrinin özəlləşdirilməsi qaydaları, həmin müəssisələrin siyahısı və səhmlərinin satışı nisbəti Azərbaycan Respublikasının prezidenti tərəfindən müəyyən edilir.

Böyük əhəmiyyətə malik olan dövlət müəssisələrinin bu layihələrə görə özəlləşdirilməsi zamanı satılan müəssisələrin bir çoxunda məqsəd iqtisadiyyatda yeni strateji əhəmiyyət kəsb edən sahələri cəlb edilməklə, həmin müəssisələrin gələcəkdə inkişafına nail olmaqdan ibarətdir.

Əhalinin özəlləşdirmə prosesində iştirakı üçün onlara dövlət mülkiyyətinin çeklərlə özəlləşdirməli olan hissəsi bərabər paylanmışdır. Əhalinin özəlləşdirmə prosesində iştirakı hərraclar vasitəsilə, çeklərin investisiya fondlarının səhmlərinə və müəssisə səhmlərinə bir başa dəyişməsi yolu ilə həyata keçrilir. Həmin qanunun 19 və 20-ci maddəsində deyilir: «dövlət əmlakının ixtisaslaşdırılmış çek və pul hərraclaında satışı özələşdirmə prosesində yaradılmış səhmdar cəmiyyətlərin səhmlərinin və ya səhm zərflərinin sifarişləri əsasında alıcılara satışıdır.

Dövlət əmlakının hərraclar vasitəsilə satışı həmin əmlakın hər hansı bir şərt qoyulmadan alıcıya satışıdır. Bu zaman əmlak üzərində mülkiyyət hüququ hərracın gedişində maksimum qiymət təklif etmiş alıcıya verilir.

Dövlət əmlakının özəlləşdirilməsində ən geniş tətbiq olunan forması dövlət müəssisələrinin səhmdar cəmiyyətə çevrilərək sonradan özəlləşdirilməsidir. Bu zaman artıq səhmdar cəmiyyətə çevrilmiş müəssisə səhmlərinin satışı və yuxarıda göstərilən üsullar vasitəsilə özəlləşdirilir.

Dövlət əmlakının investisiya müsabiqəsi vasitəsilə satışı zamanı dövlət əmlakı barədə investisiya proqramının yerinə yetirilməsi və investisiya proqramına dair sosial, iqtisadi və ekoloji şərtlərin gözlənilməsi tələb edilir.

İcarəyə verilmiş dövlət əmlakının satın alınması da həyata keçirilə bilər və bu zaman əsas kimi Dövlət Proqrammı, digər müvafiq normativ sənədlərdən istifadə edilərək həyata keçirilir.

Əmlakın özəlləşdirilməsinin həyata keçirilməsinin daha bir mexanizmi dövlət müəssisələrinin müflis elan olunması yolu ilə satışıdır ki, bu da müəssisənin 5 dəfə hərrac vasitəsilə satışı baş tutmadıqda və onun maliyyə – təsərrüfat göstəriciləri mənfi olduqda müəssisə müflis elan olunur və müəssisənin əmlakının hərrac vasitəsilə satışına başlanılır.

Dövlət əmlakının özəlləşdirilməsində xarici investorları cəlb etmək və iştiraklarının qanuni olmasını təmin etmək üçün opsionundan istifadə olunur. Bir opsion bir çekə bərabər götürülür. Həmçinin xarici investorlar respublika ərazisində əldə etdikləri mənfəət hesabına da özəlləşdirmədə iştirak edə bilərlər. Bu da Respublika ərazisində əldə edilən mənfəətin gələcəkdə ölkədən çıxarılmasına deyil, ölkə iqtisadiyyatına tətbiq edilməsini nəzərdə tutur.

Ümumiyyətlə, özəlləşdirilməsi nəzərdə tutulan müəssisələr işçilərin sayına görə kiçik, orta və iri müəssisələr üzrə qruplaşdırılır və bunun iki istiqamətdə, yəni kiçik müəssisələrin özəlləşdirilməklə orta və iri müəssisələrin özəlləşdirilməsi formasında paralel olaraq həyata keçirilməsi nəzərdə tutulur.

Dövlət müəssisələri özəlləşdirilərkən onun kollektivinin hüquqlarını və sosial müdafiəsini təmin etmək məqsədilə müəssisənin əmlakının, səhmdar cəmiyyətinə çevrilmişsə səhmlərinin 15 faiz güzəştli şərtlərlə işçilərə satılır. Bundan başqa özəlləşdirmədən əldə edilən vəsaitin 25 faizini sənaye müəssisələrinin özəlləşdirmədən qabaq sağlamlaşdırılmasına yönəltmək, müstəqil maliyyə məsləhətçisi cəlb etmək və özəlləşdirmə ilə bağlı informasiya təminatını təşkil etmək məqsədilə istifadə etmək ixtiyarına malikdir. Özəlləşdirmədən əldə edilən vəsaitlər bir qayda olaraq dövlət büdcəsinə daxil olur.

Cədvəl 2

Özəlləşdirmədən dövlət büdcəsinə daxil olan vəsait (min manat)

Göstəricilər	1995	2000	2004	2005	2006
Dövlət büdcəsinə daxil edilmiş	87,5	7638	31386	20005	33462
Birbaşa əmək kollektivinə satış formasında	87,5	3482	6184,9	3947,0	3546,0
İcarəyə götürülmüş əmlakın satışı forması ilə	-	1604,1	2587,1	3813,4	4468,0
Aksionda satış forması ilə	-	1750,5	-	3099,2	4688,0
Açıq səhmdar cəmiyyətlərinin səhmlərinin satış forması ilə	-	2,1	7177,0	5523,0	15004,0
Torpaq özəlləşdirilməsindən əldə edilən vəsait	-	527,8	2627,0	3168,4	5512,0
Digər formalar ilə	-	272,8	12809,7	454,7	145,1

Özəlləşdirmə prosesinin informasiya – metodiki təminatına gəldikdə isə onu qeyd etmək olar ki, özəlləşdirilən konkret müəssisələr haqqında məlumatlar kütləvi informasiya vasitələrində və xüsusi nəşrlərdə müsabiqənin, hərracın və səhmlərin açıq satışının keçirildiyi gündən 30 gün əvvəl dərc edilir, xarici investorları cəlb etmək məqsədilə «İntenet»də verilir.

Lakin qeyd etmək lazımdır ki, özəlləşdirmə strukturlarının fəaliyyətinin özəlləşdirmə prosesinin başladığı anda səmərəli olmadığından infrastruktur elementinin uzun müddət formalaşmamasından əhalinin özəlləşdirmə prosesində fəal iştirakı təmin edilməmişdir.

Bu da son nəticədə əhaliyə verilən çeklərin «qara bazarda» satışına və çeklərin qiymətinin əvvəlcədən nəzərdə tutulmuş məbləğdən kəskin aşağı düşməsinə səbəb olmuşdur. Bununla əlaqədar olaraq «Azərbaycan Respublikasında Dövlət Əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı»nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanında deyilir ki:

Tədavülə buraxılmış özəlləşdirmə paylarının (çeklərinin) dövlət əmlakının özəlləşdirilməsi prosesində tam istifadə olunmadığını nəzərə alaraq və əhalinin bu prosesə daha geniş cəlb edilməsi məqsədilə Azərbaycan Respublikasının vətəndaşlarına paylanılmış dövlət özəlləşdirmə paylarının (çeklərinin) müddəti 2002-ci il yanvarın 1-dək uzadılsın: bu prosesin vaxtı yenidən 2010-cu ilədək uzadılmışdır.

Azərbaycan Respublikasının Dövlət Əmlak Komitsəi özəlləşdirmə paylarının (çeklərinin) və dövlət özəlləşdirmə opsionlarının istifadəsi üçün qanunvericilik çərçivəsində lazımi şəraitin yaradılmasını təmin etmişdir.

Məlum olduğu kimi dövlət əmlakının özəlləşdirilmə və dövlətsizləşdirməsinin həyata keçirilməsi üsullarından biri də müqavilələr sistemidir.

Müqavilə – iki və ya daha çox tərəfin mülki hüquq və vəzifələrin yaranmasına, dəyişməsinə və xitam edilməsinə yönəldilmiş ikitərəfli sazişdir. Müqavilənin bir növü olan alqı – satqı

müqaviləsi bir və bir neçə şəxsin razılaşması əsasında bir tərəf (satıcı) əmlakı digər tərəfin (alıcının) mülkiyyətinə və ya əməli surətdə idarəsinə verdiyi, alıcı isə əmlakı qəbul edib əvəzinə müəyyən edilmiş pul məbləği ödəməyi öhdəsinə götürür.

Dövlət əmlakının özəlləşdirilməsi zmanı alqı – satqı müqavilələri geniş tətbiq edilir. Bu vaxt dövlət əmlakının satıcısı kimi Dövlət Əmlak Komitəsi çıxış edir və «Dövlət əmlakının özəlləşdirilməsi haqqında» Qanuna uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:

- müəyən olunmuş qaydada dövlət əmlakının registrini aparır;
- qanuvericilikdə müəyyən edilmiş qaydaya uyğun olaraq dövlət əmlakının özəlləşdirilməsi üzrə komisiya yaradır;
- özəlləşdirməyə açıq elan edilmiş dövlət əmlakının satılan anadək müəyyən edilmiş qaydada idarə edir;
- özəlləşdirmədən qabaq müəssisələrin rektrukturizasiyası və sağlamlaşdırılması ilə bağlı təkliflər hazırlayır və bu sahədə öz səlahiyyətləri çərçivəsində tədbirlər həyata keçirir;
- səhmdar cəmiyyətlərində (və ya müştərək müəssisələrdə) dövlət əmlak payının, həmçinin dövlət əmlakının satışı zamanı alqı – satqı müqaviləsində müəyyən edilmiş öhdəliklərinin uçotunu aparır və s.

Dövlət əmlakının özəlləşdirilməsində alıcı kimi Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxslər və xarici hüquqi şəxslər çıxış edə bilərlər. Lakin qanunda dövlət əmlakının alıcısı kimi çıxış edə bilməyənlərin də siyahısı verilir və onlara səhmlərin və ya nizamnamə fondundakı payın 20 faizdən çoxu dövlət mülkiyyətində olan hüquqi şəxslərə, icra hakimiyyətinə və bələdiyyə orqanlarına aid edilir.

Dövlət əmlakının özəlləşdirilməsi zamanı, ixtisaslaşdırılmış hərraclar istisna olunmaqla, dövlət əmlakının satıcı və alıcı arasında Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (39 – 43-cü maddələr və 21-ci fəsil), «Dövlət Əmlakının özəlləşdiril-

məsi haqqında» Qanuna və Dövlət Proqramına müvafiq olaraq alqı – satqı müqaviləsi bağlanır. (Maddə 29.1)

Bu zaman dövlət əmlakının alqı – satqı müqaviləsinin tələblərinə aşağıdakılar aiddir:

- özəlləşdirilən dövlət əmlakının satıcısı və alıcısı barədə məlumat;
- özəlləşdirmə obyektinin adı, yerləşdiyi yer, torpaq sahəsi, tərkibi və dəyəri;
- özəlləşdirmə obyektinin dəyərinin ödənilməsi forması və onun alıcının mülkiyyətinə verilməsi qaydaları;
- səhmdar cəmiyyətin səhmlərinin sayı, onların növü və nominal dəyəri;
- tərəflərin öhdəlikləri və onların icra müddəti;
- tərəflərin razılığı ilə digər şərtlər.

Qeyd etmək lazımdır ki, alqı – satqı müqaviləsində müəyyən edilmiş öhdəliklərin yerinə yetirilməsi üzərində nəzarəti dövlət əmlakının satıcısı, yəni Dövlət Əmlakı Komitəsi həyata keçirir və o, alıcının mülkiyyət hüququnu şəhadətnamə ilə rəsmiləşdirir. Müqavilə tərəfdarı öhdəliklərinə düşən bütün vəzifələri vaxtında və lazımi keyfiyyətdə yerinə yetirməyə borcludurlar.

Dövlət əmlakının özəlləşdirilməsində tətbiq olunan müqavilələrdən biri də icarə müqaviləsidir və icarəyə verilmiş dövlət əmlakının satışı tərəflər arasında bağlanmış icarə müqavilələrinin şərtlərindən, yəni icarə müddətindən, satınalma hüququndan və digərlərindən asılı olaraq müxtəlif üsullarla həyata keçirilə bilər.

Bu zaman «Dövlət əmlakının özəlləşdirilməsi haqqında» Qanuna uyğun olaraq orta və iri müəssisə özəlləşdirilirsə onun səhmlərinin 15 faizi əmək kollektivinə güzəştlə, 30 faizi nominal dəyəri ilə icarəçiyə, 55 faizi ixtisaslaşdırılmış çek hərracında satışa yönəldilir. Kiçik müəssisələr özəlləşdirildikdə onun səhmlərinin 15 faizi əmək kollektivinə güzəştlə və 85 faizi icarəçiyə və yaxud ixtisaslaşdırılmış çek hərracında satışa yönəldilir.

Əgər icraçı icarəyə götürdüyü əmlakı almaq istəyirsə onunla alqı – satqı müqaviləsi bağlanır.

Özəlləşdiriləcək əmlakın qiymətləndirilməsi 25 iyun 1993-cü il tarixli «Qiymətləndirmə fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanuna və Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 25 mart tarixli 451 saylı fərmanına uyğun olaraq həyata keçirilir. Bununla belə özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi haqqında yeni əsasnaməni Azərbaycan Respublika prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli fərmanı ilə təsdiq edilmişdir.

Alıcı özəlləşdiriləcək dövlət əmlakının haqqını bir dəfəyə və yaxud 2 ildən gec olmamaq şərti ilə alqı – satqı müqaviləsində müəyyyən edilən vaxt ərzində ödəyə bilər.

Alıcı özəlləşdirilən dövlət əmlakının dəyərini göstərilən müddətdə ödəmədikdə, alqı – satqı müqaviləsinə xitam verilməsi məsələsi qaldırıla bilər. Ümumiyyətlə, dövlət əmlakının özəlləşdirilməsi ilə əlaqədar yaranan mübahisələr qanunvericiliklə müəyyən olunmuş qaydada məhkəmə vasitəsilə həll edilir. Bu zaman dövlət əmlakının özəlləşdirilməsi ilə əlaqədar bağlanmış müqavilələrin etibarsız sayılmasında əsas şərtlərdən biri Qanunun və digər normativ – hüquqi aktların pozulmasıdır. Qanunun pozulmasına görə hüquqi və fiziki şəxslər, vəzifəli şəxslər qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada məsuliyyət daşıyırlar.

Beləliklə, dövlət əmlakının özəlləşdirilməsi və dövlətsizləşdirilməsi Azərbaycan Respublikasının I və II Dövlət Proqramları əsasında və Dövlət əmlakının özəlləşdirilməsi haqqında qanunla həyata keçirilir.

MÖVZU 4. İNHİSARÇILIQ FƏALİYYƏTİNİN MƏHDUDLAŞDIRILMASI VƏ RƏQABƏTİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

Plan:

1. İnhisarçılıq fəaliyyətinin təzahür formaları.
2. Antiinhisar tənzimlənməsinin hüquqi vasitələri.
3. Haqsız rəqabət və onun formaları. Haqsız rəqabətin aradan qaldırılması vasitələri.
4. Təbii inhisar anlayışı. Təbii inhisarların fəaliyyət sferası, təbii inhisarların dövlət tənzimlənməsinin hüquqi əsasları.

İnhisarçılıq müasir iqtisadiyyatda dövlətin mühüm tənzimləmə obyektlərindən biridir. Dövlət müntəzəm olaraq bazarlarda fəaliyyət göstərən və kifayət qüvvəyə malik olan təsərrüfat subyektlərinin inhisarçılıq meyllərinin qarşısını almaqla, burada rəqabət mühitinin qorunub saxlanılması məqsədini güdür. Rəqabətin inkişafı, qorunması və dəstəklənməsi keçid iqtisadiyyatında, inkişaf etməkdə olan və inkişaf etmiş ölkələrdə müxtəlif səviyyələrdə həyata keçirilir. 100-dən artıq ölkə rəqabətin qorunması ilə bağlı xüsusi qanunlar qəbul etmiş və bir sıra ölkə də həmin qanunları qəbul etmək ərəfəsindədir.

Rəqabət iqtisadi inkişafın zəruri amili olaraq istehsalçıları istehsal miqyasını artırmaqla, məsrəflərə qənaət etməyə, elmitexniki tərəqqinin nəticələrinin istehsal tətbiq olunmasına, istehsalın təşkilinin müasir formalarının tətbiqinə, yüksək ixtisaslı işçi qüvvəsinin cəlb olunmasına sövq edir. Bütün bunlar istehsalın təmərgüzləşdirilməsi və mərəkəzləşdirilməsi əsasında son nəticədə inhisarların yaranmasına gətirib çıxarır. Başqa sözlə, rəqabət daima əksi olan inhisarçılığı yaradır və ziddiyyət burasındadır ki, inhisarlar iqtisadi cəhətdən səmərəli istehsal şəraitində yaranırlar.

İnhisarlar qiymətə diqtə etməklə, bazar mexanizmini deformasiyaya üğradır, bazarın özünütənzimləmə imkanlarını

məhdudlaşdırır. İnhisarçılıq hökm sürən iqtisadiyyatda qiymət çevikliyini itirir, tələblə təklif arasındakı nisbətin dəyişməsinə reaksiyası zəifləyir, aşağı elastikliyi ilə xarakterizə edilir. İnhisarçılıq, tələb tərəfindən istehsala yönəldilən impulsları zəiflədərək investisiya axınlarının düzgün istiqamətləndirilməsinə imkan yaratmır. Bütün bunlar istehlakçılara yüksək qiymət və tələbatların tam ödənilməməsi formasında təsir göstərir.

Rəqabət mühitin zəiflədilməsi şəraitində inhisarçılıq elmitexniki tərəqqinin inkişafını ləngidir. Belə ki, inhisarçı yüksək mənfəəti müasir texnologiyalar tətbiq etməkdən, məsrəfləri azaltmadan, istehsal həcmini artırmadan da əldə edə bilər. Bunun üçün təklifi məhdudlaşdıraraq qiymətlərin artımına nail olmaq kifayətdir.

Bazarda inhisarçıların hökmranlığı məhsulun keyfiyyətinə də mənfi təsir göstərir. Bazarda hökmran mövqe tutan inhisar istehsal olunan məhsulun keyfiyyəti hesabına əlavə mənfəətin əldə olunmasını qiymətlərin artırılması və təklifin azaldalması ilə yanaşı istifadə etmək imkanına malikdir.

Bütün bunlar inhisarçılığı iqtisadiyyatın dövlət tənzimlənməsinin mühüm obyektlərindən biri kimi müəyyən edir. Dünya təcrübəsinə müraciət etsək görərik ki, inhisarçılıq fəaliyyəti müvafiq qanunvericiliyin qəbul edilməsi ilə tarixən ilk tənzimləmə obyekti olmuşdur.

Xarici dövlətin antiinhisar fəaliyyətinə nəzər yetirsək görərik ki, antiinhisar siyasəti ölkələr üzrə fərqlənir. Bu fərqləri dövlətin iqtisadi şəraiti və dövlət orqanlarının rəqabətə qarşı olan mövqeyi müəyyən edir.

İqtisadiyyatda o müəssisələr inhisarçı hesab olunur ki, hər hansı ərazidə müəyyən məhsulun tək istehsalçısı olur və bu ərazidə həmin məhsulu əvəz edə bilən digər məhsüllar istehsal edilmir. Bununla da istehsalçı alıcılara istədiyi şərti diktə edə bilir. Ona görə də dövlətin antiinhisar fəaliyyəti dövlətin iqtisadiyyata müdaxiləsinin əsas sahələrindən biridir.

Dövlətin antiinhisar fəaliyyəti iki istiqamətdə aparılır. Bir sıra çox az olan bazarlarda (hansı ki, təbii inhisarlardır) dövlət

tərəfindən onların iqtisadi davranış və fəaliyyətinə nəzarət edən ictimai tənzimləyici orqanlar yaradılır. Digər, çoxluq təşkil edən bazarlarda və inhisarçılıq zəruri hesab edilməyənlərdə isə bu ictimai nəzarət antiinhisar qanunvericiliyinə çevrilir.

Antiinhisar siyasəti inhisarların gücünün məhdudlaşdırılmasının əsas vasitəsidir. Antiinhisar siyasəti özündə inhisarçılıq fəaliyyətini məhdudlaşdıran qanunlar sistemini əks etdirir. Bu sistemi başqa cür həm də antitrest və ya antiinhisar qanunvericiliyi də adlandırırlar.

İnhisar fəaliyyətini nizama salan ilk qanunlar ABŞ- da qəbul edilmişdir. Bu əsasən onunla əlaqədar idi ki, təqribən XIX əsrin son rübü üçün ABŞ iqtisadiyyatı, demək olar ki, tamamilə iri inhisarların nəzarəti altına keçmişdir. Birinci qanunun 1890- cı ildə qəbul edilmişdi və Şermen qanununu tamamlamaq məqsədi ilə Kleyton qanunu qəbul edildi. Sonrakı illərdə də – 1936- cı ildə Robinson-Petmen, 1938- ci ildə Uiler-Li, 1950- ci ildə Seller-Kefover və s. bu problemə dair qanunlar qəbul edilmişdi. Tam ciddiyyəti ilə demək olar ki, bu qanunlar bütün dünya ölkələri üçün antiinhisar siyasətinin qurulması zamanı örnək rolunu oynamışdır.

Şermanın antiinhisar qanununun xüsusiyyətləri bunlardır.

1. Bir neçə ştat arasında, habelə xarici dövlətlərlə ticarətin məhdudlaşdırılmasına gətirib çıxaran istənilən saziş, trest formasında, habelə digər hüquqi şəxs şəklində ittifaqlar qeyri-qanuni elan edilir.

2.Bir neçə ştat arasında, habelə xarici dövlətlərlə ticarətin istənilən hissəsini inhisarlaşdıran və ya inhisarsızlaşdırmağa çalışan, habelə digər insan və ya insanlarla inhisarlaşdırmaq məqsədi ilə gizli yaxud açıq sazişlərə girən hər bir şəxs cinayət törətməkdə ittiham olunacaq.

Kleytonun antiinhisar qanunun xüsusiyyətləri isə belədir:

- İstehsal xərcləri ilə əsaslandırılmamış qiymət dikriminasiyası qeyri-qanuni hesab edilir.

- Rəqib korporasiyaların səhmlərinin rəqabətin zəifləməsinə səbəb ola biləcək alışı qadağan edilir.

- Hər hansı korporasiyanın rəhbərinin rəqib korporasiyasının idarə heyətinə daxil olması qadağan edilir.

Şerman qanunundan fərqləndirən bir cəhət də ondan ibarət idi ki, Şerman qanunu əsasən artıq mövcud olan inhisarlara, Kleyton qanunu isə inhisarların yaranma mənbələrinə qarşı yönəlmişdi. 1950- ci ildə qəbul edilmiş Seller-Kefover qanunu Kleyton qanununun yeddinci paraqrafında göstərilmiş müddəaya düzəliş edərək təkcə səhmlərin alışının yox, həm də maddi aktivlərin alışının nəzərə alınmasını təsbit etdi. Eyni zamanda bu qanun şaquli sazişlərin bağlanmasında da məhdudiyyətlər qoyurdu.

Antiinhisar siyasətinin qanunvericilik bazasının kifayət qədər anlaşıqlı olmasına baxmayaraq, onun praktikaya tətbiqi göründüyü kimi asan həyata keçirilə bilmir. Ona görə də bir çox ölkələrdə antiinhisar qanunvericiliyi iqtisadi nəzəriyyə ilə məhkəmə praktikasının qarşılıqlı təsiri fondunda uzun təkamül yolu keçmişdir.

İnkişaf etmiş ölkələrdə antiinhisar qanunvericiliyi əsasən İkinci Dünya müharibəsindən sonra yaradılmışdır. Bəzi ölkələr qiymətlərin müəyyən olunması haqqında sövdələşmələri qeyri-qanuni elan etməklərinə baxmayaraq burada bir sıra istisnalara da yol verilirdi. Məsələn, Avstriya, Belçika, Danimarka, İsveç, Norveç və İsveçrə kimi ölkələrdə müvafiq dövlət orqanlarında qeydiyyatdan keçmiş kartel sazişlərinin həyata keçirilməsinə imkan verilir.

Avropa ölkələri arasında Britaniya qanunvericiliyi xüsusi sərtliyi və geniş əhatəliyi ilə fərqlənir. XX əsrin 50-ci illərində Britaniya Parlamenti «Məhdudlaşdırıcı ticarət praktikası» haqqında qanunu qəbul etmişdir. Bu qanuna uyğun olaraq rəqabət aparan şirkətlər arasında bağlanan hər hansı bir saziş müvafiq dövlət təşkilatında qeydiyyatdan keçməlidir. Qanuna görə ictimai maraqlara zidd ola bilən hər hansı bir saziş sual altında qoyula bilər. Qanuna əsasən xüsusi məhkəmə orqanı yaradılmışdır ki, antiinhisar qanunvericiliyi pozuntusunda ittiham olu-

nan şirkətlər bağladıqları sazişlərin müsbət nəticələrinin mənfi nəticələri üstələdiklərini məhkəmədə sübuta yetirməlidirlər.

Almaniyada 1957-ci ildə qəbul edilmiş əsas antiinhisar qanunu qiymətlərin müəyyən edilməsi haqqında sazişləri qeyri-qanuni elan etməklə bir sıra istisnalara yol verirdi. Məsələn, staqnasiyaya uğramış sahələrin adaptasiya prossesini təmin etmək, müştərək elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin aparılması yolu ilə məsrəflərin azaldılması, ixrac və idxala yardım və s. məqsədlərlə qiymətlərin müəyyən səviyyədə saxlanılmasına yol verilirdi.

Ümumiyyətlə, antitrest qanunvericiliyin həyata keçirilməsi problemə iki yanaşma əsasında mümkündür. Birinci – mümkün nəticələrdən asılı olmayaraq rəqabət aparan şirkətlər arasında qiymətlərin müəyyən olunması, satış həcminin məhdudlaşdırılması, bazarların bölüşdürülməsi üzrə sazişlərin qeyri-qanuni hesab olunmaksı. Bu yanaşmaya əsasən inhisarçılıq meylləri onların antiictimai xarakterinin sübut olunmasının mümkünlüyündən asılı olmayaraq qeyri-qanuni hesab olunur. İkinci – şirkətlərin fəaliyyəti ictimai mənafelərə zidd olduğu müəyyən olduqda bu fəaliyyət qeyri-qanuni hesab edilir.

Qərbi Avropa ölkələri ikinci yanaşmaya üstülük verdikdə ABŞ uzun müddət ərzində antiinhisar praktikasında birinci yanaşmadan istifadə edirdi. Bu fərqli mövqelər şirkətlərin fəaliyyətlərinin tənzimlənməsinə ABŞ və Qərbi Avropa ölkələrində mövcud fərqləri müəyyən edir. Belə ki, ABŞ-da mürəkkəb bazar münasibətlərinin tənzimlənməsini həddindən artıq məmurların sərəncamına verilməsindən çəkinərək üstünlüyü birinci yanaşmaya (yəni perse qaydasına) verirlər. Qərbi Avropada isə mərkəzi tənzimləyici qurumların imkanlarına inam daha yüksək olduğundan, burada bazar şəraitinin antitrest orqanları tərfindən aparılan təhlil üzərində qurulmuş ikinci yanaşmaya (məqsədəuyğunluq qaydasına) üstünlük verilir. Lakin 70-ci illərdən başlayaraq ABŞ və Qərbi Avropa ölkələrinin mövqelərində yaxınlaşma müşahidə olunur və amerikalılar məqsədəuyğunluq qaydasından daha geniş istifadə edirlər.

Antitrest qanunvericiliyi şirkətin bazarda davranışını və ya bazar strukturunu nəzərə alınmasının (struktur yanaşma) qəbul edilməsi seçiminin qarşısında durur.

Bixeviorist yanaşma şirkətin fəaliyyətini, qiymətlərin dinamikası üzərində uzunmüddətli müşahidə və nəzarəti nəzərdə tutmaqla, ciddi problemlərlə üzləşir. Belə ki, praktikada qiymət sövdələşmələri və istehsalın süni şəkildə məhdudlaşdırılmasını sübuta yetirmək çox vaxt mürəkkəb bir problemə çevrilir.

Struktur yanaşma antitrest qanunvericiliyinin rəqabətin inkişafına əlverişli şərait yaradan bazar strukturunun formalaşmasını nəzərdə tutur. Bu zaman ortaya çıxan məsələlərdən biri şirkətin bazar üzərində nəzarəti təmin edən onun əmtəə bazarında payının müəyyən edilməsidir. Məsələn, ABŞ-ın antitrest qanunvericiliyi bu həddi 60 % səviyyəsində müəyyən edir.

Amerika iqtisadçıları K.Keysen və D.Tyurner hesab edirlər ki, inhisarlaşma aşağıdakı hallarda baş verir: a) 5 il və ya bundan artıq müddət ərzində bir şirkətin payına bazarda illik satış həcminin 50% və ya bundan artıq hissəsi düşərsə, b) 4 və ya bundan az şirkətin payına bazarda illik satış həcminin 80% və ya bundan artıq hissəsi düşərsə. Bu zaman problem bazar strukturunun dəyişdirilməsi vasitəsilə həll olunur. ABŞ-da məhkəmə orqanlarına bu istiqamətdə sərt tədbirlər həyata keçirmək hüququ verilir. Buna misal olaraq, müvafiq orqanlar tərəfindən vaxtı ilə «Dyupon» şirkətinin üç şirkətə ayırılmasını, «Standart oyl of Nyu Cersi» şirkətinin bölüşdürülməsini və s. göstərmək olar. Qeyd etmək lazımdır ki, son otuz ildə bu cür tədbirlər məhkəmə orqanları tərəfindən nadir hallarda tətbiq olunur və bunun da əsas səbəbi bu tədbirlərin son nəticədə istehsalın səmərəliliyinə və bazarın ümumi vəziyyətinə mənfi təsir göstərmək ehtimalından ibarətdir.

Struktur rəqabətin yüksək səviyyədə saxlanılmasının başqa bir yolu da təmərküzləşmə prosesinin tənzimlənməsidir. Bu sahədə şirkətlərin birləşdirilməsi və qovuşması prosesinin tənzimlənməsi böyük əhəmiyyət kəsb edir. Məsələn, 1950-ci ildə

qəbul edilmiş Seller-Kefover Qanunu rəqabəti zəiflədə bilən qovuşmaları qadağan edir.

Antitrest qanunvericiliyində kifayət qədər mürəkkəb hesab edilən problemlərdən biri də bazarın hüdudlarının müəyyən edilməsidir. Buraya bazarın coğrafi (lokal, regional, milli) sərhədlərinin müəyyən olunması ilə yanaşı, bazarların əmtəə sərhədlərinin müəyyən olunması da daxildir. Misal kimi 1956-cı il «sellofan işini» göstərmək olar. O zaman «Dyupon» şirkəti sellofanın 100% istehsalçı kimi antitrest orqanları tərəfindən təqib olunurdu. İş məhkəməyə verildikdə ABŞ-ın Ali məhkəməsi ittihamı rədd etdi. Ali məhkəmə qərarını bununla əsaslandırdı ki, şirkət o zaman qablaşdırıcı materialların yeganə istehsalçısı deyildir. Bunula məhkəmə bazarın əmtəə sərhədlərini daha geniş götürərək, yəni buraya qablaşdırıcı material olan sellofonla yanaşı başqa qablaşdırıcı materialların istehsalını əlavə etməklə, «Dyupon» şirkətini inhisarçı kimi tanımadı. Eyni zamanda Ali məhkəmə tənəkə bankaları istehsal edən «Kontinental Ken» və butulka istehsal edən «Heyzel atlas qlass» şirkətlərinin qovuşmasına qadağa qoymuşdur. Şirkətlərin müvafiq olaraq 22% və 3% əmtəə bazarda payını həddindən artıq yüksək hesab edərək məhkəmə bu qərarı qəbul etmişdir.

Qeyd olunanlardan göründüyü kimi, antiinhisar qanunvericiliyin tətbiqi əmtəə bazarlarının müxtəlif kəmiyyət və keyfiyyət parametrlərinin – bazarların əmtəə və coğrafi sərhədlərinin, bazarın həcmi və təsərrüfat subyektlərinin bazardakı xüsusi çəkisinin, onların hesablanması üçün informasiya bazasının və sair parametrlərin müəyyən oluması ilə üzvi şəkildə əlaqəlidir.

Rəqabət mühitinin qiymətləndirilməsi və antiinhisar tənzimlənməsinin həyata keçirilməsi üçün əmtəə bazarlarının strukturunu xarakterizə edən bir sıra kəmiyyət göstəricilərindən istifadə oluna bilər. Bunlardan bir neçəsini qeyd edək: əmtəə bazarında fəaliyyət göstərən istehsalçıların sayı ; bazarın təmərküzləşmə göstəriciləri – bazarda bir qrup ən iri istehsalçıların payına düşən satışların ümumi satış həcminə faiz nisbəti kimi müəyyən olunan bazarın təmərküzləşmə əmsalı (CR) və bazarda

fəaliyyət göstərən bütün istehsalçıların üzərinə düşən faizlə götürülən bazar paylarının kvadratlarının cəmi kimi müəyyən olunan bazarın təmərküzləşmə indeksidir (Herfindal – Hirşman indeksi - HHI). Bazarın təmərküzləşmə əmsalı və Herfindal – Hirşman indeksinin müxtəlif qiymətlərinə görə əmtəə bazarları üç tipə: yüksək, orta, aşağı səviyyədə təmərküzləşən əmtəə bazarlarına ayırılır. Təmərküzləşmə göstəriciləri bazarın inhisarlaşma səviyyəsinin ilkin təhlilinin aparılmasına imkan yaradır.

«Əmtəə bazarının həcminin və sərhədlərinin müəyyən olunması üzrə metodik tövsiyələr» əmtəə bazarlarında antiinhisar qanunvericiliyinin həyata keçirilməsinə metodiki təminat yaratmaq məqsəlilə işlənilmişdir.

Əmtəə bazarlarının bu sənədə uyğun olaraq qəbul edilmiş göstəriciləri təsərrüfat subyektlərinin əmtəə bazarlarındakı xüsusi çəkisinin müəyyən edilməsi üçün istifadə olunur. Təsərrüfat subyektinin əmtəə bazarındakı xüsusi çəkisinə görə onun əmtəə bazarındakı hökmran mövqe tutması faktı təsdiq və təkzib edilir, alıcılara öz şərtlərini diqtə etmək, istehsalçılar arasında rəqabəti məhdudlaşdırmaq imkanları araşdırılır.

Təsərrüfat subyektinin əmtəə bazarındakı mövqeyinin zaman daxilində dəyişə bildiyini nəzərə alaraq, vəziyyətin qiymətləndirilməsini konkret tarixə, təhlil müddətinə həyata keçirilməlidir və zərurət duyulduqda sonradan düzəlişlər edilməlidir.

Statistik məlumatların istehsal-texniki təyinat məhsullar üzrə ildə bir dəfə, xalq istehlakı malları üzrə rübdə bir dəfə təqdim edildiyini nəzərə alaraq, bazarın təhlili müvafiq hesabat dövründə həyata keçirilməlidir.

Əmtəə bazarlarının parametrləri. Əmtəə bazarının müəyyən edilməsi üçün aşağıdakı parametrlərdən istifadə olunur: əmtəə bazarının sərhədləri, bazarın əmtəə ehtiyatlarının həcmi.

Əmtəə bazarlarının parametrlərinin müəyyən edilməsi üçün informasiya bazası aşağıdakı kimi müəyyən olunur. Bazar haqqında ilkin informasiyanın mənbələri kimi aşağıdakılardan istifadə edilir:

• təsərrüfat subyektlərinin fəaliyyətini xarakterizə edən dövlət statistika hesabatları;

• İqtisadi İnkişaf Nazirliyi tərəfindən bilavasitə təsərrüfat subyektlərindən onların fəaliyyəti ilə bağlı alınan informasiyalar;

• əhali arasında keçirilən və alıcıların üstünlük verdikləri əmtəə növləri, əmtəə bazarlarının coğrafi sərhədlərini müəyyənləşdirən meyarlarını, əmtəələrin qarşılıqlı əvəz olunmasının meyarlarını və hədlərini xarakterizə edən rəy sorğularının nəticələri;

• əmtəə qrupları təşkil edildikdə əmtəələrin bir-birini əvəz etmək qabiliyyəti təsdiq və ya təkzib edən mütəxəsis rəyləri;

• əmtəə bazarlarının vəziyyəti, strukturu və həcmləri barədə dövlət və müstəqil informasiya mərkəzlərinin, xidmətlərinin məlumatları.

Əmtəə bazarlarının strukturunu xarakterizə edən keyfiyyət göstəricilərindən bazar maneələrinin mövcudluğu, yəni yeni rəqiblərin bazara daxil olmaq və bazarda fəaliyyət göstərən rəqiblərin buranı tərk etmək cəhdlərinə maneələrin qoyulması, bazarın regionlararası və beynəlxalq ticarət üçün açıq olmasını göstərmək olar.

Bazar strukturunun hansı tipə aid edilməsi və rəqabət mühitinin qiymətləndirilməsi əsasında antiinhisar orqanları müvafiq tədbirlər həyata keçirir.

Antiinhisar tənzimlənməsi praktikasında kifayət qədər mürəkkəb problem olan əmtəə bazarının sərhədlərinin müəyyən olunması böyük əhəmiyyət kəsb edir. Əmtəə bazarının sərhədlərinin müəyyənləşdirilməsinə iki aspektdən: birinci – konkret əmtəə bazarına aid edilən məhsulların, yəni bazarın əmtəə sərhədlərinin, müəyyən olunması; və ikinci- konkret əmtəə bazarı ilə əhatə olunan ərazinin coğrafi hüdudlarının, bazarın coğrafi sərhədlərinin, müəyyən olunması baxımından yanaşmaq olar.

Bazarın əmtəə sərhədlərinin müəyyən edilməsi əmtəələrin, onların əvəzedicilərinin müəyyənləşdirilməsi və əmtəə qruplarının formalaşması təşkil edir. Bazarın əmtəə sərhədlərinin müəy-

yən edilməsinin əsasında alıcıların əmtəə qrupuna daxil olan əmtəələrin eyni istehlak keyfiyyətlərinə malik olmaları haqqında rəyləri durmalıdır. Bu məqsədlə alıcılar arasında rəy sorğusu keçirilir və onun nəticələrinə mütəxəsis rəyi də əlavə olunur. Sorğu alıcılar qrupları arasında keçirilir, iri xırda topdan satış alıcılarının və pərakəndə satış alıcılarının rəyləri öyrənilir. Öyrənilən əmtəənin müəyyən edilməsi – əmtəənin istehlak xassələrini, əmtəənin yenilik dərəcəsini, əmtəənin alıcılar tərəfindən istehlak edilməsi şərtini, əmtəənin satılması şərtlərini, tələbatın təmin edilməsi səviyyəsini xarakterizə edən və məhsulun tərkibi, təyinatı və növündən asılı olaraq dəyişən göstəricilər üzrə həyata keçirilir. Müvafiq əmtəə qrupuna daxil edilən əvəzedici əmtəələrin müəyyən olunması əmtəə məhsullarının qarşılıqlı əvəz edilməsi meyarı üzrə həyata keçirilir. Bu halda əmtəələrin qarşılıqlı əvəz olunmasının iki aspektini nəzərə almaq zəruridir: onların istifadə olunması nöqteyi-nəzərdən istehlak üzrə qarşılıqlı əvəzolunma və onların istehsalı nöqteyi-nəzərdən istehsal üzrə qarşılıqlı əvəzolunması.

Əmtəə bazarının coğrafi sərhədləri istehlakçının nəzərdən keçirilən ərazidə mal almaq imkanını məhdudlaşdıran iqtisadi, texnoloji və inzibati maneələr nəzərə alınmaqla müəyyən edilir. Qeyd edilən qrupdan olan alıcının nəzərdə tutulan malı aldığı və ya almaq imkanı olduğu əmtəə bazarının coğrafi sərhədləri ilə müəyyən edilir. Vahid coğrafi bazarın əlamətləri aşağıdakılardır:

• tələbatın yerləşdirilməsinin mümkünlüyü, yəni alıcının satıcıya doğru hərəkət etməsi üçün nəqliyyatın mövcudluğu; alıcının mal satılan nöqtəyə çatması üçün tələb olunan xərclərin kifayət qədər aşağı olması.

• vahid coğrafi bazara daxil olmaları ehtimal edilən ərazilər arasında əmtəə yerdəyişməsinin mümkünlüyü, yəni əmtəənin satıcıdan alıcıya nəql edilməsi xərclərinin azlığı; əmtəənin nəql edilməsi prosesinin, onun keyfiyyətinin və istehlak xassələrinin qorunması; nəzərdə tutulan ərazidə əmtəələrin gətirilməsinə və çıxarılmasına inzibati məhdudiyyətlərin olmaması

• həmin bazarın sərhədləri daxilində müvafiq malların müqayisəli qiymətlərin səviyyəsi.

Bazarın coğrafi sərhədləri daxilində qeyd edilən alıcı qrupuna satılan əmtəələrin ümumi həcmi, əmtəə bazarının həcminin kəmiyyət göstəricisidir. Əmtəə satışının ümumi həcmi bütün satıcıların bazarda satdıqları əmtəələrin cəmi kimi müəyyən edilir. İstehlakçılara məhsul satışının həcmi barədə birbaşa məlumat olmadıqda, bazarın həcmi aşağıdakı kimi müəyyən edilir:

Hb. = İst. + Gət + Çıx

Hb – bazarın həcmi;

İst – yerli istehsalçılar tərəfindən bazara çıxarılan əmtəənin həcmi;

Gət – kənardan bazarın ərazisinə gətirilən əmtəənin həcmi;

Çıx – daxili bazarın xaricinə çıxarılan əmtəənin həcmidir.

Nəzərdən keçirilən əmtəə bazarında satıcının – təsərrüfat subyektinin xüsusi çəkisi (Di) onun bazarda satdığı məhsulun (Hi) bazarın həcminə (Hb) kimi müəyyən edilir:

Di = Hi/Hb

Təmərküzləşmə əmsalı CR, qeyd olunduğu kimi, bir qrupp ən iri istehsalçıların bazarda xüsusi çəkisi müəyyən olunur. Bu əmsal adətən üç (CR - 3), dörd (CR - 4), altı (CR - 6), səkkiz (CR - 8), on (CR - 10) və iyirmi beş (CR – 25) iri istehsalçı uçun hesablanır.

Xarici praktikada əmtəə bazarlarının inhisarlaşma səviyyəsini daha dəqiq xarakterizə edən Herfindal – Hirşman indeksindən (HHI) geniş istifadə olunur. HHI aşağıdakı kimi hesablanır:

$$HHI = \sum_{i=1}^{n} x_i^2$$

x – i istehsalçının faizlə verilən bazarda xüsusi çəkisi,

n – istehsalçıların bazarda ümumi sayıdır.

HHI nə qədər yüksək olarsa iri istehsalçıların təsir gücü bir o qədər yüksək olar.

Xarici praktikada bazarların təmərküzləşmə dərəcəsinə görə aşağıdakı təsnifat qəbul olunub:

• yüksək dərəcəli (HHI > CR> 3

• orta dərəcəli (1000 < HHI < 1800, 45 < CR <80%),

• aşağı dərəcəli (HHI < 1000, CR < 45%).

Bazarın idxal üçün nə dərəcədə açıq olmasını aşağıda verilən göstərici ilə ifadə etmək olar. Bu göstərici daxili tələbin nə dərəcədə idxal hesabına ödənildiyini əks edir və aşağıdakı kimi hesablanır:

$$İS = \frac{İd}{İh + İd - İx} 100\%$$

İs – idxal səviyyəsi;

İh – məhsulun istehsal həcmi;

İd – məhsulun idxal həcmi;

İx – məhsulun ixrac həcmi.

Azərbaycan Respublikasında antiinhisar qanunvericiliyi Azərbaycan Respublikası Konstitusiyasından, müvafiq Qanunlardan və digər normativ – hüquqi aktlardan ibarətdir. Burada xüsusilə «Antiinhisar fəaliyyətin haqqında», «Haqsız rəqabət haqqında», «Təbii inhisarlar haqqında» Azərbaycan Respublikası Qanunları, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin normativ – hüquqi aktları və təlimatlarını göstərmək olar.

Qeyd etmək lazımdır ki, müasir bazar iqtisadiyyatı şəraitində qanunların xüsusi əhəmiyyəti vardır. Həqiqətən də, nəzarətsiz inhisar, cəmiyyətə böyük ziyanlar vura bilər. Bunlara misal olaraq inhisar müəssisələrin haqsız rəqabət apararaq kiçik istehsalçıların müflisləşməsinin səbəbkarına çevrilməsini, istehsalçıların yüksək qiymətlərə narazılıqlarını, əmtəələrin çox vaxt keyfiyyətinin pislənməsini və s. neqativ nəticələri göstərmək olar. Lakin eyni zamanda antiinhisar qanunları qeyri-qanuni metodlardan istifadə etməyən iri istehsalçıların işinə əngəl olmamalıdır. Əgər bu şərtə əməl edilməzsə, onda müəssisələrin genişləndirilməsi stimulu azalar və məhsul istehsalının artırılması baş verməz.

Azərbaycanda inhisarçılıq fəaliyyətinin qarşısının alınmasının, məhdudlaşdırılmasının və aradan qaldırılmasının təşkilati və hüquqi əsasları 4 mart 1993- cü il tarixli «Antinhisar fəaliyəti haqqında» və «Təbii inhisarlar haqqında» 12 mart 2001-ci il tarixli qanunlarla müəyyən edilir.

Qanun, bütün fiziki və hüquqi şəxslərə şamil edilir. Lakin təsərrüfat subyektlərinin ixtiralara, əmtəə nişanlarına olan hüquqlarından və onların müəlliflik hüquqlarından irəli gələn münasibətlərə, onlar tərəfindən rəqabəti məhdudlaşdırmaq məqsədləri ilə bu hüquqlardan qəsdən istifadə etmələri halalrı istisna olmaqla aid edilmir.

Beləliklə, dövlət rəqabətli sahələrlə inhisarlar arasında arbitr rolunu oynayaraq onlar arasında nisbəti səmərəli tənzimləməlidir.

Qanunsuz hərəktləri həyata keçirən orqanların və ya təsərrüfat subyektlərinin növlərindən asılı olaraq qanunda inhisarçılığın aşağıdakı növləri nəzərdə tutulur:

- dövlət inhisarçılığı;
- sahə inhisarçılığı;
- yerli inhisarçılıq;
- təsərrüfat subyektlərinin inhisarçılığı;
- maliyyə-kredit inhisarçılığı;
- bazar subyektlərinin üfiqi və şaquli sazişləri nəticəsində yaranan inhisarçılıq;
- təbii inhisarçılıq;
- patent-lisenziya inhisarçılığı

Sənayedə, xüsusilə də onun dövlət bölməsində yüksək inhisarlaşma səviyyəsini nəzərə almaqla inhisar fəaliyyətini və ədalətsiz rəqabəti məhdudlaşdırmaq və aradan qaldırmaq, əmtəə bzarlarının səmərəli fəaliyyətini yaratmaq üçün şərait təmin etmək məqsədəuyğun sayılmalıdır. Təsərrüfat subyektləri müəyyən əmtəə bazarında başlıca mövqe tuta bilərlər, daha doğrusu, elə bir müstəsna vəziyyətə malik ola bilərlər ki, bu həmin müəssisəyə rəqabətə həlledici təsir göstərmək, digər müəssisələrin bazara daxil olmasını çətinləşdirmək və ya başqa cür desək,

onların iqtisadi fəaliyyət azadlığını məhdudlaşdırmaq imkanı verər.

Mövcud əsasnaməyə görə müəyyən əmtəə bazarında təsərrüfat subyektinin payı əgər 35% - i ötüb keçmirsə, onda subyektin mövqeyi əsas sayıla bilməz.

Hakim mövqe tutan müəssisələr aşağıdakıları həyata keçirmək yolu ilə digər müəssisələrin mənafelərini məhdudlaşdıra və tapdalaya bilərlər:

- bazarda qıtlığın yaradılması və ya saxlanması məqsədilə dövriyyədən əmtəələrin çıxarılması;
- qiymətlərin yüksəlməsi;
- alıcı üçün sərfəli olmayan və ya müqavilə predmetinə aid edilməyən, müqavilə şərtinin alıcıya (sifarişçiyə) bağlanması. Bu, maliyyə vəsaitlərinin, xüsusilə də xarici valyuta ilə xammala, materiala, məmulata, sifarişçinin işçi qüvvəsinə və s. verilməsinin əsaslandırılmamış tələbləri ola bilər;
- alıcının marağı olmadığı əmtəələrə aid edilən məsələlərin müqaviləyə daxil olunmasına razılıq;
- digər müəssisələr üçün bazara daxil olma (bazardan çıxma) maneələrinin yaradılması;
- normativ aktlarla müəyyən edilmiş qiymət əmələgəlmə qaydasının pozulması.

Hakim mövqe tutan müəssisələr isə öz növbəsində qiymətlərin, güzəştlərin, əlavələrin (ödəmələrin) müəyyən edilməsinə, hərraclarda qiymətlərin yüksəlməsinə, aşağı salınmasına və ya saxlanmasına yönəldilmiş müqavilələr bağlaya bilər və ya razılaşdırılmış fəaliyyət apara bilər. Onlar həm də, ərazi prinsipi üzrə satışın və ya tədarükün həcminə görə, reallaşdırılan əmtəə çeşidlərinə görə bazar bölməsini həyata keçirə bilər. Bundan başqa, həmin müəssisələr satıcı və alıcı dairələri üzrə bazara girişi məhdudlaşdıra və ya müəyyən əmtəələrin alıcı və ya satıcıları kimi bazardan digər müəssisələri çıxara bilər, müəyyən satıcı və ya alıcılarla müqavilə bağlamaqdan imtina edə bilərlər. Bu cür müqavilələr qanunvericiliyə görə qadağan edilmişdir.

İnhisarçı müəssisələrin yuxarıda sadalanan fəaliyyətini aradan qaldırmaq üçün onlar tərəfindən istehsal edilən məhsullar üzrə qiymətlərin tənzimlənməsi tətbiq edilmişdir.

İnhisarçı müəssisələr Azərbaycan Respublikasının əmtəə bazarlarında fəaliyyət göstərən inhisarçı müəssisələrin xüsusi dövlət reyestrinə daxil edilmişdir.

Reyestrə müəyyən keyfiyyətli və çeşidli məhsulların konkret qrup və növlərinin istehsalına görə inhisarçı sayılan müəssisələr daxil edilir.

Reyestrin formalaşması və marağı olan müəssisənin reyestrə daxil olunması və ya ondan çıxarılması haqqında informasiyanın çatdırılması İqtisadi İnkişaf Nazirliyi tərəfindən həyata keçirilir. İstehlakçı müəssisələr də müəyyən hüquqlara malikdirlər. Belə ki, onlar inhisarçı sayılan müəssisələrin reyestrə daxil edilməsi üzrə öz təkliflərini verə bilərlər. Yerli hakimiyyət orqanları yerli bazarlarda bu cür inhisarçıları aşkara çıxarır və onların reyestrə daxil edilməsi üçün antiinhisar siyasəti və sahibkarlığa kömək üçün təkliflər verirlər.

Əgər inhisarçı müəssisə reyestrə daxil edilirsə, onda bu müəssisəyə inhisarçı sayılan məhsulların nomenklaturası üzrə nəzarət olunur. Dövlət reyestrinə daxil edilən müəssisələr aşağıdakı göstəricilər üzrə daimi nəzarətə və tənzimlənməyə cəlb olunurlar: qiymət, rentabellik, natural istifadə də istehsalın həcmi, satış bazarlarında tələbat (tələb), keyfiyyət və s.

İnhisarçı müəssisələrin məhsuluna qiymətlərin dövlət tənzimlənməsinin məqsədi, dövlət qiymət intizamının pozulmasını, əmtəə və xidmət bazarında hakim mövqe və ədalətsiz rəqabət ilə bağlı sui istifadə hallarını xəbərdarlıq etmək, məhdudlaşdırmaq və aradan qaldırmaqdan ibarətdir.

İnhisarçı müəssisələr öz məhsulunu tənzimlənən və azad qiymətlərlə reallaşdırırlar. Əgər istehsal-texniki təyinatlı məhsula, xalq istehlakı mallarına, xidmətlərə dövlət qiymət tənzimlənməsi tətbiq edilərsə, onda inhisarçı müəssisələr bu məhsulu tənzimlənən qiymətlər üzrə reallaşdırarlar. Qalan məhsulara azad (bazar) qiymətlər tətbiq olunur.

Hazırda respublikamızda inhisarçı müəssisələrin məhsuluna qiymətlərin dövlət tənzimlənməsi müxtəlif üsullarla həyata keçirilir:

1. Son həddqiymətini müəyyən etmək olar. Qiymətin son həddsəviyyəsi elə bir maksimal səviyyədir ki, qiymət bundan yuxarıya qaldırıla bilməz. Qiymətin son həddsəviyyəsinin müəyyən edilməsi əslində onların dondurulmasıdır. Belə bir tədbir qıtlıq şəraitində vacib ola bilər, çünki sərbəst qiymətlərin idarə olunmaz artımı son nəticədə istehsalın ixtisar olunmasına gətirib çıxarır.

Qiymətlərin son həddsəviyyəsi hər şeydən əvvəl sosial cəhətdən vacib əmtəə və xidmətlərə qoyula bilər. Məsələn, 1995- ci ilə qədər çörəyə qiymətin məhdudlaşdırılması üçün yerli icra hakimiyyəti orqanları yerli büdcələrin vəsaitlərindən istifadə etmək hesabına daha aşağı son həddqiymətlərinin qoyulması haqqında qərar qəbul etdilər. 1995- ci ilin fevralın 1- dən etibarən çörəyin qiyməti sərbəstləşdirildi və taxıl istehsalçılarına dotasiyalar ləğv olundu.

Son həddqiymətləri ətə, südə, yarmaya, bitki yağına və digər sosial əhəmiyyət kəsb edən əmtəələrə qiymətlərin tənzimlənməsi üçün məsləhət görüldü. Həmin əmtəələrin istehsalına kömək etmək və qiymət artımlarını saxlamaq məqsədilə respublika və yerli büdcələrdən kənd təsərrüfatı istehsalçılarına dotasiya ödəmələri həyata keçirildi.

İnkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələrin çoxu artıq, hər şeydən əvvəl, zəruri tələbat mallarına, xüsusilə də qida məhsullarına yuxarı son həddqiymətlərinin tənzimlənməsi mərhələsini keçmişlər. Bazar əmtəələrlə tam təchiz olunmuşdur. Yetkin rəqabət təkcə istehsalçılar arasında deyil, həm də, əmtəə reallaşdıranlar arasında mövcuddur. Səmərəli antiinhisar qanunvericiliyi fəaliyyət göstərdiyinə görə istehsalçı və tacirlərin inhisarı tamamilə istisnalıq təşkil edir.

2. Təsbit edilmiş qiymətlərin qoyulması istisna edilmir.

3. Qiymətlər artırılarkən qiymətlərin dəyişməsinin son həddəlavələri (əmsalları) müəyyən edilir. Bu cür əlavələr (əmsallar)

qiymətlərin artımını ləngidir. Bu əmsal müvafiq məhsul istehlakçılarına protesionist münasibət göstərdi.

4. Rentabelliyin son həd səviyyəsi və ticarət əlavəsi ölçüsü tətbiq olunur. Son dəfə 1994-1995- ci illərdə inhisarçı müəssisələrin məhsuluna rentabelliyin son həd səviyyəsi hökumətin qərarları ilə təsdiq olunub. Onların ölçüsü 10 %-dən (neft emalı sənayesinin məhsulları, süd və süd məhsulları) 50 %- ə qədər (bütün sənaye sahələrinin dağ mədən müəssisələrinin və meşətədarükat müəssisələrinin məhsulları, balıq və balıq məhsulları, duz, rabitə, təchizat-satış təşkilatlarının və müəssisələrinin xidmətləri) təşkil edir. Metallurgiya, maşınqayırma, kimya, neftkimya, ağac emalı, sellüloz-kağız, yüngül və digər sənaye sahələrinin məhsulları üzrə son həd rentabelliyi 25 % səviyyəsində götürülür.

Faktiki rentabelliyi müəyyən olunmuş son həd səviyyəsini ötən məhsulun qiymətlərinə müəssisələr tərəfindən aşağı salınma istiqamətində yenidən baxılmalıdır. Həmin məhsulun sonrakı reallaşması son həd səviyyəsindən yuxarı olmayan rentabelliklə aşağı salınmış qiymətlər üzrə aparılmalıdır.

Texniki-tərəqqinin stimullaşdırılması, istehsalın həcminin artırılması məqsədilə rentabelliyin son həd səviyyələri inhisarçı müəssisələrin məhsulları üzrə tətbiq olunmaya da bilər. Bu aşağıdakı hallarda mümkündür:

1. Cari ilin əvvəlindən keçən ilin müvafiq dövrü ilə müqayisədə natural ifadədə müqayisəli keyfiyyətdə məhsul istehsalının həcm artımına nail olunubsa;

2. Seriyalı istehsala göndərmə momentindən iki il ərzində yeni yüksək səmərəyə malik məhsul istehsal olunursa;

3. Əgər yeni məhsul xüsusi olaraq həmin məhsul üçün yaradılmşı potentləşdirilmiş istehsalın tətbiqi ilə hazırlanırsa;

4. Məhsulların mövcud qiymət səviyyəsinin, istehlak xassələrinin və keyfiyyətinin saxlanması şərtilə, resurslara qənaət texnologiyasının tətbiqi, məhsulların material tutumunun aşağı salınması hesabına maya dəyərini aşağı salmaq.

İnhisarçı müəssisələrin məhsuluna hökumət tərəfindən müəyyən edilmiş rentabelliyin son həd səviyyəsi ilə yanaşı, əlavə olaraq azad (bazar) qiymətlərinin yüksəldilməsinin deklorasiyası tətbiq olunur.

Bazara keçid şəraitində həm azad, həm də tənzimlənən qiymətlər müəssisələrin özləri tərəfindən müəyyən edilir və təsdiq olunur. Lakin, əgər inhisarçı-müəssisə azad qiymətlərin yüksəldilməsi haqqında qərar qəbul edirsə, onda o, bunu deklorasiya şəklində elan etməyə və yeni qiymət ölçüsünü, habelə onun tətbiq olunmasına keçid tarixini müvafiq qiymətəmələgəlmə orqanlarında qeydiyyatdan keçirməyə bocludur. İnhisarçı müəssisələrin qiymətlərin yüksəlməsini deklarasiya etdiyi əmtəələrin siyahısı müəyyən edilr. Qiymətlərin deklarasiyası üzrə materiallar respublikanın müvafiq qiymətqoyma orqanına təqdim olunur. Sərbəst qiymətlərin və tariflərin səviyyələrinin deklarasiya olunması hal-hazırda nəzərdə tutulan nomenklatura üzrə həyata keçirilir. Sərbəst qiymətin aşağı salınması müəssisə tərəfindən müstəqil olaraq, qiymətəmələgəlmə orqanına deklarasiya təqdim etmədən aparılır. Bu zaman rəqabətin məhdudlaşdırılması, daha doğrusu, dempinq qiymətlərin müəyyən edilməsi məqsədilə sərbəst qiymətlərin aşağı salınmasına yol verilmir.

Yüngül sənayenin məmulatları üzrə sərbəst qiymətlərin yüksəldilməsinin deklarasiyası yalnız məmulatın parametrlərinin, keyfiyyətinin və xarici görkəminin saxlandığı hallarda aparılır.

Model xüsusiyyətləri ilə, parametrlərlə, xammalın, materialların və s. digər növlərinin (keyfiyyətə və qiymətə görə) tətbiqi ilə əlaqədar sərbəst qiymətlərin yüksəldilməsi deklarasiya olunmur.

Azad, bazar qiymətlərini deklarasiya edərkən əməl olunması mütləq sayılan aşağıdakı qaydaları nəzərdən keçirək.

İnhisarçı müəssisələr sərbəst qiymətlərin yüksəldilməsinin deklarasiyasını yalnız yeni yüksəldilmiş qiymətləri istehlakçı ilə razılaşdırdıqdan sonra həyata keçirə bilər. Eyni bir məhsul bir neçə istehlakçıya (sifarişçiyə) göndərilə bilər. Odur ki, buraxılan məhsulun 50%- dən az olmayan hissəsi reallaşdırılan əsas istehlakçı üzrə qiymətin yüksəlməsi və yaxud da bir neçə istehlakçı

üzrə həmin məhsulun 50%- dən az olmayan hissəsi reallaşdırılan keçən ay ərzində orta çəki qiyməti deklarasiya olunur.

İstehsalçı müəssisələr sərbəst qiymətlərin nəzərdə tutulan yüksəldilməsi haqqında öz istehlakçılarına yeni qiymətlərin qüvvəyə minməməsindən bir ay əvvəl xəbər verməlidir.

Qiymətlərin deklarasiyası zamanı inhisarçı müəssisələr müvafiq qiymətəmələgəlmə orqanlarına təsdiq olunmuş formada sərbəst topdansatış (buraxılış) qiymətlərin yüksəldilməsi deklarasiyasını aşağıdakı məlumatları təqdim edir:

- dəyişdirilməsinin səbəbləri göstərilməklə nəzərdə tutulan qiymətlərin səviyyəsi;
- materiala və əmək məsrəfləri xırdalanmaqla məhsulların (malların, xidmətlərin) maya dəyərinin kalkulyasiyası;
- həmin məhsulun satışından alınacaq mənfəətin həcmi və əldə olunacaq rentabelliyiyn səviyyəsi;
- nəzərdə tutulan istehsalın həcmi;
- hesabat dövründə istehsalın faktiki həcmi.

Təqdim olunan məmulatalrı qiymət orqanı təlil edir və qərar qəbul edərkən onu əsas götürür ki, real məsrəflərin dəyişməsi nəzərə alınsın və istehsalın həcminin əsassız olaraq aşağı düşdüyü halda deklarasiya olunan qiymət artırılmasın.

Düzgün olmayan məlumat verən, deklarasiya olunmamış qiymətlər tətbiq etmiş müəssisələrə qarşı deklarasiya qaydası ilə iqtisadi və inzibati cəza tədbirləri nəzərdə tutulur. Deklarasiya üzrə qoyulmuş qaydanı müəssisələr bir neçə dəfə pozarlarsa, onlar müvəqqəti olaraq qiymətqoyma hüququndan mərhum oluna bilər və bu halda qiymətqoyma hüququ dövlət idarəetmə orqanlarına keçir.

Qeydiyyatdan keçmiş qiymət maksimumu son həddi qiyməti sayılır. Yeni qiymətin qeydiyyatdan keçmə müddəti bir ay təşkil edir. Qiymətqoyan orqanlar qiymətlərin deklarasiyasını xüsusi formada reyestrə qeyd edirlər. Deklarasiya olunmuş qiymətin son həddinin tətbiq olunma tarixi onun müvafiq qiymətəmələgəlmə orqanı tərəfindən qeydiyyatı tarixi hesab olunur.

Qeydiyyatdan keçmiş deklarasiyanın surəti və yaxud qeydiyyatdan imtina haqqında qərar istehsalçı-müəssisəyə göndərilir. İstehsalçı müəssisə qiymətqoyma orqanlarından sənədləri aldıqdan sonra bir həftə ərzində onun tərəfindən qəbul edilmiş qərar haqqında məhsulun istehlakçılarına xəbər verir. Qiymətqoyan orqan tərəfindən qeydiyyatdan keçirilmiş qiymətlərin reyestrinin surəti və yaxud qiymətlərin qeydiyyatdan imtina haqqında qərar həm də İqtisadi İnkişaf Nazirliyinə göndərilir.

Qiymətlərin dəyişməsinin deklarasiyası haqqında materiallara qiymətqoyan orqanlar tərəfindən baxılması müddəti məhsul istehsalında fasilə sayılmamalıdır. Həmin müddət ərzində inhisarçı müəssisə istehlakçılarla razılaşdırılmış qiymətlər üzrə məhsulun buraxılışını və realizasiyasını davam etdirir. Əgər qiymətqoyma orqanı tərəfindən təqdim olunmuş layihədən aşağı səviyyədə qiymətlərin qeydiyyatı haqqında qərar qəbul olunarsa, onda yeni qiymətlərin səviyyəsinə uyğun şəkildə istehlakçı ilə yenidən hesablaşma həyata keçirilir.

Təsərrüfat subyektlərinin hökmran mövqelərindən su-i istifadə və ya rəqabəti məhdudlaşdıran hərəkətlərinin qarşısını almaq məqsədilə Dövlət aşağıdakılar üzərində nəzarəti həyata keçirir:

Yeni idarəetmə orqanlarının yaradılması, birləşdirilməsi, yenidən qurulması nəticəsində onların fəaliyyəti rəqabətin məhdudlaşdırılmasına səbəb olarsa və ya ola bilməsə;

Təsərrüfat subyektlərinin yaradılması, qovuşması, yenidən qurulması, ləğv edilməsi, bazarda hökmran mövqe tutan yeni təsərrüfat subyektinin meydana gəlməsinə gətirib çıxararsa;

İdarəetmə orqanlarının və təsərrüfat subyektlərinin kommersiya fəaliyyətinin birləşdirilməsi haqqında sazişlər rəqabətin məhdudlaşdırılmasına gətirib çıxararsa və ya çıxara bilməsə;

İcra hakimiyyəti, idarəetmə orqanlarının və təsərrüfat subyektlərinin birgə fəaliyyət göstərmək haqqında sazişləri rəqabətin təsərrüfat subyektlərinin müstəqilliyinin məhdudlaşdırılmasına və istehlakçıların mənafelərinin pozulmasına səbəb olarsa və ya ola bilməsə.

- Təsərrüfat subyektlərinin birləşdirilməsi, əgər bu müvafiq əmtəə bazarında payı 35%- dən çox olan təsərrüfat subyektinin yaranması ilə nəticələnirsə;

- Aktivlərinin ümumi dəyəri minimum əmək haqqı məbləğinin 75 min mislindən artıq olan təsərrüfat subyektlərinin birləşməsi;

- Aktivlərinin ümumi dəyəri minimum əmək haqqı məbləğinin 50 min mislindən artıq və bələdiyyə müəssisələrinin ləğv edilməsi (məhkəmənin qərarı ilə ləğv edilmə halları istisna olmaqla), habelə bu müəssisələrin bölünməsi (əgər bu müvafiq əmtəə bazarında payı 35 %- dən çox olan təsərrüfat subyektlərinin yaranması ilə nəticələnirsə).

Bütün göstərilən hallarda təsərrüfat subyektlərinin yaradılması, yenidən təşkili və ləğv edilməsi Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin razılığı ilə həyata keçirilir, əks təqdirdə bu hərəkətlər həmin komitənin iddiası üzrə məhkəmə tərəfindən etibarsız hesab edilə bilər.

Təsərrüfat subyektləri arasında əqdlər aşağıda göstərilən hallarda Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi ilə razılaşdırılmaqla bağlanmalıdır:

- bir təsərrüfat subyektinin nizamnamə kapitalını təşkil edən və səs vermə hüququna malik səhmlərin (payların) 20%-dən çoxu digər təsərrüfat subyekti tərəfindən əldə edildikdə. Bu məhdudiyyətlər subyektin yaradılması zamanı onun təsisçilərinə aid edilmir;

- bir təsərrüfat subyektinin əsas istehsal vasitələrinin və ya qeyri-maddi aktivlərinin digər təsərrüfat subyektinin mülkiyyətinə və ya istifadəsinə verilməsi zamanı, əgər əqd predmetini təşkil edən əmlakın balans dəyəri, bu əmlakı özgəninkiləşdirən təsərrüfat subyektinin əsas istehsal vasitələrinin və qeyri-maddi aktivlərinin balans dəyərinin 10%- dən çox olarsa;

- digər təsərrüfat subyektinin sahibkarlıq fəaliyyəti şərtlərini müəyyənləşdirməyə və ya onun ali idarəetmə orqanlarının funksiyalarını həyata keçirməyə imkan verən hüquqlar təsərrüfat subyektinə keçdikdə.

Yuxarıda göstərilən əqdlərin bağlanması zamanı Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin razılığı yalnız aşağıdakı hallarda tələb olunur:

- təsərrüfat subyektlərinin aktivlərinin ümumi balans dəyəri minimum əmək haqqı məbləğinin 75 min mislindən çox olduqda;

- təsərrüfat subyektlərindən birinin müvafiq əmtəə bazarında payı 35%- dən çox olduqda;

- səhmləri əldə edən təsərrüfat subyekti həmin səhmləri özgəninkiləşdirən təsərrüfat subyektinin fəaliyyətinə nəzarət etdikdə.

Özlərinin hökmran mövqeyindən sui istifadə edən təsərrüfat subyektlərin inhisarçılıq fəaliyyəti göstərdikdə, öz hərəkətləri ilə rəqabətin məhdudlaşdırılmasına və istehlakçıların mənafeyinin pozulmasına səbəb olduqda, onların məcburi qaydada bölüşdürülməsi (texnoloji, ərazi və təşkilati səbəblərə görə mümkün olmadıqda) antiinhisar siyasətini həyata keçirən Azərbaycan Respublikasında İqtisadi İnkişaf Nazirliyi tərəfindən həyata keçirilir.

1. İnhisarçı təsərrüfat subyektlərinin məhsullarının (xidmətlərinin) qiymətləri üzərində dövlət nəzarətinin müəyyən olunması, bəzi hallarda bu və ya digər məhsulun (xidmətin) bazar qiymətinin verilən həddinin təsbit edilməsi;

2. Təsərrüfat subyektlərinin gəlirlərindən tutulan vergilərə onların payına uyğun olaraq mütərəqqi vergi dərəcələrinin tətbiq edilməsi;

3. Təbii inhisarçı olaraq bazarda öz müstəqil mövqeyindən sui-istifadə edən təsərrüfat subyektləri üçün aksiz vergilərinin sərtləşdirilmiş dərəcələrinin tətbiq edilməsi;

4. Hər hansı bazara giriş maneələrini zəiflətmək məqsədilə istehsal olunan məhsullara eyniləşdirilmiş standartların tətbiq edilməsi;

5. Sürətləndirilmiş amortizasiyanın normativ amortizasiya ilə əvəz edilməsi;

6. Kredit verilməsi şərtlərinin sadələşməsi;

7. Təsərrüfat subyektinin patent üzərində öz mövqeyindən sui istifadə etməsi ilə əlaqədar olaraq yeni patentlərin nisbətən ucuz haqla məcburi lisenziyalaşdırılması;

8. Bazar subyektlərindən birinin və ya hamısının birlikdə inhisarçılıq fəaliyyətini həyata keçirərkən onlar arasında bağlanan sazişlərin məhdudlaşdırıcı bəndlərinin ləğv edilməsi;

9. Dövlət köməyinin bütün növlərinin dayandırılması;

10. Barter əməliyyatlarının qadağan edilməsi;

11. İdxal-ixrac əməliyyatları üçün verilən lisenziyaların ləğv edilməsi barədə müvafiq təkliflər verə bilər.

Hökmran mövqe tutan təsərrüfat subyektləri inhisarçılıq fəaliyyəti göstərərsə və onların fəaliyyəti rəqabətin xeyli məhdudlaşdırılmasına səbəb olarsa, Azərbaycan Respublikasında antiinhisar siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı təşkilati, texnoloji və ərazi şəraitinin imkan verdiyi halda onların məcburi bölünməsi haqqında qərar qəbul edə bilər. Bu halda antiinhisar siyasətini həyata keçirən icra hakimiyyəti orqanı təsərrüfat subyektlərinin xüsusiyyətini nəzərə alaraq onların məcburi qaydada bölünməsi müddətlərini altı aydan az olmamaq şərti ilə müəyyənləşdirir.

Bu qanunun pozulmasına görə təsərrüfat subyektlərinə və vəzifəli şəxslərə aşağıdakı maliyyə sanksiyaları və cərimələri tətbiq edilir.

Vəzifəli şəxslər il ərzində eyni qanun pozuntusunu iki dəfə təkrar etdikdə (onlara inzibati təsir tədbirləri tətbiq edildikdən sonra) qanunvericilikdə nəzərdə tutulmuş qaydada cinayət məsuliyyəti daşıyırlar.

Ədalətsiz rəqabət də rəqabət aparan müəssisələrə ziyan gətirə bilər. Bu cür rəqabət müxtəlif formalarda aparılır ki, onlar da aşağıdakılardan ibarətdir: digər müəssisəyə zərər gətirməyə, yaxud da onun işgüzar adına ziyan gətirməyə qabil olan böhtan, qeyri-dəqiq və ya təhrif olunmuş məlumatların yayılması; məhsulların hazırlanması xarakteri, üsulu və yeri, istehlak xassələri və keyfiyyəti nöqteyi-nəzərindən istehlakçılara çatdırılması; reklam fəaliyyəti prosesində istehsal olunan və ya realizə edilən

əmtəələrin sərişdəsiz müqayisə edilməsi və s. Təbii inhisar subyektlərinin fəaliyyətinin dövlət tənzimlənməsi Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi tərəfindən həyata keçirilir.

Təbii inhisar subyektlərin fəaliyyətinin tənzimlənməsi aşağıdakı üsullarla həyata keçirilir:

1. Əmtəələrin qiymətlərinin (tariflərinin) tənzimlənməsi;

2. Mütləq xidmət edilməli olan istehlakçı qrupların və onların əmtəəyə olan tələbatının tam ödənilməsi mümkün olmadıqda təminatın minimum həddinin müəyyən edilməsi;

3. İstehlakçıların mənafelərinə xələl gətirə bilən və təbii inhisarın təsdiq olunmuş son balansı üzrə özünəməxsus vəsaitlərinin 10%-dən çox olarsa;

Təbii inhisarın tənzimlənmə dairəsindən kənar əmtəələrin istehsalı üçün əsas vəsaitlərə mülkiyyət (istifadə) hüququnun əldə edilməsi ilə bağlı təsərrüfat müqavilələrinin məqsədəuyğunLuğunun müəyyənləşdirilməsi;

Təbii inhisarın tənzimlənmə dairəsindəki əmtəələrin istehsalındakı əsas vəsaitlərin satışı (icarəyə verilməsi) üzrə təsərrüfat müqavilələrinin məqsədəuyğunluğunun müəyyənləşdirilməsi.

4. əmtəə istehsalının həcminin müəyyən olunmuş göstəricilərinə əməl edilməsinin təmin olunması;

5. təbii inhisar subyektləri tərəfindən tənzimlənməyən fəaliyyət sahələrinə ayrılan kapital qoyuluşunun razılaşdırılması.

Əsasnaməyə görə təbii inhisar subyektləri dövlət tənzimlənmə orqanlarının qərarlarını, göstərişlərini və tələblərini yerinə yetirməyə və müəyyən olunmuş formada və qaydada aşağıdakıları təqdim etməyə borcludurlar:

1. Öz fəaliyyəti haqqında cari hesabatı;

2. Maya dəyərinin maddi və əmək məsrəflərini əks etdirən kalkulyasiyanı və qiymətlərin (tariflərin) səviyyəsini;

3. Kapital qoyuluşlarının layihələrini;

4. İştirak etdikləri mülki hüquqi müqavilələri və təsərrüfat əlaqələri haqqında məlumatları.

Dövlət tənzimləmə orqanları konkret təbii inhisar subyektinin fəaliyyətinin təhlili əsasında həmin subyektə münasib olaraq

nəzərdə tutulan tənzimləmə metodlarının tətbiq edilməsi haqqında qərar qəbul edirlər. Bu zaman istehsal olunan (satılan) əmtəələrin keyfiyyətinin yüksəldilməsində və onlara tələbin ödənilməsində bu metodların stimullaşdırıcı rolu ön plana çəkilir.

Eyni zamanda sərf olunan məsrəflərin səmərəliliyi qiymətləndirilir və aşağıdakılar nəzərə alınır:

1. Əmtəələrin istehsal (satış) xərcləri, o cümlədən əmək haqqı, xammal və materialların dəyəri, qaimə xərcləri;

2. Vergilər və digər ödənişlər (sosial sığota, yol fondu, məşğulluq fondu);

3. Əsas istehsal vasitələrinin dəyəri, onların təkrar istehsalı üçün investisiyaya olan tələbat, amortizasiya ayırmaları;

4. Faktiki və proqnozlaşdırılan mənfəət;

5. Ayrı-ayrı istehlakçı qrupların əmtəələrin istehsal olunduğu yerə yaxınlığı və uzaqlığı;

6. İstehsal olunan (satılan) əmtəələrin keyfiyyətinin istehlakçıların tələbinə uyğunluğu;

7. Dövlət dotasiyasının və köməyinin digər tədbirləri.

Müvəqqəti inhisar sferasına aid edilən sosial əhəmiyyətli əmtəə və xidmətlərə qiymət və tariflərin formalaşması üçün hüquqi və təşkilati-iqtisadi şərtlərin yaradılması. Müvəqqəti inhisar dedikdə, rəqabətin müvəqqəti yoxluğu şəraitində mövcud olan inhisar başa düşülməlidir. Bu zaman ixtiraların istifadəsi, patentlərin tətbiqi və lisenziyalı avadanlıqların istifadəsi nəticəsində meydana çıxan müvəqqəti inhisarlar beş il ərzində inhisarsızlaşmağa cəlb olunmur.

Respublika, ehtiyat və xüsusi fondlara tədarük edilən məhsula qiymətlərin müəyyən edilməsi nəzərdə tutulur.

Qanuna əsasən təbii inhisar subyektlərinin fəaliyyətinin tənzimlənməsi müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən həyata keçirilir.

Təbii inhisar subyektlərinin fəaliyyətini tənzimləyən orqanlar tərəfindən təbii inhisar subyektlərinin fəaliyyətini tənzimləmək məqsədilə aşağıdakı üsullar tətbiq edilə bilər:

- əmtəələrin qiymətinin (tariflərinin) tənzimlənməsi;

- xidmət göstərilməsi məcburi olan istehlakçıların müəyyən edilməsi və təbii inhisar subyektlərinin istehlakçıların əmtəə üzrə ehtiyacını tam həcmdə ödəməyə bilmədiyi hallarda onların həmin xidmətlərə təminatının minimum səviyyəsinin təyin edilməsi və s.

- qeyd etmək lazımdır ki, müasir dövrdə ölkədə mal-əmtəə inhisarçılığı mövcuddur. Belə ki, müxtəlif ərzaq məhsulları bir qrup tikinti materialları, digər, sənaye məhsulları bir qrup tərəfindən tənzimlənir. Düzdür, dövlət inhisarçılığa qarşı xüsusi qanun vermiş olsa da, onun tələblərinə lazımi səviyyədə əməl edilmir. Dövlət məhsul istehsalının və yaxud kənardan daşınan malların bir qrupun əlində toplanmasına qarşı ciddi inzibatı və iqtisadi tədbirlər görməlidir. Daha doğrusu, dövlət, ədalətsiz inkişafa və rəqabətə qarşı mövcud qanunlar çərçivəsində mübarizə daha da gücləndirməlidir. Təbii formada formalaşan inhisara isə daha əlverişli şərait yaratmaqla belə, onun ədalətli tənzimlənməsini həyata keçirilməlidir. Beləliklə, bazar iqtisadiyyatı şəraitində inhisarçılığı tamamilə ləğv etmək qeyri-mümkün olduğundan dövlət ona daimi, ardıcıl nəzarət etməli və onu qanun əsasında tənzimləməlidir.

MÖVZU 5. QİYMƏTLİ KAĞIZLAR BAZARININ HÜQUQİ TƏNZİMLƏNMƏSİ

Plan:

1. Qiymətli kağızlar bazarı anlayışı. Qiymətli kağızlar bazarının hüquqi tənzimlənməsinin mənbələri.
2. Qiymətli kağızlar bazarının iştirakçıları. Qiymətli kağızlar bazarında fəaliyyət növləri.
3. Qiymətli kağızların qeydiyyatı, buraxılışı və dövriyyəsi.
4. Qiymətli kağızlar bazarının dövlət tənzimlənməsinin hüquqi metodları.
5. Fond birjası, onun funksiyaları və hüquqi əsasları.

Bazar sisteminin formalaşmasında kredit bazarı ilə sıx qarşılıqlı əlaqədə olan qiymətli kağızlar bazarı fəaliyyət göstərir.

Qiymətli kağızlalar bazarında səhmdar istiqrazlar, müxtəlif təyinatlı sertifikatlar, veksellər və müxtəlif dövlət xəzinə təəhhüdləri dövr edir. Birja möhtəkirliyi sayəsində səhmlər, sertifikatlar və vekselləri dəyişən kursuna uyğun olaraq alıb-satmaq yolu ilə mənfəət əldə etmək, qiymətli kağızlar bazarının spesifik xüsusiyyətidir. Qiymətli kağızlar bazarı ona məxsus olan xüsusi alqı-satqı mexanizmi ilə fond birjasında fəaliyyət göstərir. O, bank kimi səhm və digər qiymətli kağızların ilkin emissiyasını (buraxılışını) həyata keçirir və adətən onların (ikinci emissiya) ticarətini təmin etməklə məhdudlaşır. Fond birjası broker yerlərinin satılmasından gələn gəlirlər – sövdələşmə iştirakçılarının üzvlük haqları və alınan komisyon ödənişləri hesabına mövcud olur.

Qiymətli kağızlar bazarı və onun institutları ümumi bazar sistemində mühüm rol oynayır. Səhmlərin satışı və alqısı vasitəsilə müəssisələr, sahə və bölmələr arasında kapitalların axını həyata keçirilir, azad pul resursları onlara kəskin ehtiyac duyulan sahələrə yönəltmək üçün cəmləşdirilir.

Qiymətli kağızlar bazarı kredit bazarı ilə birgə maliyyə bazarını əmələ gətirir. Onlar bir-birilə sıx əlaqədardır və bir-birindən iri partiyalarla qiymətli kağızlar alır və satır. Bu əlaqə dövlətə imkan verir ki, istiqrazların, sertifikatların veksellər və şirkətlərin səhmlərinin alqı və ya satqısı vasitəsilə istehsalın kəskin surətdə aşağı düşməsinin qarşısının alınması və böhranın ləğv edilməsi, yaxud uyğunlaşdırılması məqsədilə iqtisadi tsiklin müəyyən mərhələlərində kredit bazarını idarə edə bilsin.

Beləliklə, dövlət qiymətli kağızlar bazarının tərkib hissəsi olan pul bazarından istifadə edir. Məhz pul bazarı nağd pulların dövlət xəzinəsinə və ya tədavül dairəsinə çevik «doldurulması» və kənar edilməsini təmin edir. Bu bazarın mexanizminin mənimsənilməsi heç də sadə iş deyildir. Hələlik, göründüyü kimi, burada qərbin bazar iqtisadiyyatı institutları sadəcə təklif olunur ki, bu da əlbəttə, kafi qiymətləndirilə bilməz.

1996-cı ildən başlayaraq Azərbaycan Respublikasında görülmüş tədbirlər nəticəsində qiymətli kağızlar bazarı mexanizmini işə salmağa və dövlət istiqraz vərəqələrinin mütəşəkkil bazarın yaradılmasına imkan verən lazımi infrastruktur yaradılmışdır.

Respublikada formalaşmış DQİV bazarı hələlik klassik nümunələrə cavab verməsə də onun inkişaf prosesində bəzi iştirakçıların artıq orada ciddi marağı yaranmışdır və onlar müəyyən dərəcədə bazarın tənzimləyicisi və sabitləşdirici qüvvəsi kimi çıxış edirlər.

Milli Bank bu prosesdə öz rolunun əhəmiyyətini tam dərk edərək də bazara daha çox iştirakçı cəlb etmək üçün əlavə şərait yaradılması sahəsində səylərini gücləndirməkdə davam edir. Hesabat ilinin axırlarında dövlət istiqraz vərəqələri üzrə satış, uçot və hesablaşmalar prosesi kompleks şəkildə modernləşdirilmişdir.

Yeni ödəniş sisteminin yaradılması çərçivəsində dövlət qiymətli kağızları ilə bütün əməliyyatları bilvasitə Milli Bankda cəmləşmişdir ki, bu da vəsaiti daha çevik idarə etməyə və istiqraz

vərəqələrinin alınması xərclərini xeyli azaltmağa imkan vermişdir.

Bundan başqa yeni hesablaşmalar konsepsiyasının tədricən həyata keçirilməsi, Milli Banka kommersiya bankları üçün məcburi ehtiyat tələbləri normasını azaltmadan elə mövqelər hazırlamağa imkan vermişdir ki, həmin tələblərin bir hissəsi dövlət qiymətli kağızlarının alınmasına yönəldilə bilsin. Bu şübhəsiz, bazarın inkişafına təkan verəcəkdir.

1998-ci ildə dövlət qiymətli kağızlarının satışından əldə olunan gəlirləri vergidən tam azad etmək mümkün olmuşdur. Bundan əvvəl alınan qiymətli kağızların həcminin 0,1%-i məbləğində tətbiq edilən dövlət rüsumu ləğv olunmuşdur.

Dövlət qiymətli kağızlar bazarının daha da sərbəstləşdirilməsi istiqamətində müəyyən tədbirlər görmüşdür. Qeyri-rezidentlər, o cümlədən xarici kapitalın iştirak etdiyi banklar bu bazarın tam hüquqlu iştirakçılarına çevrilmişlər. Bunların bəziləri hətta diler statusu almışdır.

Milli Bank pul-kredit siyasəti sahəsində öz səlahiyyətlərinin geniş miqyasda həyata keçirmək məqsədilə «Milli Bankın qısamüddətli notlarının yerləşdirilməsi, dövriyyə və ödənilməsi haqqında» əsasnamə hazırlayıb təsdiq etmişdir. Yeni sənəd Milli Bankın açıq bazarda qiymətli kağızlarla əməliyyatlar aparılmasına, dövriyyədə olan pul kütləsinin vəziyyətinə bilavasitə təsir göstərməsinə imkan vermişdir.

1996-cı ildən başlayaraq Milli Bank səhmdar-kommersiya banklarının öz səhmlərini buraxmaq fəaliyyətinə və bütövlükdə bank sisteminin digər qiymətli kağızlar emissiyasına nəzarəti öz əlində cəmləşdirmişdir. Bu prosesi tənzimləyən hər hansı normativ baza olmadığına görə Milli Bank «Kommersiya banklarında qiymətli kağızların buraxılması, qeydiyyata alınması, onlarla əməliyyatlar aparılması və onların uçotu qaydaları haqqında təlimat» və «Bankların depozit sertifikatları haqqında müvəqqəti əsasnamə» işləyib hazırlamışdır ki, bunlarda əməli təcrübə əsasında sonradan daha da təkmilləşdirilmişdir.

Hazırda Milli Bank monitorinq, nəzarət, informasiyanın alınması və qiymətli kağızlar bazarı üzrə Azərbaycan Respublikası qanunvericiliyinin icrasının təmin olunması sistemlərinin yaradılmasına fəal surətdə başlamışdır.

Milli Bank bütövlükdə korporativ qiymətli kağızlar bazarının inkişafına kömək göstərən yeni qanunvericilik aktlarının, ayrıca qərarların qəbul edilməsi sahəsində qanunvericilik orqanları ilə əlaqədar nazirliklər və baş idarələrlə birgə fəaliyyəti gücləndirmişdir.

1996-cı ildə fəaliyyətə başlamış Dövlət Qısamüddətli İstiqraz Vərəqələri (DQİV) bazarı sonrakı illərdə də öz fəaliyyətini daha da geinşləndirmişdir. Kredit təşkilatlarına məcburi ehtiyat fondunda saxladıqları vəsaitlərin bir hissəsini qiymətli kağızların alışı məqsədilə istifadə etməyə icazə verildikdən sonra DQİV-lərə olan tələb daha da artmışdır.

Maliyyə Nazirliyi auksionların keçirilmə qrafikini əvvəlcədən elan etmişdir ki, bu da potensial investorlara pul vəsaitlərini səfərbər etmək üzrə vaxtında tədbirlər görmək imkanı vermişdir. Maliyyə Nazirliyinin və Milli Bankın gördüyü tədbirlər nəticəsində banklar tərəfindən DQİV bazarına olan maraq artmışdır. Bunun nəticəsidir ki, auksion iştirakçılarının sayı 2 dəfədən çox artmışdır. Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin (QKDK) fəaliyyət başlamasından sonra bir çox səlahiyyətlər, o cümlədən səhm buraxılışının (emissiya prospekti), bankların istiqrazlarının, həmçinin bank sertifikatlarının buraxılması qaydalarının qeydiyyata alınması bu quruma verilmişdir.

QKDK, Respublika Prezidentinin «Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında» 26 iyul 1999-cu il tarixli xüsusi fərman verməsindən sonra fəaliyyətə başlamışdır. Fərmanla müəyyən edilmişdir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi qiymətli kağızlarla fəaliyyət sahəsində, o cümlədən qiymətli kağızlar bazarında, digər mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə münasibətdə üstün səlahiyyətlərə malikdir və bu

sahədə onların fəaliyyəti üzərində nəzarəti həyata keçirir. QKDK bankların, Aəzrbaycan Respublikası Milli Bankının qiymətli kağızlarının buraxılışı, tədavülü və emissiyası prospektlərinin qeydiyyatı qaydalarının müəyyən edilməsini Azərbaycan Respublikasının Milli Bankının rəyi nəzərə alınmaq şərti ilə həyata keçirir.

QKDK fəaliyyətə başladıqdan sonra qiymətli kağızlar bazarının digər seqmentlərinin yaradılması istiqamətində də tədbirlər həyata keçirməyə başladı. 9 noyabr 1999-cu ildə Fond Birjasının yaradılması üzrə təşəbbüs qrupu fəaliyyətə başlamışdır. Təşəbbüs qrupunun fəaliyyəti nəticəsində Fond Birjasının 18 yerli və xarici səhmdarlardan ibarət təsisçilər qrupu yaradılmışdır. 2005-ci ildə fəaliyyətdə olan 5 birjalarda 68 nəfər çalışmaqla, birjanın maliyyə dövriyyəsi 2000-ci ildə 198,8 milyon manat təşkil etmişdirsə, 2005-ci ildə bu mühüm göstərici 1334,6 milyon manata çatmış və yaxud 6 dəfədən çox artmışdır. Qeyd etmək lazımdır ki, 2000-ci ildə qeyd edilən məbləğin 521 milyon manatı qiymətli kağızların, 769,1 milyon manatı isə valyuta əməliyyatları hesabına əldə edilmişdir. Araşdırmalar göstərir ki, 97 səhm buraxılışı qeydə alınıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə həcmcə 4 dəfə, sayca 2 dəfə çox deməkdir. Qeyd etmək lazımdır ki, 2007-ci ilin 8 ayı ərzində korporativ istiqrazlar üzrə 42 mln. manat məbləğində 12 emissiyanın dövlət qeydiyyatı həyata keçirilib ki, bu da keçən ilə müqayisədə 18 min manat çoxdur. Bu ilin ötən 8 ayı ərzində 8 min manat məbləğində 74 veksel kağız buraxılıb. 1486 ipoteka kağızı dövlət qeydiyyatına alınmışdır.

Lakin bütün bunlarla belə respublikada mövcud olan 1700 səhmdar cəmiyyətləri öz fəaliyyətlərinə dair vaxtında öz hesabatlarını dərc etdirmirlər. Digər tərəfdən qiymətli kağızlar bazarında pensiya fondlarının iştirakçılarının təşkil edilməməsidir. Məlum olduğu kimi, respublikada ancaq bir dövlət pensiya fondu mövcuddur ki, o da hələlik bazarda iştirak etmir. Bir çox ölkələrdə qeyri-dövlət pensiya fondları təşkil edilmiş və onlar qiymətli kağızlar bazarının ən aktiv iştirakçıları hesab edilir.

Fond Birjası qapalı səhmdar cəmiyyəti formasında təşkil olunmuş qeyri-dövlət təşkilatı kimi fəaliyyət göstərir.

Dövlət, qısamüddətli qiymətli kağızlar bazarı Azərbaycanın qiymətli kağızlar bazarının nisbətən zəif inkişaf etmiş seqmentidir. Qiymətli kağızlar iki hissəyə bölünür: birinci dərəcəli əsas qiymətli kağızlar; ikinci dərəcəli törəmə qiymətli kağızlar. Əsas qiymətli kağızların özləri də 2 qrupa bölünür; ilkin qiymətli kağızlar – hansı ki, bura aksiyalar, veksellər və s. aid edilir.

İkinci dərəcəli qiymətli kağızlar ilkin qiymətli kağızların əsasında buraxılan qiymətli kağızlar. Törəmə qiymətli kağızlara isə Fyuçers kontraktlar (əmtəə, valyuta. Faiz, indeks) və opsionlar hesab edilir. İqtisadi mahiyyətinə görə qiymətli kağızların növləri aşağıdakılardır:

Aksiyalar: aksiyalar özü 2 yerə ayrılır: imtiyazlı və adi aksiyalara bölünürlər; istiqraz, bank sertifikatları, veksel, çek, konosament, varrant, opsion. Qiymətli kağızlar qiymətə görə 3 yarım növə bölünürlər.

Qısamüddətli – 1 ilədək, orta müddətli 5-10 ilədək, uzunmüddətli 20-30 ilə qədər. Müddətsiz qiymətli kağızların tədavül qiyməti məhdudlaşdırılmır. Onlar «ömürlükdür». Qiymətli kağızların klassik forması sənəd şəklində olmasıdır. Beləliklə, qiymətli kağızlar bazarının inkişaf etməsi, onların bir çox növlərini ən başlıca bütün emissiyanın qeyri-sənəd şəkildə olmasını tələb edir. İnvestisiya qiymətli kağızları, onun aksiyaları, istiqrazlar, Fyuçers kontraktlar və opsionlar hesab edilir.

BFB-nin daxili tənzimləmə, habelə listinq qaydalarının müəyyən olunması, geniş inkişafı gözlənilən səhm və istiqrazlar bazarının formalaşmasına hüquqi-texniki hazırlıq məqsədi daşıyır.

Azərbaycanda real sektorun (neft sektoru istisna olmaqla) rentabelliyinin aşağı olması, hətta müəssisələrin bir hissəsinin zərərlə işləməsi, səhmləşmə qaydasında özəlləşmiş müəssisələrin səhmləri üzrə dividendin aşağı olması, korporativ qiymətli kağızlar bazarının inkişafına hələ ki, lazımi imkan vermir. Lakin strateji özəlləşmə nəticəsində bir sıra rentabelli müəssisələrin

investor marağı cəlb edən səhmlərinin buraxılması, real sektorun inkişafı istiqamətində aparılan genişmiqyaslı islahatlar korporativ qiymətli kağızlar bazarının inkişafına zəmin yaradacaqdır. Real sektorla yanaşı maliyyə-bank sektorunda aparılan tədbirlər, bankların və digər maliyyə vasitəçilərinin kapitallaşdırlıması prosesi, dövlət banklarının özəlləşdirilməsi bu sektorun səhm və istiqrazlar bazarının canlanmasına səbəb olacaq.

Qiymətli kağızlar bazarının tarixinin hüquqi bünövrəsini 1992-ci ildə qəbul edilmiş «Qiymətli kağızlar haqqında» Qanun təşkil etsə də, qiymətli kağızlar bazarının real inkişafı yalnız 4 il sonra 1996-cı ildən başlandı.

1996-cı ilədək bu sahədə hüquqi bazanın tam formalaşmaması nəticəsində yaranmış qeyri-müəyyənlik və qiymətli kağızlar bazarının korporativ qiymətli kağızlara aid edilən və faktiki dövriyyəyə buraxılmayan kommersiya banklarının səhmləri ilə təmsil olunması bu bazarın canlanmasına imkan vermirdi.

Qiymətli kağızlar bazarında irəliləyişlər yalnız Maliyyə Nazirliyi tərəfindən Dövlət qısamüddətli istiqrazların (DQİ) emissiyası ilə başladı. DQİ-n buraxılışının əsası 1996-cı ildə Nazirlər Kabineti tərəfindən DQİ-ların buraxılışının əsas şərtlərinin təsdiq edilməsi ilə qoyuldu. Həmin ildə Milli Bank tərəfindən Maliyyə Nazirliyi ilə razılaşdırma əsasında DQİ-n buraxılışı, yerləşdirilməsi və dövriyyəsi qaydalarını müəyyənləşdirən Əsasnamə təsdiq edildi.

Nazirlər Kabinetinin qərarı ilə Milli Banka DQİ-n yerləşdirilməsi üzrə Maliyyə Nazirliyinin agenti vəzifələri, DQİ-n dövriyyə qaydalarının müəyyənləşdirilməsi, onlarla bağlanmış əqdlər nəticəsində hesablaşmaların və sahiblərin uçotunun aparılma qaydalarının müəyyənləşdirilməsi və s. məsələlrin həll edilməsi həvalə edilmişdir.

Milli Bank tərəfindən ilk növbədə banklar arasında peşəkar iştirakçılar sistemi yaradılması üçün müvafiq tədbirlər görülərək, auksionlar və təkrar bazar təşkil edildi.

1996-cı ildən başlayaraq kommersiya bankları tərəfindən qiymətli kağızların buraxılışının tənzimlənməsi də Milli Bank

tərəfindən həyata keçirilirdi. Həmin dövrdə bankların səhmlərinin dövlət qeydiyyatı aparılmış, səhmlərin açıq satışının elan olunması təcrübəsinin, banklar tərəfindən depozit sertifikatlarının və digər borc qiymətli kağızlarının əsasları qoyulmuşdur.

Qiymətli kağızlar bazarının formalaşması istiqamətində növbəti addım Milli Bankın təşəbbüsü və fəal iştirakı ilə yenidən işlənib hazırlanmış bank və maliyyə sistemlərinə aid olan bir neçə Qanunlar sırasında qiymətli kağızlar bazarının genişlənmə tələblərinə cavab verən «Qiymətli kağızlar haqqında Qanununu» yeni redaksiyasının 1998-ci ildə qəbul olunması ilə başlandı.

Görülmüş səylər nəticəsində, artıq 2001-ci ilin əvvəlinədək qiymətli kağızlar bazarının müvafiq baza infrastrukturunun formalaşması, demək olar ki, başa çatdı. Respublikada qiymətli kağızlar bazarının dövlət tənzimləyici orqanı olan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Depozit Mərkəzi, Bakı Fond Birjası (BFB) yaradıldı. Bununla Mərkəzi Bankın funksiyalarına bilavasitə aid olmayan qiymətli kağızların ilkin yerləşdirilməsi və depozitar xidmətlərin göstərilməsi tədricən bu təşkilatlara keçirildi.

Hazırda respublikada qiymətli kağızlar bazarının bütün əsas institusional elementləri fəaliyyət göstərir, mütəmadi olaraq DQİ-lərin emissiyası keçirilir. Lakin, lazımi infrastrukturun olmasına baxmayaraq, qiymətli kağızlarla əməliyyatlar hələ ki, yetərincə fəal şəkildə aparılmır. Bu, digər səbəblər sırasında həmçinin təkrar bazarda demək olar ki, əməliyyat aparılmaması, DQİ-nin istifadəsinə əsaslanan əlavə maliyyə alətlərinin zəif inkişaf etməsi ilə bağlıdır.

Bu məqamda Milli Bank qiymətli kağızlar bazarının inkişafına hədəflənmiş təkrar bazarın canlandırılması istiqamətinə səylərini yönəltmiş və bazarın digər iştirakçıları ilə birgə böyük iş aparmaqdadır. Belə ki, Milli Bank tərəfindən monetar siyasətin həyata keçirilməsi aləti kimi nəzərdə tutulan Repo əks-repo əməliyyatları üzrə qaydalar hazırlanmış, 2001-ci ilin sonlarında isə artıq əks-repo əməliyyatlarının aparılmasına başlanmışdır. REPO əməliyyatları – qiymətli kağızların sahibi tərəfindən onları

digər şəxslərə satışı ilə yanaşı, həmin qiymətli kağızları sonradan, əvvəlcədən müəyyənləşdirilmiş müddət və şərtlərə uyğun olaraq geri satın almaq öhdəliyini rəsmiləşdirən maliyyə əməliyyatlarıdır. REPO əməliyyatları həm qiymətli kağızlar, həm də pul bazarına təsir edir. Milli Bank, REPO əməliyyatını apardığı halda, öz portfelində olan qiymətli kağızları banklara satır və bununla dövriyyədə olan pul kütləsini azaldır, əks-REPO əməliyyatını apardıqda isə, əksinə, banklardan qiymətli kağızları satın alrı və nəticədə pul kütləsini artırır.

Eyni zamanda, DQİ-nin istifadəsinə əsaslanan digər alətlərin dövriyyəyə buraxılması üzrə işlər görülür. Qeyd olunan vasitələrin geniş tətbiqi bankların öz aktivlərində olan qısamüddətli kağızlar portfelindən istifadə edərək, qısamüddətli likvidliyin idarə edilməsinə imkan yaratmaqla yanaşı, dövlət qiymətli kağızlarının təkrar bazarının inkişafı üçün təkanverici amildir.

Milli Bank tərəfindən DQİ-la REPO əməliyyatlarının aparılması Dövlət qiymətli kağızlar bazarının yeni inkişaf mərhələsinə çıxmasına təkan vermişdir. Belə ki, 2001-ci ildən başlayaraq dövriyyə müddəti artıq 6 ay olan DQİ-n dövriyyəyə buraxılmışdır. İlk əks_REPO auksionunun keçirilməsi də DQİ-rın sahiblər dairəsinin genişlənməsinə təkan vermişdir.

Göstərilənlərlə yanaşı, 2001-ci ildə Milli Bank tərəfindən monetar siyasətin həyata keçirilməsinin digər aləti ola biləcək qısamüddətli notların buraxılması üçün də hüquqi-normativ baza hazırlanmışdır.

Azərbaycan Respublikasında emissiya olunan dövlət qiymətli kağızlarının digər növü isə daxili uduşlu istiqraz vərəqəsidir (DQİV). Bu növdən olan dövlət qiymətli kağızların ən etibarlı qiymətli kağızlardan biri olması ilə yanaşı, həm də müstəqil Azərbaycanda ilk qiymətli kağız hesab olunur.

Qiymətli kağızlar bazarının digər tərkib hissəsi olan korporativ qiymətli kağızlar bazarı özəl müəssisələrin səhmlərindən, vekselləri̇ndən, kommersiya banklarının səhm, depozit sertifikatları və istiqrazlarından ibarətdir.

2000-ci ildə fəaliyyətə başlayan BFB dövlət qiymətli kağızlar bazarı ilə yanaşı korporativ qiymətli kağızlar bazarının inkişafına institusional şərait yaradır. 2001-ci ildən BFB-da müəssisələrin səhmlərinin listinqinə başlanmışdır.

Korporativ qiymətli kağızlar bazarının təşviqi məqsədilə Milli Bank gələcəkdə yüksək təminatlı və böyük maliyyə nüfuzuna malik olan emitentlərin vekselləri ilə uçot və yenidən uçot əməliyyatlarının aparılmasını nəzərdə tutur. Bu, həm maliyyə bazarında aparılan əməliyyatlar dairəsini genişləndirmək, həm də iqtisadiyyatın prioritet istiqamətlərini bazar şərtləri əsasında maliyyələşdirmək imkanları ilə yanaşı ümumiyyətlə, korporativ borc öhdəlikləri bazarının inkişafına təkan verəcəkdir.

Qiymətli kağızların ilkin yerləşdirliməsindən sonra onların tədavülü (alqı-satqısı) üzrə əqdlər qiymətli kağızlar bazarının yalnız peşəkar iştirakçıları – qiymətli kağızlar üzrə peşə fəaliyyətinə lisenziya almış hüquqi şəxslər tərəfindən həyata keçirilə bilər.

Qiymətli kağızlar peşə fəaliyyətinin aşağıdakı növləri həyata keçirilə bilər: vasitəçilik; kommersiya; komisyon və s. Sair fəaliyyət dedikdə, ən əvvəl məsləhət xidmətləri başa düşülür.

Peşəkar iştirakçı və ya onun əməkdaşları lisenziya almaq üçün ərizədə və ya hesabatda yanlış məlumat göstərdikdə, yaxud qiymətli kağızlar üzrə fəaliyyətin həyata keçirilməsi qaydalarını pozduqda Maliyyə Nazirliyi lisenziya və ya attestatın qüvvəsini dayandıra bilər və ya onları ləğv edə bilər.

Fond birjası hüquqi şəxslər tərəfindən qapalı səhmdar cəmiyyəti şəklində təsis edilməli, azı 10 üzvdən ibarət tərkibdə olmalı və Maliyyə Nazirliyinin lisenziyasını almalıdır.

Fond birjası tərəfindən kommersiya fəaliyyətinin həyata keçirilməsinə yol verilmir, onun fəaliyyəti mənfəət əldə etmək məqsədlərini güdmür və birjanın səhmdarlarına dividendlər ödənilmir. Fond birjasının fəaliyyətinin maliyyələşdirliməsi onun üzvlüyünə daxi olmaq hüququ verən səhmlərin satışı, hər bir əqddən alınan birja rüsumu, onun fəaliyyətindən götürülən başqa gəlirlər hesabına həyata keçirilə bilər. Fond birjası,

səhmlərinin birja vasitəsilə ilkin yerləşdirilməsi və ya alqı-satqısı halları istisna olmaqla, öz auksionunda əqdin tərəfi ola bilməz.

Fond birjasının fəaliyytinə aşağıdakı hallarda xitam verilir:

- səhmdarların ümumi yığıncağının qərarı ilə;
- təsisçilərin sayı 10-dan az olduqda;
- Maliyyə Nazirliyi lisenziyasını geri aldıqda.

Qiymətli kağızlar bazarının peşəkar iştirakçıları fond birjasının üzvləri ola bilərlər. Müvəqqəti üzvlüyə, habelə broker yerlərinin fond birjasının (fond şöbəsinin) üzvü olmayan şəxslərə icarəyə veriləmsinə yol verilmir. Dövlət hakimiyyəti və idarəetmə orqanları fond birjasının üzvləri ola bilməzlər.

Birja üzvünün nizamnamə fondunda pay iştirakı olan şəxslər birjanın başqa üzvünün rəhbərləri və ya əməkdaşları ola bilməzlər. Birjanın qulluqçuları, birja üzvlərinin rəhbərləri və əməkdaşları birjada qiymətləndirilən qyimətli kağızların emitentində rəhbər vəzifələr tuta bilməz, onunla əmək-hüquq münasibətlərinə girə bilməz və emitentin təsisçiləri ola bilməzlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi qiymətli kağızlar sahəsində dövlət siyasətini və dövlət nəzarətini həyata keçirən və bu fəaliyyəti nizamlayan, o cümlədən qiymətli kağızlar bazarının formalaşdırılması və inkişafı sahəsində dövlət siyasətini, dövlət idarəetməsini və dövlət tənzimlənməsini, müvafiq icra hakimiyyəti orqanlarının fəaliyyəti üzərində nəzarəti və onların fəaliyyətinin əlaqələndirilməsini, qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının fəaliyyəti üzərində nəzarəti həyata keçirən, investorların, səhmdarların və digər qiymətli kağız sahiblərinin hüquqlarının və qanuni maraqlarının müdafiəsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır. Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 1998-ci il tarixli fərmanına əsasən yaradılmışdır.

Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin öz səlahiyyətləri daxilində qəbul etdiyi aktlar digər mərkəzi icra hakimiyyəti orqanları və qiymətli kağızlarla fəaliyyət sahəsində, o cümlədən qiymətli kağızlar bazarındakı subyektlər üçün məcburi xarakter

daşıyır və həmin aktların icrasına nəzarət Komitə tərəfindən həyata keçirilir.

Qiymətli kağızlar bazarının fəaliyyətinin hüquqi bazası 9 sentyabr 1998-ci il tarixdə qəbul olunmuş «Qiymətli kağızlar haqqında qanun» və Azərbaycan Respublikası prezidentinin 30 dekabr 1998-ci il tarixli «Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin yaradılması haqqında» fərmandır. 2000-ci ilin avqust ayında Dövlət Qiymətli Kağızlar Komitəsi tərəfindən «Azərbaycanda qiymətli kağızlar bazarının inkişaf proqramı» hazırlanıb qəbul edilmişdir və hal-hazırda tətbiq olunmaqdadır. Dövlət qiymətli kağızlar bazarı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 sentyabr 1996-cı il tarixli «Dövlət qısamüddətli qiymətli kağızlarının emissiyası haqqında» qərarına uyğun olaraq fəaliyyətə başlamışdır. Qiymətli kağızlarla bütün əməliyyatlar Milli Bankın dileri vasitəsilə aparılır.

Azərbaycanda qiymətli kağızlar bazarı hal-hazırda inkişaf mərhələsindədir. Bu bazarda qiymətli kağızların 4 növünü qeyd etmək olar: Dövlət qısamüddətli istiqraz vərəqələri, veksellər, dövlət özəlləşdirmə çekləri və opsionları, və korporativ istiqrazlar.

Ölkədə debitor borclarının həllində veksellərin tətbiq olunması və veksel bazarının inkişaf etdirilməsi mühüm amillərdəndir.

Beləliklə, son illərdə (2001-2006) Qiymətli Kağızlar bazarı getdikcə daha da genişləndirilərək iqtisadi inkişafda onun rolu və əhəmiyyəti xeyli artmışdır.

MÖVZU 6. VERGİ SİSTEMİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

Plan:

1. Vergilərin ödənilməsi və onların hüquqi tənzimlənməsi.
2. Vergi nəzarəti və vergidən yayınma hallarına qarşı dövlət tədbirləri.
3. Gömrük tarifləri, rüsumlar və onların hüquqi tənzimlənməsi.

Vergi – dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərnin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə, habelə məqsədli dövlət fondlarına köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir. Qanunverici aktlarla müəyyən ödənilən şərtlər və qaydalara uyğun büdcə və qeyri – büdcə fondlarının gəlirlərinə daxil edilən vergi, rüsum və digər ödəmələr vergi sistemini yaradır. Vergilər, rüsumlar və ödəmələr müəssisə və təşkilatların dövlət və onun təşkilatları ilə qarşılıqlı münasibətinin formalaşmasına və inkişafına səbəb olur.

Ölkənin sosial-iqtisadi inkişafında vergilərin rolu getdikcə artmaqdadır. Odur ki, onun bazasını genişləndirmək, vergi ödənclərinə xidmət işini beynəlxalq standartlara uyğunlaşdırmaq və vergi orqanları ilə vergi ödəncləri arasında münasibətləri daha da yaxşılaşdırmaq məqsədi ilə onun hüquqi bazasının təkmilləşdirilməsi lazımdır. Son illər səmərəli vergi sisteminin formalaşdırılması, onun qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli tədbirlər görülmüşdür. Belə ki, 1999-cu ildən başlayaraq vergi sistemində həyata keçirilən kompleks tədbirlər nəticəsində qısa zaman ərzində vergi daxilolmalarının artımı təmin edilmişdir. Belə ki, dövlət büdcəsinə daxilolmalar 1992-ci ildəki 6.1 milyard manatdan 2004-cü ildə 4, 963 milyard manat təşkil etmişdir. Hüquqi nöqteyi – nəzərdən vergiqoyma dövlətlə istehsalçıları arasında mülkiyyət münasibətlərinin

tənzimlənməsi tədbiridir. Ona görə də vergiqoyma proseslərində – dövlətlə (cəmiyyətlə) vergi ödəyicilərinin maraqlarının səmərəli balanslaşdırılması xüsusi əhəmiyyətə malikdir. Odur ki, müasir bazar iqtisadiyyatı şəraitində ölkədə vergi qanunvericiliyinin yaradılması zəruridir. Məlum olduğu kimi, Azərbaycan Respublikasında vergi qanunvericiliyinin əsasını 2000-ci ildə qəbul edilmiş və 2001-ci il yanvar ayının 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsi təşkil edir. Son illər vergi qanunvericiliyi ilə yanaşı vergi sistemində idarəetmənin təkmilləşdirilməsi istiqamətində də işlər həyata keçirilmişdir. Vergilər Nazirliyinin yaradılması, rayonlar üzrə vergi idarələrinin regional vergi orqanları ilə əvəz edilməsi, vergi ödəyicilərinin hüquqlarının mühafizəsi və s. qeyd etmək lazımdır ki, vergidən yayınma halları ilə mübarizəni daha da genişləndirməklə, vergilərin məcburi ödənilməsi sisteminin təkmilləşdirilməsi, vergilərin könüllü ödənilməsi sistemini yaratmaq lazımdır.

Vergi məcəlləsində 2007-ci ildə nəzərdə tutulmuş yeni dəyişikliklərdə mənzil tikintisi sahəsində çalışanların vergi öhdəlikləri bir daha sadələşdirilmişdir. Belə ki, inşaat sahəsində çalışan vergi ödəyiciləri hüquqi şəxs olduğu zaman vergi məcəlləsində nəzərdə tutulan mənfəət, əmlak, əlavə dəyər vergisi (ƏDV) və s. kimi bütün vergiləri ödəməli idi. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduğu təqdirdə isə gəlir vergisi və əgər öhdəlik yararlıdırsa, yerdə qalan digər vergiləri də ödəməli olurdu. İndi isə sadələşdirilmiş vergi rejiminə keçidlə əlaqədar olaraq tikilən sahənin hər kvadratmetrinə 10 manat verginin tətbiqi nəzərdə tutulur. Deməli, bu vergi hüquqi şəxslərin mənfəət və əmlak vergisinin əvəzinə, fiziki şəxslərin isə gəlir vergisi hesabına tətbiq olunur. Beləliklə, burada tikinti sahələrinin yerləşdiyi ərazilərdən asılı olaraq müəyyən əmsalların tətbiqi də nəzərdə tutulur. Bu əmsalların işlənib hazırlanması isə ölkə prezidenti tərəfindən Nazirlər Kabinetinə həvalə edilmişdir.

Digər dəyişikliklər daşınmaz əmlakın icarəyə verilməsi və onun vergiyə cəlb olunması ilə bağlıdır. Yaşayış fondu istisna olmaqla, daşınmaz əmlakın icarəyə verilməsində icra haqqının

minimal həddi müəyyənləşdiriləcəkdir. Vergilər Nazirliyi tərəfindən iyul ayının 24-dən başlayaraq nəzarət-kassa aparatına operativ nəzarətin həyata keçirilməsi ilə bağlı kütləvi reydlərin nəticəsində vergidən yayınmış vəsaitin 80%-nin ödənişi təmin olunub. Odur ki, vergi məcəlləsin edilən yeni dəyişikliyə əsasən nəzarət-kassa aparatından istifadə qaydaları pozularsa, birinci dəfə 400, ikinci dəfə 800, üçüncü dəfə isə 1200 manat cərimə nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının vergi məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının 2007-ci il 6 noyabr tarixli 472-111QD nömrəli qanununda fiziki şəxslərin gəlirlərindən vergiyə cəlb edilməsi aşağıdakı cədvəldə verilir.

Cədvəl 3

Vergi tutulan aylıq gəlirin məbləği	Verginin məbləği
2000 manatadək	14 %
2000 manatdan çox olduqda	280 manat+ 2000 manatdan çox olan məbləği 35%-i
Vergi tutulan illik gəlirin məbləği 24000 manatadək	Verginin məbləği 14%
24000 manatdan çox olduqda	3360 manat+ 24000 manatdan çox olan məbləğin 35%-i

Vergilərin məcburi xarakter daşıması qanuna zidd deyildir. Verginin ödəyicisi kimi vətəndaş deyil, mülkiyyətçi çıxış edir. Verginin ödənilməsi sosial vəzifə olmaqla, şəxsi mülkiyyət hüququndan irəli gəlir və vergilərin ödənilməsi vasitəsilə şəxsi mülkiyyət cəmiyyətin maraqlarına xidmət edir. Lakin mülkiyyətçi tərəfindən verginin ödənilməsi heç də hamının eyni dərəcədə vergi ödəməsi demək deyil. Burada əsas kimi vergi ödəyənlərin iqtisadi bərabərliyi və iqtisadi göstəricilərinin müqayisəsi götürülür. Vergi münasibətlərinin iştirakçıları dövlətlə vergi ödəyinin siyasi – hüquqi əlaqəsindən tam şəkildə asılı deyil. Mülkiyyətə vergi tətbiq etməklə, dövlət müxtəlif şəxslərin (istər hüquqi, istərsə də fiziki) həmin dövlətin ərazisində fəaliyyətindən, onun ərazisində yerləşən əmlakdan, əmtəə təlbindən əldə etdiyi gəlirə vergi tətbiq edir.

Beləliklə, dövlət tərəfindən təyin edilən vergi gəlir əldə etmək və ümumilikdə dövlət xərclərinin təmin edilməsi məqsədini güdür. Bunun üçün çox vaxt güzəştlərdən və yaxud da qəti tədbirlərdən istfadə olunur. Vergi ödəyicisinin davranışına təsir göstərmək məqsədini güdən ödəmələrin (çox vaxt onları «tənzimləyici vergilər» də adlandırırlar) prinsipial fərqi onların özünü ləğv etmək tendensiyasına malik olmasıdır. Belə ki, onlar vergi ödəyənin iqtisadi fəaliyyətinə təsir göstərərək onları ya bu fəaliyyətdən imtina etməyə, ya da fəaliyyətini daha da genişləndirməyə vadar edir. Əgər vergi, vergiödəyəni öz iqtisadi fəaliyyətindən imtina etməyə məcbur edirsə, onda bu vergi son nəticədə öz bazasını, yəni həmin vergiödəyənlərin sayının azalmasına şərait yaradır. Əgər vergi iqtisadi fəaliyyəti genişləndirməyə və artırmağa şərait yaradırsa, onda həmin bu vergini ödəyənlərin sayı, həm də vergidən əldə edilən məbləğ artmış olur. Belə vergilərə misal olaraq əlavə dəyər vergisini, mənfəət vergisini və aksizləri göstərmək olar.

Əlavə dəyər vergisi Azərbaycan Respublikası ərazisində malların istehsalı, xidmətlərin göstərilməsi və tədavül prosesində onların dəyərinə əlavənin bir hissəsinin, həmçinin Azərbaycan Respublikası ərazisinə gətirilən və vergi tutulan bütün malların dəyərinin bir hissəsinin büdcəyə ötürülməsidir. ƏDV malların istehsalının və göndərilməsinin, işlər görülməsinin və xidmətlər göstərilməsinin bütün mərhələlərində ödənilir. (Azərbaycan Respublikası Vergi məcəlləsi, maddə 153) ƏDV müxtəlif növ xidmət və məhsulların istehsalını, realizasiyasını və istehlakını tənzimləməklə yanaşı, həm də büdcənin gəlir hissəsinin fomalaşdırılması üçün nəzərdə tutulmuşdur. ƏDV-nin stavkası Azərbaycan Respublikası ərazisində 1992-ci ildə 28 faiz, 1993-cü ildə 20 faiz və artıq 2001.01.01 tarixindən 18 faiz təyin edilmişdir. ƏDV-si ən çox aksizli əmtəələrin qiymət səviyyəsinə təsir edir. Bu zaman ƏDV-si aksiz daxil edilən qiymətlərə tətbiq edilir. Belə qayda əmtəələrin dolayı vergi qoyuluşunu artırır. Aksiz vergiləri istehsalçının qiymətinin tərkibinə daxil edilir, məhdud əmtəə dairəsi üçün müəyyənləşdirilir və bu və ya digər əmtəənin qiymət

– xərc nisbətindən asılı olaraq differensiallaşdırılır. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 182-ci maddəsində deyilir:

«Aksiz – aksizli malların satış qiymətinə daxil edilən vergidir. Azərbaycan Respublikası ərazisində istehsal edilən, yaxud idxal olunan aksizli mallardan, vergidən azad edilən mallar istisna olmaqla, aksiz tutulur». Aksiz vergisinin ödəyicisinə gəldikdə isə maddə 183-də göstərilmişdir ki, Azərbaycan Respublikası ərazisi aksizli malların istehsalı və idxalı ilə məşğul olan bütün müəssisələr və fiziki şəxslər, habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda bilavasitə özü və ya podratçı vasitəsilə aksiz malları istehsal edən və istehsal etdiyi yerdə vergi ödəyicisi kimi uçotda olmayan Azərbaycan Respublikasının rezidentləri aksizin ödəyiciləridir. Sifarişçinin göndərdiyi xammaldan Azərbaycan Respublikası ərazisində mallar istehsal edildiyi hallarda mallar istehsalçısı aksizin ödəyicisidir. Bu halda istehsalçı aksiz məbləğlərini sifaişçidən almalıdır. Hal – hazırda aşağıdakı mallar aksizlik mallara aid edilir:

- spirt, maya, pivə və spirtli içkilərin bütün növləri;
- tütün məmulatları;
- neft məhsulları.

Aksizlərin dərəcələri Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilir və təsdiq edilir. Mənfəət, yaradılmış milli gəlirin ən çox yenidən bölüşdürməyə məruz qalan hissəsidir. O, qiymət və xərclərin səviyyəsi ilə sıx bağlıdır. normalar, rəqabətli bazar iqtisadiyyatında fəaliyyət göstərən müəssisələr onu maksimallaşdırmağa çalışır və buna satış həcminin artırılması, xərclərin minimallaşdırılması, məhsulun keyfiyyətinin artırılması ilə qiymətin yüksəldilməsi hesabına nail olunur. Lakin bəzən müəssisələr inhisarçılıq mövqeyindən və rəqabətin zəif olmasından istifadə edərək mənfəətin artırılmasına qiymətləri yüksəltməklə nail olurlar. Hal – hazırda müəssisələrin mənfəətinin artırılmasına nəzarət etmk və tənzimləmək məqsədilə dövlət müəssisələrinin mənfəətindən 22 faiz dərəcəsi ilə vergi tutur. Azərbaycan Res-publikasında rezident və qeyri – rezident müəssisələr mənfəət vergisinin ödəyiciləridir. Lakin dövlət vergilərdən azad olmalar və güzəştlər tətbiq etməklə, bir

sıra sosial – iqtisadi problemləri həll etməyə çalışır. Belə ki, vergi məcəlləsinin maddə 106 bənd 2-də dövlət əlillərin işlə təmin edilməsi kimi problemi «Əlillərin ictimai təşkilatlarına məxsus olan işçilərin ümumi sayının azı 50 faizi əlillərdən ibarət olan istehsal müəssisələrinin mənfəət vergisinin dərəcəsinin 50 faiz azaldılması hesabına» həll etməyə çalışır. Həmçinin dövlət xeyriyyəçiliklə məşğul olan müəssisələrin mənfəətini vergidən azad etmişdir. (maddə 106, bənd 1).

Ümumiyyətlə, vergilərin ödənilməsinin üç əsas vasitəsi var:

1. deklarasiya üzrə vergilərin ödəilməsi;
2. gəlir mənbəyində verginin ödənilməsi;
3. verginin ödənilməsinin kadastr vasitəsi.

Deklarasiya üzrə vergilərin ödənilməsi vergi ödəyicisinin öz gəliri, başqa sözlə vergi öhdəlikləri haqda təyin edilmiş vaxtda vergi orqanına məlumat verməlidir. Çox vaxt deklorasiyaların verilməsi vergi ödəyicisinin öz istəyilə ödəməyə razı olduğu vergi məbləğini təyin və qeyd etmək üçün istifadə edilir. Sonralar vergi yoxlamaları aparılır və deklorasiya verilənlər ilə faktiki verilənlər tutuşdurulur. Deklorasiya üzrə verginin ödənilməsi demək olar ki, gəlirin əldə edilməsi ilə bir vaxta düşür. Bunun üçün dövlət deklorasiya üzrə verginin ödənilməsi müddətlərini vergi qanunu vasitəsilə tənzimləyir. Gəlir mənbəyindən verginin ödənilməsinə gəldikdə isə vergi ödəyicisi artıq vergi ödənildikdən sonra gəliri əldə edir və bu vasitə nəğdsiz hesablaşma və yaxud avtomatik vergi ödəmə kimi çıxış edir. Çox vaxt belə ödəməni avans vergiləri də adlandırırlar.

Kadastr dedikdə, xarici əlamətlərinə görə təsnifləşdirilən obyektlərin siyahısını təyin edən və vergi ödəmə obyektinin orta gəlirini müəyyənləşdirən reyestr başa düşülür. Kadastr tərtib ediləndə obyektin hər hansı bir xüsusiyyəti əsas kimi götürülə bilər. Məsələn, torpaq kadastrı tərtib ediləndə torpağın növündən asılı olaraq keyfiyyəti (məhsuldarlığı) əsas hesab edilir. Lakin dəyərindən və fiziki vəziyyətindən asılı olaraq kadastrlar daim dəqiqləşdirilir. Kadastr vasitəsilə verginin ödənilməsində gəlirin əldə edilməsi ilə verginin tutulması vaxtı müxtəlifdir. Ona görə də bu vergi ödəməsi üçün vergi orqanları tərəfindən konkret

vaxt müəyyənləşdirilir. Vergi qanunvericiliyinin pozulmasına görə hüquqi məsuliyyət problemi aktual problem olmaqla hüquqşünaslar və həm də iqtisadçılar tərəfindən tədqiq edilir. Hüquqi məsuliyyət vergi qanunvericiliyinin pozulması hallarını aradan qaldırmağa, vergi münasibətləri subyektlərinin vergi qanunlarına riayət etmələrini stimullaşdırmağa yönəldilmişdir. Vergi qanunvericiliyinin pozumasına görə hüquqi məsuliyyət aşağıdakı hallarda baş verir:

- vergi sahəsində dələduzluğa, pozuntulara yol verildikdə;
- hüquq normativ aktlarının pozulduğu şəraitdə.

Vergi qanunvericiliyinin pozulmasına görə hüquqi məsuliyyətin aşağıdakı xüsusiyyətlərini qeyd etmək olar:

1. vergi qanunvericiliyinin pozulmasına görə hüquqi məsuliyyət müxtəlif hüquq normalarının pozulması ilə əlaqədardır. Bunlar büdcəyə bu və ya digər ödəmələrin düzgün və vaxtında ödənilməsi ilə bağlıdır.

2. vergi qaunvericiliyinin pozulmasına görə hüquqi məsuliyyət subyektləri kimi vergi ödəyiciləri, vergilərin ödənilməsində iştirak edən şəxslər (burada vergi müfəttişləri, vergi köçürmələri ilə məşğul olan banklar və digər təşkilatlar nəzərdə tutulur), uyğun vergi orqanları və onların rəhbərləri bir sözlə həm hüquqi, həm də fiziki şəxslər çıxış edirlər.

3. vergi qanunvericiliyinin pozulmasına tətbiq edilən sanksiyalar əsasən əmlak xarakterli olur. Lakin bəzi hallarda bu cinayət (yəni iqtisadi cinayət) məsuliyyəti ilə də nəticələnə bilər.

4. vergi qanunvericiliyini pozan şəxsləri vergi qanunvericiliyinin pozulmasına görə hüquqi məsuliyyətə cəlb edirlər. Əgər lazım olarsa, məsuliyyətə cəlb etmə məhkəmə xarakterli də ola bilər.

Yuxarıda deyilənləri və Azərbaycan Respublikası vergi qanunvericiliyinin əsasnaməsini nəzərə alaraq vergi qanunvericiliyinin pozulmasına görə aşağıdakı məsuliyyət növlərini göstərmək olar:

- vergi qanunvericiliyinin pozulmasına görə inzibati məsuliyyət.
- vergi qanunvericiliyinin pozulmasına görə cinayət məsuliyyəti.

- vergi qanunvericiliyinin pozulmasına görə maddi və inzibati məsuliyyət.

Vergi qanunvericiliyinin pozulmasına görə şəxslərin inzibati cinayət və maddi məsuliyyətini nəzərə alan Azərbaycan Respublikasının aşağıdakı qanunverici akt sistemi mövcuddur:

- Azərbaycan Respublikası Cinayət Kodeksi,
- Azərbaycan Respublikası inzibati hüquq pozuntuları haqda Kodeks,
- «Dövlət vergi xidməti haqda» Azərbaycan Respublikası qanunu,
- Dövlət vergi orqanları işçilərinin inzibati məsuliyyətinə dair əsasnaməsi,
- Azərbaycan Respublikası Kömrük Kodeksi.

«Dövlət vergi xidməti haqda» Azərbaycan Respublikası Qanununun 4 maddəsinin 2 bəndinə uyğun olaraq Vergi ödəmə obyektlərinin uçotu dəqiq və vaxtında aparmalıdır. Bu zaman vergi ödəyiciləri haqda məlumat Dövlət Reestrinə daxil edilir. Müəssisə qeydiyyatdan keçdikdən sonra 15 gün müddətində yerləşdiyi ərazidə vergi müfəttişliyində uçota dayanmalıdır. Əgər müəssisə dövlət vergi orqanlarına göstərilən müddət ərzində məlumat vermirsə və uçota dayanmayırsa, onda vergi müfətişliyinin rəisi bu müəssisənin bütün əməliyyatlarını dayandırmağa hüququ vardır. (dövlət vergi xidməti haqqında qanunun 5–ci maddəsi). Bu zaman müəssisə rəhbərləri Azərbaycan Respublikası inzibati hüquq pozuntuları haqda Kodeksin 162-ci maddəsinə uyğun olaraq inzibati məsuliyyətə cəlb edilə bilərlər. Əgər müəssisə dövlət qeydiyyatından keçməyibsə, nə də vergi orqanlarında uçota dayanmayıbsa, onda vergi müfəttişliyi müəssisənin qeydiyyatdan keçmədiyi dövrdə əldə etdiyi gəlirin tutulması ilə bağlı məhkəməyə müraciət edərək iddia qaldıra bilər. (Dövlət vergi xidməti haqda qanunun 5-ci maddəsinin 11-ci bəndi). Əgər müəssisə öz fəaliyyəti haqda məlumatı düzgün verməyibsə və mənfəətini ya gizlətməyə, ya da azaltmağa çalışıbsa, onda buna görə müəssisə rəhbəri «Dövlət vergi xidməti haqda» qanunun 6 maddəsi bənd 1 və 2 göstərildiyi kimi məsuliyyət daşıyır və o rəsmi

xəbərdarlıq alır, gizlədilən ya da azaldılan mənfəət məbləğində cərimə edilir. Belə hal bir il ərzində təkrarlanarsa, onda cərimənin məbləği gizlədilən (azaldılan) məbləğdən üç dəfə, iki il ərzində təkrarlanarsa iki dəfə çox olur. Ümumiyyətlə, bütün vergidən yayınma hallarının qarşısını almaq üçün vergi orqanları nəzarət xarakteri daşıyan bir sıra tədbirlər həyata keçirirlər ki, bunlara da aşağıdakıları aid etmək olar:

- vergi və digər xidmətlərlə bağlı sənədlərin, həmçinin müəssisə və təşkilatlara dövlət qiymət intizamının yerinə yetirilməsinin yoxlanılması;
- yoxlama zamanı qarşıya çıxan suallar üzrə lazımi məlumat və arayışların tələb edilməsi;
- vergi qanunvericiliyinin pozulmasını aşkar etdikdə sənədləşdirilmiş təftiş (yoxlama) aparılması;
- müəssisələrin, təşkilatların və vətəndaşların (sahibkarlıq fəaliyyəti ilə məşğul olan) istehsal, anbar, ticarət və digər sahələrin yoxlanılması;
- vergi ödəyicisinin maliyyə – təsərrüfat fəaliyyəti haqda lazımi məlumatları (vergi köçürmələri, hesabda yerləşən məbləğ və s.) onlar müştərisi sayılan bank və digər maliyyə – kredit idarələrindən tələb etmək;
- vergi ödəyiciləri tərəfindən mühasibat hesabatları və balanslarının, vergi hesablaşmaları, deklarasiya və büdcəyə ödəmələrlə bağlı digər sənədlərin tələb edilməsi, onların dəqiq olmasının yoxlanılması və vaxtında verilməsinə nəzarət.

Beləliklə, vergilər, kömrük tarifləri, rüsumlar dövlət tərəfindən daim nəzərdən keçirilir və mövcud qanunvericilik çərçivəsində tənzimlənərək həyata keçirilir.

MÖVZU 7. DÖVLƏT BÜDCƏ SİSTEMİ VƏ ONUN FƏALİYYƏTİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

Plan:

1. Dövlət büdcəsi haqda anlayış və onun qanunvericilik əsasları.
2. Büdcə sistemi və büdcə təsnifatı.
3. Dövlət büdcəsinin strukturu.
4. Dövlət büdcə layihəsinin tərtibi,müzakirəsi və təsdiqi.
5. Dövlət büdcəsinin yerinə yetirilməsi və ona nəzarət.

Ölkənin sosial-iqtisadi inkişafında, onun tənzimlənməsində əsas mənbələrdən biri dinamik, davamlı, maliyyə sisteminin yaradılmasıdır ki, onunda tərkib hissəssini dövlət büdcəsi təşkil edir. Məhz maliyyə sistemi vasitəsilə dövlət mərkəzləşdirilmiş pul vəsaitləri fondları yaradır, qeyri – mərkəzləşdirilmiş fondların formalaşmasına təsir edir və dövlət orqanlarının üzərinə qoyulmuş funksiyaların yerinə yetirilməsini təmin edir.

Dövlət büdcəsi ölkənin pul gəlirləri və xərclərini özündə əks etdirən hissədən – gəlir və xərclər hissəsindən ibarət olmaqla yanaşı, mərkəzi və yerli büdcəyə ayrılır. Mərkəzi büdcə yerli büdcədən fərqli olaraq ölkənin bütün pul resurslarını özündə əks etdirir. Ölkənin 2008-ci ildə icmal büdcəsi 18 milyard manatdan çoxdur.

Hal – hazırda maliyyə münasibətlərinin hüquqi tənzimlənməinin aktuallığı, iqtisadiyyatın idarə edilməsi və tənzimlənməsində maliyyə mexanizminin alətlərindən aktiv istifadəni tələb edən bazar münasibətlərinə keçidlə şərtlənir.

Büdcə sistemi, dövlətin iqtisadi həyatının vacib tərəflərindən biridir. Büdcə posesi nəticəsində hər il qəbul olunan dövlət büdcəsi haqda Qanun ölkənin iqtisadi inkişaf strategiyasını və istiqamətlərini müəyyənləşdirən vacib iqtisadi sənədlərə aiddir ki, onun tərtibi üçün dövlətin makro və mikroiqtisadi inkişaf proqramlarının işlənib hazırlanması, əvvəlki illərin büdcələrinin

yerinə yetirilməsinin nəticələri nəzərə alınmaqla, mövcud vəziyyətin geniş təhlili lazım gəlir.

Büdcəyə bir anlayış kimi ən azı üç aspektdə baxmaq olar: büdcə iqtisadi kateqoriya kimi; büdcə maddi obyekt kimi; büdcə hüquqi kateqoriya kim.

Büdcə iqtisadi kateqoriya kimi iqtisadi münasibətlərin sistemini əks etdirir ki, onların həyata keçirilməsi də büdcə fondlarının yaradılması, bölüşdürülməsi və istifadəsi ilə bağlıdır. Büdcə maddi obyekt kimi dövlət hakimiyyəti funksiyasının təmini üçün bu və ya digər səviyyədə formalaşan mərkəzləşdirilmiş pul fondlarını əks etdirir. Büdcə hüquqi kateqoiya kimi müəyyən ərazinin bu mərkəzləşdirilmiş pul fondlarının formalaşması, bölüşdürülməsi və istifadəsinin maliyyə planıdır ki, o da ərazilərin müvafiq hakimiyyət orqanları tərəfindən təsdiq edilir.

Büdcələrdə pul vəsaitlərinin mərkəzləşdirilməsi ölkə ərazisində dövlətin vahid iqtisadi və maliyyə siyasətinin həyata keçirilməsini təmin edir. Büdcədən kompleks, məqsədli proqramların, - ölkənin elmi – texniki inkişafının maliyyələşdirilməsi, aqrar sənaye kompleksinə, kiçik və orta biznesin inkişafına köməklik, dövlətin köməyinə ehtiyacı olan vətəndaşların təminatına yönəldilən sosial proqramların maliyyələşdirilməsi həyata keçirilir.

Azərbaycan Respublikasında büdcə strukturu vahidlik, tamlıq, reallıq, aşkarlıq və bütün büdcələrin müstəqilliyi, büdcənin balanslaşdırılmasının təmiri olması, büdcə vəsaitlərinin istifadəsinin səmərəlik və qənaətli olması, büdcənin dəqiqliyi, büdcə vəsaitlərindən istifadənin ünvanlı və məqsədli xarakterli olması prinsipinə əsaslanır.

Büdcə sisteminin vahidliyi vahid hüquqi baza, vahid büdcə təsnifatından istifadə, büdcə sənədlərinin vahid forması, büdcə prosesinin razılaşdırılmış prinsipləri və vahid pul sistemi ilə təmin edilir. Büdcə sisteminin vahidliyini tənzimləyən gəlir mənbələrindən istifadə məqsədli və regional büdcə fondlarının yaradılması və onların nisbətən bölüşdürülməsi vasitəsilə həyata keçirilən bütün səviyyələrin büdcələrinin qarşılıqlı əlaqələrinə əsaslanır.

Büdcə sisteminin tamlığı prinsipi Azərbaycan Respublikası ərazisində yeri olan bütün növ gəlir mənbələrinin büdcə sis-

teminə daxil edilməsi ilə təmin olunur. Gəlir mənbələrinin yeni növləri iqtisadiyyatda yeni fəaliyyət sferalarının yaranması ilə meydana gəlir. Belə ki, məsələn, bazar münasibətlərinə keçidlə əlaqədar özəlləşdirmədən əldə olunan gəlirlər, səhmlər üzrə dividendlər, sahibkarlıqdan əldə olunan gəlirlər və s. bu kimi yeni gəlir mənbələri yaranır.

Bütün dövlət və bələdiyyə xərcləri büdcə vəsaitləri, dövlət büdcədən kənar fondların vəsaitləri, Azərbaycan Respublikasının büdcə sistemində akkumulyasiya edilmiş vəsaitlər hesabına maliyyələşdirilir. Büdcənin gəlir mənbələri qanunvericiliklə təsdiq edilir və real mövcud olmalıdır, onların büdcələrə daxil olması isə dövlət tərəfindən zəmanətləndirilir.

Büdcələrin müstəqilliyi özünün gəlir mənbələrinin mövcudluğu və onların istifadəsinin xərclənməsinin istiqamətlərini müəyyənləşdirmək hüququ qaydaları ilə təmin edilir. Büdcələrin müstəqilliyi qanunvericiliklə möhkəmləndirilərək konkret subyektlərin büdcə hüququ ilə təsdiqlənir.

Büdcə sisteminin aşkarlıq prinsipi qarşıda duran il üçün büdcələrin və keçən ilin büdcələrinin yerinə yetirilməsinin nəticələrinin açıq, hərtərəfli müzakirəsi ilə təmin edilir.

Aşkarlıq dedikdə, təsdiq edilmiş büdcələrin və onların yerinə yetirilməsi haqda hesabatların mütləq açıq yayımda nəşr etdirilməsi, büdcələrin yerinə yetirilməsinin gedişi haqda informasiyanın tam verilməsi, həmçinin dövlət hakimiyyətinin qanunverici orqanlarının, yerli özünü idarə orqanlarının digər məlumatlarının əldə edilən olması, büdcə layihələrinə baxılması və qərar qəbul edilməsi proseduralarının, o cümlədən ya dövlət hakimiyyəti qanunverici orqanı daxilində, ya da qanunverici və icraedici dövlət orqanları arasında fikir ayrı seçkiliyi yaradan məsələlər üzrə həm cəmiyyət, həm də, kütləvi informasiya vasitələri üçün mütləq açıqlıq başa düşülür.

Büdcənin balanslaşdırılması, büdcədə nəzərdə tutulan xərclərin həcminin büdcənin gəlirlərinin və onun kəsirinin maliyyələşdiilməsi mənbəyindən daxil olmaların məbləği cəminə uyğun olması deməkdir.

Büdcə vəsaitlərinin səmərəliliyi və qənaətliliyi büdcənin tərtibi və yerinə yetirilməsi nəticəsində baş verir.

Azərbaycan Respublikasının büdcə strukturunun əsasları ölkənin Konstitusiyası və dövlət quruluşu ilə müəyyən edilir.

Azərbaycan Respublikasının Konstitusiyasına (fəsil VIII və XI) və Azərbaycan Respublikasının «Dövlət büdcəsi haqda» (maddə 3) Qanuna əsasən Azərbaycan Respublikasının büdcə sistemi 3 səviyyədən ibarətdir: Azərbaycan Respublikası dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən, yerli büdcələrdən.

Büdcə sisteminin vahidliyi tənzimlənən gəlir mənbələrinin istifadəsi, regional və məqsədli büdcə fondlarının yaradılması, həmçinin müxtəlif səviyyəli büdcələr arasında maliyyə resurslarının nisbətən yenidən bölüşdürülməsi vasitəsilə müxtəlif səviyyəli büdcələr arasında qarşılıqlı əlaqəyə əsaslanır və vahid büdcə təsnifatı və büdcə sənədləri formalarının istifadəsi, büdcələrin yerinə yetirilməsi üzrə vaxtaşırı hesabların və büdcələrin tərtib edilməsi üçün zəruri informasiyanın aşağı səviyyəli büdcələrdən yuxarı səviyyəli büdcələrə verilməsi ilə təmin edilir. («Büdcə sistemi haqda» Qanun, maddə 4).

Azərbaycan Respublikasının büdcə sisteminə aid olan büdcələr müstəqildirlər və bir – birinə daxil olmurlar. Dövlət büdcəsinin Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrlə qarşılıqlı əlaqəsi, gəlir mənbələrinin bölüşdürülməsi vasitəsilə həyata keçirilir. Ayrı-ayrı ərazilərin zəruri sosial – iqtisadi problemlərin həlli üçün öz gəlir mənbələri kifayət etmədiyi halda, dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə dotasiyaların subvensiyaların, subsidiyaların ayrılması, büdcə borcunun verilməsi nəzərdə tutula bilər. («Dövlət büdcəsi haqda» Qanun, maddə 9)

Büdcə hüquq münasibətləri – müvafiq normativ – hüquqi aktlarla (normalarla) tənzimlənən, maliyyə sisteminin tərkib hissəsi olan büdcələrin yaradılması, bölüşdürülməsi və istifadəsi üzrə yaranan ictimai münasibətlərdir. Belə ictimai münasibətlərə aşağıdakı hallarda yaranan münasibətlər daxildir:

1. Azərbaycan Respublikasında büdcə sisteminin və büdcə strukturunun yaranması;

2. Azərbaycan Respublikası büdcə sisteminin gəlir və xərclərinin strukturunun təyin edilməsi və onların müxtəlif səviyyəli büdcələr arasında bölüşdürülməsi;

3. Azərbaycan Respublikası dövlət hakimiyyət orqanları və yerli özünü idarəetmə orqanları arasında büdcə səlahiyyətlərinin ayırd edilməsi;

4. Büdcə prosesinin təşkili ilə, yəni uyğun büdcələrin yerinə yetirilməsi üzrə hesabatların tərtibi, baxılması, təsdiqi qaydalarının təyin edilməsi;

5. Büdcələrin yerinə yetirilməsi və nəzarətin təşkili.

Uyğun normativ – hüquqi aktlarla tənzimlənən yuxarıda sadalanan ictimai münasibətlər qrupları büdcə hüquq münasibətlərinə çevrilir;

Büdcə hüquq münasibətlərinin subyektlərini aşağıdakı üç qrupa bölmək olar:

1. Azərbaycan Respublikası, Muxtar Respublika, şəhərlər, rayonlar, kənd və qəsəbələr;

2. Dövlət və yerli hakimiyyətin icraedici və təmsil edici orqanları - Azərbaycan Respublikası hakimiyyəti; müxtəlif səviyyəli hakimiyyət orqanları; maliyyə orqanları sistemi (Azərbaycan Respublikası Maliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi); maliyyə idarəetməsi və şöbələri; Azərbaycan Respublikası Dövlət Xəzinədarlığı; banklar sistemi və s;

3. dövlət və bələdiyyə təşkilatları – dövlət və bələdiyyə müəssisələri; uyğun büdcədən maliyyələşən təşkilatları;

Büdcə hüquq münasibətlərinin subyektləri aşağıdakı xüsusiyyətləri xarakterizə edir:

- subyekt büdcələr arasında gəlir və xərclərin bölüşdürülməsində iştirak edir;
- subyekt büdcə prosesinin iştirakçısıdır;
- subyekt maliyyələşmə formasında büdcədən pul almaqla büdcə ilə əlaqəli olur.

Beləliklə, qeyri – dövlət təşkilatları və vətəndaşlar büdcə hüquq münasibətlərinin subyektləri ola bilməzlər, çünki onların büdcə ilə münasibətləri ya vergi qanunvericiliyi, ya da digər qanunvericilik sahələri ilə müəyyən edilir.

Büdcə hüquq münasibətlərinin subyektlərinin büdcə hüquqları, ilk növbədə «Büdcə sistemi haqda» Azərbaycan Respublikasının Qanunu ilə təsdiqlənir.

Azərbaycan Respublikasının büdcə – hüquq statusunun xüsusiyyətlərini nəzərə alaraq Azərbaycan Respublikasının büdcə hüququnu 2 qrupa bölmək olar:

1. Azərbaycan Respublikasının suveren, vahid və bölünməz dövlət büdcə hüququ;

2. Azərbaycan Respublikasının özünün və ondan aşağıda duran büdcələrinə nisbətən büdcə hüququ.

Birinci qrup büdcə hüquqları Konstitusiya normalarına əsaslanır və onlar Azərbaycan Respublikasının suverenliyinin, onun bütün ərazisinə şamil edildiyini və Azərbaycan Respublikasının vahid iqtisadi mühitin hüquqi əsaslarını təyin etmək səlahiyyətlərini müəyyənləşdirir. Deməli, Azərbaycan Respublikası elə büdcə hüquqlarına malikdir ki, onlar bütün subyekt və yerli özünüidarəetmə orqanlarına tətbiq olunur.

Vahid və bölünməz suveren dövlət kimi Azərbaycan Respublikasının büdcə hüquqlarına aşağıdakılar aid edilir:

- Büdcə növlərinin, onların Azərbaycan Respublikası büdcə sistemində birləşməsinin prinsip və qaydalarının təyin edilməsi;
- Cari xərclər büdcəsinə və inkişaf büdcəsinə daxil edilən xərclərin növlərinin müəyyənləşdirilməsi;
- Dövlət büdcəsinə və yerli büdcələrə daxil olan gəlir mənbələrinin tərkibinin müəyyənləşdirilməsi;
- Müxtəlif səviyyəli büdcələrin xərc hissəsinin formalaşmasının ümumi qaydalarını təyin etmək;
- Vahid büdcə təsnifatını təsdiqləmək;
- Yerinə yetirilmə səviyyəsindən asılı olmayaraq, Azərbaycan Respublikasında büdcə prosesinin təşkilinin əsasları və prinsiplərini təyin etmək;

- Azərbaycan Respublikasının bütün ərazisində büdcə qanunvericiliyinə riayət edilməsinə nəzarəti həyata keçirmək;
- Bütün səviyyəli büdcələrin balanslaşdırılması üzrə ümumi tədbirlər sistemini təyin etmək.

Yuxarıda göstərilən Azərbaycan Respublikasının büdcə hüquqlarının yerinə yetirilməsi, onun bütün ərazisində vahid maliyyə – büdcə siyasətini həyata keçirməyə yönəldilib.

İkinci qrup büdcə hüquqları dövlət büdcəsinin formalaşması, bölüşdürülməsi və istifadəsi üzrə hüquqları və aşağı səviyyəli büdcələrə nisbətən malik olduğu hüquqları özündə birləşdiir. Onlara aiddir:

- Öz büdcəsinə malik olma hüququ;
- Dövlət büdcəsinə daxil olan sabit gəlirlərin alınması hüququ;
- Dövlət büdcəsinin istifadəsinin istiqamətlərinin və bu istiqamətlər üzrə büdcə vəsaitlərinin həcminin müəyyən edilməsi hüququ;
- Büdcə prosesinin təşkili və həyata keçirilməsi hüququ (dövlət büdcəsinin planlaşdırılması, baxılması, təsdiqi və yerinə yetirilməsi);
- Dövlət büdcəsinin kəsirinin həddölçülərini müəyyən etmək və büdcənin yerinə yetirilməsi mərhələsində onun azaldılması üzrə tədbirlər işləyib hazırlamaq hüququ;
- Dövlət büdcəsinin cari xərclərinin müdafiə olunan maddələrinin siyahısını təsdiq etmək hüququ;
- Dövlət büdcəsinin tərkibində ehtiyat və digər məqsədli fondların yaradılması hüququ;
- Dövlət büdcəsinin formalaşması, bölüşdürülməsi və istifadəsi üzrə bütün məsələlərin qanunvericiliklə tənzimlənməsi hüququ;
- Dövlət səviyyəsində büdcə prosesinin həyata keçirilməsi mərhələlərinin, qaydalarının təsdiqi hüququ;
- Dövlət büdcəsinin yerinə yetirilməsi prosesində onun gəlir və xərclərinin maddələrinin dəqiqləşdirilməsi hüququ;

• Dövlət büdcəsi üzrə sekvestr mexanizminin tətbiqi hüququ;

• Dövlət büdcəsinin yerinə yetirilməsi haqda hesabatın təsdiqi hüququ.

Azərbaycan Respublikasının aşağı səviyyəli büdcələrə görə büdcə hüquqlarına aiddir:

• Tənzimləyici gəlirlərdən ayırmaların normativlərinin təsdiqi;

• Dövlət büdcəsindən aşağı səviyyəli büdcələrə verilən dotasiyaların ölçülərinin müəyyən edilməsi;

• Aşağı səviyyəli büdcələrə verilən subvensiyaların, həmçinin, digər şərtlərinin məqsədli istiqamətlərinin müəyyən edilməsi;

• Dövlət büdcəsindən dotasiya və subvensiyaların verilməsi və onların istifadəsi qaydalarını tənzimləyən xüsusi qanunvericiliyin qəbulu;

• Öz səlahiyyətləri çərçivəsində büdcə münasibətlərinin büdcə qanunvericiliyinə riayət etməsinə nəzarəti həyata keçirmək;

Naxçıvan Muxtar Respublikasının subyektlərinin büdcə hüquqlarının istiqamətlərinə görə üç qrupa ayırmaq olar:

1. dövlət büdcəsinə nisbətdə büdcə hüququ.

Azərbaycan Respublikasının Konstitusiyası və ölkənin qanunvericiliyi təyin etdiyi həddə, Naxçıvan Muxtar Respublikası büdcə səlahiyyətlərinin həyata keçirilməsində iştirak edir. Beləliklə, Naxçıvan Muxtar Respublikası bilavasitə Azərbaycan Respublikasına malik olan büdcə hüququnun həyata keçirilməsində konkret iştirak etmək hüququna malikdir.

2. öz büdcəsinə nisbətən büdcə hüququ.

Bu büdcə hüquqları Naxçıvan Muxtar Respublikasına, onun müstəqilliyini müəyyən edən hüquqi statusuna görə aiddir:

• öz büdcəsinə malik olma hüququ;

• onun formalaşması, bölüşdürülməsi və istifadə edilməsi hüququ;

• qanunvericiliklə nəzərdə tutulan və öz büdcəsinə aid gəlirlərin alınması hüququ;

• dövlət büdcəsinin qəbulu zamanı dövlət büdcə orqanları tərəfindən təsdiq edilən, tənzimlənən gəlir mənbələrindən ayırmaların alınması hüququ;

• Azərbaycan Respublikasının qanunveiciliyində müəyyən hallarda, Naxçıvan Muxtar Respublikasının büdcəsi dövlət büdcəsindən dotasiya və subvensiyaların alınması hüququna malikdir;

• Öz büdcələrinin xərclərinin istiqamətlərini və bu istiqamətlər üzrə büdcə vəsaitlərinin həcminin müstəqil müəyyən etməsi hüququ;

• Öz büdcəsinin tərkibində ehtiyat və digər məqsədli fondları yaratmaq hüququ;

• Büdcə kəsirinin həddini aşdığı hallarda sekvestr mexanizmini tətbiq etmək hüququ;

• Dövlət hakimiyyət orqanları tərəfindən öz büdcəsinin gəlirlərinin azaldılması və yaxud xərclərinin artmasına gətirən aktın qəbulu, ya da dövlət orqanlarının öz səlahiyyətlərini pozmaqla, öz büdcəsinə ziyan gətirən aktların qəbulu zamanı dövlət büdcəsindən kompensasiya ödəmələrini almaq hüququ.

Beləliklə, dövlət büdcəsi – dövlətin pul gəlir və xərclərinin illik proqrammı olmaqla belə, Milli iqtisadiyyatın inkişafında, onun tənzimlənməsində əsas baza roluna malikdir. Odur ki, büdcə layihəsi hər il dövlət qanunvericiliyi orqanlarında baxılaraq geniş müzakirə olunaraq təsdiq edilir. Daha doğrusu maliyyə ili başa çatdıqda icra aparatının geniş nümayəndələri hesabat verir və dövlət büdcəsinin gəlir və xərclərinin artırılmasının əsas istiqamət və mənbələrini göstərir.

Büdcə sistemi haqqında Azərbaycan Respublikasının qanununda göstərilir ki, büdcə sisteminin təşkilinin, büdcələrin tərtibi, təsdiqi, icrası və onların icrasına nəzarətin təşkilatı, hüquqi və iqtisadi əsaslarını; habelə dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının, yerli büdcələrin qarşılıqlı əlaqələrinin əsas prinsipi bu qanun əsasında müəyyən edilir.

MÖVZU 8. PUL-KREDİT SİSTEMİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

Plan:

1. Pul-kredit sferasının hüquqi tənzimlənməsinin əsasları.
2. Bank sistemi və bank fəaliyyəti və onun tənzimlənməsi.
3. Kredit təşkilatları, onların fəaliyyətinin hüquqi əsasları.
4. Milli Bank, onun fəaliyyətinin hüquqi əsasları. Milli Bankın əsas funksiya və vəzifələri.

Pul – kredit siyasəti – Makroiqtisadiyyatın sabit və tarazlı inkişafını təmin etmək üçün pul dövriyyəsi və kredit münasibətləri sahəsində Mərkəzi Bankın həyata keçirdiyi tədbirlər məcmusudur. Onun əsas məqsədi inflyasiya ilə aktiv mübarizə aparmaqla yanaşı, pul dövriyyəsi və kredit vəziyyətinə təsir göstərmək yolu ilə iqtisadi vəziyyəti tənzimləməkdir. Pul – kredit siyasəti ya kreditin stimullaşdırılmasına və pul emissiyasına (kredit ekspansiyası, ya da onların məhdudaşdırılmasına kredit restriksiyası) yönəldilir.

Mütərəqqi dövlətlərin əksəriyyəti pul – kredit siyasətinə demokratik cəmiyyət üçün hakimiyyətin diktaturasına və ölkədə işgüzarlıq aktivliyinin azalmasına gətirməyən alət kimi baxırlar. Hal-hazırda respublikamızda pul-kredit sferasının hüquqi tənzimlənmə mənbələri kimi aşağıdakılar çıxış edir:

"Azərbaycan Respublikasının Milli Bankı haqqında" Azərbaycan Respublikasının Qanunu, "Azərbaycan Respublikasında Banklar və bank fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu (1998-ci il 21 sentyabr, 1998-ci il 20 oktyabr, 2001-ci il 23 noyabr, 2002-ci il 23 aprel və 2002-ci il 24 dekabr tarixli Qanunlar və bu qanunlara və bu qanunlara edilmiş əlavə və dəyişikliklərlə).

Pul – kredit siyasətinin bələdçisi kommersiya bankları və digər kredit təşkilatlarının daxil olduqları bank sisteminin əsas elementi olan ölkənin Mərkəzi Bankıdır.

Yerinə yetirdiyi iqtisadi funksiyalar nöqteyi nəzərindən bank sistemi maliyyə sisteminin bir hissəsidir. Banklardan praktiki olaraq bütün pul ehtiyatları keçir və onların işindən bütün maliyyə sisteminin, pul dövriyyəsinin normal fəaliyyəti çox asılıdır. Ölkədə mövcud olan banklar sadəcə kredit təşkilatlarının məcmusunu deyil, müəyyən mənada onun sistemini təşkil edir. Onun həlqələrinin kəmiyyət tərkibi və keyfiyyət səviyyəsi öz üzərində iki əsas amili: iqtisadiyyatın banklara olan obyektiv tələbi və dövlət tərəfindən məqsədyönlü tənzimlənməni əks etdirir. İqtisadiyyatın tələbi bank sisteminin kredit institutları və hesablaşma – kassa mərkəzləri kimi mövcudluğunu müəyyən edir, dövlət tərəfindən tənzimləmə isə bank sisteminin qaydaya salınmasına, onun sabitliyini və səmərəliliyini təmin etməyə yönəldilir.

Azərbaycan Respublikasının bank sistemi əksər dövlətlərin bank sistemi kimi iki səviyyədən: aşağı – kommersiya bankları və digər kredit təşkilatlarından; ali – Azərbaycan Respublikası Milli Bankından ibarətdir. Milli Bank dövlətin mərkəzi bankıdır və onun fəaliyyəti Azərbaycan Respublikası Konstitusiyası, «Azərbaycan Respublikası Milli Bankı haqqında» Azərbaycan Respublikası Qanunu, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, bu qanun və bunlara müvafiq habelə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir. **Azərbaycan Respublikasının bank sistemi Milli Bankdan və respublikanın kredit təşkilatlarından ibarətdir.**

Azərbaycan Respublikası qanunları Milli Bankın bunlara müvafiq olaraq qəbul edilmiş normativ aktları, Azərbaycan Respublikasının digər normativ-hüquqi aktları, habelə Azərbaycan Respublikasının tərəf çıxdığı nümayəndələrlə tənzimlənir.

Qeyd etmək lazımdır ki, bank sistemi xarici kapitalın iştirakı olan kredit təşkilatları və xarici bankların filialları üçün də açıqdır. Lakin Milli Bank sisteminin müdafiəsi və təhlükəsizliyi üçün qanunvericilikdə bəzi məhdudiyyətlər nəzərdə tu-

tulub. Belə ki, «Banklar və bank fəaliyyəti haqqında» Qanununun 11 maddəsində deyilir:

1. Milli Bank respublikanın bank sistemində xarici kapitalın iştirak limitini müəyyən edir. Bu limitə çatdıqda, yaxud müvafiq xarici dövlətdə Azərbaycan Respublikasının kredit təşkilatı üçün məhdudiyyət qoyulduqda Milli Bank xarici kapitalın iştirak etdiyi kredit təşkilatlarına və xarici bank filiallarına bank lisenziyalarının verilməsini dayandırır.

2. Xarici kapitalın iştirakı ilə yaradılan kredit təşkilatında və xarici bankın filialında müdir və ya müavinlərindən ən azı biri Azərbaycan Respublikasının vətəndaşı olmalıdır.

3. Kredit təşkilatının qeyri-rezidentlərin vəsaiti hesabına öz nizamnamə kapitalını artırması, qeyri-rezidentlərin xeyrinə öz səhmlərini (paylarını) özgəninkiləşdirməsi üçün Milli Bankdan icazə alınmalıdır. Bu halda, Milli Bank kredit təşkilatını qeyri-rezidentlərin vəsaiti hesabına öz nizamnamə kapitalının artırmasını və qeyri-rezidentlərin xeyrinə səhmlərini (paylarını) özgəninkiləşdirməsini bu şərtlə qadağan edə bilər ki, həmin əqdlər nəticəsində respublikanın bank sistemində xarici kapitalın iştirak limiti pozulmuş olsun. Belə icazə olmadan qeyri-rezidentlərlə bağlanmış bu cür əqdlər etibarsız sayılır.

4. Kredit təşkilatının fəaliyyəti dövründə səhmdarlar (payçılar) sırasına qeyri-rezidentlər daxil olduqda Milli Banka bu Qanunun 7-ci maddəsində nəzərdə tutulan əlavə sənədlər təqdim edilməlidir.

5. Milli Bank, xarici investisiyalı kredit təşkilatına, xarici bank filiallarına, məcburi normativlər, hesabatların təqdim edilməsi, rəhbərliyin tərkibi və aparılan bank əməliyyatları, habelə yeni açılan xarici investisiyalı kredit təşkilatının və xarici bankın filialının kapitalının minimum məbləği və onların kapitalının xaricdə yerləşdirilməsi barədə əlavə tələblər müəyyənləşdirə bilər.

6. Xarici bankın yerləşdiyi ölkədə hüquqi və fiziki şəxslərdən pul depozitləri və ya qaytarılmalı olan digər vəsait almağa icazəsi olduqda, onun filialları üçün bank lisenziyaları

verilə bilər. Bu zaman xarici bank öz filialının borclarına tam cavabdeh olduğu barədə öhdəlik götürməlidir.

7. Filial vasitəsilə fəaliyyət göstərmək üçün xarici bank Milli Bankdan lisenziya almalıdır. Milli Bank verdiyi lisenziyada xarici bankın qeydə alındığı ölkədə ona verilmiş lisenziyada nəzərdə tutulmayan bank əməliyyatlarının onun filialı tərəfindən Azərbaycan Respublikasında aparılmasına icazə vermir.

Beləliklə, Azərbaycan Respublikasının bank sisteminə Azərbaycan Respublikası Milli Bankı və onun, kredit təşkilatları, həmçinin xarici kapitalın iştirakı olan kredit təşkilatları və xarici bankların filialları daxildir.

Maliyyə ehtiyatlarının dövriyyə, kredit – hesablaşma əməliyyatları, inkassasiya və nağd pulun verilməsi kredit təşkilatları vasitəsilə həyata keçirilir. Kredit təşkilatları anlayışı «Banklar və bank fəaliyyəti haqqında» qanunun maddə 1 verilir. «Kredit təşkilatı» — öz fəaliyyətinin əsas məqsədi kimi mənfəət götürmək üçün Milli Bankın lisenziyası (xüsusi icazəsi) əsasında Qanunda nəzərdə tutulmuş bank əməliyyatlarını aparmaq hüququna malik olan hüquqi şəxsdir

Bank əməliyyatları və sazişlərinə «Banklar və bank fəaliyyəti haqqında» qanunun I hissə maddə 27 əsasən aşağıdakılar aiddir:

1. Kredit təşkilatı bank lisenziyalarında müəyyən edilən hüdudlarda aşağıdakı bank əməliyyatlarını həyata keçirə bilər: vəsaiti faizlə və ya faizsiz qəbul etmək (tələb edilənədək, müddətli depozitlər növündə və ya başqa növdə); borcalanın razılığına əsasən kreditlər vermək; fiziki və hüquqi şəxslərin hesablarını açmaq və aparmaq; fiziki və hüquqi şəxslərin, o cümlədən müxbir kredit təşkilatlarının tapşırığı ilə onların hesabları üzrə hesablaşmalar aparmaq; pul vəsaitini, vekselləri, ödəniş və hesablaşma sənədlərini inkassasiya etmək, fiziki və hüquqi şəxslərə kassa xidməti göstərmək; nağd və nağdsız formalarda xarici valyutanı alıb-satmaq; qiymətli metalları əmanətlərə cəlb etmək və yerləşdirmək; bank təminatları vermək.

2. Kredit təşkilatı bu maddənin birinci hissəsində sadalanan bank əməliyyatlarından başqa aşağıdakı əqdləri həyata keçirə bilər: üçüncü şəxslərin əvəzinə pul formasında öhdəliklərin icrasını nəzərdə tutan tapşırıqların verilməsi;

üçüncü şəxslərdən pul formasında öhdəliklərin icrasını tələb etmək hüququnun alınması; fiziki və hüquqi şəxslərlə razılaşmaya əsasən pul vəsaitinin və başqa əmlakın vəkalətnamə ilə idarə olunması;

Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə qiymətli metallarla və qiymətli daş-qaşlarla əməliyyatlar aparılması;

sənədlərin və sərvətlərin saxlanması üçün xüsusi otaqların və ya oradakı seyflərin fiziki və hüquqi şəxslərə icarəyə verilməsi;

lizinq əməliyyatları;

məsləhət və informasiya xidmətlərinin göstərilməsi.

Kredit təşkilatı qanunvericiliyə müvafiq surətdə başqa əqdləri də həyata keçirə bilər.

1. Bank əməliyyatlarının aparılması üçün Milli Bankın lisenziyasına müvafiq surətdə kredit təşkilatı aşağıdakı qiymətli kağızları buraxmaq, almaq, satmaq, uçotunu aparmaq, saxlamaq və onlarla başqa əməliyyatları həyata keçirmək hüququna malikdir:

ödəniş sənədi funksiyalarını yerinə yetirən qiymətli kağızlar;

pul vəsaitinin əmanətlərə və hesablara cəlb olunmasını təsdiq edən qiymətli kağızlar;

qanunvericiliyə uyğun olaraq əməliyyatların aparılması zamanı digər qiymətli kağızlar;

kredit təşkilatı dövlət qiymətli kağızlarını almaq, satmaq, saxlamaq və onlarla başqa əməliyyatları keçirmək hüququna malikdir.

2. Kredit təşkilatı fiziki və hüquqi şəxslərlə müqavilə əsasında yuxarıda göstərilən qiymətli kağızları vəkalətnamə ilə idarə etmək hüququna malikdir. Kredit təşkilatı qanunvericiliyə

uyğun olaraq qiymətli kağızlar bazarında peşəkar fəaliyyət göstərə bilər.

Bank əməliyyatlarının bütün kompleksini heç də bütün kredit təşkilatları həyata keçirmir. Kredit təşkilatının fiziki və hüquqi şəxslərin hesablaşma hesabının açılması, aparılması və digər şəxslərin pul vəsaitlərinin əmanətlərə cəlb edilməsinin həyata keçirilməsindən asılı olaraq qanunvericiliklə bütün kredit təşkilatları 2 təsnifat qrupuna: banklara və qeyri – bank kredit təşkilatlarına bölünür.

Hüquqi şəxslərin hesablaşma hesabını və vətəndaşların cari hesablarını aparmayan kredit təşkilatları bu səbəbdən banklar hesab edilmir və Milli Bankın lisenziyası əsasında bank əməliyyyatlarının ayrı – ayrı növlərini həyata keçirə bilərlər. Qeyri – bank kredit təşkilatları üçün bank əməliyyatlarının mümkünlüyü Milli Bank tərəfindən onlara lisenziya verərkən təyin edilir.

Funksional təyinatından asılı olaraq qeyri – bank kredit təşkilatları hüquqi şəxslərə banklararasında, valyuta bazarında və qiymətli kağızlar bazarında xidməti, pul vəsaitlərinin, veksellərin, hesablaşma və ödəmə sənədləinin inkassasiyasını, hüquqi şəxslərə kassa xidmətini və öz nizamnamələrində nəzərdə tutulan digər sazişləri həyata keçirə bilərlər.

Dünya təcrübəsində müxtəlif növ qeyri – bank kredit təşkilatları mövcuddur ki, bunlardan hesablaşma, kredit, inkassasiya təşkilatlarını, kedit ittifaqlarını göstərmək olar. Misal olaraq hesablaşma qeyri – bank kredit təşkilatlarına hüquqi şəxslərin qarşılıqlı tələblərini nəzərə alaraq hesablaşma aparan klirinq təşkilatlarının bir qayda olaraq kredit əməliyyatlarında iştirak edən kredit təşkilatlarını; pul vəsaitlərinin, veksellərin, digər ödəmə və hesablaşma sənədlərinin inkassasiyasını həyata keçirən inkassasiya təşkilatlarını;bir qayda olaraq bir – biri ilə qarşılıqlı, maraqlı əlaqələri olan və dövrü olaraq pul vəsaitləri qoyan məhdud iştirakçılar tərəfindən təsis edilməklə, yalnız öz üzvünə kredit verən kredit ittifaqını göstərmək olar.

Kredit təşkilatlarının əsas növü və bank sisteminin əsas həlqəsi banklardır. Yuxarıda verilən izahatdan göründüyü kimi

banklar, Milli Bankın lisenziyasını almaq şərtilə istənilən kredit – hesablaşma əməliyyatlarını həyata keçirən kredit təşkilatlardır. İxtisaslaşmasından asılı olaraq banklar, universal və ixtisaslaşmış ola bilər. Kredit – hesablaşma əməliyyatlarının bütün kompleksini həyata keçirən kommersiya banklarının əksəriyyəti universal banklar, maliyyə bazarının müəyyən seqmentində iştirak edən banklar, məsələn investisiya və ipoteka bankları isə ixtisaslaşmış banklara aid edilir.

Kredit təşkilatlarının firmalarının və nümayəndəliklərinin Azərbaycan Respublikası ərazisində və ondan kənarda açılması «Banklar və bank fəaliyyəti haqda» qanunda göstərilir:

1. Kredit təşkilatının respublika ərazisində və xaricdə filialları Milli Bankın icazəsi ilə, nümayəndəlikləri isə Milli Banka xəbər verməklə, qanunvericiliklə müəyyən edilmiş qaydada açılır.

2. Filiallar və nümayəndəliklər kredit təşkilatının təsdiq etdiyi Əsasnaməyə uyğun fəaliyyət göstərirlər.

3. Filialların və nümayəndəliklərin rəhbərləri kredit təşkilatının rəhbəri tərəfindən təyin edilir və müvafiq qaydada verilmiş etibarnamə əsasında fəaliyyət göstərirlər.

Müasir bank sisteminin xarakterik cəhətlərindən biri kredit təşkilatlarının qarşılıqlı fəaliyyətidir. Bir çox banklar lazımi müqavilələr bağlamaqla, öz aralarında müxbir münasibətləri qururlar, yəni bir – birinin qarşılıqlı hesablarını açırlar və aparırlar, hesablaşma həyata keçirirlər, bir – birinə banklararası kreditlər verirlər, qiymətli kağızlarla əməliyyatlar aparırlar.

Bank təcrübəsində kredit təşkilatlarının qarşılıqlı əlaqəsinin müxtəlif variantları var, məsələn, hər hansı bir bank əməliyyatını qarşılıqlı həyata keçirmək və koordinasiya üzrə aralarında müqavilə bağlamış bank qruplarının yaratdığı bank alyansı; hər hansı bir layihənin qarşılıqlı maliyyələşdirilməsi haqda müqavilə bağlamış bank qruplarının yaradığı bank konsorsiumu; bir və ya bir neçə təşkilatın kapitalında əhəmiyyətli çəkisi olan və yaxud onlarla bağlanmış müqaviləyə əsasən qəbul olunan qərarlara təsir edən kredit təşkilatı – bank holdinqini göstərmək olar.

«Banklar və bank fəaliyyəti haqda» Qanunun maddə 34-də holdinqlərin 2 və ya daha çox kredit təşkilatı arasında uyğun müqavilə bağlanılmaqla birgə qərarların qəbulu üçün kredit təşkilatı qruplarının yaradılması imkanı nəzərdə tutulub.

Bank qanunvericiliyi həmçinin bank birliklərinin kredit təşkilatlarının ittifaq və assosasiyalarının yaradılmasını da nəzərdə tutur. Onlar qeyri – kommersiya təşkilatları olmaqla mənfəət əldə etmək məqsədini güdmürlər. Lakin Qanunda ittifaq və assosiasiyalar arasında hər bir fərq göstərilmədiyindən hüquqi nöqteyi – nəzərdən onları bank birliyi adının sinonimi kimi qəbul etmək olar.

Azərbaycan Respublikasının Bank sisteminin mahiyyəti, vəzifə və funksiyalarına görə ikili təbiətə malik olan Milli Bank rəhbərlik edir. Bir tərəfdən Milli Bank bütün digər kredit təşkilatlarına və hesablaşma – kredit münasibətlərinin iştirakçılarına görə icra hakimiyyəti orqanıdır, digər tərəfdən o kredit təşkilatı kimi də işləyə bilər.

Milli Bank dövlət mülkiyyətindədir, onun nizamnamə kapitalı və digər əmlakı başqasına verilə bilməz. Milli Bankın razılığı olmadan əmlakın geri götürülməsinə yol verilmir. Milli Bank hüquqi şəxsdir, onun Azərbaycan Respublikasının Dövlət gerbi təsvir edilmiş və adı yazılmış möhürü vardır. Milli Bankın mərkəzi aparatı Bakı şəhərində yerləşir. Milli Bank Azərbaycan Respublikasında öz ərazi idarələrini və respublika daxilində, habelə xaricdə nümayəndəliklərini açа bilər. Onların statusunu Milli Bank qüvvədə olan qanunvericiliyə müvafiq surətdə müəyyənləşdirir. Milli Bankın idarə və nümayəndəliklərinin vəzifələri və funksiyaları Milli Bankın İdarə Heyətinin təsdiq etdiyi Əsasnamələrlə müəyyənləşdirilir. Milli Bank öz xərclərini gəlirləri hesabına ödəyir.

Milli Bankın əsas funksiyalarına aşağıdakılar aiddir:

1) pul-kredit və valyuta münasibətləri sahəsində dövlət siyasəti yeridir;

2) hesablaşmaların aparılması və ödəmə sisteminin sabit işləməsi üçün şərait yaradır;

3) qiymətli kağızlar bazarında, habelə xarici valyutanın alqı-satqısı sahəsində əməliyyatlar aparır;

4) Azərbaycan Respublikasında bank sistemini inkişaf etdirmək və möhkəmlətmək üçün zəruri tədbirlər görür;

5) valyuta tənzimlənməsini həyata keçirir, xarici dövlətlərlə hesablaşmaların aparılması qaydasını müəyyənləşdirir və xarici valyuta ehtiyatlarını idarə edir;

6) bank fəaliyyəti sahəsində normativ aktları qəbul edir;

7) qanunvericilikdə nəzərdə tutulmuş başqa funksiyaları həyata keçirir.

Milli Bank aşağıdakı əsas vəzifələri yerinə yetirir:

1) manatın sabitliyini təmin etmək, onun alıcılıq qabiliyyətini və xarici valyutaya nisbətən məzənnəsini tənzimləmək üçün tədbirlər görür;

2) pul-kredit siyasətinin başlıca istiqamətlərini hazırlayıb, Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

3) nağd pulun emissiyasını həyata keçirir və tədavülünü təşkil edir, ödəmə sisteminin sabit işləməsi üçün şərait yaradır;

4) dövlət büdcəsinin kassa icrasını həyata keçirir;

5) Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq surətdə dövlət borcuna xidmət edir;

6) Azərbaycan Respublikasının proqnoz tədiyə balansının hazırlanmasında iştirak edir və hesabat tədiyə balansının tərtibinə rəhbərlik edir.

Milli Bankın İdarə Heyəti üzvləri və digər əməkdaşları bu Qanunda müəyyənləşdirilmiş funksiya və vəzifələrini yerinə yetirərkən yol verdikləri qanun pozuntularına görə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş məsuliyyət daşıyırlar.

İcra hakimiyyəti orqanı kimi Milli Bank kredit – hesablaşma münasibətlərinin tənzimlənməsi üzrə geniş səlahiyyətlərə malikdir. Bu səlahiyyətlərə aiddir:

- kredit təşkilatları arasında hesablaşma və nağdsız hesablaşma qaydalarının təyini;

- kredit təşkilatları üçün mütləq olan bank əməliyyatlarının, mühasibat uçotunun, hesabatların tərtibinin və verilməsinin aparılması qaydalarının təyini edir.
- kredit təşkilatlarına lisenziyaların verilməsi və geri çağırılması, banklar və bank fəaliyyətinin tənzimlənməsini həyata keçirir;
- kredit təşkilatları tərəfindən kassa əməliyyatlarının aparılması qaydasını müəyyən edir;
- kredit təşkilatı üçün mütləq olan iqtisadi normativlərin təyin etməklə bərabər, kredit təşkilatların fəaliyyətinə nəzarət təşkil edir;
- beynəlxalq ehtiyatlarla idarə və valyuta tənzimlənməsi məsələlərini tənzimləyir və s.

Kredit təşkilatı kimi Milli Bank kredit təşkilatlarına mərkəzi kreditlər verir və valyuta mdaxiləsi edir.

Azərbaycanın Milli Bankı özü vahid mərkəzi sistemi əks etdirir və onun təşkilati strukturunu formalaşdırır:

1. Milli Bank İdarə Heyətindən və başqa struktur bölmələrindən ibarətdir.

2. İdarə Heyətinin tərkibi 7 nəfər, o cümlədən Milli Bankın sədri, onun müavinləri və 2 kənar üzv daxildir.

3. Milli Bankın İdarə Heyətinin üzvlərinin Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi 5 il müddətinə təyin edir. Milli Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi tərəfindən Milli Bankın İdarə Heyətinin razılığı ilə 5 il müddətinə vəzifəyə təyin edilir və eyni qaydada vəzifədən azad edilir. Milli Bankın İdarə Heyətinin sədrini Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq Milli Bankın İdarə Heyətinin üzvləri sırasından Azərbaycan Respublikasının Prezidenti 5 il müddətinə vəzifəyə təyin edir. İdarə Heyətinin sədri və üzvləri vəzifədən eyni qaydada azad edilir.

4. Azərbaycan Respublikası Milli Məclisinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, Azərbaycan

Respublikası Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvləri və yerli özünüidarə orqanlarının seçkili üzvləri Milli Bankın İdarə Heyətinin üzvləri ola bilməzlər.

5. İdarə Heyətinin üzvləri siyasi partiyaların üzvü ola bilməz, ictimai birliklərdə və dini təşkilatlarda vəzifə tuta bilməzlər.

6. Milli Bankın ikili təbiəti onun hüquqi statusunda özünü biruzə verir. «Milli Bank haqqında» Qanunun 1 maddəsinə görə Milli Bank hüquqi şəxsdir, eyni zamanda o vergi orqanlarında qeydiyyatdan keçmir və bütün dövlət vergi və rüsumlarından azaddır .

Milli Bankın və onun strukturlarının bütün dövlət vergi və rüsumlarından azad edilməsi xüsusi hal hesab edilir.

Milli Bankın funksiyaları pul vahidinin möhkəmləndirilməsinə, qiymətlərin, iqtisadi inkişaf templərinin sabitləşməsinə yönəldilən dövlətin pul – kredit siyasətinin əsasında əks edilir.

Milli iqtisadiyyata pul – kredit siyasəti yolu ilə təsiri «pul kütləsi – faiz norması – investisiya – milli gəlir» zəncirvari şəklində də təsvir etmək olar. Milli Bank kreditin stimullaşdırılması və yaxud məhdudlaşdırılması üzrə tədbirləri qəbul edir.

Milli Bank pul – kredit siyasətini həyata keçirməklə bərabər, kommersiya banklarının kredit fəaliyyətinə təsir edir və iqtisadiyyatın kreditləşməsinin genişləndirilməsinə və yaxud azaldılmasına tənzimləməni yönəltməklə, daxili iqtisadiyyatın sabit inkişafına, pul dövriyyəsinin möhkəmlənməsinə, daxili iqtisadi proseslərin tarazlaşmasına nail olur. Beləliklə, kredit təsir bütün təsərrüfatın inkişafında dərin strateji məsələlərə nail olmağa imkan verir. Məsələn, müəssisələrdə sərbəst pul vəsaitləinin çatışmamazlığı, kommersiya əməliyyatları, daxili investisiya qoyuluşları və s. etməkdə çətinlik yaradır. Digər tərəfdən artıq pul kütləsinin də öz qüsurları var: pulun qiymətdən düşməsi və onun nəticəsi kimi əhalinin həyat səviyyəsinin aşağı düşməsi, ölkədə valyuta vəziyyətinin pisləşməsi və s. uyğun olaraq birinci halda pul – kredit siyasəti bankların kredit fəaliyyətinin genişləndirilməsinə, ikinci halda – onu azaldılmasına, «bahalı» pul siyasətinə keçməyə yönəldilməlidir.

Pul – kredit siyasəti sahəsində Milli bankın funksiya və əməliyyatları öz əksini «Milli Bank haqqında» Qanununda tapır.

1. Milli Bank qarşıdakı il üçün dövlətin pul-kredit siyasətinin başlıca istiqamətlərini oktyabr ayının 1-dək Azərbaycan Respublikasının Prezidentinə təqdim edir və dekabr ayının 31-dək kütləvi informasiya vasitələrində ictimaiyyətə açıqlayır.

2. Pul-kredit siyasətinin başlıca istiqamətlərində Azərbaycan Respublikasının makroiqtisadi və makromaliyyə vəziyyəti təhlil edilir, pul-kredit siyasətinin və bank sisteminin inkişafının əsas istiqamətləri əks etdirilir. Pul-kredit siyasətinin başlıca istiqamətlərində inflyasiyanın səviyyəsinin azaldılması və manatın xarici dönərli valyutalara nisbətən məzənnəsinin möhkəmləndirilməsi kimi əsas vəzifələrin yerinə yetirilməsi üçün aşağıdakılar nəzərdə tutulur: qarşıdakı il üçün pul-kredit siyasətinin məqsəd və vəzifələrinin və bunlara nail olmaq yollarının müəyyənləşdirilməsi; inflyasiyanın proqnozlaşdırılan səviyyəsinə nail olmaq üçün pul kütləsi həcminin və strukturunun tənzimlənməsi; daxili aktivlərin və ehtiyat pulun maksimum və xarici ehtiyatların minimum səviyyəsinin təmin olunması tədbirləri; ölkənin tədiyə qabiliyyətinin sabitliyi və valyuta bazarının tənzimlənməsi üçün valyuta ehtiyatlarının zəruri səviyyəsinin maliyyələşdirilməsi; həyata keçirilən pul-kredit siyasətinə uyğun olaraq bank işinin təkmilləşdirilməsi tədbirləri.

3. Pul-kredit siyasətinin başlıca istiqamətlərində onun həyata keçirilməsi vasitələri əsaslandırılır.

Qeyd etmək lazımdır ki, pul – kredit siyasəti həm dolayı (iqtisadi), həm də birbaşa (inzibati) təsir metodları ilə həyata keçirilir. Onlar arasında fərq ondan ibarətdir ki, Milli Bank ya kredit təşkilatlarının likvidliyi vasitəsilə dolayı təsir edir, ya da bankların kəmiyyət və keyfiyyət parametrlərinə limitlər təyin edir.

Milli bank tərəfindən istifadə olunan pul – kredit siyasətinin əsas alətləri maddə 29 əks olunaraq əsasən aşağıdakılardan ibarətdir:

1) mərkəzləşdirilmiş kredit əməliyyatları üzrə faiz dərəcələrinin müəyyənləşdirilməsi;

2) kredit təşkilatları üçün məcburi ehtiyat normalarının müəyyənləşdirilməsi;

3) açıq bazarda qiymətli kağızlarla bank əməliyyatlarının aparılması;

4) kredit təşkilatlarına mərkəzləşdirilmiş kreditlər verilməsinin yenidən maliyyələşdirilməsi;

5) valyuta müdaxiləsi və mübadilə məzənnələri siyasətinin həyata keçirilməsi;

6) bank əməliyyatlarının məhdudlaşdırılması.

İqtisadi ədəbiyyatlarda uçot dərəcəsi və yaxud yenidən maliyyəşləşmə dərəcəsi kimi adlandırılan mərkəzləşdirilmiş kreditlərə görə faiz dərəcələri anlayışı, Mərkəzi Bankın kommersiya banklarına verdiyi kreditə görə faizdir. «Yenidən maliyyələşdirmə» termini Mərkəzi Bankdan kredit pul vəsaitlərini alınması deməkdir. Mərkəzi Bank kommersiya banklarına kredit verə bilən, həmçinin onların portfelində olan qiymətli kağızları yenidən nəzərdən keçirə bilər.

Bazar iqtisadiyyatlı əksəriyyət ölkələin qanunvericiliyinə uyğun olaraq Mərkəzi Banklar uçot dərəcəsini inzibati qaydada dəyişmək hüququna malikdirlər. İqtisadi konyunkturanın dəyişməsinə cavab olaraq Mərkəzi Bank uçot dərəcəsini həm azalda, həm də artıra bilər və deməli, pul təklifini azalda və artıra bilər. Uçot dərəcəsinin azalması zamanı kommersiya bankları tərəfindən Mərkəzi Bankın puluna tələb artır. Kommersiya bankları daha çox kredit götürməyə çalışırlar, nəticədə onların maliyyə imkanları artır. Əgər uçot dərəcəsi artırılsa, onda Mərkəzi Bank ən azı 3 effektə nail olur: Əvvəla, yuxarı faizin mərkəzi kreditlər bəzi banklar üçün əlçatmaz və nəticədə Mərkəzi Bankdan iqtisadiyyata yönələn kreditlər azalır, bununla da pul kütləsinin artımı məhdudlaşır.

İkincisi, kommersiya bankları daha yüksək faizlə kredit almaqla öz növbəsində kreditin faizini artırmağa məcbur olur ki. bu da pula tələbi azaldır və nəticədə pul kütləsinin artımı məhdudlaşır.

Üçüncüsü, kommersiya bankları yüksək faizli krediti götürüb onları yüksək gəlirli sahələrdə yəni tələb çox olan sahələrdə yerləşdirməyə çalışır və bu da nəticədə inflyasiya şəraitində kreditlərin səmərəli yerləşdirilməsi deməkdir.

Göründüyü kimi, rəsmi faiz dərədcəsinin dəyişdirilməsi kredit sferasına təsir edir. Əvvəla kommersiya banklarının Mərkəzi Bankdan kredit ala bilməsinin çətinləşdirilməsi və yaxud yüngülləşdirilməsi kredit likvidliyinə təsir edir. İkincisi, rəsmi dərəcənin dəyişməsi müştərilər üçün kommersiya banklarının kreditlərinin bahalaşması və yaxud ucuzlaşması deməkdir. Belə ki, aktiv kredit əməliyyatları üzrə faiz dərəcələrinin dəyişməsi baş veir.

Yuxarıda qeyd olunanlardan aydın olur ki, faiz dəəcəsinin artırılması inflyasiyaya təsirin səmərəli metodudur. Lakin, bununla yanaşı, belə hərəkətlər neqativ təsir də yarada bilər.

Uçot dərəcəsinin yüksəlməsi kreditin bahalaşmasına və bununla investisiya prosesinin zəifləməsinə səbəb olur. Bu baş verməsin deyə dövlət uyğun tənzimləmə tədbirlərini həyata keçirməlidir.

Əsasən mənfəətə görə vergi dərəcələrini azaltmalıdır və vergi-lərin ödənilməsi üçün güzəştli kreditlər verməlidir və s.

Mərkəzləşdirilmiş kreditlər üzrə faiz dərəcələinin tətbiqi qaydalarına uyğun olaraq Milli Bank mərkəzləşdirilmiş kredit əməliyyatları üzrə fərqli faiz dərəcələri müəyyənləşdirə bilər. Eyni zamanda kredit əməliyyatları üzrə faiz dərəcəsi müəyyən etmədən də kreditlər verə bilər. Milli Bankın faiz siyasətində məqsəd bazarda formalaşmış faiz dərəcələrinə təsir etməklə manatı möhkəmləndirməkdir. Milli Bankın mərkəzləşdirilmiş kredit resursları üzrə faiz dərəcələri kredit hərraclarında müəyyənləşdirilir.

Məcburi ehtiyatlar norması əsasında bütün kredit malik olduqları ən likvid aktivlər olan minimal ehtiyatlar bir qayda olaraq ya bankların kassalarında nağd pul formasında, ya da Mərkəzi Bankda depozit formasında və yaxud da Mərkəzi Bank tərəfindən təyin edilən başqa yüksək likvidli formada olur. Dünya təcrübəsində ehtiyat normativlərinin tələbləri qanunvericiliklə təsdiq edilmiş minimal ehtiyatların məbləğinin passiv (depozit) və ya aktiv (kredit qoyuluşları) əməliyyatların mütləq (həcmli) və ya nisbi (artırılan) göstəricilərin nisbətidir. Normativlərin istifadəsi həm total (öhdəlik və ya ssudaların bütün məbləğinə) həm də selektiv (onların müəyyən hissəsinə) təsir xarakterli ola bilər.

Minimal ehtiyatlar 2 əsas funksiyanı yerinə yetirir. Əvvəla, onlar likvid ehtiyatlar kimi müştərilərin depozitləri üzrə kommersiya banklarının öhdəliklərinin təmini kimi çıxış edirlər. Məcburi ehtiyat normalarını dövri olaraq mərkəzi bank dəyişməklə, iqtisadi vəziyyətdən asılı olaraq kommersiya banklarının likvidlik dərəcəsini minimal mümkün səviyyədə saxlayır. İkincisi, minimal ehtiyatlar mərkəzi bankın ölkədə olan pul kütləsinin həcmini tənzimləmək üçün əsas alətidir. Ehtiyat vəsaitləinin normativlərini dəyişməklə, Mərkəzi Bank kommersiya banklarının aktiv əməliyyatlarının miqyasını (əsasən onlar tərəfindən verilən kreditlərin həcmini) və deməli, onlar tərəfinədn depozit emissiyasının həyata keçirilməsi imkanını tənzimləyir. Kredit institutları ssuda əməliyyatlarını o vaxt artıra bilər ki, onların Mərkəzi Bankda olan məcburi ehtiyatları təyin edilmiş normativlərdən yüksək olsun. Dövriyyədə olan pul kütləsi (nağd və nağdsız) zəruri tələbatı üstələyirsə, mərkəzi bank məcburi ehtiyat normalarını artırmaq yolu ilə kredit restriksiyası siyasətini həyata keçirdir.

Pul – kredit siyasətinin həyata keçirilməsində əsas əhəmiyyəti minimal ehtiyatların pul kütləsinin həcminə təsir mexanizmi kəsb edir ki, bu da bank multiplikasiyası effekti kimi ifadə olunur. Bildiyimiz kimi, multiplikasiya effektində əsas odur ki, bazarın bir subyektinin xərci digərinin gəlirini təşkil edir.

Pul kütləsinə bank hesablarında olan bütün pul vəsaitələri daxil olduğundan «depozitlər» sütununda olan pul məbləğləri də pul kütləsinə daxil olur. Ümumi qaydada bank mulltiplikatoru aşağıdakı kimi müəyyən edilir:

Burdan göründüyü kimi, məcburi ehtiyat norması 10 % olduqda multiplikator 10, norma 30 % olanda isə 3.3 bərabər olur. Başqa sözlə, məcburi ehtiyat normaları azaldıqda pul kütləsinin artımı çoxalır, artdıqda isə, əksinə azalır.

Bu metodun istifadəsi bank haqqında qanunda öz əksini tapır:

1. Milli Bank pul-kredit siyasəti yeridərkən məcburi ehtiyatları Milli Bankda saxlamaq barədə kredit təşkilatlarına göstəriş vermək hüququna malikdir. Kredit təşkilatlarının bütün öhdəliklərinin (və ya onların bir hissəsinin) faizi nisbətində məcburi ehtiyatların miqdarına, habelə bu ehtiyatların saxlanılmasına vaxtaşırı yenidən baxılır.

2. Məcburi ehtiyatların normaları müxtəlif növ kredit təşkilatları (banklar istisna edilməklə) üzrə fərqli ola bilər.

3. Məcburi ehtiyatların yaradılması qaydasını və ya onların səviyyəsini müəyyənləşdirən, yaxud dəyişdirən normativ aktlarda kredit təşkilatlarının yeni məcburi ehtiyatlar yaratmalı və ya məcburi ehtiyatların səviyyəsini dəyişdirməli olduqları tarix göstərilməlidir.

4. Məcburi ehtiyatlar normadan az olduqda Milli Bank çatışmayan vəsaitin məbləğini onların müxbir hesablarından tutmaq, məcburi ehtiyatların normasını artırmaq hüququna malikdir.

5. Bank əməliyyatı aparılması üçün verilmiş lisenziya geri alındıqda Milli Bankda məcburi ehtiyata götürülmüş vəsaitdən ilk növbədə kredit təşkilatının əmanətçilər və kreditorlar qarşısında öhdəliklərini ödəmək üçün istifadə olunur.

6. Məcburi ehtiyatların saxlanması üçün Milli Bank haqq ödəmir.

Pul – kredit siyasətinin digər metodu azad bazarda qiymətli kağızlarla əməliyyatlardır ki, bu da pul təklifinə nəzarətin əsas

alətlərindən biridir. Onun mahiyyəti ondan ibarətdir ki, ölkənin Mərkəzi Bankı açıq bazarda dövlət qiymətli kağızlarını sataraq və ya alaraq bilavasitə pul kütləsinin həcminə təsr edir. Belə ki, Mərkəzi Bank dövlət qiymətli kağızlarını satmaqla pul kütləsini azaldır, almaqla isə dövriyyəyə əlavə pul buraxmaqla pul kütləsini çoxaldır. Keçid iqtisadiyyatlı ölkələrdə pul – kredit siyasətinin aləti və iqtisadiyyatı tənzimləmə elementi kimi mərkəzi bankın valyuta ehtiyatları və faiz dərəcələrinin manipulyasiyası vasitəsilə valyuta müdaxiləsi geniş yayılmışdır. O ən çox mərkəzi bankların xaici valyutanın alqı – satqı üzrə məqsədli əməliyyatlar şəklində həyata keçirilir və milli valyutanın məzənnəsinin məhdudlaşdırılması (artması, azalması, sabit saxlanması) məqsədini güdür ki. bu da iqtisadi inkişafı sabit və davamlı olmasının vacib şərtidir. «Milli Bank haqqında» qanunda valyuta müdaxiləsi haqda anlayış verilir.

1. Milli Bankın valyuta müdaxiləsi manatın məzənnəsinə, habelə ona olan tələb və təklifə təsir göstərmək üçün valyuta bazarında Milli Bank tərəfindən xarici valyutanın alqı-satqısıdır.

2. Azərbaycan Respublikasında mübadilə məzənnəsi, Milli Bank tərəfindən müəyyənləşdirilir və vaxtaşırı mətbuatda dərc edilir.

Pul – kredit siyasətinin birbaşa inzibati metodu kimi bank əməliyyatlarının məhdudlaşdırılması çıxış edir. Milli Bank pul-kredit siyasəti yeridərkən özünün normativ aktlarında kredit təşkilatlarının verdikləri kreditlərin əsas məbləğini, habelə kredit təşkilatlarının ayrı-ayrı bank əməliyyatları aparmasını tənzimləmək üçün müvəqqəti məhdudiyyətlər də müəyyənləşdirə bilər.

MÖVZU 9. VALYUTA TƏNZİMLƏNMƏSİNİN HÜQUQİ ƏSASLARI

Plan:

1. Dövlətin valyuta siyasəti, onun mahiyyəti və vəzifələri.
2. Valyuta tənzimlənməsi haqda qanunvericilik.
3. Valyuta ehtiyatları onun forınalaşması və istifadəsi qaydaları.
4. Milli Bank valyuta tənzimlənməsinin əsas orqanı kimi.
5. Valyuta nazarətini həyata keçirən agentlər və orqanlar, onların funksiyaları.

Valyuta hər hansı bir dövlətin pul nişanəsidir.Xarici dövlətlərin pul nişanı,həmçinin xarici pul vahidləri ilə ifadə olunan beynəlxalq hesablaşmalarda işlədilən tədavül və kredit vasitəsi xarici valyutadır.

Dünya ölkələri arası iqtisadi əlaqələr kapitalların, əmtəələrin, işçi qüvvəsinin, qızıl-valyuta ehtiyatlarının, beynəlxalq hərəkəti vasitəsilə həyata keçirilir.Valyuta qanununa uyğun olaraq, valyuta orqanının səlahiyyətinə aşağıdakılar aiddir:

Xarici valyutalar,banknotlar,veksellər,sikkələr;

Ödəmə sənədləri;

Xarici valyutada ifadə edilən qiymətli fondlar;

Xarici valyutaya çevrilmək hüququ verən milli valyuta ilə ifadə olunan bank sənədləri;

Qiymətli metallar;

Təbii emal edilmiş və xammal şəklində olan qiymətli daşlar.

Dövlətin,beynəlxalq sahədə valyuta, hesablaşma və kredit münasibətləri sahəsində aparılmış olduğu siyasət valyuta siyasəti adlanır.

Valyuta siyasətinin aparılmasında əsas məqsəd, valyuta resurslarını səfərbərliyə almaq, onların bölgü və istifadəsinin təmin edilməsi, beynəlxalq hesablaşmaların və tədiyə balansının mütənasibliyinin tənzim edilməsinin, xarici ticarətin kreditləşdi-

rilməsinin və o cümlədən xaricdən zəruri kredit resurslarının ölkəyə cəlb edilməsinin təmin edilməsinidən ibarətdir.

Valyuta siyasəti iqtisadi siyasətin mühüm tərkib hissəsidir və onun çoxtərəfli məqsədlərinin yerinə yetirilməsinə, yəni dayanıqlı, iqtisadi inkişafın təmin edilməsinə, işsizlik və inflyasiyanın artmının dayandırmasına, ödəniş balansı müvazinətinin dəstəklənməsinə yönəldilir.

Valyuta siyasətinin istiqamətləri və formaları ölkənin valyuta iqtisadi, vəziyyəti, dünya təsərrüfat və beynəlxalq valyuta sisteminin təkamülü ilə müəyyən edilir. Cari və uzunmüddətli struktur valyuta siyasəti mövcuddur.

Cari valyuta siyasəti - cari valyuta konyukturasının, valyuta bazarı fəaliyyətinin gündəlik, operativ şəkildə tənzimlənməsidir. Belə tənzimlənmənin məqsədi tədiyə balansı müvazinətinin dəstəklənməsi, milli və dünya valyuta sistemin fəaliyyət mexanizminin nizamlanmasıdır. Cari valyuta siyasəti maliyyə nazirlikləri, mərkəzi banklar, valyuta nəzarəti orqanları tərəfindən həyata keçirilir. Bu siyasət milli pul və valyuta sistemi elementlərinə təsir göstərir. Uzunmüddətli valyuta siyasəti beynəlxalq valyuta mexanizmində özünü göstərən uzımmüddətli birlikləri, məsələn, Avropa Birliyi daxilində valyuta tənzimlənməsidir.

Valyuta siyasətinin əsasını rəsmən qəbul edilmiş nəzəri doktrinalar təşkil edir. Valyuta siyasəti hüquqi cəhətdən valyuta qanunvericiliyinə, yəni ölkədə və onun sərhədləri xaricində valuta dəyərləri ilə əməliyyatlar aparılması qaydalarını tənzimləyən hüquqi norınalar toplusu, habelə valyuta normaları üzrə dövlətlər arası ikitərəfli və çoxtərəfli müqavilərlə rəsmiləşdirilir. Müasir valyuta sazişlər birliyinin tarixi səhfəsi Latın sikkə ittifaqı (1865-1926-cı ilər) olmuşdur. Məqsədi-üzv olan ölkələrdə pul vahidinin müəyyən edilməsi idi. Sonra, 1922-ci ildə çağırılmış Qenuez konfransı qızıl-valyuta standartı yaradılmasmı rəsmiləşdirdi. 1944-cü il Bretton-Vuds konfransı və sazişi müvafıq valyuta sisteminin əsasını qoydu. Yamayka valyuta sazişi BVF-in nizamnaməsində dəyişiklik etdi və müasir dünya

valyuta sistemini yaratdı. Regional qruplaşmalar çərçivəsində də valyuta sazişləri bağlanır.

Valyuta siyasətinin həyata keçirilməsi vasitələrindən biri valyuta tənzimbnməsi dövlət tərəfindən beynəlxalq hesablaşmaların və valyuta əməliyyatlarının aparılması qaydalarının reqlamentləşdirilməsidir. Valyuta tənzimlənməsi milli, dövlətlərarası və regional səviyyədə həyata keçirilir. Birbaşa valyuta tənzimlənməsi qanunvericilik aktları vasitəsilə dolayı valyuta tənzimlənməsi isə bazarın iqtisadi agentlərinin davranışına iqtisadi, o cümlədən maliyyə-kredit üsulları ilə təsir göstərməklə həyata keçirilir:

Valyata siyasətinin aşağıdakı əsas formaları mövcuddur: diskont, deviz siyasəti və onun növləri olan..valyuta intervensiyası, valyuta ehtiyatlarının diversifıkasiyası, valyuta məhdudlaşdırmaları, valyuta dönərliliyi dərəcəsinin tənzimlənməsi, valyuta məzənnəsi rejimi, devalvasiya, revalvasiya.

Diskont siyasəti – Mərkəzi bankların iqtisadiyyatın tənzimlənməsinə yönəldilmiş pul-kredit siyasətinin formalarından biridir. Ölkədə kredit həcminə, inflyasiya səviyyəsinə, tədiyə balansı vəziyyətinə, valyuta məzənnəsinə və bütün bunların nəticəsində isə iqtisadiyyata təsir göstərınək məqsədilə uçot dərəcələrinin rəsmi aşağı salınması və ya yüksəldilməsi yolu ilə həyata keçirilir. Faiz dərəcələrinin rəsmi yüksəldilməsi, pul kütləsi və kredit həcminin məhdudlaşdırılması, tədiyə balansının yaxşılaşdırılması üçün xarici kapitalın ölkəyə axınının stimullaşdırılması, valyuta ehtiyatlarının qorunması və valyuta məzənnəsinin dəstəklənməsi məqsədini güdür.

Faizlərin aşağı salınması — (ucuz pul) siyasəti kredit ekspansiyasını təşkil edir və kapitalın ölkədən getməsinə səbəb olur.

Müasir mərhələdə diskont siyasətinin səmərəliliyi azalmışdır. Bu hər şeydən əvvəl daxili və xarici məqsədlər arasında olan ziddiyyətlərlə əlaqədardır. Əgər faiz dərəcəli konyukturanı canlandırmaq üçün aşağı salınırsa, bu kapitalın xaricə axmasına səbəb olur, ödəniş balansına mənfi təsir göstərir. Faiz dərəcələri-

nin tədiyə balansının yaxşılaşdırılması məqsədilə yüksəldilməsi isə iqtisadiyyat durğunluq vəziyyətində olarsa, ona mənfi təsir edir. Diskont siyasətinin nəticə verməsi ölkəyə xarici kapitalın cəlb edilməsindən asılıdır. Lakin qeyri-sabitlik şəraitində faiz dərəcələri heç də həmişə kapital hərəkətini müəyyən etmir. Aparıcı dövlətlərin diskont siyasəti bəzən rəqib dövlətlərin vəziyyətinə mənfi təsir edir, çünki sonuncular milli mənafeyə uyğun olub-olmamasından asılı olmayaraq, birincilərin yeritdiyi siyasətə uyğunlaşmağa məcbur olurlar. Faiz dərəcələri bu baza əsasında yaranır.

Deviz siyasəti - dövlət orqanları tərəfindən valyuta bazarına müdaxilə etməklə, valyutanın alınıb-satılması yolu ilə milli valyutanın məzənnəsinə təsir etmə üsuludur.

Milli valyutanın məzənnəsinin yüksəldilməsi məqsədilə mərkəzi banklar xarici valyutanı satır, aşağı satmaq məqsədini güdəndə isə milli valyutanı satın alır. Deviz siyasəti başlıca olaraq göstərilən valyuta müdaxiləsi şəklində, yəni milli valyuta məzənnəsini tənzimləmək üçün xarici valyutanın alınıb-satılması əməliyyatlan ilə həyata keçirilir. Bu əməliyyatın əsas fərqləndirici cəhəti tətbiq edildiyi qısa müddət ərzində iri miqyash olmasıdır. Valyuta müdaxiləsi rəsmi qızıl-valyuta ehtiyatları, yaxud da mərkəzi bankların milli valyutada banklararası (svop) razılaşmaları üzrə qısamüddətli, qarşılıqlı kreditlər hesabına həyata keçirilir.

Valyuta müdaxiləsi siyasəti hələ XIX əsrdə tətbiq edilməyə başlanmışdır. Qızıl monometalizm ləğv edildikdən sonra bu əməliyyatlar genişləndi. 1929-1933-cü illərdə (böyük depressiya) dövründə Mərkəzi banklar valyuta dempinqinə təsir göstərmək üçün öz valyutalarının məzənnələrini aşağı salmaq məqsədilə intervensiyasını tətbiq edirdilər.

Bretton-Vuds valyuta sistemi dövründə təsdiq olunmuş valyuta məzənnəsini dəstəkləmək üçün mutəmadi olaraq valyuta müdaxiləsi tətbiq edilirdi. Üzən valyuta məzənnəsi sisteminə keçilməsi ilə valyuta müdaxiləsi kəskin məzənə dəyişmələrinin qarşısının alınmasına yönəldilir.

70-ci illərin ortalarından bir sıra ölkələrin mərkəzi bankları tərəfindən kollektiv valyuta müdaxiləsi həyata keçirilir. 1974-cü ilin may ayında ABŞ, AFR, İsveçrə (sonra Fransa da birləşdi) tərəfindən kollektiv valyuta intervensiyası haqqında Bazelsk sazişi bağlandı. Rambuye müşavirəsində (1975-ci ü) altı ölkə başçıları birgə valyuta siyasəti və qarşılıqlı dəstəkləmə haqqında razılığa gəldilər. 1975-ci ilin dekabrından isə (on ölkə qruppu) (svop) razılaşması əsasında birgə valyuta müdaxiləsini tətbiq edirlər.

1985-ci ildən etibarən isə beş inkişaf etmiş sənaye ölkəsi aparıcı valyutaların məzənnələrini tənzimləmək məqsədilə dövri olaraq birgə valyuta müdaxiləsini həyata keçirirlər. Deviz siyasəti valyuta məzənnəsinə böyük təsir göstərir, lakin müvəqqəti və məhdud miqyasda. Valyuta müdaxiləsinə çəkilən küllü miqdarda məsrəflər, əgər məzənnə formalaşdıran bazar amilləri dövlət tənzimlənməsindən güclüdürsə sabitliyi heç də həmişə təmin etmir.

Valyuta siyasətinin mühüm formalarından biri valyuta ehtiyatlarının diversifikaşiyasının təmin olunmasıdır. Valyuta ehtiyatlarının diversifikasiyası - valyuta ehtiyatlarınm tərkibinə beynəlxalq hesablaşmaları təmin etmək, valyuta müdaxiləsini aparmaq və valyuta itkilərinin qarşısını almaq məqsədilə müxtəlif valyutaların daxil edilməsi yolu ilə valyuta ehtiyatlarının strukturunu tənzimləmək sahəsində dövlətlərin, bankların, transmilli şirkətlərin yeritdiyi siyasətdir. Bu siyasət adətən qeyri-sabit valyutaların satılması və sabit valyutaların, habelə beynəlxalq hesablaşmaların aparılması üçün lazım olan valyutaların alınması yolu ilə həyata keçirilir. Valyuta pariteti və valyuta məzənnəsi rejimi də milli və dövlətlərarası tənzimləmə obyektidir. Bretton-Vuds və Yamayka valyuta sistemlərində valyuta pariteti və valyuta məzənnəsi rejimləri əvvəlki fəsillərdən məlumdur. Burada əvvəlcə valyuta məzənnəsi rejim seçilərkən əsas götürülən meyarların nəzərdən keçirilməsini lazım bilirik.

Yamayka sazişi çərçivəsində valyuta məzənnəsi rejimi seçilərkən ölkə iki alternativdən birini seçir.

1. Öz valyutasının sərbəst dəyişməsi, yaxud da 2. onun hər hansı bir valyutaya (bağlanması) haqqında qərar qəbul edir. Hər iki alternativin də öz növbəsində bir neçə alternativi mövcuddur. Məsələn, ölkə üzən valyuta sisteminə üstünlük verərsə aşağıdakı üç variantdan birini seçməlidir. 1) valyuta məzənnəsini müstəqil dalğalandırır, 2) öz valyutalarını digər ölkələrin valyutaları ilə birlikdə dalğalandırır, və ya 3) valyuta məzənnəsini nisbi inflyasiya dərəcələri əsasında müəyyən edilmiş formullar ilə tənzimləyir. Ölkə öz valyutasını (bağlamaq) siyasətini qəbul edirsə onu hər hansı tək bir valyutaya, yaxud bir neçə valyutadan ibarət valyuta səbətinə, ya da qızıla (bu variant keçmişdə mövcud idi) bağlanması kimi alternativlərdən birini seçməlidir.

BVF-in üzvlərinin bir çoxunun öz valyutalarını bu və ya digər valyutalara (bağlamasına) baxmayaraq əsas sənaye ölkələrinin valyutaları 1973-cü ildən bu yana Nəzarətli üzən valyuta məzənnəsi sistemi (BMS) əsasında fəaliyyət göstərirlər.

BMS seçilərkən əsas götürülən meyarlara aşağıdakıları aid etmək olar:

1. Ölkə iqtisadiyyatının xarici açıqlıq dərəcəsi. BMS-i seçilərkən bu amil çox mühüm rol oynayır. Xarici açıqlıq dərəcəsi bir qayda olaraq ixracatın məcmuu milli məhsula nisbəti ilə müəyyən edilir. Nisbətən qapalı hesab edilən xırda ticarətçi ölkələr adətən üzən valyuta məzənnəsi sisteminə, xarici çox açıq olan böyük ticarətçi ölkələr adətən sabit məzənnəyə üstünlük verirlər. Çünki sabit məzənnə sistemində xarici ticarət kəsirinin aradan qaldırılması məcmuu tələbdə ziddiyyətli tənzimlənmələri şərtləndirə bilər. Məlumdur ki, müvazinət yaradan tənzimləmə dərəcəsi ölkənin idxal həcmi ilə tərs mütənasibdir.

Az idxalatı olan nisbətən qapalı ölkələr ticarət balansı kəsirini aradan qaldırmaq üçün ölkə daxilində məcmuu tələbi ciddi tənzimləmək məcburiyyəti qarşısındadır.

Əlbəttə yüksək idxal həcminə malik olan «açıq» ölkələrdə belə məcburiyyət yoxdur. ABŞ kimi xarici ticarət bölməsi nisbətən «kiçik» olan ölkələr sabit valyuta məzənnə sistemini

seçmirlər. Çünki bu halda xarici ticarət kəsirini ləğv etmək üçün böyük miqyasda ölkə daxili tənzimləmələr aparılmalıdır.

1. Ölkənin ixracat mallarının çox və ya az çeşidli olması BMS-nin seçilməsinə təsir edən mühüm amillərdəndir. Adətən ixracat malları çox çeşidli olan ölkələr üzən məzənnə sistemini seçirlər. Çünki ixrac mallarının növlərinin çox olması ölkənin hər hansı bir mal ixracından asılılığını azaldır. Bu malların qiymətləri və miqdarının artıb azalması bir-birini qarşılıqlı olaraq neytrallaşdırır və valyuta məzənnəsində baş verə biləcək dalğalanmalarla əlaqədar itkilərin də qarşısını ala bilər. Bunun-əksinə, ixracatı məhdud saylı maldan ibarət olan ölkələr ixracat gəlirlərinin iqtisadiyyata mənfi təsirini azaltmaq və valyuta məzənnəsi sisteminə üstünlük verirlər.

Ölkələr arasında qısamüddətli kapital hərəkətlərinin rolu sabit və ya üzən məzənnə sistemlərinin seçilməsinə təsir edən amillərdəndir. Kapital hərəkəti nisbətən çox olan ölkələrdə sabit məzənnələri müdafiə etmək üçün dövlət müdaxiləsini həyata keçirmək çətindir. Bununla əlaqədar olaraq, məsələn, Belçika, ödəniş balansına mənfi təsiri aradan qaldırmaq məqsədilə kapital hərəkəti əməliyyatlarına üzən məzənnə, mal və xidmət əməliyyatları üçün isə sabit məzənnə tətbiq edir. Burada şübhəsiz ölkənin böyük ticarət partnyorları olan ölkələrdəki inflyasiya səviyyəsi nəzərdə tutulur. Əksinə, inflyasiya səviyyəsi az-çox bir-birinə yaxın olan ölkələr sabit məzənnə sistemini seçirlər. İnflyasiya səviyyəsi əgər bir ölkədə partnyor ölkələrə nisbətən aşağıdırsa, bu zaman sabit məzənnə, əks halda isə üzən məzənnə siyasəti tətbiq edilir.

Ölkələr xarici ödəmələrdə müvazinəti təmin etmək üçün müxtəlif tədbirlərə əl atırlar. Sərbəst dəyişən məzənnə sistemində xarici müvazinət valyuta məzənnələrinin tələb təklif şərtlərindən asılı olaraq sərbəst dalğalanması ilə təmin edilir. Elastikliyə malik məzənnə sistemində valyuta məzənnələri sərbəst dəyişmədiyi üçün xarici müvazinət, onun hökumət qərarı ilə dəyişdirilməsi yolu ilə təmin edilir. Bu zaınan hökumət xarici ödəmələrdə özünü göstərən kəsirləri ödəmək üçün əvvəlki fəsildə göstərildiyi kimi tədbirlər görməyə məcbur olur. Elastikliyə malik olan sabit

məzənnə sistemində xarici müvazinətin təmin olunmasında yuxarıda gördüyümüz kimi ən təsirli valyuta məzənnəsinin tənzimlənməsidir. Bu sistemdə digər tədbirlər kompleksi ilə yanaşı dövlətlər qəbul etdikləri qərarla milli valyutanın xarici alıcılıq qabiliyyətini aşağı salır və ya yüksəldir. Belə məzənnə tənzimlənməsi sərbəst dəyişkən məzənnə sistemində də fərqli şəkildə özünü göstərir. Ona görə də onların üzərində ətraflı dayanmaq lazımdır.

Devalvasiya (latınca de-aşağı salmağı və valeo-dayanmışam mənalarını əks etdirir.)- milli pul vahidinin qiymətdən düşməsi deməkdir və öz ifadəsinin onun məzənnəsinin xarici valyutalara və ya beynəlxalq hesab vahidlərinə, keçmişdə isə qızıla nisbətən aşağı salınmasında tapır. Lakin, bu zaman pulun qiymətdən düşməsi ilə onun dəyərinin direktiv şəklində aşağı salınmasını bir-birindən fərqləndirmək lazımdır. Məsələn, ölkə daxilində qiymətlərin davamlı olaraq yüksəlməsi nəticəsində hər milli valyuta vahidinə satın alınan mal və xidmətlərin miqdarı əvvəlki dövrə nisbətən azalır. Bu halda pul öz dəyərini daxili inflyasiya ilə əlaqədar itirir. Devalvasiyada isə, pulun dəyərinin qanunla aşağı salmması nəzərdə tutulur. Bəzi hallarda milli valyutanm həqiqi olaraq aşağı düşmüş xarici dəyərinin hökumət tərəfindən qəbul edilməsi də devalvasiya hesab edilir. Devalvasiya müəyyən mənada valyuta məzənnəsinin yüksəldilməsi deməkdir. Məsələn, 1 ABŞ doll.=3800, sonra isə 1 doll=3900 man.olarsa, manatın dollara nisbətən məzənnəsi 2,6% devalvasiya edilmiş olur.

Devalvasiya sərbəst dəyişən valyuta məzənnəsi, sistemində bazarda hər gün kortəbii olaraq özünü göstərir və milli valyuta məzənnəsinin xarici valyutaya nisbətən dəyişməsi vaxtaşırı olaraq rəsmən təsdiq edilir. Devalvasiya iki səbəblə əlaqədardır:

1.İxracatı təşviq etmək və idxalı məhdudlaşdırmaqla xarici ticarət balansının və müvafıq olaraq tədiyə balansınm kəsirlərini ləğv etmək və ya azaltmaqla;

2. Daxili qiymətlərlə xarici qiymətlər arasında yaranmış qeyri-mütənasibliyi aradan qaldırmaq zərurətləri ilə.

Devalvasiya ölkənin tədiyə balansına ciddi təsir göstərir. Bu təsir devalvasiyanı həyata keçirən ölkə ilə digər ölkələrdəki tələb və təklifin vəziyyətindən asılıdır. Devalvasiya edildiyi zaman xarici valyutalara nisbətən ixrac qiymətləri nisbətən aşağı düşür. İxrac malları qiymətinin azalması ilə əlaqədar olaraq ölkə mallarına xarici tələb artır. Bu tələb artımı, ixrac malları qiymətlərini devalvasiyadan əvvəlki səviyyəyə doğru apardığı halda, idxal malların bahalaşdığı üçün idxal tələbi məhdudlaşır. Bu yol ilə xarici ticarət balansmın müvazinəti təmin edilir.

Bununla yanaşı, devalvasiya xarici ticarət şərtlərini ölkə əleyhinə çevirə bilər. Çünki, devalvasiya ümumiyyətlə ixrac malları qiymətlərini aşağı salmaqla, idxal qiymətlərini yüksəldir. Bu vəziyyət ixracatı idxalatdan daha çox olan ölkələrdə açıq şəkildə görünür. Yəni, artan ixracat dünya bazarı qiymətlərini aşağı saldığı halda, azalan idxalat eyni şəkildə qiymətləri azalda bilmir. Beləliklə, xarici ticarət şərtləri devalvasiyanı edən ölkənin əleyhinə çevrilir.

Devalvasiyanın tədiyə balansına təsirini yuxarıda göstərildiyi kimi müəyyən etmək üçün tələb və təklif elastikliyini nəzərə almaq lazımdır:

1. İdxal və ixrac mallarına olan tələb elastikliyi: idxal mallarının tələb elastikliyi nə qədər yüksəkdirsə, aparılan devalvasiya da o dərəcədə faydalıdır. Çünki, bu vəziyyətdə idxal malları bahalaşdığı üçün tələb məhdudlaşır. Bununla da idxal miqdarı azaldığı üçün tədiyə balansı kəsirinə müsbət təsir edir.

İdxal mallarının tələb elastikliyi azdırsa, valyutaya qənaət olmur. Bu halda qənaət edilən valyutanın miqdarı bütünlüklə elastiklik dərəcəsindən asılıdır.

İxrac mallarına olan tələb elastıkliyi sıfırdan başlayaraq böyüdükcə valyuta itkisi azalır və elastiklik 1-ə bərabər olana qədər davam edir. Elastiklik 1 olduqda ixrac mallarına yenə də əvvəlki qədər valyuta sərf edilir. Bu vəziyyətdə devalvasiyadan qazanc və ya zərər yoxdur. Devalvasiyanın ixrac yolu ilə valyuta qazanclarını artıra bilməsi üçün mütləq ixrac mallarına olan tələb elastikliyi 1 -dən böyük olmalıdır.

2. İdxal və ixrac mallarının təklif elastikliyi 1-dən böyükdürsə, yəni təklif elastikdirsə, devalvasiya ilə əlaqədar qiymətlərdə dəyişiklik görünməyəcəkdir, əks halda isə azalma olacaqdır. Bazarda idxal tələbinin daralması nəticəsində əgər qiymətlər azalarsa, valyuta qazancının olması mümkün deyildir. İdxal malları qiymətlərinin aşağı düşməsi, devalvasiya nisbətini real olaraq aşağı salır və bununla əlaqədar olaraq mümkün olan valyuta yığımı minimum səviyyəyə enir. Əgər idxal malları qiymətləri devalvasiya səviyyəsindən aşağı düşərsə, devalvasiyanın təsiri tamamilə aradan qalxacaqdır, yəni valyuta qazancı əldə edilməyəcəkdir.

İxrac malları təklif elastikliyi, əgər sonsuzluqdan azalmağa başlayırsa, (təklif sabit qiymətlərlə artırıla bilirsə) təklifin artırılması qiymətləri də artıracaq və bunun nəticəsində valyuta qazancı azalacaqdır. İxrac malları təklif elastikliyi 1-ə bərabər olduqda, devalvasiyanın əhəmiyyətli təsiri olmayacaqdır. Təklif elastikliyi 1 -dən böyük olduğu halda, devalvasiya valyuta qazancını artırır.

Devalvasiyanın məqsədi tədiyə balansındakı kəsiri ləğv etməkdir. Bunun üçün daxili qiymətlərin səviyyəsinin yüksəlməməsi vacibdir. .Daxili qiymətlər yüksəldiyi təqdirdə ixrac mallarının ucuzluğu aradan qalxır. Nəticədə idxal malları daxili mallara nisbətən bahalı olmaqda uzun müddət davam edə bilməz. Devalvasiyanın müvəffəqiyyəti daxili qiymətlərin səviyyəsinin sabit saxlanılmasından asılıdır.

Revalvasiya-hökumətin qərarı ilə milli valyutanın xarici məzənnəsinin yüksəlməsidir. Belə tədbir, adətən sabit məzənnə sistemində tətbiq edilir. Lakin sərbəst məzənnə sistemində dövlət öz ehtiyatlarını artırmaq üçün davamlı olaraq valyuta bazarlarından valyuta satm alır və yaxud xalis kapital axınına icazə verir və bu yolla valyutaya tələbi artırır. Bu tədbir valyuta məzənnəsi lazımi səviyyəyə yüksələnə qədər davam edir. Nəticədə tədiyə balansmın müsbət qalığı artır.

Revalvasiya heç də devalvasiyanm tam əks nəticəsini vermir. Çünki tələb və təklifin qiymətlərin yüksəlməsinə göstərdiyi həssaslıq, qiymətlərin aşağı düşməsinə göstərdiyi həssaslıqla eyni deyildir.

Revalvasiya daxili qiymətləri yüksəldərək ixracatı azaldır, xarici malların qiymətini aşağı salaraq, idxalı artırır. Başqa sözlə, revalvasiya ixrac malları qiymətlərini xarici valyuta ilə yüksəldir, idxal mallarının qiymətlərini milli valyuta ilə ucuzlaşdırır. Bunun nəticəsində ölkənin tədiyə balansının nisbət qalığı azalır. Revalvasiya ixrac həcmini və ölkəyə kapital daxil olmasını və müvafiq olaraq tədiyə ehtiyatları və daxili tələb səviyyəsini azaldır. Bu yolla ölkədə məşğulliyyət, qiymət və əmək haqqı səviyyəsi aşağı düşür. Tədiyə balansında müsbət saldoya malik ölkələrə BVF revalvasiya keçirilməsini təklif edir.

MÖVZU 10. İNVESTİSİYA FƏALİYYƏTİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

Plan:

1. Dövlətin investisiya siyasəti, onun mahiyyəti.
2. İnvestisiya fəaliyyəti və onun hüquqi tənzimlənməsinin əsasları.
3. Xarici investisiya qoyuluşları və onun hüquqi tənzimlənməsi.

Bazar iqtisadiyyatı şəraitində investisiyalar ölkənin sosial-iqtisadi inkişafında müstəsna rola malikdir. Bu ilk növbədə onunla izah olunur ki, ölkədə investisiya qoyuluşları ilə bağlı həyata keçirilən bütün işlər ümumilikdə bazar iqtisadiyyatının inkişafının əsas amili sayılan sahibkarlıq fəaliyyətinin mühüm sahəsi hesab edilir. Bu prosesi dərk etmək üçün ilk növbədə investisiya anlayışı və onun iqtisadi mahiyyəti barədə dəqiq təsəvvürə malik olmaq lazımdır.

Azərbaycan Respublikasının ərazisində investisiya fəaliyətinin sosial, iqtisadi və hüquqi şərtləri 13 sentyabr 1995-ci il tarixindən qüvvəyə minmiş, 13 yanvar 1995-ci il tarixli «İnvestisiya fəaliyyəti haqqında» Qanunla müəyyən edilir.

Bu Qanuna əsasən investisiya anlayışı altında gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaiti, habelə maddi və intellektual sərvətlər başa düşülür.

İnvestorların tərkibindən asılı olaraq investisiya fəaliyyətinin üç növü ola bilər:

- qeyri-dövlət müəssisələri, idarələri və təşkilatları tərəfindən həyata keçirilən investisiya fəaliyyəti;

- dövlət hakimiyyəti və idarəetmə orqanları, habelə dövlət müəssisələri, idarələri və təşkilatları tərəfindən budcə vəsaiti, özlərinin vəsaiti və borc vəsaitinin hesabına həyata keçirilən dövlət investisiya fəaliyyəti;
- xarici vətəndaşlar, hüquqi şəxslər, dövlətlər və beynəlxalq maliyyə təşkilatları, habelə vətəndaşlığı olmayan şəxslər tərəfindən həyata keçirilən xarici investisiya fəaliyyəti.

Dövlət investisiyalarının həyata keçirilməsinin formalarından biri əsaslı tikintidə işlərin aparılması üçün dövlət sifarişidir. Dövlət sifarişi, bir qayda olaraq, müsabiqə (tender) əsasında yerləşdirilir.

Lüğətı mənada ınvestısıya latınca «ınvestıo» (ınvestı) sözu olub, mənası «geyindirmək» deməkdir. Başqa sözlə, investisiyalar iqtisadiyyatın aparıcı elementi sayılan müəssisə və firmaları müxtəlif maşın, avadanlıq, dəzgah və alətlərlə tam təchiz etmək məqsədi ilə istifadə edilən vəsaitlərin məcmusudur.

İnvestisiya anlayışı «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununda, dəqiq verilmişdir. Həmin qanuna əsasən, investisiya - gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, pul vəsaiti, məqsədilə bank əmanətləri, paylar, səhmlər və digər qiymətli kağızlar, texnologiya, maşınlar, avadanlıqlar, lisenziya, o cümlədən əmtəə nişanları, kreditlər, hər hansı digər əmlaklar və ya əmlak hüquqları, intelektual dəyərlərdən ibarətdir. Belə vəsait və sərvətlər aşağıdakılardır:

- pul vəsaiti, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər, və diğər qiymətli kağızlar;
- daşınan və daşınmaz əmlak (binalar, qurğular, avadanhq və başqa maddi sərvətlər);
- müvafıq qaydada rəsmiləşdirilmiş elmi-təcürbi və digər intellektual sərvətlər;
- bu və ya digər istehsal növünün təşkili üçün zəruri olan, ancaq patentləşdirilmiş, texniki sənədləşdirilən, vərdiş və istehsalat təcrübəsi kimi tərtib edilmiş texniki, texnoloji, kommersiya və digər biliklərin məcmusu ("nou-hau");
- torpaqdan, sudan və digər ehtiyatlardan, binalardan, qurğulardan, avadanlıqdan istifadə hüquqları, habelə müəlliflik hüququndan irəli gələn və başqa əmlak hüquqları;

• başqa sərvətlər.

Öz mahiyyətinə və xarakterinə görə mürəkkəb bir iqtisadi kateqoriya olmaq etibarı ilə investisiyalar bir sıra əlamətlərə görə mürəkkəb təsnifata malikdirlər.

İnvestisiya fəaliyyətinin obyektlərinə görə investisiyalar real və maliyyə investisiyalarına bölünür. Real investisiyalar dedikdə, maddi və qeyri-maddi aktivlərə vəsait qoyuluşu başa düşülür.

Maliyyə investisiyaları dedikdə isə, müxtəlif maliyyə vasitələrinə (aktivlərinə) vəsait qoyuluşu başa düşülür ki, bunların da içərisində əsas yeri qiymətli kağızlara vəsait qoyuluşu tutur.

Real investisiyalar aşağıdakı qruplara bölünür:

1. Öz istehsalının səmərəliyinin yüksəldilməsinə yönəldilən investisiyalar. Bu qrupa əsasən avadanlıqların dəyişdirilməsinə, əsas fondların modernləşdirilməsinə və s. məqsədlər üçün yönəldilən investisiyalar daxildir;

2. İstehsalın genişləndirilməsinə və yenidən qurulmasına yönəldilən investisiyalar. Bu qrupa mövcud istehsal çərçivəsində məhsul buraxılışının həcminin artırılması məqsədi daşıyan investisiyalar daxildir;

3. Şəxsi və xüsusi istehsalın yaradılmasına və ya istehsalda yeni texnologiyanın tətbiqinə yönəldilən investisiyalar. Bu qrupa yeni istehlak bazarına çıxmaq məqsədilə yeni müəssilərin yaradılmasına və mövcud müəssisələrin yenidən qurulmasına yönəldilən investisiyalar daxildir;

4. Dövlət sifarişinin və ya digər sifarişlərinin yerinə yetirilməsi məqsədilə qeyri-şəxsi istehsala qoyulan investisiyalar.

Maliyyə investisiyaları aşağıdakı qruplara bölünür:

1. Qiymətli kağızlara qoyuluşlar (o cümlədən dövlət və qeyri-dövlət);

2. Bank depozitlərinə və sertifikatlarına qoyuluşlar;

3. Təkrar istehsal prosesində iştirak xarakterinə görə investisiyalar aşağıdakı kimi fərqləndirilir:

a) maddi obyektlərə birbaşa investisiyalar. Bu zaman investor investisiya obyektinin və qoyulacaq vəsaitin seçilməsində bilavasitə iştirak edir. Belə investisiyalara real və intellektual

investisiyaları aid etmək olar.

b) investisiya fondu və ya maliyyə vasitəçisinin mövcudluğu ilə səciyyələnən (vasitəli, birbaşa olmayan) investisiyalar. Belə investisiyalara maliyyə, yaxud portfel investisiyalarını aid etmək olar.

İnvestisiya ehtiyatları üzərində mülkiyyət formalarına görə investisiyalar aşağıdakı kimi təsnifləşdirilir: xüsusi investisiyalar; dövlət investsiyaları; xarici investsiyaları; birgə investsiyalar.

Müasir dövrdə investisiyaların mühüm forması birgə, müştərək (dövlət və xüsusi investisiyaların birləşməsi, yerli və xarici kapitalın birləşməsi) investisiyalardır.

Xarici investsiyalar isə ölkə iqtisadiyyatına xarici kapitalın cəlb edilməsidir. Xarici kapitalın axını borc kapitalı və sahibkar kapitalı formasında baş verir.

Borc kapitalın geniş yayılmış formaları beynəlxalq, maliyyə-kredit təşkilatlarının güzəştli və kommersiya kreditləri. Ayrı-ayrı dövlətlərin və özəl bankların yerli hökümətə, müxtəlif dövlət təşkilatlarına və özəl qurumlara müəyyən şərtlər daxilində verdikləri kredit və borclardır. Borc investisiya qoyuluşunda investisiya ixrac edən investor kapital qoyulan ölkələrdə sahibkar rolunda çıxış etməyə də bilər. Çox hallarda o öz kapitalını xarici sahibkara və xarici ölkənin hökümətinə borc verir. Borc investisiya qoyuluşu istiqrazlar, kreditlər, xarici banklarda cari hesablara qoyuluşlar kimi ixrac edilə bilər.

Ölkədə geniş təkrar istehsalı prosesinin səmərəli tənzimlənməsində, iqtisadi inkişafın maddi bazasının yaradılmasında investisiyalardan səmərəli istifadə əsaslı şəkildə dövlətin tərəfindən düzgün işlənib hazırlanmış və əsaslandırılmış investisiya siyasətindən asılıdır. Buna görə də, öz iqtisadi fəaliyyətində dövlət ilk növbədə investisiya siyasətinin işlənib hazırlanmasına və onun ardıcıl şəkildə reallaşdırılmasına prioritet bir məsələ kimi baxır.

Bazar iqtisadiyyatında dövlətin investisiya siyasətinin xarakterik xüsusiyyətlərindən biri mövcud müəssisələrin texniki təchizatına və yenidən qurulmasına yönəldilən əsaslı vəsait

qoyuluşlarının tərkibində maşın və avadanlıqlar üçün məsrəfin xüsusi çəkisini yüksəldilməsinə əsas diqqətin yönəldilməsindən ibarətdir. Bu isə öz mahiyyətinə görə iqtisadiyyatın prioritet sahəsi sayılan maddi istehsal sferalarında əsas istehsal fondlarının sürətlə və səmərəli şəkildə yeniləşməsi deməkdir.

Ümumiyyyətlə, investisiya siyasəti dedikdə - investisiya qoyuluşlarının əsas istiqamətlərinin müəyyənləşdirilməsi və onların iqtisadiyyatın prioritet sahələrində cəmləşdirilməsi, səmərəli istifadəsi üzrə kompleks tədbirləri işləyib hazırlayan və həyata keçirən təsərrüfat qərarlarının məcmusu başa düşülür. Düzgün əsaslandırılmış investisiya siyasəti vasitəsilə ölkədə makro və mikro səviyyələrdə iqtisadi inkişafa nail olunur. Eyni zamanda, iqtisadiyyatın tarazlığı, onun səmərəliliyinin yüksəldilməsi və milli gəlirin artımı təmin edilir.

İnvestisiya siyasətinin ən mühüm vəzifələrindən biri mövcud ehtiyatlardan səmərəli istifadə etməklə, vəsaitləri ölkədə ETT-nin sürətləndirilməsini təmin edən sahələrin xeyrinə yenidən bölüşdürülməsindən ibarətdir.

İnvestisiya siyasətinin əsas istiqamətlərindən biri Milli maraqların təmin edilməsi məqsədilə respublikada sabit investisiya mühitinin yaradılması və ilk növbədə xarici investorlara əlverişli şəraitin təşkil edilməsidir.

Dövlətin investisiya siyasətinin əsas məqsədlərindən biri elmi-texniki nailiyyətlərin tətbiqi hesabına, əsas fondların yeniləşdirilməsinin və istehsahn yenidən qurulmasının həyata keçirilməsinin təmin edilməsidir. Respublikanın investisiya siyasətinin mühüm istiqamətlərindən aşağıdakıları göstərmək olar:

- mühüm iqtisadi layihələrin reallaşdırılmasında mərkəzləşdirilmiş maliyyələşdirməni azaltmaq və onlardan əsasən mühüm dövlət obyektlərinin investisiyalaşdırılması üçün istifadə etmək;
- investisiyaları əsasən prioritet sahələrinin inkişafına yönəltmək;
- bazar təsərrüfatı əsasında səmərəli işləyən investisiya bazarının təşkil edilməsi;
- ölkədə investisiya layihələrinin reallaşdırılmasında əhalidə olan

sərbəst pul ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi;
- investisiyaların tənzimlənməsi və xüsusilə də investisiya layihələrinin sığortası üzrə zəruri hüquqi bazanın formalaşdırılması;
- birgə dövlət-kommersiya maliyyə investisiya layihəsi və o cümlədən, fərdi biznes və MDB ölkələrindən kapitalın cəlb edilməsi;
- investisiya tsiklinin müddətinin qısaldılması və s.

İnvestisiya fəaliyyəti ölkədə investisiya proseslərinin əsasını təşkil edir. İnvestisiya fəaliyyəti dedikdə, investisiya qoyuluşları ilə bağlı həyata keçirilən bütün işlərin məcmusu başa düşülür.

İnvestisiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsində subyektlərin də düzgün seçilməsi həlledici amilə malikdir. Məhz buna görə də Azərbaycan Respublikasmın 13 yanvar 1995-ci il tarixli «İnvestisiya fəaliyyəti haqqında» Qanununda qeyd edilmişdir ki, xarici ölkələrin vətəndaşları və hüquqi şəxslər, vətəndaşlığı olmayan şəxslər, dövlətlər investisiya fəaliyyətinin subyektləri hesab edilə bilər. Məlum olduğu kimi, investisiya obyektlərinə cəlb edilən maliyyə, maddi və intellektual sərvətlərin istifadə olunmasına yönəldilməsi üçün müvafıq qərar qəbul edən və həmin qərarlara tam əməl edilməsini təmin edən subyektlər investorlar hesab edilir. İnvestorlar, investisiya fəaliyyəti ilə əlaqədar olan əmanətçi, kreditor və alıcı qismində çıxış etməkdə investisiya fəaliyətinin iştirakçısının funksiyalarını yerinə yetirirlər. Mülkiyyət formasından və təsərrüfat fəaliyyətinin növündən asılı olmayaraq investisiya fəaliyyətinin həyata keçirilməsi sahəsində bütün investorlar eyni və bərabər hüquqla-ra malikdirlər. Azərbaycan Respublikasınm ərazisində investisiya prosesinin həyata keçirilməsi zamanı yaranan münasibətlər «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu və digər qanunvericilik aktları ilə tənzimlənir.

Bütün investisiya fəaliyyəti Azərbaycan Respublikasının qanunvericilik aktları çərçivəsində dövlət tərəfindən tənzimlənir. Hər bir investor müstəqil olaraq investisiya qoyuluşlarının məqsədini, istiqamətini və həcmini müəyyənləşdirir və onun həyata

keçirilməsində nəzərdə tutulmuş müqavilələr əsasında fəaliyyət aparır. Adətən, müsabiqə (tender) və hərrac yolu ilə fiziki və hüquqi şəxslər investisiya fəaliyyətinə cəlb edilə bilərlər

Ölkələrin müvafiq qanunvericilik aktlarına tam uyğun olaraq hər bir investor investisiya obyektlərinə, onların nəticələrinə sahiblik etməklə bərabər, sərəncam vermək, ticarət əməliyyatları həyata keçirinək hüququna malikdirlər. Eyni zamanda, «İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikası Qanunda və onun nəticələrinə sahib olmaq, istifadə etmək hüququnun, həmçinin, digər hüquqi və fiziki şəxslərə verilməsi göstərilmişdir. İnvestorun belə hərəkəti müstəqil qaydada qarşılıqlı müqavilə əsasında həyata keçirilir.

İnvestisiya fəaliyyətində subyektlərin də üzərinə bir sıra mühüm vəzifələr düşür. Bu vəzifələrə əsasən aşağıdakıları aid etmək olar:

- nəzərdə tutulmuş maliyyə vəsaiti, maddi sərvətlər əsasında həyata keçirilən investisiyanın həcmi və onun maliyyələşdirilmə mənbəyi bəradə yerli banklara və ya maliyyə orqanlarına vaxtaşırı arayış təqdim etmək;

- əsaslı tikinti və icazə tələb edən obyektlər üçün müvafıq dövlət orqanlarından razılıq əldə etmək;

- respublika qanunvericilik aktlarında nəzərdə tutulmuş standartlara əməl etmək;

- investisiya layihələri üçün texnoloji, sanitariya-gigiyena, radiasiya, ekologiya və arxitektura tələbrinə düzgün əməl edilməsi baxımından ekspertiza rəyi almaq, nəzərdə tutulmuş qaydada mühasibat və statistika hesabatlar təqdim etmək, haqsız rəqabətə yol verınəmək və antiinhisar tənzimlənməsinin tələblərinə əməl etmək;

- xüsusi attestasiya tələb edən iş növlərinin yerinə yetirilməsi üçün investisiya fəaliyyətinin iştirakçıları lizensiya almalıdırlar.

Qanunvericilik aktlarına tam uyğun olaraq bu cür işlərin siyahısı Respublikanın Milli Məclisi tərəfindən müəyyənləşməklə, onlara lisenziya verilməsi Nazirlər Kabineti tərəfindən həyata keçirilir. Bütün bunlarla yanaşı, investisiya fəaliyyətinin hər bir

subyektləri arasında münasibətlərin tənzimlənməsi müqavilələr əsasında həyata keçirilir.

İnvestisiya fəaliyyəti subyektlərinin müstəsna səlahiyyətinə müqavilənin bağlanması, tərəflərin seçilməsi, öhdəliklərin müəyyənləşdirilməsi və s. daxildir.

Məlum olduğu kimi, investisiya fəaliyyətinin həyata keçirilməsi şərtlərlə, onun subyektlərinin hüquqlarının və qanuni mənafelərinin təminatçısı dövlət hesab edilir.

İnvestisiya fəaliyyətinin subyektləri arasında bağlanmış müqavilənin şərtlərinin dəyişdirilməsinə hər iki tərəfin razılığı olmalıdır. İnvestisiya fəaliyyəti subyektlərinin işinə dövlət orqanları və onların vəzifəli şəxsləri nəzərdə tutulmuş səlahiyyətlərindən kənar həddə müdaxilə edə bilməzlər. İnvestisiya qoyulan obyektlərin seçilməsində investorların hüquqlarını məhdudlaşdırmaq olmaz (qanunla müəyyənləşdirilmiş hallardan başqa). Bununla əlaqədar olaraq «İnvestisiya fəaliyyəti haqqında" Qanunda göstərilir ki, dövlət və başqa orqanlar investorlar və investisiya fəaliyyətinin digər subyektlərinin hüquqlarını pozan aktlar qəbul etdikdə, investisiya fəaliyyəti subyektlərinə dəyən zərəri bu orqanlar tam həcmdə ödəməlidirlər. Əks halda, onlar zərərin ödənilməsi barədə müvafiq orqanlara müraciət etmək hüququna malikdirlər.

İnvestisiya prosesi, investisiya bazarında həyata keçirilir ki, bu da öz növbəsində kapital qoyuluşu bazarını (əsas fondların təkrar istehsalı üçün), əmlak bazarını, qiymətli kağızlar bazarını, intellektual mülkiyyət bazarını, investisiya layihələri bazarını özündə birləşdirən bir sıra müstəqil seqmentlərə bölünür. İnvestisiya fəaliyyətinin ümumi prinsiplərində bu bazarlar investisiyaların obyektlərinə görə fərqlənirlər. Bu isə aparılan təhlilin forma və metodlarınm iqtisadi səmərəliliyinin qiymətləndirilməsini, investisiyanın risklik səviyyəsini və etibarlığını müəyyən edir.

İnvestisiya prosesinin obyektlərindən istifadə edənlər, investorlar habelə digər fiziki və hüquqi şəxslər, dövlət və bələdiyyə orqanları, xarici dövlətlər və beynəlxalq təşkilatlar ola

bilər. İnvestorlar, investisiya prosesini həyata keçirmək üçün hüquqi və fiziki şəxsləri müqavilə (tender) əsasında cəlb edir. İnvestisiya prosesinin subyektləri arasında istehsal, təsərrüfat və digər qarşılıqlı əlaqəni tənzimləyən əsas hüquqi sənəd onlar arasında bağlanan müqavilədir.

Müqavilələrin bağlanması, partnyorların seçilməsi, təsərrüfat əlaqələrinin hər hansı digər şərtləri və öhdəliklərinin müəyyən edilməsi yalnız investisiya prosesinin subyektinin ixtiyarındadır.

İnvestisiya prosesinin subyektlərinin iki və daha çox iştirakçıların funksiyalarını birləşdirmək hüquqi vardır. Birgə investisiya qoyuluşunu həyata keçirinək məqsədilə investorların vəsaitlərinin birləşdirüməsinə də yol verilir. İnvestorlar, eyni zamanda əmanətçi, sifarişçi, kreditor və alıcı rolunda çıxış edə bilər, həmçinin investisiya prosesinin hər hansı bir iştirakçısının funksiyalarını yerinə yetirə bilərlər.

İnvestisiya prosesinin həyata keçirilməsində bütün investorlar bərabər hüquqa malikdirlər. İnvestisiya prosesinin obyekti olan əmlaka və əmlak hüquqlarına investisiya qoyuluşu investorun toxunulmaz hüququdur və o qanunla müdafiə olunur. İnvestor, investisiyaların həcmini, istiqamətini, səmərəliliyini müstəqil formada müəyyən edir. İnvestorun, investisiya obyektlərinə sahib olmaq, onlardan istifadə etmək və onlar üzərində sərəncam vermək, o cümlədən ticarət əməliyyatları və təkrar investisiya qoyuluşlarını həyata keçirmək hüququ vardır.

Azərbaycan Respublikasının ərazisində investisiya, o cümlədən xarici investisiya fəaliyyətinin həyata keçirilməsi zamanı yaranan münasibətlər ölkədə qəbul olunmuş bir sıra qanunvericilik aktları ilə, habelə ölkənin qoşulduğu müvafıq beynəlxalq müqavilələrlə tənzimlənir. Bütün bu qanunvericilik bazası əsasında dövlət ölkədə investisiya fəaliyyətinin tənzimlənməsinin hüquqi mexanizmini formalaşdırır və mütəmadi olaraq onun səmərəli fəaliyyətinin təmin edilməsi istiqamətində tədbirlər həyata keçirir. Dövlətin investisiya fəaliyyəti sahəsində siyasətinin formalaşmasına sistemli yanaşma əsasında ilk növbədə ümumi xarakterli hüquq normaların, sonrakı mərhələdə isə

konkret xarakterli hüquqi norınaların qəbulu ilə xarakterizə olunmalıdır.

Ümumi xarakterli hüquq normalarına Azərbaycan Respublikasının Konstitusiyası, ümumi xarakterli qanunlara isə «Vergi Məcəlləsi», «Əmək Məcəlləsi», «Mülki Məcəllələr», «Mülkiyyət haqqında», «Sahibkarlıq fəaliyyəti haqqında», «Banklar və bank fəaliyyəti haqqında» və s. qanunlar, həmçinin, ratifikasiya edilmiş beynəlxalq müqavilələr daxildir.

Konkret xarakterlə hüquqi normalara isə Azərbaycan Respublikasının «İnvestisiya fəaliyyəti haqqında», «Xarici investisiyaların qorunması haqqında», «İnvestisiya fondları haqqında» Qanunları, investisiyalar üzrə Dövlət Proqramları, hökümət qərarları aiddir.

Azərbaycan Respublikasının Konstitusiyanın 13-cü maddəsində deyilir ki, Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Konstitusiyanın 29-cu maddəsində isə deyilir ki, hər kəsin mülkiyyət hüququ vardır, məhkəmənin qərarı olmadan heç kəs mülkiyyətindən məhrum edilə bilməz və dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər. Konstitusiyanın 59-cu maddəsində hər kəsin qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək azad sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququna malik olduğu göstərilir. Bu maddələr həm yerli, həm də xarici fiziki və hüquqi şəxslərə şamil edilir.

«İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu ölkə ərazisində investsiya fəaliyyətinin ümumi sosial, iqtisadi və hüquqi şərtlərini müəyyənləşdirir. Qanun Azərbaycan iqtisadiyyatına investisiyaların intensiv cəlb olunmasına, onların ölkənin sosial-iqtisadi bazasının genişləndirilməsi, habelə beynəlxalq iqtisadi əməkdaşlığın və inteqrasiyanın inkişafı üçün səmərəli istifadəsinə zəruri şərait yaradılmasına yönəldilmişdir və mülkiyyət formasından asılı olmayardq

investisiya fəaliyyəti aparan bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir.

Qanunda investisiya fəaliyyəti, investorların investisiya qoyuluşu və onun həyata keçirilməsi ilə əlaqədar bütün hərəkətlərin məcmusu kimi müəyyən olunur. Onun aşağıdakı növləri vardır:

1. Azərbaycan Respublikası vətəndaşları, qeyri-dövlət müəssisə, idarə, təşkilat və qurumları tərəfindən həyata keçirilən investisiya fəaliyyəti;

2. Dövlət hakimiyyət və idarəetmə orqanları, habelə dövlət müəssisə, idarə və təşkilatları tərəfindən büdcələrin, büdcədənkənar fondların, özlərinə məxsus və borc vəsaitinin hesabına həyata keçirilən dövlət investisiya fəaliyyəti;

3. Xarici vətəndaşlar, hüquqi şəxslər, dövlətlər, beynəlxalq maliyyə təşkilatları, habelə vətəndaşlığı olmayan şəxslər tərəfindən həyata keçirilən xarici investisiya fəaliyyəti;

4. Azərbaycan Respublikasının və xarici dövlətlərinin vətəndaşları, hüquqi şəxslər və dövlətlər tərəfindən həyata keçirilən birgə investisiya fəaliyyəti.

İstehsalat və sosial sahəyə, elmi-texniki tərəqqinin nailiyyətlərini tətbiq etmək üçün investisiya fəaliyyətinin bir forması kimi innovasiya fəaliyyəti həyata keçirilə bilər. İnvestisiya fəaliyyətinin obyektlərinə aşağıdakılar aiddir: iqtisadiyyatın bütün sahələrində hər hansı əmlak, o cümlədən əsas fondlar və dövriyyə vəsaiti, qiymətli kağızlar, məqsədli pul əmanətləri, elmi-texniki məhsullar, intelektual sərvətlər, digər mülkiyyət obyektləri, habelə əmlak hüquqları. Həmçinin «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda müəyyənləşdirilmişdir ki, yaradılması və istifadə edilməsi Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyənləşdirilmiş sanitariya-gigiyeniya, radiasiya, ekologiya, arxitektura və digər normaların tələblərinə uyğun gəlməyən, habelə vətəndaşların, hüquqi şəxslərin və dövlətin qanunla qorunan hüquq və mənafelərini pozan obyektlərə investisiya qoyulması qadağandır.

İnvestorlara, investisiya obyektinə və nəticəsinə sahib olmaq, istifadə etmək və sərəncam vermək, o cümlədən ticarət əməliyyatı və reinvestisiyalaşdırma aparmaq hüququ verilmişdir.

Xüsusi növ işlərin yerinə yetirilməsi üçün investisiya fəaliyyətinin iştirakçılarına lisenziya və sertifikat verilməsi qaydası Azər-baycan Respublikası hökuməti tərəfindən müəyyən edilir.

İnvestisiya fəaliyyətinin subyektləri arasında münasibətləri tənzimləyən əsas hüquqi sənəd müqavilələrdir. Müqavilələrin bağlanması, tərəflərin seçilməsi, öhdəliklərin müəyyən edilməsi, investisiya fəaliyyəti subyektinin müstəsna hüququdur.

İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi vahid iqtisadi, elmi-texniki və sosial siyasət yeridilməsi məqsədi ilə həyata keçirilir və Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf proqramında nəzərdə tutulmuş həcmlərdə respublika və yerli büdcələr hesabına maliyyələşdirilir. İctimai tələbatın ödənilməsinin daha vacib istiqamətlərində investisiya fəaliyyətini həyata keçirən investorlara qanunvercilik aktları ilə nəzərdə tutulan güzəştlər verilir. İnvestisiya fəaliyyətinin idarə olunması, habelə investisiya fəaliyyəti şərtlərinin tənzimlənməsi və bu şərtlərə investisiya fəaliyyətinin bütün subyektləri tərəfindən əməl edilməsinə nəzarət daxildir.

Dövlət, investisiya fəaliyyəti subyektlərinin hüquqlarının sabitliynə təminat verir. Dövlət orqanları və onların vəzifəli şəxsləri qanunvericiliklə yol verilən və onların səlahiyyətinə daxil olan hallardan başqa, investisiya fəaliyyəti subyektlərinin işinə qarışa bilməzlər. Dövlət orqanları və başqa orqanlar investorların və investisiya fəaliyyətinin digər subyektlərinə dəyən zərəri bu orqanlar məhkəmənin və ya arbitraj məhkəməsinin qərarı üzrə tam həcmdə həmin subyektlərə ödəməlidirlər.

Azərbaycan Respublikasının qanunvericiliyində mülkiyyət formasından asılı olmayaraq, bütün investisiyaların, o cümlədən xarici investisiyaların qorunmasına dövlət təminatı verilir. Bütün investorlar, o cümlədən xarici investorlar bərabər hüquqi rejimlə təmin olunurlar. İnvestisiya əvəzsiz olaraq milliləşdirilə, rekvizisiya edilə bilməz. Bu kimi tədbirlərin tətbiqi investorlara vurulmuş

zərərin tam şəkildə ödənilməsi şərtilə, yalnız qanunvericilik aktları əsasında həyata keçirilə bilər. Ölkə ərazisində investisiyalar sığortalana bilər, qanunvericiliklə nəzərdə tutulan halarda isə hökmən sığortalanmalıdır.

Xarici investisiyaların hüquqi tənzimlənməsi sistemi özündə milli-hüquqi və beynəlxalq-hüquqi tənzimlənməni birləşdirir.

Xarici investisiyaların hüquqi tənzimlənməsi xarici investisiya resurslarının mülkiyyət forması ilə müəyyən olunur. Beynəlxalq investisiya prosesində iki növ xarici investisiyalaşdırma fərqləndirilir: dövlət və qeyri-dövlət.

Dövlət xarici investisiyalaşdırma, beynəlxalq borc, kredit və s. razılaşmalar şəklində həyata keçirilir və bir qayda ölaraq, investisiyanın infrastrukturna yönəldilir. Bu halda beynəlxalq hüququn subyektləri-dövlətlər, beynəlxalq təşkilatlar, onların institutları, məsələn, Ümumdünya Bankı, Beynəlxalq Valyuta Fondu - arasında münasibətlər yaranır. Bu münasibətlər dövlət mülkiyyəti əsasında qurulur. Dövlət mülkiyyəti obyektlərin suverenliyi halında beynəlxalq hüquqda xüsusi statusa malik olur. Bu halda, mülkiyyət qorunur və beynəlxalq-hüquqi məsuliyyət hallarını nəzərə almasaq, milliləşdirmə, rekvizisiya və digər bu kimi tədbirlərə məruz qala bilməz. Beləliklə, xarici investisiyalaşdırın'anın bu növü yalnız beynəlxalq razılaşma formasında tənzimlənməlidir. Bu razılaşma isə iki dövlət arasında olduğu kimi, dövlət və beynəlxalq təşkilat arasında ola bilər.

Xüsusi xarici investisiyalaşdırına fiziki və hüquqi şəxslərin mülkiyyəti olan birbaşa, kredit və portfel investisiyaları formasında həyata keçirilir. Xüsusi xarici investisiyalaşdırmanın tənzimlənməsi ilə müqayisədə daha mürəkkəbdir. Belə ki, o, milli-hüquqi və beynəlxalq-hüquqi tənzimlənmənin birləşməsi vasitəsilə həyata keçirilir. Bu baxımdan xüsusi xarici investisiyaları stimulaşdırınaq üçün qanunvericilik səviyyəsində aşağıdakıları müəyyənləş-

dirmək və həyata keçirmək təklif olunur: mülkiyyətin bütün formaları üçün eyni şərait və qarantiya; mülkiyyət hüququnun qorunması; xarici investisiyalar üçün hüquqi rejim və qarantiya; qanunvericiliyin sabitliyi və şəffaflığı; xarici investorların dövlət orqanlarının qeyri-qanuni hərəkətlərindən qorunması.

1992-ci il tarixli «Xarici investisiyaların qorunması haqqında» Azərbaycan Respublikasının Qanunu ölkə ərazisində xarici investisiya qoyuluşunun hüquqi və iqtisadi prinsiplərini müəyən edir, və xarici investorların hüquqlarının müdafiəsinə təminat verir.

Xarici investorlar Azərbaycan Respublikası ərazisində aşağıdakı yolla investisiya qoya bilərlər:

a) Azərbaycan Respublikasının hüquqi şəxsləri və tərəfdaşları ilə birlikdə yaradılan müəssisələrdə payçılıq iştirakı;

b) tamamilə xarici investorlara məxsus olan müəssisələr yaradılması;

s) müəssisələrin, əmlak komplekslərinin, binaların, qurğuların, səhmlərin, istiqrazların və digər qiymətli kağızların, habelə, xarici investorlara məxsus ola bilən başqa əmlakın əldə edilməsi;

d) torpaqdan və başqa təbii ehtiyatlardan istifadə hüquqlarının və digər əmlak hüquqlarının əldə edılməsı;

e) Azərbaycan Respublikasının hüquqi şəxslər, vətəndaşları ilə xarici normaları nəzərdə tutan müqavilələrin bağlanması.

Xarici investisiyalı müəssisə dövlət qeydiyyatdan keçməlidir və həmın andan bu müəssisə Azərbaycan Respublikasının hüquqi şəxsı statusunu əldə etmiş olur. Xarici investisiyalı müəssisələr qanunvericilik aktları ilə qadagan edilməmiş istənilən fəaliyyəti həyata keçirə bilərlər. Xarici investorlarla Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq torpaqdan və başqa təbii ehtiyatlardan istifadə hüquqları, o cümlədən torpağın icarəsi hüququ verilə bilər. Bu

zaman torpaq sahələri, xarici hüquqi şəxslərə və vətəndaşların mülkiyyətinə və ya varsilik hüququ ilə onlara ömrlük sahibliyə verilmir.

Xarici investorlara faydalı qazıntıların kəşfiyyatı və işlənməsi hüquqlarının verilməsi parlamentdə təsdiq edilməli olan hökumət müqavilələri əsasında həyata keçirilir.

Xarici investorlar, qanunvericilikdə müəyyən edilmiş qaydada dövlət və bələdiyyə mülkiyyətinin özələşdirilmələsində iştirakı, qiymətli kağızlarını, habelə müəssisələrin səhmlərini əldə edə bilər. Məsələn, özəlləşdirmə proqramında nəzərdə tıtulub ki, dövlət mülkiyyətini özəlləşdirmək üçün xarici investor əvvəlcə dövlət özəlləşdirmə opsionlarını əldə etməlidirlər. Opsion - xarici invistora özəlləşdirmə çeklərini və özəlləşdirilən müəssisələrin səhmlərini almaq hüququnu verən dövlət qiymətli kağızıdır. Bir opsion bir özəlləşdirmə çekini əldə etmək hüququ verir. Opsionların dəyəri bazarın konyukturundan asılı olaraq Dövlət Əmlak Komitəsi tərəfindən müəyyənləşdirilir. Opsionların tədavül müddəti onların buraxılması anından etibarən 3 ildir. Bu halda aşağıdakılar xarici investorlar hesab edilir:

- xarici hüquqi şəxslər;
- tamamilə xarici investorlara məxsus olan müəssisələr;
- nizamnamə kapitalında xarici investorların payı 25 faizdən çox olan birgə müəssisələr.

Xarici investisiyalı müəssiələr və xarici investorlar, parlamentdə təsdiq edilmiş hökumətlərarası müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş vergiləri ödəyirlər.

Qanunda nəzərdə tutulmuş istisnalarla, xarici investisiyanın, habelə investisiya qoyuluşu sahəsində xarici investorlarının fəaliyyətinin hüquqi rejimi Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərin əmlakı, əmlak hüquqları, habelə investisiya fəaliyyəti üçün yaradılmış rejimdən az əlverişli ola bilməz.

İqtisadiyyatın üstünlük verilən sahələrində və ayrı -ayrı ərazilərdə xarici invvestisiya üçün qanunverciliklə əlavə vergi güzəştləri və başqa güzəştlər müəyyən edilə bilər.

Azərbaycan Respublikası ərazisində xarici investisiya hüquqi cəhətdən tam və qeyri-şərtsiz müdafiə olunur. Belə müdafiə milli qanunvercilik normaları və beynəlxalq müqavilələr ilə təmin olunur.

Yuxarıda qeyd olunduğu kimi, Azərbaycan Respublikası xarici investisiya xalqa və dövlət mənafelərinə zərər vuran müstəsna hallar istisna olmaqla, milliləşdirılir və rekvizisiya edilmir. Belə tədbirlər görüldükdə isə kompensasiya ödənilir.

Müvafiq vergilər və rüsumları ödədikdən sonra-xarici investorların qanuni əsaslarla xarici valyuta şəklində əldə etdikləri gəlirləri və başqa məbləğləri xaricə köçürülməsinə təminat verilir. Xarici investisiyalı müəssisələr öz istehsal etdikləri məhsulu (işləri, xidmətləri) lisenziyasız ixrac edə və özünün təsərrüfat fəaliyyəti üçün məhsulu (işləri, xidmətləri) lisenziyasız ixrac edə bilər və özünün təsərrüfat fəaliyyəti üçün məhsulu, xidmətləri idxal edə bilər. Xarici investorlar və xarici investisiyalı müəssisələr torpaqdan və başqa təbii ehtiyyatlardan istifadə hüquqlarının, o cümlədən torpağın icarəsi hüququnun verilməsi Azərbaycan Respublikasının Torpaq Məcələrsi və başqa qanunvericilik aktları ilə tənzimlənir.

Xarici investorlara faydalı qazıntı yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, digər ehtiyatların istifadəyə verilməsi hüquqları Azərbaycan hökumətinin onlarla bağladığı və qanunverici orqan tərəfindən təsdiq edilən konsepsiya müqavilələri əsasında verilir.

Xarici investisiyalar üçün hüquqi rejimin formalaşdırılması üzrə dövlətlərarası, hökümətlərarası, ikitərəfli razılaşma və müqavilələrin xüsusi əhəmiyyəti vardır. Azərbaycan Respublikası artıq bir sıra ölkələrlə, o cümlədən Türkiyə, Almaniya, Norveç, ABŞ, Ukrayna, Yaponiya, Böyük Britaniya, Qazaxıstan, Özbəkistan, Rusiya və s. dövlətlərlə bu cür müqavilələr imzalamışdır. İnvestisiyaların qorunması və stimullaşdırılması üzrə ikitərəfli razılaşmaları xüsusi qeyd etmək lazımdır. Bu sənədlərdə investisiyaların qorunması, qarşılıqlı təsdiq olunması, ikiqat vergitutmadan imtina edilməsi, kömrük məsələləri və s.

hərtərəfli detallaşdırılır, qarşılıqlı faydalı şərtlər müəyyənləşdirilir. Bu cür razılaşmanın əsas prinsipi ondan ibarətdir ki, dövlətlər qarışıqlı olaraq investisiyalar üçün əlverişli mühit yaradılması məqsədilə qanun çərçivəsində bütün tədbirlər və vasitələrdən istifadə etməyi öz öhdəsinə götürürlər.

Bundan əlavə, investisiyalar üçün əlverişli şəraitin yaradılmasında Azərbaycanın bir çox dövlətlərlə imzaladığı ikiqat vergitutmaya cəlb olunmasına yol verilməməsi sahəsində əməkdaşlıq üzrə sazişlərin də rolu yüksəkdir. Müvafiq sazişlər ölkə ərazisində xarici investorlara öz fəaliyyətlərini genişləndirməkdə hüquqi yardım göstərir.

Məlumdur ki, investisiya qoyuluşunda başlıca məqsəd respublikada strateji əhəmiyyət kəsb edən istehsal sahələrinin, istehsal və sosial infrastrukturun yaradılması və son nəticədə lazımi mənfəətin əldə edilməsidir. İnvestisiya qoyuluşlarının müxtəlif obyektlərə sərf edilməsinin nəzərdə tutulması maraqlı tərəflərin mənafelərinə tam uyğun formada həyata keçirilir. Öz mahiyyəti etibarı ilə investisiya qoyuluşları qarşıda duran strateji problemlərin həcmindən, miqyasından asılı olaraq müəyyən müddətlərə nəzərdə tutulur. Respublikamızda yeraltı və yerüstü sərvətlərdən tam və səmərəli istifadə edilməsi məqsədilə müxtəlif müddətə, əsasən uzun dövr üçün (30 və daha çox ilə), xarici investisiya qoyuluşları sahəsində, xüsusilə də, neft-qaz hasilatı üzrə ikitərəfli müqavilələr imzalanmışdır. Bu da ölkədə nəinki neft-qaz hasilatının güclü inkişafma və habelə, ümumilikdə; iqtisadiyyatın strukturunda əsaslı keyfiyyət dəyişikliklərinin baş verməsinə səbəb olacaqdır.

Respublikada xarici investisiya qoyuluşlarının başlıca obyektləri düzgün olaraq neft-qaz sənayesi hesab edilmişdir. Xarici investorlar, Azərbaycan ərazisində aşağıdakı istiqamətlər üzrə investisiya qoymaq hüququna malikdirlər:

- Azərbaycan Respublikasında müvafiq filialların yaradılması;

- müəssisələrin, binaların, qurğuların, müəssisələrdə iştirak payının, səhmlərin, istiqrazların və digər qiymətli kağızların və

Azərbaycan Respublikasının-qanunvericiliyinə uyğun olaraq digər əmlakın alınması;

- torpaqdan və digər təbii resurslardan istifadə etmək hüququnun alınması;

- borc, kredit, əmlak və digər əmlak hüququnun verilməsi..

Azərbaycan ərazisində fəaliyyət göstərən qanunvericiliklə müəyyən edilmiş digər normaların tələblərinə cavab verinəyən və dövlətin hüquq və mənafelərinə zidd olan obyektlərin yaradılması və istifadəsinin investisiyalaşdırılması qanunla qadağan edilir.

Son illərdə Azərbaycanda investisiya proseslərinin səmərəli həyata keçirilməsi məqsədilə bir sıra məqsədli dövlət proqramları işlənmişdir. Belə ki, dövlət tərəfindən qəbul edilmiş «1997-1999-cu illərə Azərbaycan Respublikasının İnvestisiya Proqram»ı, «2003-2005-ci illərə Azərbaycan Respublikasının İnvestisiya Proqram»larında bu sahədə bir sıra vəzifələr müəyyənləşdirilmiş və onlar artıq yerinə yetirilmişdir. Hazırda növbəti müvafiq İnvestisiya Proqramı işlənib hazırlanmaqdadır. Bundan əlavə bir sıra sahələrin inkişafı üzrə proqramlar da qəbul edilmişdir. Xüsusi əhəmiyyət kəsb edən sənədlərdən biri «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı»dır. Bu proqram 2002-2005-ci illərri əhatə edir və əvvəlki proqramlardan daha mükəmməl hüquqi akta malikdir.

Proqramın məqsədi Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin, tənzimlənməsi sisteminin təkmilərşdirilməsi, kiçik və orta sahibkarhğın (KOS) insan resursunun inkişafı, texniki, maliyyə köməyi mexanizimlərinin dərinləşdirilməsi, sahibkarlığın hüquqi təminatının gücləndirilməsi və regionlarda sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması əsasında KOS-un inkişafını təmin etməkdir.

Dövlət Proqramının effektiv həyata keçirilməsindən gözlənilən nəticələr aşağıdakılardır: ölkə əhalisinin sahibkarlıq və investisiya fəaliyyətinə cəlb edilməsi çərçivəsinin genişlənməsi; sahibkarlıq fəaliyyətinin struktur, regional və texnoloji ba-

xımdan təkmilləşdirilməsi; ölkə iqtisadiyyatının strukturunıın yenidən qurulmasında, rəqabət potensialının artırılmasında və iqtisadi qloballaşma şəraitinə uyğunlaşmasında KOS-ların rolunun gücləndirilməsi; istehsal sferasında yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluq strukturunun təkmilləşdirilməsi; ölkə ixracında KOS-ların payının artması; iqtisadi fəaliyyətin regional strukturunun təkmilləşdirilməsi və s.

Dövlət Proqramında bir sıra istiqamətlərdə məqsədlər və onlara çatmaq üçün, tədbirlər müəyyən edilmişdir: sahibkarlığın dövlət tənzimlənməsi sahəsində lisenziyalaşdırmanın istiqamətləndirici rolunun yüksəldilməsi, dövlət sifarişlərinin həyata keçirilməsində KOS subyektlərinin iştirakının təmin edilməsi məqsədilə lisenziya tələb olunan fəaliyyət növlərinin siyahısına vaxtaşırı baxılması və lisenziya sisteminin təkmilləşdirilməsi, dövlət ehtiyacları üçün məhsul istehsalı və işlərin görülməsi üzrə sifarişlərin yerinə yetirilməsində KOS subyektlərinin iştirak mexanizmlərinin yaradılması; KOS inkişafının maliyyə, investisiya təminatının yaradılması sahəsində investisiyalara dövlət təminatının təkmilləşdirilməsi, regionlarda öncül sahələrə investisiya qoyulmasının stimullaşdırılması, elmi-texniki nailiyyətlərin riskli layihələrin və yeni texnologiyaların tətbiqinin maliyyələşdirilməsinə kömək göstərilməsi məqsədilə kiçik sahibkarlıq subyektləri üçün sadələşdirilmiş sistem üzrə verginin tətbiqi, kredit ittifaqlarına köməklik göstərilməsi, KOS subyektlərinin dövlət investisiya proqramlarında iştirakı mexanizmlərinin hazırlanması, KOS sənaye müəssisələrinin modernizasiyasına investi-siya yardımı mexanizminin yaradılması, kommersiya banklarının KOS-in investisiya ehtiyaclarına uyğunlaşdırılması, KOS subyektlərin innovasiya layihələrinin maliyyələşdirilməsinə kömək göstərilməsi, vençur kapitalından istifadə mexanizminin yaradılması; KOS-ların rəqabət qabiliyyətli ixrac məhsullarının istehsalının stimullaşdırılması, sahibkarlıq sektoruna investorların cəlb olunması, yeni texnologiyaların geniş tətbiqinə şərait yaradılması üçün KOS subyektlərinin məhsullarının satışsərgi mərkəzinin yaradılması, onların ixrac fəaliyyətinə kömək

mexanizimlərinin formalaşdırılması, KOS-ların xarici texnoloji qurumlarla işbirliyi yaratmalarına kömək göstərməsi;

2005-ci ildə iqtisadiyyatın inkişafına müxtəlif daxili və xarici mənbələrdən 5,4 mlrd.manat investisiya yönəldilmişdir ki, bu da əvvəlki ilin səviyyəsindən 12,7% çoxdur.

Məcmu investisiya qoyuluşunun 32,8%-ni daxili investisiyalar təşkil etmişdir. 2005-ci ildə daxili investisiyaların ÜDM-də payı 13,6%, qeyri-neft ÜDM-də payı isə 23,2% olmuşdur.

Məcmu investisiyaların 71%-i neft sektoruna, yalnız 29%-i qeyri-neft sektorunun inkişafına yönəlmişdir. Hesabat ilində daxili investisiyaların 84,6%-i müəssisə və təşkilatların öz vəsaitləri, 6,3%-i bank kreditləri, 3,6%-i əhalinin şəxsi vəsaitləri, 3,5%-i büdcə vəsaitləri, 1,4%-i büdcədənkənar fondların vəsaiti, 0,6%-i isə digər mənbələr hesabına maliyyələşdirilmişdir.

Qrafik 1.

İqtisadiyyata investisiya qoyuluşu haqqında məlumat

(mln ABŞ dolları)



Ötən illərdə olduğu kimi investisiyaların önəmli hissəsi iri həcmli layihələrin həyata kezirilməsinə yönəlmişdir. Bu bir tərəfdən kapital əmtəələrinin idxalını artırmaqla bərabər, iqtisadi artıma da önəmli töhfə verməkdədir. Istər neft, istərsə də qeyri-neft sektorunda iri layihələrin reallaşdırılması ilə bağlı investisiyalar müəyyən tikinti xidmətlərinə də tələb yaradır ki, bu da

hesabat ilində tikintidə kəskin artımın müəyyən amilinə çevrilmişdir.

İqtisadiyyata cəlb edilmiş investisiyaların 77%-i sənaye sahələrinin inkişafına (o cümlədən 1,6%-i emal sənayesinə, 4,8%-i elektrik enerjisinin istehsalına), 6,1 %-i mənzil tikintisinə, 6,9%-i nəqliyyata, 2,1%-i ticarət və xidmətə, 2,4%-i rabitəyə, 0,8%-i kənd təsərrüfatına, 4,7%-i isə digər sahələrə yönəldilmişdir.

2005-ci ildə qeyri-neft sektoru sahələrinə yönəldilən investisıyaların artım tempi ötən illərə nisbətən xeyli yüksək olmuşdur. Belə ki, investisiyalar qida sənayesində 28,6%, mənzil tikintisində 15,4%, qeyri-metal mineral maddələrin istehsalında 68,9%, rabitədə 27,4%, təhsil və səhiyyədə 1,7 dəfa artmışıdır.

Dövlət tərəfindən sahibkarlığın inkişafına diqqətin artırılması yeni iqtisadi münasibətlərin formalaşmasını daha da sürətləndirmiş, bunun nəticəsində əvvəllər muzdla işləyən bir zox şəxslər fərdi sahibkar kimi fəaliyyət göstərməyə başlamışdır. 2005-ci ildə əsas kapitala investisiya qoyuluşunun da məhz 3,6%-i şəxsi vəsaitlər hesabına maliyyələşmişdir. Şəxsi investisiyaların başlıca mənbəyi kimi çıxış edən fiziki şəxslərin real gəlirlərinin artmasında makroiqtisadi sabitlik başlıca amil olaraq qalmaqdadır. Belə ki, makroiqtisadi sabitlik onların istehlak xərcləri ilə yanaşı yığıma da əhəmiyyətli təsir etmişdir. 2005-ci ildə məcmu tələbin artımında rolu olan mühüm amillərdən biri də hökumətin investisiya xərclərinin artımıdır. Belə ki, hesabat ilində dövlətin investisiya xərcləri əvvəlki illərlə müqayisədə l,7dəfə artaraq 410 mln.manat və ya büdcə xərclərinin 7,4%-ni təşkil etmişdir. Qeyd edək ki, investisiya xərclərinin 244,5 mln. manatını və ya 59,6%-ni istehsal və infrastruktur yönümlü layihələr, 122,9 mln. manatını və ya 30%-ni sosial yönümlü layihələr, 1,2 mln. manatını və ya 0,7%-ni institusional yönümlü layihələr və 38,8 mln. manatını və ya 9,5%-ni isə ərazilərin bərpası, yenidənqurulması və əsaslı tikinti layihələri üzrə xərclər təşkil etmişdir. Eyni zamanda il ərzində əsas kapitala investisiya qoyuluşlarınm 3,5%-i büdcə vəsaitləri hesabına həyata keçirilmişdir.

İnvestisiyaların 67,2%-i xarici mənbələr hesabına formalaşmışdır. Xarici investisiyaların 4161,5 mln. ABŞ dollarını və ya

93,6%-ni.birbaşa investisiyalar, 281,8 mln ABŞ dollarını və ya 6,3%-ni maliyyə kreditləri təşkil etmişdir. Əvvəlki illə müqayisədə birbaşa investisiyaların həcmi 0,7% azalmış, istifadə olunmuş xarici kreditlərin həcmi isə 3,8 dəfə artmışdır.

Həmçinin, Azərbaycanın regionlarına investisiyaların cəlb edilməsi günün ən vacib məsələlərindən biridir. Bu mühüm məsələni Məqsədli İnvestisiya Proqrammı ilə uzlaşdırılmaqla 2003-cü ildə qəbul edilmiş «2004-2008-ci illərdə Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı»nın xüsusi rolu olmuşdur. Belə ki, bu Proqram son 5 ildə ölkənin iqtisadi rayonlarının inkişafına fəal investisiya qoyuluşlarının cəlb edilməsinin və sahibkarlığın inkişafının sürətləndirilməsi, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi, bölgələrdə sosial-iqtisadi infrastruktur; obyektlərinin inkişafının təmin edilməsi istiqamətində böyük nailiyyətlər əldə etmək imkanı yaratmışdır.

Respublikada artıq çoxukladlı bazar iqtisadiyyatı inamla formalaşmaqdadır. Ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin nəticəsində iqtisadiyyatımızın dünya iqtisadiyyatına geniş inteqrasiya zəminində qurulması və inkişaf etdirilməsi real zəruriyyətə çevrilmişdir. Respublikanın uzaq xaric və MDB ölkələri ilə iqtisadi əlaqələrinin inkişafı milli iqtisadi mənafelərin gözlənilməsinə təminat verən dövlət proqramları əsasında həyata keçirilir. Həmin proqramlarda bir tərəfdən xarici investisiyaların cəlb edilməsi əsasında ölkənin ixracat potensialını artırınaq, digər tərəfdən, xarici-iqtisadi əlaqəbrin getdikcə daha da genişləndirilməsi nəzərdə tutulur. Bu baxımdan hələ 1994-cü il 20 sentyabrda imzalanmış «Əsrin müqaviləsi»nin sosial-iqtisadi əhəmiyyəti əvəzedilməzdir. Belə ki, 1999-cu ilin 19 avqustunda «Əsrin müqaviləsi»nin beşinci il dönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı xüsusi Sərəncam tarixi əhəmiyyət kəslə edir. Həmin Sərəncamda göstərilir ki, beynəlxalq aləmdə «Əsrin müqaviləsi» adını almış bu sazişin bağlanması müstəqil Azərbaycan Respublikasının həyatında tarixi hadisə kimi qiymətləndirilir. «Əsrin müqaviləsi»nin imzalanması Azərbaycan iqtisadiyatının dünya iqtisadiyyatına inteqrasiyası üçün tam əsas yaratdı. Beləliklə,

beynəlxalq konsersium yaradılaraq, indiyədək respublikada 19 neft müqaviləsi bağlanmış və bu mühüm problemdə 14 xarici ölkədə 33 iri məşhur şirkətlərin iştirakları təmin edilmişdir. Hesablamalara görə bu mühüm sazişlər respublikada karbohidrogen ehtiyatlarından istifadə sahəsində ölkəni Xəzər regionunda aparıcı mövqeyə çıxaracaqdır. Təhlil göstərir ki, indiyədək «Əsrin müqaviləsi»nin həyata keçirilməsi ilə bağlı 2,4 milyard ABŞ dolları məbləğində investisiya qoyulmuşdur. Ümumiyyətlə, neft-qaz hasilatı üzrə bağlanmış müqavilələr 30 il müddətinə nəzərdə tutulmuşdur ki, bunun da nəticəsində respublikamıza ümumilikdə 60 milyarda yaxın ABŞ dolları məbləğində investisiya qoyuluşları nəzərdə tutulur.

Müasir dövrdə neft sənayesinə qoyulan investisiyaların 60%-dən çoxunu xarici investisiyalar təşkil edir. Cəlb olunmuş xarici investisiyalarda xarici dövlətlərdən Türkiyənin payı 34,7%, ABŞ-ın payı 12,4%, İranın payı 8,9%, Böyük Britaniyanın payı 10,4%, BƏƏ-nin payı 3,6%, Rusiyanın payı 2,3% təşkil etmişdir.

Xarici investisiya fəaliyyətini stimullaşdırmaq məqsədilə normativ hüquqi aktları dünya standartlarına uyğun olaraq təkmilləşdirilməsi zəruridir. Məlum olduğu kimi, bu istiqamətdə respublika hökuməti lazımi tədbirlər həyata keçirmişdir. Belə ki, xarici iqtisadi əlaqələrin inkişafı və tənzimlənməsi istiqamətində qiymətlərin liberallaşdırılması, xarici ticarətin stabilləşdirilməsi və respublikaya xarici investisiyaların cəlb edilməsi ölkələrarası sərbəst mal mübadiləsinin həyata keçirilməsi üzrə bir sıra tədbirlər də yerinə yetirilmişdir və bunun da nəticəsində respublikaya xarici ölkələrin marağı daha da artmışdır. Lakin xarici investorların norınal fəaliyyətini tənzimləməkdən ötəri geniş tədbirlər həyata keçirınəlidir. Daha doğrusu, xarici investisiya fəaliyyətinin stimullaşdırılması sahəsində dövlət iqtisadi mexanizmdən xüsusilə, güzəştli vergi sisteminin, sürətli amortizasiya, qiymətqoyma siyasətinin həyata keçirilməsi və s. iqtisadi vasitələrdən daha fəal və çevik istifadə edilməsini təmin etməlidir.

İnvestisiya proseslərinin tənzimlənməsində investisiya fondlarının yaradılması mühüm rol oynamışdır. İnvestisiya fondu bir tərfdən kredit-maliyyə bazarınm institutudur, digər tərəfdən isə

öz aksiyalarını buraxan və satan, müxtəlif qiymətli kağızların əldə edilməsini investisiyaların və onu idarə edən hüquqi şəxsdir.

Ölkəmizdə investisiya fondu Azərbaycan Respublikası Prezidentinin 30 noyabr 1999-cu il «İnvestisiya fondları haqqında» Azərbaycan Respublkiasının Qanunu əsasında investisia fondlarının yaradılması, idarəediməsi və fəaliyyətinin tənzimlənməsinin ümumi prinsipləri və qaydaları aşağıdakı kimi müəyyən edilmişdir:

-investisiya fondu — səhmlərin buraxılması və açıq yerləşdirilməsi vasitəsilə cəlb edən pul vəsaitini qiymətli kağızlara investisiya edən, habelə qiymətli kağızların alqı-satqısı üzrə fəaliyyəti həyata keçirən və diversifikyasıya edilmiş investisiya portfelinə sahib olan açıq səhmlər cəmiyyəti;

-investisiya bəyannaməsi — investisiya qoyuluşunun məqsədlərini, istiqamətlərini, investisiya fondunun fəaliyyətinə məhdudiyyətləri müəyyən edən, diversifikasiya edilmiş investisiya portfelinə tələbatı əks etdirən, fondun və onun müdiriyyətinin cari inkişaf investisiya fəaliyyətini istiqamətləndirən əsas sənəddir;

İnvestisiya fondunun fəaliyyətində marağı olan və hüquqi cəhətdən əhəmiyyətli hərəkətlərlə onun fəaliyyətinə təsir edə bilən, yaxud investisiya fondu tərəfindən fəaliyyətlərinə təsir edən istənilən hüquqi və ya fiziki şəxs;

-investisiya fondunun müdiriyyəti – qiymətli kağızların idarə edilməsi üzrə fəaliyyəti həyata keçirən və investisiya fondu ilə onun idarə edilməsinə dair bağlanmış müqavilə əsasında hərəkət edən hüquqi şəxs (fiziki şəxs) və s. göstərmək olar;

-investisiya fondunun xalis aktivləri və onun əmlakının bazar qiyməti ilə maliyyə öhdəlikləri arasındakı fərqi və s. göstərmək olar.

Müasir dövrdə dünyanın bir çox ölkələrində investisiya kompaniyaları və investisiya fondları milyonlarla əmanətçilərin vəsaitlərini toplayaraq onlardan səmərəli istifadəni təmin edirlər.

MÖVZU 11. QİYMƏT VƏ TARİFLƏRİN HÜQUQİ TƏNZİMLƏNMƏSİNİN ƏSASLARI

Plan:

1. Qiymətlərin dövlət tənzimlənməsinin məqsəd və vəzifələri.
2. Qiymət və tariflərin tənzimlənməsinin hüquqi əsasları.
3. Gömrük tarif və rüsumlarının hüquqi tənzimlənməsi

Müasir, qarışıq bazar iqtisadiyyatı şəraitində qiymətlərin rolu və əhəmiyyəti getdikcə artmaqdadır. Belə ki, elmi cəhətdən əsaslandırılmış qiymətlər səviyyəsi olmadan iqtisadiyyatda dönüş yaratmaq qeyri-mümkündür. Qiymət vasitəsilə ölkədə mikro-makro səviyyələrdə iqtisadiyyatda düzgün mütənasiblik, tarazlıq müəyyənləşdirilir və ən optimal variantlar seçilir. Mülkiyyət və təsərrüfatçılıq formalarından asılı olmayaraq onların istehsal – təsərrüfat fəaliyyəti qiymətləndirilərək fəaliyyətin effektiv səviyyəsi aşkarlanır. Ən başlıcası isə dövlət qiymət mexanizmi vasitəsilə istehsalda stimul yaratmaqla, prioritet sahələrin üstün inkişafını tənzimləyir. Beynəlxalq iqtisadi əlaqələrin inkişafında dövlətlərarası qarşılıqlı münasibətlərin tənzimlənməsində də qiymət amili xüsusi rol oynayır. Milli məhsulun, Milli gəlirin hesablanması və yenidən təkrar bölünməsi, elmi-texniki tərəqqinin sürətləndirilməsi, Milli valyutanın möhkəmləndirilməsi, onun dönərliliyinin artırılması kimi mühüm iqtisadi problemlərin həlli qiymətlər vasitəsilə həyata keçirilir. Beləliklə, qiymət təkrar istehsalın hər bir fazalarında qarşılıqlı əlaqələrin tənzimlənməsində ən mühüm vasitələrdən hesab edilir. Bütün qeyd edilənlərlə belə, dünya təcrübəsində tənzimlənməyən, iqtisadiyyat və onun tərkib hissəsi olan bazar yoxdur. Dövlət bazara müdaxilə etmək yolu ilə onun fəaliyyətini tənzimləmək funksiyasına malikdir. Dövlət bazara iki istiqamətlərdə təsir göstərməlidir. Birincisi, dövlət hüququ qanunların və bu qanunlardan irəli gələn təlimatların və digər hüquqi sənədlərin işlənilib hazırlanmasının və onların qeyri-şərtsiz həyata keçirilməsini təmin etməklə, ikincisi, düzgün və səmərəli qiymət siyasəti yeritməklə, qanunların aliliyini qorumaqla, bütövlükdə daxili bazarda nizam-intizam yaratmaqla. Hal-hazırda «Tənzimlənən qiymətlər haqqında» Azərbaycan Respublikasının qanunu (2003-cü il) ölkədə qiymətlərin dövlət tənzimlənməsinin hüquqi bazasını təşkil edir. Həmin qanuna əsasən qiymət malın, məhsulun, işin və xidmətin pula ifadə edilən dəyəridir. Deməli, qiymətin əmələ gəlməsinin əsas bazasını istehsal məsrəfləri, yəni konkret malın, məhsulun tam maya dəyəri təşkil edir. Bu baxımdan məhsulların istehsal xərclərinin getdikcə aşağı salınması və maya dəyərinin düzgün hesablanması ən əsas şərtlərdən biri hesab edilir. Qiymətlər ancaq normal istehsal şəraitində baş vermiş istehsal məsrəflərini ödəməli və lazımi mənfəət normasını təmin etməlidir. Şübhəsiz ki, qeyri-normal istehsal şəraitində əmələ gəlmiş yüksək məsrəfləri qiymət hesabına ödəmək son dərəcə zərərlidir və bunu etmək olmaz.

Bazar münasibətlərinə keçməyin əsas şərtlərindən biri olan və daxili bazarı qorumaq məqsədi güdən qiymətlərin liberallaşdırılması, yəni tələb və təklif əsasında formalaşması 1992-ci il 2 yanvar 540 saylı, «Qiymət və tariflərin sərbəstləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanına müvafiq olaraq Respublika Nazirlər Kabinetinin 02 yanvar 1992-ci il tarixli 3 saylı «Qiymət və tariflərin sərbəstləşdirilməsi haqqında» qərarı ilə 1992-ci il yanvarın 6-dan həyata keçirildi. Həmin qərara müvafiq olaraq respublika ərazisində yerləşən, tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisələrə, təşkilatlara, digər hüquqi şəxslərə icazə verilir di ki, respublikanın iqtisadiyyatına və əhalinin güzəranına həlledici təsir göstərən az sayda məhsul və xidmətlərdən başqa qalan bütün istehsal – texniki təyinatlı məhsullara, xalq istehlakı mallarına və xidmətlərə bazarda təşəkkül tapmış tələb və təklif əsasında formalaşan sərbəst (bazar) qiymətləri (tarifləri) tətbiq etsinlər.

Respublika Nazirlər Kabinetinin 11 avqust 1992-ci il tarixli 438 saylı «Dərman vasitələrinə və tibbi təyinatlı məlumatlara

qiymətqoyma haqqında» qərarına əsasən Səhiyyə Nazirliyində siyahısı təsdiq edilən 50 adda ən mühüm dərman vasitələrindən başqa qalan dərman vasitələri və tibbi təyinatlı məmulatların qiymətləri sərbəstləşdirildi. Daha sonra Respublika Nazirlər Kabinetinin 12 dekabr 1992-ci il tarixli 664 saylı qərarı ilə bütün dərman vasitələri və tibbi təyinatlı məmulatların qiymətləri tam sərbəstləşdirildi. Respublika Nazirlər Kabinetinin 5 noyabr 1994-cü il tarixli 378 saylı «Çörək və çörək məmulatlarının qiymətlərinin tənzimlənməsi və əhalinin bu məhsullarla təmin edilməsinin yaxşılaşdırılması haqqında» qərarının 4-cü bəndinə müvafiq olaraq 1 fevral 1995-ci ildən etibarən çörək məmulatlarının qiymətləri sərbəstləşdirilmişdir. Həmçinin, respublika Ali Sovetinin 22 aprel 1994-cü il tarixli qərarı ilə təsdiq edilən pərakəndə ticarət və ictimai iaşə sahəsində fəaliyyətin lisenziyalaşdırılması qaydalarını 10-cu bəndinə əsasən pərakəndə ticarət və ictimai – iaşə sahəsində lisenziya əsasında fəaliyyət göstərən hüquqi və fiziki şəxslər üçün qiymətlərə əlavələrin və üstəliklərin hədlərinin məhdudlaşdırılması nəzərdə tutulmuşdur.

Sərbəst qiymətqoyma mexanizminin fəaliyyət göstərdiyi dövrün ilkin yekunları göstərdi ki, bu proses ölkədə çox ağır keçmiş, qiymətlərin artması bazar münasibətlərinin formalaşmasının digər vacib şərtləinin yerinə yetirilməsi, istehsalçı ilə isehlakçı arasında qarşılıqlı sərbəstlik hüquqlarından sui-istifadə etməklə izah olunsa da, digər tərəfdən rəqabətin və daxili bazarın qorunması, yerli istehsalçılara kömək, əhalinin sosial müdafiəsini təmin etmək məqsədi ilə qiymətlərin dövlət tərəfindən hüquqi prinsiplər əsasında tənzimlənməsinə böyük ehtiyac duyulurdu. Beləliklə, bazar münasibətlərinə keçidlə əlaqədar olaraq dövlət qiymətlərin tam sərbəstləşməsi siyasətini həyata keçirməyə başladı. Ümumiyyətlə, qiymətlərin sərbəstləşdirilməsi bazar iqtisadiyyatının tələblərinə və mexnizminə tam uyğun olsa da, bu prosesin həyata keçirilməsi nəticəsində daxili bazarda geniş xalq istehlakı mallarının qiymətləri əsassız olaraq bir – birindən kəskin surətdə fərqləndirildi. Bazar münasibətləri və xüsusilə daxili bazarın təminatı əsasən idxal hesabına ödənildi ki, bu da

yerli xalq istehlakı mallarının istehsalının ləngiməsinə səbəb oldu. Məhz buna görə də dövlət hər şeydən əvvəl daxili bazarın formalaşmasnda, qiymət mexanizminin bir daha təkmilləşdirilməsi yolu ilə daxili bazarın yerli istehsal hesabına ödənilməsinə, səy göstərilməlidir. Heç də gizli deyildir ki, idxal hesabına istehlak edilən malların qiymətləri yerli istehsala çəkilən xərclərdən dəfələrlə aşağıdır. Deməli, dövlət qiymət və tariflərin tənzimlənməsi mexanizminə bir tərəfli deyil, kompleks qaydada, sistemli yanaşmalıdır. Bununla əlaqədar olaraq növbəti bölmədə qiymət və tariflərin tənzimlənməsinin hüquqi əsasları nəzərdən keçirilir.

Daxili və dünya bazar qiymətləri ilə sıx bağlı olan, idxal və ixrac əmtəələrinin tənzimlənməsində gömrük rüsumları hesab edilir. Dünya təcrübəsində idxal edilən məhsulun gömrük rüsumlarının müəyyənləşdirilməsi qəbul edilmişdir ki, bu da milli bazara xarici əmtəələrin yerli istehsalçılarının qiymətindən aşağı qiymətlə daxil olmasına imkan verməkdədir. İxrac edilən məhsullar isə heç bir vergi qoyuluşuna məruz qalmır.

Bir çox hallarda belə, məhsullara dövlət subsidiyaları verilir ki, bu da milli istehsal məhsullarının dünya bazarında hərəkət edə bilməsi üçün qiymətləri aşağı salır. Buna misal olaraq emaledici sahələrin məhsullarını göstərmək olar.

Gömrük rüsumları dedikdə, gömrük orqanları tərəfindən müxtəlif növ əmtəələr üçün differensiallaşdırılmış stavkalar üzrə alınan ödəmələr başa düşülür. Gömrük sərhəddindən keçən əmtəələrə təyin edilmiş tariflərə əsasən kömrük rüsumları tətbiq edilir. Gömrük tarifi adı altında gömrük sərhəddindən keçən əmtəələrə tətbiq edilən gömrük rüsumları stavka dərəcələrinin toplusu nəzərdə tutulur və rüsumlar xarici-iqtisadi fəaliyyətin əmtəə nomenklaturasına uyğun olaraq sistemləşdirilərək, müəyyən təsnifatlaşdırılmış qrupa aid edəln əmtəələrin siyahısından ibarətdir.

Xarici – iqtisadi fəaliyyətin əmtəə nomenklaturası dövlətin xarici-iqtisadi fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi tədbirləri sisteminin əsası kimi götürülür. Xarici – iqtisadi fəaliy-

yətin əmtəə nomenklaturası 9 rəqəmdən ibarət koda malikdir. İlk 6 rəqəm əmtəə kodunu, 8 rəqəm əmtəə Avropa iqtisadi birliyinin kombinələşdirilmiş tarif – statistik nomenklaturasında kodunu, 9-cu rəqəm isə əmtəələrə uyğun dövlət maraqlarının mövqeyini göstərir.

Gömrük rüsumlarının aşağıdakı növləri vardır:

- advalor gömrük rüsumları. Onlar əmtəənin kömrük dəyərinə görə faiz şəklində tətbiq edilir.

- spesifik (xüsusi) gömrük rüsumları. Onlar müəyyən edilmiş həcmdə ölçü vahidinə görə tətbiq edilir.

- kobinələşdirilmiş gömrük rüsumları. Yuxarıda göstərilən hər növü özündə birləşdirir.

Dövlət idxal və ixrac edilən əmtəələrə operativ qaydada tənzimləmək üçün mövsümi gömrük rüsumlarından da istifadə edir. Bu zaman kömrük tarifi tərəfindən nəzərdə tutulmuş gömrük rüsumlar tətbiq edilir.

Mövsümi gömrük rüsumlarının fəaliyyət göstərmə müddəti isə bir il 6 aydan artıq olmamalıdır.

Dövlət öz iqtisadi maraqlarını qorumaq məqsədi ilə müvəqqəti olaraq xüsusi rüsum növlərini də tətbiq edə bilər.

Xüsusi rüsumlar dövlətin ərazisinə onun yerli istehsalçılarına ziyan vura bilən həcmdə və şərtlərlə idxal edilən əmtəələrə tətbiq edilir. Həmçinin belə rüsumlar dövlətin marağına zidd hərəkət edən digər ölkəyə qarşı cavab tədbiri kimi tətbiq edilə bilər.

Antidenpinq rüsumları qiyməti normal dəyərindən aşağı təyin edilmiş əmtəələrə qarşı tətbiq edilir ki, bu da yerli istehsalçılarının maraqlı və daxili bazarı qorumaq məqsədini güdür.

Konpensasiya rüsumları idxal edilən əmtəələrin istehsalında və yaxud ixracında subsidiyalardan istifadə edildikcə və həmin əmtəələrin gətirilməsi yerli istehsalın genişləndirilməsinə və fəaliyyətinə mane olduqda tətbiq edilir.

Tarif güzəştləri, bir qayda olaraq, əvvəllər ödənilmiş rüsum qaytarılması rüsum ödəmədən azad olma, rüsumun stavkasının

azaldılması, güzəştli sayılan əmtəələrə tarif kvotalarının tətbiq edilmiş şəkildə ifadə olunur.

Məsələn, əmtəə inkişaf etməkdə olan dövlətdən idxal edilirsə, bu zaman dövlət kömrük rüsumunun stavkasını iki dəfə azaldır. Əgər əmtəə ən az inkişaf etmiş dövlətlərdən idxal edilirsə, bu zaman həmin əmtəəyə kömrük rüsumu tətbiq edilmir. Belə kömrük güzəştlərinə malik olan dövlətlərin sayı və siyahısı hər bir dövlət tərəfindən müstəqil olaraq təyin edilir və kömrük orqanları tərəfindən təsdiq edilir.

Azərbaycan Respublikasında gömrük rüsumları həm ixrac, həm idxal edilən əmtəələrin dəyərinə təyin edilir. 1997-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Gömrük Kodeksi gömrük işinin iqtisadi, hüquqi və təşkilati əsasını müəyyənləşdirmişdir. Respublikada olan kömrük fəaliyyəti fiskal, iqtisadi, statistik məqsədlər güdür. Azərbaycan Respublikası ərazisində gömrük ödəmələri ilə bağlı məsələlər Azərbaycan Respublikasının 20 iyun 1995-ci il 1064 saylı «Gömrük tarifləri haqqında» qanunu, Azərbaycan Respublikası Prezidentinin 25 iyul 1997-ci il 616 saylı sərəncamı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 aprel 1998-ci il 91 saylı «Azərbaycan Respublikasında idxal – ixrac əməliyyatlarından gömrük rüsumlarının dərəcələri haqqında» fərmanı və s. ilə tənzimlənir.

Vergi sahəsində gömrük orqanlarının səlahiyyətləri respublika ərazisinə idxal – ixrac edilən əmtəələrə ƏDV, aksiz, kömrük rüsumlarını tətbiq etməyə imkan verir.

Azərbaycan Respublikası Gömrük Kodeksinin maddə 118-ə uyğun olaraq gömrük rüsumları orqanlarına ödənilir. Ödənilmiş ƏDV, aksizli və kömrük rüsumları öz növbəsində dövlət büdcəsinə köçürülür.

Gömrük orqanları tərəfindən gömrük rüsumunun ödənilməməsi faktı aşkar edildikdə gömrük rüsumu kömrük orqanları tərəfindən tutulur və hər gün gecikdirilən ödəmə məbləğinə görə 0,3% penya təyin edilir. Əgər ödəycinin pul vəsaiti çatmırsa, onda bu ödəmə Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq onun əmlakından tutulur.

Gömrük rüsumlarını və vergilərini ödəməkdən imtina edən ödəyiciyə qarşı tətbir kimi Azərbaycan Respublikası Gömrük Komitəsi onun bütün hesablarını dondurulması və əməliyyatlarının dayandırılmasını həyata keçirə bilər. (Azərbaycan Respublikası Gömrük Kodeksi fəsil 10)

Beləliklə, kömrük tarifləri, rüsumlar və onların həyata keçirilməsi dövlət tərəfindən daim nəzərdən keçirilir və mövcud qanunvericilik çərçivəsində tənzimlənərək həyata keçirilir.

Ümumdünya kömrük təşkilatlarının baş katibi Mişel Damenin müraciət məktubuna əsasən Azərbaycan Respublikası «Malların təsviri və kodlaşdırılması üzrə hormonikləşdirilmiş sistem haqqında beynəlxalq konvensiya»ya qoşulmuş və bu konvensiya Milli Məclisdə radifikasiya olunmuşdur.

2001-ci ilin yanvarından Azərbaycan bu konvensiyaya qoşulan 101-ci dövlətdir.

DGK – TASİS proqrammı çərçivəsində Avropa kömrüyü ilə sıx əlaqələr yaradılmışdır. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Avropa Gömrüyü TASİS proqrammı çərçivəsində, Alman gömrüyü ekspertləri tərəfindən Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün narkotiklərin müəyyən edilməsi, riskin təyin edilməsi, yüklərin nəzarətdən keçirilməsi, rəqəmlərin yoxlanılması, Hava və Dəniz limanlarında, dəmir yolunda kömrük sənədlərində nəqliyyat vasitələrinə nəzarətə dair, nəzəri və praktiki seminarlar təşkil olunmuşdur.

Avropa İttifaqının TASİS proqrammı üzrə Azərbaycan Respublikasının milli və dövlətlərarası proqramları və Avropa İttifaqı komissiyasının Texniki yardım proqramı çərçivəsində (1996-cı il oktyabr) Daşkənd şəhərində Avropa gömrüyü və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi arasında TASİS proqrammı çərçivəsində «Təhsil», «İdarəetmə və təşkil» layihələri üzrə müqavilələr imzalanmışdır və layihələrdə nəzərdə tutulanlar mərhələlərlə həyata keçirilir.

MDB məkanında ilk dəfə olaraq Siyasi Komissiyanın dekabr, sessiyasının Bakıda keçirilməsi, ölkəmizin dünya təsərrüfat sisteminə inteqrasiya olunmasını sürətləndimək, qədim

"İpək yolu"nun bərpası Xəzər dənizi hövzəsinin enerji daşıyıcılarını, neft kəmərləri layihələrinin gerçəkləşdirilməsi sahəsindəki regional iqtisadi əməkdaşlıq imkanlarını genişləndirmək və Azərbaycanın xarici- iqtisadi əlaqələrinin tənzimlənməsində səmərəli fəaliyyət göstərən mexanizmlərin qurulmasına köməklik etməklə bərabər, ölkənizin gömrük fəaliyyətinə verilən yüksək beynəlxalq qiymətdir.

Burda müəyyən edilən hallar istisna edilməklə sərbəst gömrük zonalarının və sərbəst anbarların əraziləri AR-ı gömrük ərazisindən kənarda yerişən ərazidir.

Gömrük ərazisi anlayışının bu cür şərtləndirilməsi o deməkdir ki, digər xarakterli zonalar, məsələn xüsusi iqtisadı zonalar və s. gömrük ərazisinin bir hissəsidir. Belə xüsusi xarakterli zonaların fəaliyyətinin tənzimlənməsi müvafiq hüquqi qüvvəyə malik aktların qəbul edilməsi ilə həyata keçirilməlidir.

Gömrük-hüquq normalarının tətbiq edilməsinin məkan hududlarının təyini üçün gömrük sərhədi məfhumundan istifadə edilir.

Gömrük sərhədi dedikdə, gömrük ərazisinin parametri - bu ərazinin konturlarının hüdud xətti başa düşülür. Bir sözlə gömrük sərhədi dövlətin qanunvericiliyinin qüvvədə olduğu məkan hüdudlarını müəyyənləşdirir və ərazisinə bitişik ölkələrin gömrük ərazisini ayırır.

Gömrük Məcəlləsinin 3-cü maddəsinin 3-cü bəndinə görə, "Azərbaycan Respublikasının gömrük ərazisinin hüdudları, həmçinin sərbəst gömrük zonalarının və sərbəst anbarların parametrləri Azerbaycan Respublikasının gömrük sərhədidir". Beiəlikiə, daxili və xarici gömrük sərhədi anlayışları meydana çıxır.

Xarici gömrük sərhədi, bilavasitə qonşu olan dövlətlərin gömrük ərazisini ayırır və adətən dövlət sərhədi ilə üst-üstə düşür. Xarici gömrük sərhədində dövlət sərhədi barədə qanunvericilikdə nəzərdə tutulmuş inzibati-hüquqi rejim tətbiq edilir.

Hüquqi statusuna görə daxili gömrük sərhədi xarici sərhədə bərabər tutulur; azad zonanın ərazisi sərhəd zonası kimi baxı-

lır və orduya girişə xüsusi nəzarət-buraxıhş məntəqələrindən və icazə vərəqələri tətbiq edilməklə icazə verilir. Daxili gömrük sərhədi gömrükçülər tərəfindən azad gömrük zonasının hakimiyyət orqanları ilə birgə qorunur. Bir qayda olaraq gömrük işi icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir (AR Konstitusiyasının 7-ci maddəsinə görə). AR DGK icra strukturu kimi Azərbaycan Respublikasının Prezidentinə tabedir.

Gömrük siyasəti — Azərbaycan Respublikasının gömriik ərazsində gömrük nəzarəti və mal dövriyyəsinin daha səmərəli tənzimlənməsi, daxili bazarın qorunması, milli iqtisadiyyatın inkişafının stimullaşdırılması, dövlətin iqtisadi siyasətindən irəli gələn vəzifələrin həyata keçirilməsi, habelə gömrük işinin beynəlxalq normalara uyğun aparılmasıdır.

Gömrük siyasətinin formalaşdırılması və həyata keçirilməsində iştirak edən təşkilatların məcmusu, habelə onun həyata keçirilmə metodları, səlahiyyətli dövlət orqanları tərəfindən gömrük tənzimlənnəsi üsullarının istifadə qaydaları, gömrük siyasəti mexanizmi anlayışını yaradır.

Gömrük siyasətinin əsasını, xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsinin aşağıdakı prinsipləri təşkil edir:

1) Respublikanın xarici siyasətinin tərkib hissəsi olan vahid xarici ticarət siyasəti;

2) xarici ticarət fəaliyyətinin vahid dövlət tənzimləmə sıstemi və onun həyata keçirilməsinə nəzarət;

3) vahid valyuta nəzarəti siyasəti;

4) ölkənin gömrük ərazisinin bütövlüyü;

5) xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsində iqtisadi tədbirlərə üstünlük verilməsi;

6) xarici ticarət fəaliyyəti iştirakçılarının bərabər hüquqlu olması və hər hansı formada ayrı-seçkiliyə yol verilməməsi;

7) xarici ticarət fəaliyyəti iştirakçılarının hüquq və qanuni maraqlarının dövlət tərəfindən qorunması;

Qeyd etmək lazımdır ki, gömrük tənzimlənməsini yalnız gömrük orqanlarının fəaliyyəti ilə eyniləşdirmək yanlış fikirdir. Gömrük siyasətinin formalaşdırılması və həyata keçirilməsi çox

mürəkkəb bir proses olub, hakimiyyətin hər üç qolunun qanunvericilik, icra və məhkəmə hakimiyyətinin, həmçinin bu işdə maraqlı olan sahibkarlıq dairələrinin bilavasitə iştirakı ilə reallaşa biləcək bir məsələdir.

Gömrük Məcəlləsinin 2-ci bəndində göstərilir ki, Azərbaycan Respublikasında dövlətin daxili və xarici siyasətinin tərkıb hissəsı olan vahid gömrük siyasəti həyata keçirilir. Bu siyasətin tələb və vəzifələri Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının prezidenti və Nazirlər Kabineti tərəfindən Gömrük Məcəlləsi və gömrük hüququnun digər mənbələri əsasında müəyyən edilir və respublikanın gömrük ərazisində mal mübadiləsinin tənzimlənməsi və gömrük nəzarəti vasitələrindən effektiv istifadə edilməsı ilə daxili bazarın müdafiəsi üçün ticarət-siyasi məsələlərin həlli, milli iqtisadiyyatın inkişafının stimulaşdırılması, dövlətin iqtisadi siyasətinin əsas məsələlərinin həllinə təkan vermək məqsədi güdür. Gömrük siyasəti, ölkənin xarici iqttsadi fəaliyyətinin vacib bir sahəsidir. Tarixən bu siyasət, xarici ticarətin dövlət tənzimlənməsinin ilkin forması olmuşdur. Gömrük siyasətinin mahiyyəti - gömrük tarif qanunvericiliyində, müxtəlif istıqamətlı beynəlxalq gömrük birlikləri ilə münasibətlərin yaradılmasında, sərbəst gömrük və ticarət zonalarının təşkil edilməsində öz əksini tapır. Gömrük siyasəti dövlətin iqtisadi və xarici ticarət siyasətinin ayrılmaz hissəsi olduğu üçün, hökumətin ümumi iqtisadi strategiyasının məqsəd və vəzifələrindən asılıdır.

Daxili bazarın qorunması və milli iqtisadiyyatın inkişafına əlverişli şəraitin yaradılması üçün gömrük siyasətinin aşağıdakı formalarından daha çox ıstıfadə olunur.

1. Proteksionizm

2. Sərbəst ticarət (fritredizm)

Proteksionist gömrük siyasəti yerli istehsalın inkişafı üçün daha əlverişli şəraitin yaradılmasma yönəldilib. Bu siyasətin məqsədləri, idxal edilən mallara gömrük, vergi və rüsumların qoyulmasının daha yüksək səviyyəsini tətbiq etməklə əldə edilir.

Sərbəst ticarət siyasəti isə gömrük rüsumların minimum səviyyəsini nəzərdə tutur və daxili bazara xarici malların daha çox cəlb edilməsinə təhrik edir.

Gömrük siyasətinin həyata keçirilməsinin əsas vasitələri gömrük rüsumları və yığımları (tarif və ya iqtisadi tənzimləmə), gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti əməliyyatları, xarici ticarətin icazələşdirilməsi (xüsusi icazə) və kvotalaşdırılması (qeyri-tarif və ya inzibati tənzimləmə) təcrübəsi ilə bağlı olan müxtəlif gömrük məhdudiyyətləridir.

Belə ki, gömrük siyasəti gömrük hüquqi normaları əsasında həyata keçirilir. Gömrük siyasətinin dəqiq hüquqi əsaslandırılması ona görə vacibdir ki, onun həyata keçirilməsi zamanı bilavasitə və ya dolayısı ilə sahibkarlıq fəaliyyətinin bu və ya digər istiqamətlərini imperativ tənzimləyərkən istər-istəməz mülkiyyət münasibətləri sahəsinə müdaxilə edilir. Eyni zamanda, gömrük siyasətinin xarici münasibətlərə təsiri, dövlət üçün beynəlxalq-hüquqi xarakterli öhdəliklər yaratdığından onun normalaşdırılması zərurətini doğurur.

Gömrük-hüquq normaları — gömrük sərhədindən mal və nəqliyyat vasitələrinin keçirilməsi prinsiplərini nizama salan və rəsmiləşdirilmə əməliyyatlarının yerinə yetirilməsi üçün mövcud qanunvericiliyə əməl olunmasını təmin edəcək, dövlət tərəfindən müəyyənləşdirilən davranış qaydalarıdır. Bu qaydaların məcmusu Azərbaycan Respublikası qanunvericiliyinin mühüm tərkib hissələrindən biri olan gömrük hüququnu əmələ gətirir. Bu və ya digər gömrük qaydaları yalnız müəyyən hüquqi formaya düşdükdən sonra hüquqi norma sayıla bilər.

Gömrük hüququnun mənbələri dedikdə, dövlət idarəetmə orqanları tərəfindən verilən hüquqi normalar toplusu başa düşüliir.

Gömrük hüququnun mənbəyini ixtiyarı hüquqi akt deyil, yalnız gömrük işinin ümumi qaydalarını əks etdirə bilən aktlar təşkil edə bilər. Deməli, gömrük hüququnun mənbəyinin normativ xarakter daşımasıdır. Ona görə də, gömrük orqanlarının rəhbərlərinin vəzifəyə təyinatı, vəsaitlərin köçürülməsi,

intizam cəzasının elan olunması, tabeçilikdə olan orqanların qeyri-qanuni verdiyi əmrlərin ləğv olunması və s. barədə verdiyi əmrlər, ümumi qaydaları özündə əks etdirdiyinə görə, hüquqi norma sayılmır və gömrük hüququnun mənbəyi hesab edilə bilməz. Ayrı-ayrı məsələlər üzrə verilən bu aktlar fərdi xarakterə malik olduğu üçün hüquqi fakt qismində çıxış edir. Daha doğrusu, bu cür aktlar gömrük sferasında konkret hüquq münasibətlərini ya dəyişdirir, ya da dayandırır.

Gömrük - hüquq aktlarında, həm normativ tapşırıqlar, həm də operativ-icra və ya hüquq-mühafizə xarakterli tapşırıqlar da ola bilər. Bu cür aktların icraçıları, onların hansının normativ, hansınınsa fərdi xarakterli aktlar olması hər dəfə müəyyənləşdirilməlidir.

Gömrük hüququnun mənbələri - tərkib hissələri gömrük işinin hüquqi tənzimlənməsi məntiqinə uyğun olaraq, subordinasiya və irarxiya tabeçiliyi münasibətlərində olan vahid, bütöv bir sistem təşkil edir.

Gömrük hüququ mənbələrinin yaradılması sisteminin əsas prinsipləri konstitusiyaya əsaslanması və qanuni olmasıdır. Konsititusiyaya əsaslanma dedikdə, gömrük işinin tənzimlənməsinin əsas prinsiplərinin hüquqi mənbələrinin çox ciddi şəkildə konstitusiya maddələrinə uyğunluğu başa düşülür. Qanunilik isə, qəbul edilmiş fərman, qərar və sərəncamların tamamilə qanunda nəzərdə tutulmuş hüquqi normalara uyğunluğudur. Əks halda, qəbul edilmiş qanunalar, hüquqi aktlar etibarsız sayılır.

Gömrük hüququnuın mənbələri sisteminin əsas elementlərinə aşağıdakılar daxildir:

1) ölkədaxili gömrük qanunvericiliyi;

2) gömrük işi ilə bağlı ölkənin qoşulduğu beynəlxalq hüquqi müqavilələr və sazişlər.

Gömrük işi barədə qanunvericiliyə Gömrük Məcəlləsi, «Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının Qanunu, habelə Gömrük Məcəlləsinə (maddə 5) uyğun olaraq qəbul edilmiş digər qanunvericilik aktları daxildir.

Gömrük Məcəlləsi və «Gömrük tarifi haqqında» qanun, Azərbaycan Respubiikasının gömrük təcrübəsində yaranan bütün hüquqi məsələlərə münasibət bildirir və gömrük münasibətlərinin hüquqi tənzimlənməsi mexanizmində əsas yeri tutur. Hüquqi gücünə görə bu qanunlar yalnız Konstitusiyadan geri qalır və bütün gömrük qanunvericiliyinin hüquqi bazası hesab edilir.

Bu gömrük qanunlarının ayrı-ayrı hüquqi normaları, Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul olunan qanunlar, Milli Məclisin qərarı ilə və ya Azərbaycan Respublikasının prezidenti tərəfindən fərmanla təsdiq olunduqdan sonra tətbiq olunmağa başlayır.

Bəzi gömrük-hüquq normaları digər qanunvericilik aktlarında da öz əksini tapa bilər.

Gömrük qanunvericiliyi çoxşaxəli və kompleks xarakterli olduğuna görə, hüququn digər sahələrinin ayrı-ayrı normalarından da istifadə edilir. Belə ki, qaçaqmalçılıq, xarici valyutanı və milli sərvətləri qaytarmamaq, gömrük ödənişlərindən yayınmaq kimi hallar Cinayət Məcəlləsinin, gömrük daşıyıcısı xidmətindən istifadə edərkən tərəflərin hüquq və vəzifələri, malın gömrük anbarında və müvəqqəti saxlanma yerlərində saxlanması ilə bağlı məsələlər Mülki Məcəllənin, digər məsələlər isə Cinayət-Prosessual və Mülki-Prosessüal Məcəllənin və hüquqi normalar ilə tənzimlənir.

Gömrük-hüquq tənzimlənməsinin mexanizmində qanunaltı aktlar mühüm rol oynayır. Qanunaltı aktlar, qanunlardan yararlanmaq və onları inkişaf etdirmək üçün istifadə olunur və bu aktlar qanunlardan kənara çıxmamalıdır. Bu cür aktlar Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçib, qeydiyyat nömrəsi almaqla təşkilati-hüquqi cəhətdən zəmanət qazanır. Əks halda həmin aktların hüquqi gücü olmur.

Öz kəmiyyət parametrlərinə görə qanunaltı aktlar gömrük hüququnun daha çox növlü mənbələri hesab olunur. Bunun əsas səbəbi gömrük qanunlarının mətnlərində daha çox anonim (adsız) istinadların olmasıdır. Məsələn, «vicdanlı deklarant»,

«həyatı vacib maraqlar» və s. Gömrük münasibətlərini tənzimləyən qanunaltı aktlar aşağıdakılardır:

1. Azərbaycan Respublikası Prezidentinin fərmanları. Ölkə başçısının normayaradıcı fəaliyyətinin aktivliyi əsasən Gömrük Məcəlləsi qəbul edilən vaxtadək təsadüf edir. Həmin vaxtlarda prezident fərmanları gömrük münasibətlərinin əsas hüquqi tənzimləyicisi kimi yerinə yetirilirdi.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları. Bu qərarlarla daha çox gömrük siyasətinin və gömrük hüququnun əsas məsələləri tənzimlənir. Məsələn, «Azərbaycan Respublikası ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13.VII.2000-ci ii tarixli 124 saylı qərarı «Azərbaycan Respublikası idxal-ixrac əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12.IV.2000-ci il tarixli 80 saylı qərarı və s.

3. Dövlət Gömrük Komitəsinin normativ aktları.

Gömrük Məcəlləsinin 9-cu maddəsinə görə DGK öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının bütün başqa dövlət orqanları, tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq idarələr, müəssisələr və təşkilatlar, habelə vəzifəli şəxslər və vətəndaşlar üçün icrası məcburi olan normativ aktlar qəbul edir. Bu normativ aktlar qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

Ümumi xarakterli normativ aktlar isə, onların özlərində ayrı müddət nəzərdə tutulmamışdırsa, dərc olunandan on gün sonra qüvvəyə minir.

DGK-nin verdiyi normativ təlimatlar və əmrlər də gömrük hüququnun mənbələrinə aid edilir. Bundan başqa, komitənin rəhbərliyi gömrük orqanlarına göstəriş və məktublar da göndərə bilər. Bu sənədlərin əvvəlkilərdən fərqi isə ondan ibarətdir ki, onlarda bu və ya digər normativ aktın tətbiqi qaydaları haqqında izahat verilir və heç bir yeni gömrük hüquq norması nəzərdə tutulmur.

Dövlət suverenliyi, hər bir dövlətə öz gömrük məsələlərini birtərəfli qaydada daxili qanunvericiliklə tənzimləməyə imkan verir.

Eyni zamanda gömrük siyasətinin beynəlxalq mahiyyəti, gömrük məsələlərini müqavilələrlə tənzimləmənin predmeti edir. Əgər dövlət gömrük məsələlərinin həllində digər ölkələrin maraqlarını nəzərə almırsa və ya yürütdüyü gömrük siyasəti bu ölkələrə ziyan vurursa, bu bütünlükdə xarici iqtisadi əlaqələri və beynəlxalq münasibətləri gərginləşdirər, nəticədə isə «gömrük müharibəsi» yarana bilər. Gömrük işi sahəsində beynəlxalq-hüquqi əməkdaşlığı vacib edən əsas məsələlər müasir gömrük tariflərinin mürəkkəbliyi və beynəlxalq ticarətin inkişafına maneçilik törədən çoxsaylı gömrük formalizmidir.

Beynəlxalq ticarət dövriyyəsinin inkişafı, turist mübadiləsi, humanitar əlaqələr gömrük siyasətinin əsas istiqamətlərinin və müxtəlif dövlətlərin eyni tipli normativ aktlarının koordinasiyasını nəzərdə tutan gömrük qanunvericiliyinin eyniləşdirilməsini vacib edir. Milli normaların unifikasiyası beynəlxalq hüquq prinsipləri və s. hökumətlərarası müqavilələrdən irəli gələn normalara əsaslanır. Milli gömrük-hüquq sisteminin eyniləşdirilməsi beynəlxalq iqtisadi əməkdalığın genişləndirilməsi və inteqrasiya proseslərinin dərinləşməsi üçün əlverişli şərait yaradır.

Gömrük qaydalarının əsas eyniləşdirmə vasitələri beynəlxalq müqavilələrin və ixtisaslaşmış beynəlxalq təşkilatların tövsiyələridir.

Gömrük sahəsində beynəlxalq-hüquqi əməkdaşlıq ilk növbədə-poçt göndərişlərinə nəzarəti; dəniz, dəmiryolu, hava, avtotmobil yolları ilə və qarışıq daşımalarda gömrük qaydalarının eyniləşdirilməsini daimi yaşamaq üçün başqa ölkələrə gedən şəxslərin hüquqi statusunu; sərnişinlərdən ayrı gedən müşayiət olunmayan baqacın gömrük rejimini əhatə edır.

Azərbaycan Respublikasının gömrük sahəsində beynəlxalq hüquqi əməkdaşlığı əsasən 4 istiqamətdə inkişaf edir:

1) Beynəlxalq təşkilatlar, o cümlədən Ümumdünya Gömrük Təşkilatı ilə əməkdaşlıq;

2) Müstəqil Dövlətlər Birliyinin gömrük rəhbərləri şurası çərçivəsində əməkdaşlıq;

3) İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq;

4) Ayrı-ayrı dövlətlərin gömrük orqanları ilə ikitərəfli münasıbətlər əsasında əməkdaşlıq.

Gömrük sahəsində tətbiq edilən normativ aktlara ilkin nəzarət daxili qanunvericiliyin qüvvədə olan beynəlxalq müqavilələrin müddəalarına uyğunsuzluq hallarını istisna etməyə imkan verir.

Gömrük Məcəlləsinin 6-cı maddəsinə görə Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrində müəyyən edilən qaydalar bu məcəllə və gömrük işi haqında Azərbaycan Respublikasının digər qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydalardan fərqlənərsə, onda dövlətlərarası müqavilələrin qaydaları tətbiq edilir.

Gömrük qanunvericiliyinin zaman va məkana görə qüvvəsi. Gömrük sahəsində tənzimləmə münasibətlərinin beynəlxalq təcrübələrdə qəbul edilmiş qaydalarına görə, gömrük orqanı tərəfindən gömrük bəyannaməsinin və digər sənədlərin qəbul edildiyi gün qüvvədə olan qanunvericilik aktları tətbiq edilir.

Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən qeyri-qanuni keçirilməsi halları müəyyən edildikdə, meydana çıxan münasibətlərin tənzimlənməsi üçün mal və nəqliyyat vasitələrinin gömrük sərhəddindən faktiki keçirildiyi gün qüvvədə olan qanunvericilik aktları tətbiq edilir.

Gömrük xidməti — ümumi halda, gömrük orqanlarında dövlət xidmətinin təşkil edilməsini ifadə edir.

Gömrük rəsmiləşdirilməsi — Gömrük Məcəlləsinin müddəalarına və tələblərinə uyğun olaraq malların və nəqliyyat vasitələrinin müəyyən gömrük rejimi altında yerləşdirilməsi ardıcılığı və bu rejimin fəaliyyətinin başa çatmasıdır.

XİF-ə dövlət təsiri, xarici fəaliyyətin tənzimlənməsinin iqtisadi və inzibati, tarif və ya qeyri-tarif metodlarının tətbiqi vasitəsilə həyata keçirilir.

XİF-nin hüquqi tənzimlənnməsi metodlarının təsnifatının əsasmda müxtəlif amillər durduğu üçün eyni metodu iqtisadi və tarif və ya inzibati və qeyri-tarif metodu kimi təsnifləşdirmək olar. Tənzimlənmənin iqtisadi metoduna misal kimi kömrük tarif tənzimlənməsini göstərmək olar. İnzibati metoda isə lisenziyalaşdırmanı göstərmək olar.

XİF-nin tarif tənzimlənməsi gömrük tariflərinin müəyyənləşdirilməsi yolu ilə həyata keçirilir və tənzimlənmə iqtisadi metoduna aiddir.

Qeyri-tarif tənzimlənməsi özlüyündə xarici ticarət sferasında sahibkarlıq fəaliyyətinə dövlət təsirini - hansı ki, gömrük tarifinin tətbiqi ilə bağlı deyildir.

Tənzimlənmənin qeyri-tarif üsuluna aşağıdakıları aid etmək olar:

- kvotalaşdırma və lisenziyalaşma yolu ilə miqdar məhdudiyyətlərinin müəyyən edilməsi;

- idxal-ixrac əməliyyatlarının lisenziya qaydasında müəyyən olunması;

-qiymətə nəzarət və maliyyə tədbirləri görmək;

- XİF-nin vergi tənzimlənməsi;

ixrac, valyuta, məhsul keyfiyyətinə nəzarətin müəyyənləşdirilməsi;

- ixracın stimullaşdırılması tədbirlərinin tətbiqi.

XİF-ni aparan subyektlərin fəaliyyətinə təsir birbaşa və dolayı olar bilər. Məsələn: gömrük dərəcələrinin müəyyənləşdirilməsi xarici iqtisadi fəaliyyətlə məşğul olan təsərrüfat subyektlərinə dövlət təsiri dolayı yola aiddir. Belə ki, dövlət hər hansı bir məhsulun idxalına yüksək kömrük dərəcələri qoyaraq bu məhsulun gətirilməsini məhdudlaşdıra bilər.

XİF-nin hüquqi tənzimlənməsinin metodlarını şərti olaraq iki qrupa bölmək olar: birbaşa və dolayı mtənzimləmə metodları. Birbaşa tənzimləmə metodunun tərkibinə lisenziya və kontingentləşməni, valyuta siyasətinin elementlərindən biri olan valyuta tənzimlənməsini aid etmək olar. Dolayı tənzimləmə metodunun tərkibinə isə gömrük tariflərini, valyuta siyasətinin rəsmi ehti-

yatlarının idarə edilməsi və məzənnə siyasəti elementlərini, vergi mexanizmini, kreditləşməni, sığortalaşmanı, təşkilati-informasiya yardım göstərilməsini aid etmək olar.

Qeyd etdiyimiz kimi XİF-nin bir çox formaları xarici ticarət kanalları vasitəsilə reallaşır. Bu da həmin əlaqələrin tənzimlənməsində lisenziyalaşma və kontingentləşmədə, gömrük tariflərindən istifadəni şərtləndirir.

Kvota və lisenziyalaşdırma özlüyündə idxal-ixrac əməliyyatlarının dövlət tənzimlənməsinin qeyri-tarif metodudur.

Lisenziya (icarə) rejimi qanunla birbaşa götürülmüş hallarda tətbiq edilir. Qeyd etmək lazımdır ki, lisenziyalaşdırma fəaliyyət növü deyil, əmtəə dövriyyəsinə məruz qalır. Bu da XİF-nin tətbiq olunan lisenziya rejiminin xüsusiyyətləridir.

Lisenziyalar birdəfəlik və ümumi ola bilər. Lisenziyalaşma sistemi dövlətin xüsusi səlahiyyətli təşkilatı vasitəsilə, idxal-ixrac üzrə lisenziyalaşdırılan siyahıya daxil oaln müəyyən məhsullar üzrə xarici iqtisadi əməliyyatların aparılmasına razılıq verməsini nəzərdə tutur. Ölkələr tərəfindən tətbiq olunan lisenziyalaşdırma sistemləri forma və əməliyyatların müxtəlifliyi ilə xarakterizə olunurlar. Lisenziyaların aşağıdakı iki əsas növü vardır.

1. Müəyyən müddət ərzində siyahıya salınmış əmtəələrin maneəsiz idxal və ixrac olunmasına icazə verən avtomatik və ya baş lisenziya.

2. Konkret idxalçı və ya ixracatçıya müəyyən əmtəənin, onun miqdarı, dəyəri, göndərildiyi və ya çatacağı ölkə, bir sıra hallarda isə əmtəənin idxalı və ya ixracı həyata keçiriləcək gömrük məntəqəsini də göstərməklə, idxal və ixrac etməyə icazə verən qeyri avtomatik və ya bir dəfəlik fərdi lisenziya.

Xarici ticarət əməliyyatlarının lisenziyalaşdırılması kəmiyyət məhdudiyyətləri ilə ayrı-ayrı əmtəələrin idxal və ixracına kontingentlərlə sıx qarşılılqlı əlaqədə fəaliyyət göstərir.

Kvotalaşdırma - dövlət tərəfindən hər hansı bir müəyyən müddətə təyin olımmuş məhsulun (əmtəənin) idxal-ixracının miqdarca məhdudlaşdırılmasıdır.

İqtisadiyyatın hüquqi tənzimlənməsi idxal-ixracın tənzilənməsini XİF-ə dövlətin təsir aləti kimi nəzərdən keçir. Tarif tənzimlənməsi gömrük rüsumlarmm qorunması yolu ilə həyata keçirilir. Gömrük rüsumları özlüyündə qeyri-vergi ödənişlərindən biridir. Gömrük rüsumları əmtəənin gömrük sərhəddini keçdiyi zaman tutulan vergi funksiyasını yerinə yetirir.

Tarif tənzimlənməsinin hüquqi əsasında tarif tənzimlənməsi haqqında qanun dayanır. Azərbaycan Respublikası Gömrük tarifi haqqında qanunun ikinci maddəsində göstərilir ki, Azərbaycan Respublikasının Gömrük Tarifi — Azərbaycan Respublikasının Gömrük sərhəddindən keçirilən mallara tətbiq edilən və xarici-iqtisadi fəaliyyətin əmtəə nomenklaturasına uyğun olaraq sistemləşdirilmiş gömrük rüsum dərəcəsinin məcmusudur.

Gömrük tariflərinin mahiyyəti. Gömruk tarifləri xarici iqtisadi fəaliyyətin, o cümlədən xarici ticarət siyasətinin ən qədim və ən geniş yayılmış vasitələrindən biridir. Burada iki mühüm anlayış birləşmişdir. «Gömrük» ifadəsi hər hansı bir mal gömrük sərhəddindən keçirildikdən sonra ödənən vergi və rüsumları: «tarif» ifadəsi isə beynəlxalq ticarət obyekti olan bütün mallara tətbiq edilən vergiləri əks etdirir.

Hər hansı bir ölkənin gömrük tarifləri, gömrük rüsumu olan malların sistemləşdirilmiş siyahısından ibarətdir. Bu mallar öz mənşəyi (sənaye, bitki, və s. məhsulları) və həmin mallarm emal dərəcəsindən (xammal yarımfabrikat hazır məhsullar) asılı olaraq qruplaşdırılır. Hər bir mal üçün tətbiq edilən rüsum dərəcəsi göstərilir.

Gömrük sisteminin hüquqi əsasını gömruk tarifləri və onların tətbiqi metodları haqqında qanımlar təşkil edir. Beynəlxalq hüquq sistemində gömrük tariflərinin tətbiqi və fəaliyyəti beynəlxal ticarət müqavilələri və razılaşmaları ilə nizamlaşdırılır. Bu müqavilə və razılaşmalar ikitərəfli şəkildə özünü göstərir.

Gömrük rüsumları iki üsulla müəyyən edilir:

1-ci üsulda dərəcələri malların qiymətinə nisbətən faizlə hesablanır. Belə rüsum dərəcələri qiymətindən alınan rüsum, yaxud advolarem rüsumu adlanır. 2-ci üsulda rüsum malın

çəkisindən, həcmindən və yaxud sayından pul məbləği şəklində alınır. Bundan başqa bəzən qarışıq rüsum dərəcələri də tətbiq olunur. Bu halda bəzi mallar üçün tarifindən asılı həm abvoların, həm də spesifik rüsum dərəcələri göstərilir və gömrük orqanlarına tapşırılır ki, onlardan ən çoxu tətbiq edilsin. Belə rüsum dərəcələri alternativ tarif adlanır.

Gömrük təcrübəsində əsasən 3 tarif sistemi tətbiq edilir. Tək sütunlu, qoşa sütunlu və üç sütunlu tarif sistemləri. Gömrük vergiləri bir qanunla tətbiq edilirsə buna «Avtonom» tarif deyilir. Əgər vergilər beynəlxalq müqavilələr və qarşılıqlı görüşlər nəticəsində müəyyən edilirsə, bu növ tariflərə razılaşdırılmış tariflər deyilir. Gömrük vergiləri beynəlxalq müqavilələrlə müəyyən edilirsə onları tək tərəfli deyilir və onu qərarlarla dəyişdirmək mümkün deyil.

Tək sütunlu tarif sistemləri avtonom mahiyyət daşıyır və ölkələr arasında fərq qoyulmur.

Qısa sütunlu tarif sistemlərində hər mal üçün iki vergi dərəcəsi qoyulur. Əgər hər iki vergi qanun ilə qoyulmuşsa, birbaşa maksimum — minimum anlayışından istifadə edilir. Əgər maksimum vergi dərəcəsi qanun ilə minumum isə beynəlxalq müqavilələrlə qoyulmuşsa belə bir vəziyyətdə qismən avtonom, qismən də razılaşdırılmış tarif sistemləri iki sütunludur.

QAAT üzvü olan ölkələrin tarif sistemləri iki sütunludur. Yüksək tariflər QAAT üzvi olmayan ölkələrə tətbiq edilir. Minimum tariflər isə ikitərəfli müqavilələr bağlanaraq güzəştlər verilməsini təmin edir.

Üç sütunlu tarif sistemlərində üç müxtəlif vergi dərəcəsi əlavə olunması ilə yaranır. Bu sistem üstünlük sistemi adlanır və bir çox ölkələr arasında ticarəti stimullaşdırmaq məqsədi daşıyır. Hal-hazırda dünya ölkələrinin demək olar ki, hamısı çox sütunlu tarif tətbiq edirlər. Bu gün Azərbaycanda ikisütunlu tarif tətbiq edilir. Üç sütunlu tarifın ən yüksək faiz dərəcəsi adətən ticarət müqavilələri olmayan ölkələrə tətbiq edilir.

Gömrük rüsumları idxal-ixrac və tranzit mallarından olunmasından asılı olaraq idxal-ixrac və tranzit rüsumları

adlanırlar. Müasir mərhələdə kömrük rüsumları ümumiyyətlə yalnız idxal mallarına tətbiq edilir. Bununla yanaşı hər hansı bir malın ixracını məhdudlaşdırmaq üçün ixracatdan vergi alınması bir qayda olaraq xammal istehsal edən ölkələr tərəfindən tətbiq edilə bilər. Lakin adətən yüksək ixracat vergiləri müəyyən müddət gəlir təmin etsə də, son dərəcə də bu və ya digər malın qiymətinin yüksəldərək onun ixrac həcminə mənfı təsir göstərə bilər.

Gömrük təcrübəsində cəza xarakterli və dempinq əleyhinə yönəldilmiş gömrük rüsumları tətbiq olunur. Bu zaman milli bazara siyasi və iqtisadi baxımdan ölkə üçün arzuedilməz olan malların daxil olmasının qarşısının alınma məqsədi güdülür. Bu cür gömrük rüsumlarının tətbiq edilməsi zamanı əsas çətinlik dempindən mövcud olmasını sübut etməkdir. Bu zaman dempinq malın dünya öz istehsal xərclərindən aşağı qiymətə satılması kimi müəyyən edilir. Lakin bunu sübut etmək üçün firmalar lazımi sənədləri çətinliklə təqdim edirlər. Ona görə də təcrübədə dempinq dolayı yollarla sübut olunur.

Ticarətdə dempinqlər adətən daimi və birdəfəlik olaraq iki formada özünü göstərir.

Milli iqtisadiyyat üçün daha təhlükəli olan daimi dempinq inhisarlar tərəfindən özrəqibini ucuz qiymətlə bazardan çıxarmaq üçün yeritdiyi siyasətdir. Bu zaman inhisarlar daimi bazarı bir neçə tərkib hissələrə bölür və bu hissələrin birində qiymətləri yüksəldir və əlavə mənfət əldə edirlər. Bu isə ona imkan verir ki, məhsullarm bir hissəsini xarici bazarda ucuz qiymətə satsın. Birdəfəlik dempinq isə təsadüfü yaranmış izafı maldan xilas olmaq üçün onu ucuz qiymətə xarici bazarda satmaq zərurətindən irəli gəlir.

Beynəlxalq təşkilatilar dempinq əleyhinə yüksək kömrük rüsumlarmm tətbiq edilməsinə icazə veririr.

Gömrük tariflərinin funksiyaları, beynəlxalq ticarətdə alınan kömrük vergilərindən başlıca iki məqsəd güdülür:

1. Dövlət xəzinəsini gəlirlə təmin etmək;
2. Milli sənayeni xarici rəqabətdən qorumaq.

Gömrük vergiləri dövlətin gəlir əldə etməsinin asan yollarından biri olduğu üçün beynəlxalq ticarət siyasətinin ən qədim vasitələrindən biridir və inkişaf etməkdə olan ölkələrdə mühüm gəlir mənbəyi kimi istifadə edilir.

Gömrük tarifinin formalaşdırılması və tətbiqi qaydası 20 iyun 1995-ci il tarixi Azərbaycan Respublikasının «Gömrük tarif haqqında qanun» ilə müəyyən edilmişdir.

Bu qanuna görə kömrük tarifinin məqsədləri aşağıdakılardır:

Azərbaycan Respublikası üzrə idxalın əmtəə strukturunu səmərələşdirmək, respublika ərazisində malların gətirilməsi və çıxarılmasının, valyuta gəlirlərinin və xərclərinin əlverişli nisbətini təmin etmək; valyuta sərvətlərini respublikanın gömrük ərazisinə gətirilməsi və bu ərazidən çıxarılması üzərində səmərəli nəzarət etmək, respublikada malların istehsal və istehlak strukturunda mütərəqqi dəyişikliklər üçün şərait yaratmaq, respublikanın iqtisadiyyatını xarici rəqabətin mənfı təsirindən qorumaq, respublikanın iqtisadiyyatının dünya təsərrüfatı ilə səmərəli inteqrasiyasına şərait yaratmaq.

Gömrük rüsumunun dərəcələri vahid olub, gömrük sərhəddindən keçən şəxslərdən əqdlərin növlərindən, «Gömrük tarifi haqqında» qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, digər şərtlərdən asılı olaraq dəyişdirilə bilməz.

Azərbaycan Respublikası ərazisinə gətirilən gömrük rüsumuna cəlb olunan (olunmayan) malların siyahısı və tətbiq edilən rüsum dərəcələri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Müdafiə tədbiri kimi - mallar Azərbaycan Respublikası gömrük ərazisinə bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vuran və ya ziyan vura biləcək kəmiyyətdə və şərtlərlə gətirildikdə, cavab tədbiri kimi - digər dövlətlərin və onların ittifaqının Azərbaycan Dövlətinin mənafeyinə toxunan ayrı seçkilik və digər hərəkətinə.

Xüsusi növ rüsumların tətbiqi qaydaları gömrük tarifi haqqında qanunun 10-cu maddəsinə əsasən həyata keçirilir.

Gömrük tarifi haqqında qanunda xarici ticarətdə iştirak edən malın gömrük dəyərinin və bu malın mənşə ölkəsinin müəyyən edilməsi qaydası müəyyənləşdirilmişdir.

Malın gömrük dəyərinin müəyyən edilməsi (gömrük qiymətləndirilməsi) sistemi gömrük qiymətləndirilməsinin beynəlxalq təcrübədə qəbul olunmuş ümumi prinsiplərinə əsaslanır və Azərbaycan Respublikasının ərazisinə gətirilən və bu ərazidən çıxarılan mallara şamil edilir. Respublikanın gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi qaydası Azərbaycan Respublikasının Nazirlər Kabinetinin tərəfindən müəyyən olunur.

Malın mənşə ölkəsi malların respublikanın kömrük ərazisinə gətirilməsi və bu ərazidən çıxarılmasının tarif və qeyri-tarif tənzimlənməsini həyata keçirmək məqsədilə müəyyən olunur və mövcud beynəlxalq təcrübəyə əsaslanır. Malın mənşə ölkəsinin təyin edilməsi qaydası respublikanın Nazirlər Kabineti tərəfindən bu qanunun müddəaları əsasında müəyyənləşdirilir.

Tarif haqqında qanunda malların idxalı və ixracı zamanı bir sıra gömrük tarif güzəştlərinin tətbiqi nəzərdə tutulur.

Mallar üzrə tarif güzəştləri dedikdə respublikanın ticarət siyasəti həyata keçirilərkən qarşılıqlı və ya birtərəfli qaydada Azərbaycanın gömrük sərhəddindən keçirilən mallar üzrə əvvəl ödənilmiş rüsumun qaytarılması, rüsum ödənişindən azad-etmə, rüsum dərəcələrinin aşağı salınması, malın preferensial gətirilməsi (çıxarılması) üçün tarif kvotaları şəklində verilən güzəştlər başa düşülür. Gömrük güzəştlərinin verilməsi qaydası Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

İxracatçılara vergi güzəştlərinin tətbiq olunması ölkədə tətbiq edilən vergi sistemindən asılıdır. Birbaşa vergiqoyma üstünlük təşkil edən ölkələrdə ixracın məbləğindən və ya ixrac əməliyyatlarının artım templərindən asılı olaraq ixracatların gəlir vergilərinə müxtəlif güzəştlər və ya onların ödənilməsinə möhlət verilməsi həyata keçirilir.

Dolayı vergilər üstünlük təşkil edən ölkələrdə, məsələn, Qərbi Avropa ölkələrində, ixracatçılara vergi güzəştlərinin əsas forması onların dolayı vergilərdən azad edilməsidir.

Bir çox ölkələrdə milli müəssisələrin ixrac fəaliyyətinə informasiya yardımı göstərilir. Bu yardım müxtəlif formalarda həyata keçirilir; xarici ticarət sərgilərini və yarmarkalarının təşkili, ticarət nümayəndələrinin xaricə ezam edilməsi, səfirlik aparatı tərəfindən əməli yardımın göstərilməsi, firmaların iqtisadi informasiya ilə təmin olunması və s.

XİF-nin hüquqi tənzimlənməsində vergilərdən məhdudlaşdırma vasitəsi kimi də istifadə edilir. İdxal vergilərinin tərkibinə adətən bir sıra ölkələrin sərhədlərini keçərkən əmtəələrin üzərinə qoyulan sərhəd vergisini, gömrükxanada sənədlərin hazırlanması, malların gömrük yoxlanması, onun keyfiyyətinin yoxlanması ilə bağlı olan müxtəlif yığımları, liman, statistik, fitosanitar və digər yığımları aid edirlər. Xüsusi idxal vergilərindən istifadə edirlər ki, bunlar da yalnız xarici əmtəələrdən tutulur və özünün ticarət - iqtisadi mahiyyətinə görə gömrük rüsumlarından az fərqlənir. İxrac vergiləri ifadəsi zamanı ölkədən çıxarılan əmtəələrinə daxili bazarda olan tələb və təklifi tarazlaşdırmaq, ixrac və idxalın strukturunu yaxşılaşdırmaq məqsədi güdülür.

Qiymət sistemi bazar iqtisadiyyatının əsas elementlərindən biri olub iqtisadiyyatda baş verən proseslərə daim, operativ olaraq təsir göstərir. Qiymətlər bazar münasibətləri şəraitində özünü tənzimləmə prosesinə məruz qalır. Lakin özünü tənzimləmə prosesi təbii proses deyil və bazar da kontragentlərin riayət etdikləri qayda və normalardan ibarətdir. Bu qayda və normaların pozulması iqtisadiyyatda neqativ halların yaranmasına gətirib çıxara bilər. Digər tərəfdən iqtisadiyyatda kəskin inflyasiya və böhran hallarının olması və onların gələcək inkişafını planlaşdırmağa və düzgün qərarlar qəbul etməyə imkan verməməsi makroiqtisadi tənzimləmənin tərkib hissəsi olan qiymətlərin və tariflərin dövlət tərəfindən hüquqi tənzimlənməsini ön plana çəkir.

1992-ci il 2 yanvar tarixli 3 saylı «Qiymət və tariflərin sərbəstləşdirilməsi haqqında» Respublika Nazirlər Kabinetinin

qərarı ilə qiymət və tariflərin tənzimlənməsi həyata keçirilərək istehsal – texniki təyinatlı məhsulların, mühüm sosial əhəmiyyət kəsb edən əsas istehlak malları və xidmətlərinin qiymət və tariflərinə müvafiq əmsallar müəyyən edilmişdir. Azərbaycanın o vaxt vahid «rubl» məkanında olması, habelə MDB və digər qonşu ölkələrdə qiymətlərin sərbəstləşdirilməsi şəraitində, ölkənin özü üçün zəruri olan məhsul və malların kənara axını təhlükəsi yaranırdı. Ona görə də Azərbaycan Respublikası Nazirlər Kabineti ilk dəfə 23 aprel 1992-ci il tarixli 216 saylı və daha sonra 2005-ci il 28 sentyabr tarixli, 178 saylı qərarları ilə aşağıda göstərilən məhsulların xidmətlərin qiymət və tariflərin dövlət tərəfin-dən tənzimlənməsi nəzərə alınmışdır:

- Elektrik enerjisi;
- Xam neft və neftdən emal olunan əsas məhsullar;
- Təbii qaz və maye qaz;
- İstilik enerjisi;
- İçməli və texniki su;
- Mənzil kirayəsi (dövlət fondu üzrə);
- Daşınmaz əmlak və dövlət torpaqlarının kadastr xidmətləri;
- İsti su və istilik təchizatı xidmətləri;
- Neft və neft məhsullarının magistral boru kəməri ilə nəqli xidmətləri;
- Təbii qazın boru kəmərləri ilə nəqli, saxlanması və paylanmasına xidmətləri;
- Rabitə sahəsində xidmətləri;
- Dövlətə məxsus kommunal – təsərrüfatı sahəsində əsas xidmətlər;
- Dövlətə məxsus təhsil sahəsində xidmətlər;
- Dövlət yollarının salınması və saxlanması xidmətləri və s.

Makromaliyyə sabitliyinin təmin edilmsində və ölkənin sosial – iqtisadi inkişafında digər dövlət tənzimləyiciləri ilə yanaşı qiymət siyasətinin də əhəmiyyəti danılmazdır. Onu da qeyd edək

ki, qiymət siyasətinn hüquqi əsasını bu sahə üzrə qüvvədə olan qanunvericilik aktları təşkil edir.

Belə ki, tənzimlənən qiymətlər haqqında Azərbaycan Respublikasının Konstitusiyasından, bu qanundan «Təbii inhisarlar haqqında», «Qiymətləndirmə fəaliyyəti haqqında» Azərbaycan Respublikasının qanunlarından, digər normativ-hüquqi aktlardan, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir. Azərbaycan Respublikasında tənzimlənən qiymətlər haqqında qanunda qiymətlərin tənzimlənməsinin əsas prinsipləri aşağıdakılardan ibarətdir:

- tənzimlənmənin bazar münasibətləri və iqtisadiyyatın dinamik inkişafının təmin edilməsi baxımında həyata keçirilməsi;
- iqtisadiyyatın prioritet sahələrinin intensiv inkişafına investisiya qoyuluşunun stimullaşdırılması;
- inhisarçılıq hallarının məhdudlaşdırılması və qarşısının alınması, istehlakçıların və istehsalçıların maraqlarının uzlaşdırılması;
- təbii inhisar subyektlərinin qiymətlərinin tənzimlənməsində ölkənin sosial-iqtisadi inkişafına səmərəli təsirinin təmin edilməsi;
- dövlətin iqtisadi maraqlarına uyğun təbii sərvətlərdən istifadənin səmərəliliyinin təmin olunması;
- məhsulun (malın, işin, xidmətin) daxili və dünya bazar qiymətlərinin nəzərə alınması;
- qiymətin əmələ gəlməsində iqtisadi cəhətdən əsaslandırılmış xərclərin ödənilməsi;
- inflyasiyanın qarşısının alınması, yarana bilən iqtisadi və sosial böhranlara yol verilməməsi;
- qiymətləri tənzimlənən məhsulları (malları, işləri, xidmətləri) istehsal edən təsərrüfat subyektlərinin texniki və texnoloji inkişafı üçün əlverişli iqtisadi şəraitin yaradılması;
- qiymət amilinin istiqamətləndirici, həvəsləndirici və məhdudlaşdırıcı formalarından istifadə edilməsi.

Qeyd etmək lazımdır ki, 30 dekabr 2005-ci ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti «Dövlət tənzimlənməsi tətbiq

edilən tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi qaydaları»nı təsdiq etmişdir. Həmin sənəddə göstərilir ki, qiymətlərin formalaşması və tətbiqi üzərində dövlət nəzarəti növbəti və növbədənkənar qaydada həyata keçirilir. Növbəti dövlət nəzarəti Şura tərəfindən hər il hazırlanan plan üzrə aparılır. Azərbaycan Respublikasının Prezidentinin 2005-ci il 26 dekabr nömrəli 341 saylı fərmanı ilə Azərbaycan Respublikasının Tarif (qiymət) şurasının tərkibini və şuranın əsasnaməsini təsdiq etmişdir. Həmin əsasnaməyə görə Azərbaycan Respublikasının Tarif (qiymət) şurası qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) qiymətlərinin (tariflərinin) tənzimlənməsi ilə bağlı görülən işlər barədə ildə 2 dəfə Azərbaycan Respublikasının Prezidentinə hesabat verməlidir. Respublikada qiymət və tariflərin hüquqi tənzimlənməsi sahəsində bir sıra addımlar atılmışdır. Belə ki, yuxarıda qeyd edildiyi kimi, 30 may 2003-cü ildə Azərbaycan Respublikasının «tənzimlənən qiymətlər haqqında» qanunda qiymətlərin tənzimlənməsi sahəsində dövlətin əsas vəzifələri müəyyənləşdirilmişdir. Bu vəzifələrə əsasən aşağıdakılar daxildir:

- qiymətlərin tənzimlənməsi sahəsində dövlətin siyasətini müəyyən etmək və onun həyata keçirilməsini təşkil etmək;

-qiymətlərin tənzimlənməsi, tətbiqi və onlara nəzarət edilməsinə dair qanunvericilik aktlarını qəbul etmək;

-tənzimlənən qiymətlərin təsdiqi, tətbiqi, dəqiqləşdirilməsi, tənzimlənməsinin dayandırılması və qiymətin əmələ gəlməsi qaydalarını müəyyən etmək;

-yüksək mənfəət əldə etmək məqsədilə qiymətlərin səviyyəsinin əsassız olaraq artırılmasının qarşısını almaq və dövlətin iqtisadi maraqlarını təmin etmək;

-dövlət ehtiyatlarını ödəmək üçün büdcə vəsaitlərinin məqsəd yönlü və səmərəli istifadə olunmasını təmin etmək;

-qiymətlərin tənzimlənməsi ilə əlaqədar tənzimləyici orqan ilə qiymətin əmələ gəlməsi subyekti arasında meydana çıxan məsələlərə baxmaq və qərar qəbul etmək; həmin qanunda

qiymətlərin tənzimlənməsi üsulları da müəyyənləşdirilmişdir. Bunlar aşağıdakılardan ibarətdir:

- qiymətləri təsdiq etməklə;
- qiymətlərin səviyyəsini məhdudlaşdırmaqla;
- qiymətdə rentabellik səviyyəsini məhdudlaşdırmaqla;
- vergi, gömrük tarifi və rüsumların dərəcələrini dəyişməklə;
- imtiyazlı (güzəştli) kreditlər verməklə;
- dövlət büdcəsindən subsidiya verməklə;
- tənzimlənən qiymətlərin tətbiq edildiyi məhsulun (malın, işin, xidmətin) qiymətlərini müxtəlif istehlakçı qrupları üzrə fərqləndirməklə.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 27 avqust tarixli 140 nömrəli qərarı ilə təsdiq edilmiş 1 nömrəli əlavəyə görə özəlləşdirilən müəssisə və obyektlərin start qiyməti (səhmdar cəmiyyəti üçün – nizamnamə kapitalının həcmi) hesablanarkən, onların ilkin qiymətlərinə müəssisənin yerləşdiyi ərazinin əlverişliliyi və sair göstəricilər nəzərə alınmaqla, müvafiq əmsallarla hesablanmış qiymət əlavələri tətbiq edilməklə müəyyənləşdirilir.

Müəssisə və obyektlərin start qyməti aşağıdakı düsturla hesablanır:

$$S_q = İ_q + B_d \times (N_ə \times Z_ə - 1)$$

Burada:

S_q – müəssisənin start qiyməti;

$İ_q = A_b - P_b$ – start qiyməti müəyyənləşdirilən tarixə müəssisənin Azərbaycan Respublikası Prezidentinin 2007-cı il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi haqqında əsasnaməyə tam uyğun olaraq həyata keçirilir.

Bütün bunlarla yanaşı dövlət mütəşəkkil və qeyri-mütəşəkkil bazarlarda qiymət və tariflər üzərində ciddi nəzarət funksiyasını yerinə yetirir.

Belə ki, daxili bazarlarda qiymət əmtəələrə olan tələb və təklifin nizamlanmasında xüsusi rol oynadığı halda, istehsalçı ilə istehlakçı arasında düzgün iqtisadi münasibətlərin forma-

laşmasını da əks etdirir. Belə ki, son nəticədə istehsalçı ilə istehlakçı mütəşəkkil və qeyri-mütəşəkkil bazarda qarşılaşırlar və hər hansı bir konkret məhsulun, əmtəənin son sövdələşmə qiymətini həyata keçirirlər. Əməliyyatın belə qanunauyğun, sərbəst həyata keçirilməsi hər bir fəaliyyət dairəsində olduğu kimi istehlak bazarlarında da dövlət normal şərait yaratmaqla bərabər, bazarda nizam-intizamın qorunmasına, onun tənzimlənməsinə xüsusi diqqət yetirir. Beləliklə, qiymət və tariflərin hüquqi aktlar əsasında tənzimlənməsi prinsipcə yeni forma və metodların tətbiq edilməsi ilə məhdudlaşmamalı, əksinə bu forma və metodlar bir daha təkmilləşdirilməli və dövlətin qiymət və tariflərin tənzimlənməsində rolu və funksiyası daha da gücləndirilməlidir.

MÖVZU 12. AQRAR BÖLMƏNİN TƏNZİMLƏNMƏSİNİN HÜQUQİ ƏSASLARI

Plan:

1. İqtisadiyyatda aqrar bölmənin rolu və yeri.
2. ASK iqtisadiyytın dövlət tənzimlənməsinin mühüm obyekti kimi.
3. Aqrar münasibətlərin hüquqi tənzimlənməsinin əsasları.
4. Aqrar islahatların hüquqi əsasları, məqsədi və vəzifələri.
5. Dövlət aqrar bölməsinin fəaliyyətinin hüquqi tənzimlənməsi.

Məlum olduğu kimi, aqrar islahatların müvəffəqiyyətlə həyata keçirilməsi, müxtəlif təşkilati - hüquqi statusa malik olan təsərrüfatların müstəqil fəaliyyəti üçün normativ hüquqi bazasının, təşkilati-iqtisadi və maliyyə sisteminin yaradılmasını nəzərdə tutur.

İslahatlar barədə hüquqi zəmin «Aqrar islahatların əsasları haqqında», «Sovxoz və kolxozların islahatı haqqında» və «Torpaq islahatı haqqında» qanunları və digər normativ-hüquqi sənədlər təşkil edir.

İslahatın aparılmasının əsas prinsipləri ictimai istehsalın üstünlükləri ilə fərdi marağın əlaqələndirilməsi, sosial ədalət və kənd əhalisinin sosial müdafiəsinin təmin edilməsi; ümumi təyinatlı obyektlərin (naturada bölünməsindən asılı olmayaraq) bərabər hüquqlu və birgə istifadəsinə təminat verilməsi ilə səciyyələnir. İslahatın obyektləri kolxoz və sovxozların istifadəsində mövcud olan torpaqlar, mal-qara və digər daşınmayan əmlakından ibarətdir. İslahatın subyektləri iki yerə bölünür: səlahiyyətli və təəhüdlü subyektlər. Əmlak payları almaq hüququ olan səlahiyyətli subyektlərə kolxoz üzvləri və sovxozun daimi işçiləri; həmin təsərrüfatlardan təqaüdə çıxanlar; beş ildən az olmayaraq kolxoz üzvü olmuş və sovxozda daimi çalışmış işçilər; kolxoz və sovxozlardan hərbi qulluğa, oxumağa

göndərilmiş şəxslər və seçkili orqanlarda fəaliyyət göstərənlər; təsərrüfatların əsaslı iddiası olan digər fiziki və hüquqi şəxslər; yerli hakimiyyət orqanları və ümumilikdə Azərbaycan Respublikası daxildir.

Təəhüdlü subyektlərə isə islahat aparılacaq təsərrüfatlar: kolxoz, sovxoz və təsərrüfatlararası müəssisələr; digər kənd təsərrüfatı məhsulları istehsal edən müəssisələr aiddir. Subyektlərin torpaq almaq payı «Torpaq islahatı haqqında» Azərbaycan Respublikasının qanunu ilə tənzimlənir.

İslahatları həyata keçirmək üçün hökumət tərəfindən xüsusi komissiya yaradılmış və onların həyata keçirilməsinə bilavasitə rəhbərlik edirlər. Azərbaycan Respublikasının Nazirlər Kabineti respublika aqrar islahatı komissiyasını təşkil etmişdir. Rayon aqrar islahatı komissiyası isə rayon İcra Hakimiyyətinin təqdimatına əsasən yaradılır. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi rayon icra hakimiyyətinin (nümayəndəsi) təqdimatına əsasən rayon aqrar islahat komissiyasını yaradır.

Rayon aqrar islahat komissiyasının tərkibinə rayon hakimiyyət orqanının rəhbəri, rayon torpaq şöbəsinin, bankın, maliyyə, vergi və sığorta orqanlarının, statistika idarəsinin, kənd təsərrüfatı işçiləri, həmkarlar ittifaqının, rayon ictimaiyyətinin nümayəndələri daxil edilir:

Komissiya islahatların aparılmasına nəzarət etmək: yerli islahat komissiyasının qərarlarına baxmaq, onu nümayəndəli orqanın təsdiqinə vermək; mübahisəli məsələləri nazirlik, baş idarələr və respublika islahat komissiyası ilə birgə həll etmək; islahatda qanunvericiliyə nəzarət etmək hüququna malikdir.

Rayon üzrə aqrar islahat proqramının hazırlanması və həyata keçirilməsi; yerli islahat komissiyalarının işinə rəhbərlik edilməsi və onları normativ-hüquqi sənədlərlə təmin edib metodik köməklik göstərilməsi; yerli islahat komissiyası ilə birlikdə bələdiyyə mülkiyyətinə veriləcək torpaq və əmlak barədə müvafiq orqanlara təkliflər təqdim edilməsi; islahata ayrılan vəsaitdən istifadəyə nəzarət olunması və respublika Aqrar İslahat

Komissiyasına islahatın gedişi barədə məlumat verilməsi rayon islahat komissiyasının əsas vəzifəsidir.

Respublika İslahat Komissiyasının tərkibinə aqrar-sənaye kompleksinə daxil olan idarəetmə orqanlarının rəhbərləri, İqtisadi İnkişaf Nazirliyinin, Maliyyə Nazirliyinin, Milli Bankın, Vergilər Nazirliyinin, Sığorta İdarəsinin, Statistika, kənd təsərrüfatı işçiləri həmkarlar təşkilatının, elmi idarələrin və ictimaiyyətin nümayəndələri daxildir.

Komissiya islahat proqramını dövlətin iqtisadi siyasəti ilə uzlaşdıraraq hazırlayır.

Yeni təsərrüfatçılıq formalarının yaradılması kolxoz və sovxozlarda islahatlar aparmadan mümkün deyil. Bu məsələlərin həllində respublikamızda qəbul olunmuş bir sıra qanunlar, o cümlədən «Kəndli (fermer) təsərrüfatı haqqında» və «Sovxoz və kolxozların islahatı haqqında» qanunlar əhəmiyyətli rol oynayır.

Məlumdur ki, qanunun qəbul edilməsi heç də bu sahədə bütün bu problemlərin həll olunması demək deyildir. Hər şeydən əvvəl, bu qanunların işlək mexanizmi yaradılmalıdır. Elə etmək lazımdır ki, kolxoz və sovxozlarda islahatlar həyata keçirilərkən, tarixən respublikamızda kənd təsərrüfatının formalaşmış strukturunda kəskin keyfiyyət dəyişikliyi təmin edilsin. Kənd təsərrüfatının strukturu elə təkmilləşməlidir ki, nəticə etibarı ilə torpaqdan tam səmərəli istifadə ilə yanaşı, zəruri tələbatı ödəyən kənd təsərrüfatı məhsulları, xüsusilə heyvandarlıq məhsulları və taxıl məhsullarına olan tələbat maksimum dərəcədə daxili imkanlar hesabına təmin edilsin.

Nəhayət, qeyd edək ki, kəndlərdə torpaq islahatı davam etdirilərək və artıq sona çatdırılmışdır.

Bazar münasibətlərinin xarakterik cəhətlərini özündə əks etdirən ən mühüm kənd təsərrüfatı məhsulları istehsalçı kimi çıxış edən kəndli (fermer) təsərrüfatları tədricən iqtisadiyyatımızda özünəməxsus yer tutmaqdadır. Kəndli (fermer) təsərrüfatının yaradılması əsasən iki yolla həyata keçirilir:

Birincisi, dövlət torpaq fondundan icarə formasında istifadə ilə, yaxud həmin torpaq fondunun özəlləşdirilməsi ilə

kəndli (fermer) təsərrüfatlarının təşkili; ikincisi isə kolxoz və sovxozların ləğv edilməsi nəticəsində həmin təsərrüfatlardan alınan pay torpaqları əsasında təşkil edilən kəndli (fermer) təsərrüfatları.

Azərbaycanda bütövlükdə torpaq fondunun, xüsusilə, kənd təsərrüfatı dövriyyəsində olan torpaq fondunun məhdudluğu özəl kənd təsərrüfatı müəssisələrinin yaradılmasına xüsusi diqqət tələb edir.

Məlum olduğu kimi, respublikamızın torpaq fondu, o cümlədən kənd təsərrüfatı üçün yararlı torpaq sahəsi bu və digər yaşayış məntəqələrində qeyri-bərabər yerləşmişdir. Belə ki, rayonlarda əhalinin yüksək sıxlığı ilə yanaşı, kənd təsərrüfatı üçün yararlı torpaq sahəsi məhduddur. Ona görə də həmin regionlarda adambaşına düşən torpaq payı ilə kəndli (fermer) təsərrüfatı təşkil etmək o qədər də asan deyildir. Belə fərqlər nəinki ayrı-ayrı regionlarda, hətta eyni bir rayon daxilində müxtəlif təsərrüfatlarda da fərqlidir. Odur ki, kəndli (fermer) təsərrüfatları əsasən ailə təsərrüfatı kimi formalaşır. Bütün bunlarla yanaşı respublikada kənd təsərrüfatı üçün yararlı torpaq sahəsi, heyvanların baş sayı, pambıqçılıq, üzümçülük, taxılçılıq üçün ayrılan torpaq sahəsi, bütövlükdə kənd təsərrüfatında çalışan işçilərin sayı, kəndli (fermer0 təsərrüfatının təşkilinə öz təsirini göstərməyə bilməz. Ona görə də kolxoz və sovxozların formal şəkildə kəndli (fermer) təsərrüfatına çevirmək arzu olunmaz nəticələrə gətirib çıxara bilər.

İslahatlar aparılarkən yuxarıda qeyd olunan amillərlə yanaşı psixoloji amili də nəzərə almaqla, fermer təsərrüfatının optimal həcminin müəyyənləşdirilməsi əhəmiyyətli rola malikdir.

Aydındır ki, fəaliyyət növündən asılı olaraq yeni təşkil olunmuş fermer təsərrüfatı bir-birindən fərqli torpaq sahəsinə, iri buynuzlu mal-qaraya, davarlara, quşlara və s. malik ola bilər.

İndi isə Azərbaycan Respublikasında kəndli (fermer) təsərrüfatlarının təşkili qaydasına nəzər salaq. Azərbaycan Respublikasının 8 aprel 1992-ci lidə «Kəndli (fermer0 təsərrüfatı haqqında» qəbul etdiyi qanuna görə 18 yaşına çatmış bütün

vətəndaşlar kənd təsərrüfatı istehsalı yaratmaq və həmin məqsəd üçün torpaq sahəsi almaq hüququna malikdir. Torpaq sahəsi almaqda ərazidə daimi yaşayan, kənd təsərrüfatında ən azı üç il işləyən və lazımi peşə vərdişləri olan vətəndaşlara üstünlük verilir.

Kəndli təsərrüfatına ailə üzvlərindən başqa həmin təsərrüfatda daimi işləyən şəxslər də daxil ola bilər. Kəndli təsərrüfatının üzvləri daimi bir yerdə yaşayan və təsərrüfatda işləyən ərarvad, onların valideynləri, 14 yaşından yuxarı uşaqları və könüllülük əsasında birləşmiş digər şəxslər hesab edilir. Kəndli təsərrüfatının üzvlərindən biri təsərrüfata başçı seçilə bilər. Təsərrüfat başçısı dövlət, kooperativ, ictimai və digər müəssisələrlə, eləcə də vətəndaşlarla danışıqlar aparır, münasibətlərdə təsərrüfatın mənafeyini təmsil edir. İstehsal fəaliyyətini təşkil edir, müqavilələr bağlayır, etibarnamə verir, əmlak və vasitələrə sərəncam vermək hüququndan istifadə edir, qanun çərçivəsində digər işləri həyata keçirir. Təsərrüfat başçısı xəstələndikdə, əmək qabiliyyətini itirdikdə və ya uzun müddət təsərrüfatdan ayrıldıqda. onun yerini kollektivin razılığı ilə təsərrüfat üzvlərinin biri ilə əvəz edə bilər.

Azərbaycan Respublikasının Konstitusiyası. Torpaq məcəlləsi haqqında, kəndli (fermer) təsərrüfatları haqqında, icarə münasibətləri haqqında və s. qanunlar, qərarlar, fərmanlar, habelə respublika Nazirlər Kabinetinin sərəncamları və normativ-hüquqi aktları kəndli təsərrüfatının təşkili və fəaliyyətinin əsasını təşkil edir.

Araşdırmalar göstərir ki, ölkədə fermer təsərrüfatları yarandığı ilk gündən bir sıra problemlərlə qarşılaşır. Belə ki, kənd təsərrüfatı məhsullarının qiymətləri faktiki olaraq istehsal xərclərini ödəməyir və bu da onların real imkanlarını məhdudlaşdırır. ABŞ iqtisadiyyatında son illərdə fermerlərin gəlirlərinin yüksəlməsinin əsas mənbəyi dövlət subsidiyasıdır.

Yəqin ki, Azərbaycan dövlətinin də imkanları genişləndikcə, fermer təsərrüfatlarının problemlərinin həllinə bu və ya digər formada köməklik göstəriləcək.

Məlum olduğu kimi sovxoz və kolxozlarda yaşayan əhali, həmin təsərrüfatların torpaq və digər əmlaklarından pay almaqla, öz ailə və fermer təsərrüfatlarını yaradırlar.

Kəndli (fermer) təsərrüfatlarının səmərəli fəaliyyəti onların maddi-texniki resurslarla təchizatından və onlara göstərilən istehsal-texniki xidmətdən çox asılıdır.

Kəndli təsərrüfatı özünə lazım olan kənd təsərrüfatı texnikasını, yük avtomaşınlarını və digər istehsal vəsaitlərini istənilən dövlət müəssisələrindən, əhalidən, müəssisə və təşkilatlardan və s. ala bilər.

Nazirlik və baş idarələrlə, müəssisə və təşkilatlarla əvvəlcədən bağlanmış müqavilələr əsasında kəndli təsərrüfatlarında aqrotexniki, aqrokimyəvi, zoobaytar, enerji, su, meliorasiya və s. istehsal xidmətləri həyata keçirməlidir. Kəndli təsərrüfatları respublika aqrar-sənaye kompleksinin baş idarələri ilə kənd təsərrüfatı maşın və avadanlıqları, yanacaq, ehtiyat hissələri, maddi-texniki resursları almaq üçün müqavilə bağlaya bilər. Kəndli təsərrüfatı qiymətlərlə cins mal-qara və quşlar, toxum sortları və digər əkmə materialları, qüvvəli yem və s. ala bilər, öz texnikasını isitdiyi yerdə, yaşadığı ərazidə, təmir müəssisələrində təmir etməklə, maddi-texniki tədbirləri həyata keçirər və habelə əsaslı tikinti işləri gördürə bilər.

Kəndli təsərrüfatı özünə lazım olan maddi-texniki vəsaitləri yarmarkalardan, dükanlardan ala bilər, istdiyi texnikanı istehsal edən müəssisələrə sifariş verə bilər.

Kəndli (fermer) təsərrüfatı məhsul istehsalında, onun emalında və satışında, gəlirlərin bölgüsündə sərbəst olduğu kimi, təsərrüfat mexanizminin formalaşmasında da sərbəstdir. Kənd təsərrüfatının iqtisadi mexanizminə maliyyə-kredit, bank, qiymət-vergi, ictimai sığorta, əməyin və istehsalın stimullaşdırılması, təsərrüfat hesabı və s aiddir. Kəndli təsərrüfatının iqtisadi mexanizminin inkişafı və səmərəliliyi maliyyələşdirmə və krditləşdirmə işlərinin düzgün həyata keçirilməsindən çox asılıdır. Kəndli təsərrüfatının maliyyələşdirilməsinin başlıca mənbəyi onun öz məhsullarının satışından əldə etdiyi pul vəsaitidir. Həmin

vəsaitdən materil xərcləri çıxılır və yerdə ümumi gəlir qalır. Ümumi gəlirdən vergi, ssuda borcu ödənildikdən və digər hesablaşma hesabı apardıqdan sonra qalan hissə, kəndli təsərrüfatının hesabına verilir. Kəndli (fermer) təsərrüfatlarının bankın uzun və qısa müddətli kreditindən istifadə etmək hüququ vardır. Kredit o şərtlə verilir ki, ondan təyinatı üzrə istifadə edilsin. Yəni bitkiçilik və heyvandarlıq məhsulları istehsalının artırılması, onun keyfiyyətinin yüksəlməsi, torpaqdan, maddi-texniki resurslardan səmərəli istifadə edilməsi təmin olunsun. Kəndli təsərrüfatı bankda hesablaşma hesabı üçün açdığı vaxt kredit götürə bilər. bunu üçün kəndli təsərrüfatı onlara torpaqdan istifadə hüququna dair verilən dövlət aktının surətini ərizə ilə birgə banka verir.

Bəs kəndli (fermer) təsərrüfatlarının fəaliyyətinin uğurla həyata keçirilməsinə, onların iqtisadi cəhətdən səmərəli olmasına, torpaq, texnika, əmək resurslarından səmərəli istifadə edilməsinə, istehsal edilən məhsulların keyfiyyətinin yüksək olmasına təsir edən amillər hansılardır. Hansı amillər təsərrüfatçılığın bu formasına uğurlar gətirir?

Bu amillərə əsasən aşağıdakıları aid etmək olar:

1. Xüsusi mülkiyyətin ictimai mülkiyyətə nisbətən özünəməxsus üstünlükləri vardır. Xüsusi mülkiyyətdə sahibkarlıq güclüdür və maddi marağın bünövrəsi möhkəmdir. Sahibkar, torpağın hər qarışından ağıllı, düşünülmüş və faydalı istifadə etməyə can atır. Bu işdə onun marağı kifayət qədərdir. Daim o fikirləşir, düşünür, axtarışlar aparır, elmi-texniki tərəqqinin nailiyyətlərini öyrənir. İstehsal edilən yeni texnika, kübrə, zəhərli maddələr, aqrotexnika və zoobaytar xidmətlər barədə informasiya alır və onları əldə etmək əsasında öz istehsal-maliyyə fəaliyyətini daim yaxşılaşdırmaq haqqında düşünür.

2. Kəndli (fermer) təsərrüfatlarında əmək potensialından daha səmərəli istifadə edilməsinə şərait daha genişdir. Ailənin bütün üzvləri, yəni məktəblidən tutmuş ixtiyar qocalara qədər hamı öz imkanı dairəsində bu təsərrüfatda çalışa bilər. Burada nə kolxozun ümumi yığıncağının qərarı tələb olunur və nə də sovxoz direktorunun xüsusi göstərişi. Ailənin maddi mənafeyi,

mənəviyyatı təsərrüfat fəaliyyətinə güclü təkan verir. Ailə üzvləri gecə-gündüz imkan tapdıqca bağ suvarır, tərəvəz becərir, fermada mal-qaraya xidmət göstərir, yemləyir, inək və camışlar sağır, səliqə-sahman yaradır.

3. Kəndli (fermer) təsərrüfatının dinamik inkişafına təsir göstərən amillərdən biri də maddi maraq prinsipidir. Xüsusi təsərrüfatçılıq şəraitində şəxsi maddi maraq daha güclüdür. Çünki, xüsusi mülkiyyət şəraitində dövlətə verilən vergi məbləği müstəsna olmaqla, təsərrüfatın gəliri bütövlükdə sahibkara məxsusdur. Kəndli (fermer) təsərrüfatları istədiyi istehsal vasitələri alır, ondan səmərəli istifadə edilməsinə səy göstərir. Əldə etdikləri məhsulu istədiyi yerdə, istədiyi alıcıya bazar qiymətinə sata bilər. bütün bunlar kəndli (fermer) təsərrüfatlarında çalışanların maddi marağının ilbəil artmasına və bu əsasda varlanmasına etibarlı zəmin yaradır.

Qeyd olunan sosial-iqtisadi üstünlüklər kəndli (fermer) təsərrüfatlarını dünyanın bütün inkişaf etmiş ölkələrində ən mütərəqqi və faydalı təsərrüfat forması kimi tanınmışdır.

Bir sıra xarici ölkələrdə xüsusilə ABŞ, İtaliya və Fransada fermer təsərrüfatları kompüter fəaliyyətindən geniş istifadə edir, istehsalı, satışı və digər iqtisadi əlaqələri kompüterin köməyi ilə həyata keçirirlər.

Respublikamızda bu və ya digər sosial-iqtisadi əsaslar üzərində təşəkkül tapan müasir kəndli (fermer) təsərrüfatları da getdikcə təkmilləşərək, yüksək inkişaf səviyyəsinə çata bilər.

Bundan belə bir nəticəyə gəlmək olar ki, müasir dövrdə yaradılan və inkişaf etdirilən kəndli (fermer) təsərrüfatlarının özünəməxsus tutarlı sosial-iqtisadi əsasları vardır. Həmin əsaslar onların böyük gələcəyindən xəbər verir. Belə ki, respublikamızda kəndli (fermer) təsərrüfatlarının inkişafı əhalinin yerli istehsal hesabına ərzaq məhsulları ilə təmin olunmasında əhəmiyyətli rol oynayacaq. Ona görə də kəndli (fermer) təsərrüfatlarının iqtisadi səmərəliliyini daha da yüksəltmək məqsədi ilə onlara texniki, texnoloji, zoobaytar, xidmətlərinin genişləndirilməsi üçün dövlətin qayğı və yardımı gücləndirilməlidir. Kəndli (fermer) təsərrüfatlarında çalışan ixtisaslı kadrların biliyini artıran, peşəsini təkmilləşdirən kurslar təşkil etməlidir. Həmin təsərrüfatları ixtisaslaşmış kadrlarla təmin etmək üçün ali məktəblərin tədris proqramlarına yenidən baxılmalı və müasir təsərrüfatçılıq tələblərini təmin edə bilən kamil mütəxəssislər yetişdirilməlidir.

Bütün bunlarla yanaşı, aqrar sənaye kompleksində istehsal infrastruktu inkişafına xüsusi diqqət yetirilməlidir. İstehsal infrastrukturunu təyinatına görə nəzərdən keçirərəkən tədarükə və kənd təsərrüfatına xidmət edən emal sənaye müəssisələrinin fəaliyyətinə diqqət yetirilməsi bu baxımdan daha səciyyəvidir.

Bu baxımdan 1999-cu il 22 mart tarixli prezident fərmanı ilə əlaqədar olaraq kənd əməkçiləri torpaq vergisi istisna edilməklə, bütün vergi növlərindən azad edilmişdir. Azərbaycan prezidentinin 24 noyabr 2004-cü il tarixli «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» və 2004-cü il 11 fevral tarixli «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında» fərmanlarında ölkə iqtisadiyyatında müşahidə olunan müsbət inkişaf meyllərinin sürətləndirilməsi, regionların tarazlı, sabit və davamlı inkişafı, yeni istehsal müəssisələrinin açılması, infrastrukturunun yeniləşdirilməsi, yeni iş yerlərinin yaradılması kimi vacib məqamlar öz əksini tapmışdır. Dövlət Proqramı əsasında həyata keçirilən kompleks tədbirlər sistemi ölkə iqtisadiyyatının ən müxtəlif sahələrinin, o cümlədən yerli və xarici investisiyalar, müasir idarəetmə texnologiyalarının cəlb olunması yolu ilə rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, mövcud müəssisələrin, sosial infrastrukturun yenidən qurulmasına, yeni iş yerlərinin açılması hesabına ölkədə işsizlik və yoxsulluq probleminin aradan qaldırılmasına, vətəndaşların maddi rifah halının yüksəldilməsinə yönəlmişdir. Ölkə iqtisadiyyatının neft sektorundan asılılığının mümkün qədər azaldılması məqsədilə aqrar sektorun inkişafı hazırda hökumət səviyyəsində həyata keçirilən iqtisadi siyasətin öncül istiqamətlərindən biridir.

Qeyd etmək lazımdır ki, 2009-cu ili naprel ayında ölkə prezidenti regionların sosial – iqtisadi inkişaf ilə bağlı 2009-2013-cü illər üçün yeni dövlət proqramını təsdiq etmişdir. Həmin proqramda regionların sosial-iqtisadi inkişafında qeyri-neft sektorunun, xüsusilə də aqrar sahənin daha sürətli və kompleks inkişafı nəzərdə tutulmaqla bərabər, istehsal və sosial infrastrukturun əsaslı sürətdə daha da təkmilləşdirilməsi bir vəzifə olaraq qarşıya qoyulmuşdur.

MÖVZU 13. SOSİAL SFERANIN TƏNZİMLƏNMƏSİNİN HÜQUQİ ƏSASLARI

Plan:

1. Sosial sfera dövlət tənzimlənməsinin mühüm obyekti kimi, sosial siyasətin əsas istiqamətləri.
2. Məşğulluq sahəsində dövlət siyasəti.
3. Pensiya təminatı sistemi və onun hüquqi əsasları.
4. Aztəminatlı ailələrin, əlillərin, məcburi köçkünlərin, ahılların, təqaüdçülərin, veteranların sosial müdafiəsinin hüquqi əsasları.

İqtisadiyyatın sərbəstləşdirilməsi şəraitində əhalinin sosial müdafiəsinin hüquqi tənzimlənməsi dövlətin əsas funksiyalarından birinə çevrilmişdir. Sosial təhlükəsizliyin obyekti şəxsiyyətdir, onun sosial tələbatının ödənilməsi, pulsuz müalicə və təhsil alma, əlverişli istirahətin dövlət tərəfindən təmin edilməsi sosial müdafiə hüququdur. Azərbaycan Respublikasının əsas qanununda bütün növ insan hüquqları – əmək hüququ, istirahət hüququ, sosial təminat hüququ, təhlükəsizlik, hüququ, milli mənsubiyyət hüququ, dövlətin idarə olunmasında iştirak etmək hüququ aydın təsbit edilmişdir. On ikinci maddədə göstərilir ki, insan və vətəndaş hüquqlarının və azadlığının təmin edilməsi dövlətin ali məqsədidir.

Sosial zəmanət sistemi dedikdə, ölkənin əsas qanununa uyğun olaraq, qanunla təsdiqlənmiş təminat səviyyələri və formaları başa düşülür. Bu mexanizmlər uzun müddətli təsir gücünə malik olan və qanunverici aktlarla zəmanət verilən sosial siyasət olub, əmək haqqı, pensiya sistemi və ümumiyyətlə, sosial təminat sahələrində həyata keçirilən proseslərdir.

İqtisadiyyatın bazar münasibətlərinə keçdiyi müasir dövrdə əhalinin sosial müdafiə sistemi tamamilə yeni prinsiplər əsasında formalaşdırılmasını tələb edir. Etibarlı sosial müdafiə sistemi yaratmadan, müxtəlif mülkiyyət formalarını və yeni yaradılmış

iqtisadi strukturların normal fəaliyyətini və ümumilikdə, cəmiyyətin stabilliyini təmin etmək mümkün deyildir.

Bazar münasibətləri şəraitində əhalinin sosial müdafiəsi məsələlərinin mahiyyətini açıqlamazdan öncə dövlətin sosial siyasətinin məqsəd və vəifələrinə diqqət yetirmək lazımdır.

Azərbaycan Respublikasının sosial siyasətinin əsasını ölkə Konstitusiyasının 16-cı və 17-ci maddələrində təsbit edilmişdir. «Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır», «Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir» müddəaları təşkil edir və dövlət öz fəaliyyətini bu vəzifələrin yerinə yetirilməsinə yönəltmişdir.

Sosial bazar iqtisadiyyatında, sosial siyasət prioritet məsələlərdən biri olmaqla yanaşı, onun son məqsədlərini və nəticələrini ifadə edir.

Beləliklə, sosial siyasət, dövlətin daxili siyasətinin əsas istiqamətlərindən biri olmaqla, ictimai həyatın sosial sahəsinin ayrılmaz hissəsidir. Bu sahəyə həm iqtisadiyyatın qeyri istehsal sahələri (təhsil, elm, səhiyyə, mədəniyyət və sosial müdafiə), həm də, istehsal sahələrinin bir çox aspektləri (iş gününün müddətinin, minimum əmək haqqının, əməyin mühafizəsinin müəyyən olunması və s.) daxildir.

Dövlətin sosial siyasəti cəmiyyətin həyat fəaliyyətinin sosial-iqtisadi şərtlərinin tənzimlənməsinə yönəldilən tədbirlər kompleksindən ibarətdir. O, gəlirlərin bölgüsündəki fərqlərin aradan qaldırılmasına, iqtisadi fəaliyyətin iştirakçıları arasında ziddiyyətlərin tənzimlənməsinə yönəldilmişdir. Bazar iqtisadiyyatı sistemində sosial siyasət vasitəsilə əhalinin həyat səviyyəsində mövcud olan bərabərsizliyin müəyyən dərəcədə aradan qaldırılması məqsədilə əhalinin bütün təbəqələri üçün eyni şərtləri təmin edən sosial ədalət prinsipləri reallaşdırılmalıdır.

Sosial siyasətin məqsədi cəmiyyət üzvlərinin tələbatlarının tam təmin olunması, onların həyat səviyyəsinin yaxşılaşdırılmasıdır. Sosial siyasətin həyata keçirilməsi çərçivəsində insanların zəruri tələbatlarının təmin olunması barədə söhbət getdikcə, yalnız

cəmiyyət üzvlərinin öz hesabına deyil, həm də dövlətin köməyi ilə ehtiyacı olan hər bir adama qayğı və köməyin göstərilməsi nəzərdə tutulur. Sosial siyasət əmək qabiliyyətli vətəndaşların özlərini təmin etməsi üçün müvafiq proseslərin inkişafı və eyni zamanda əmək qabiliyyətini itirmiş və cəmiyyətin, dövlətin qayğısına ehtiyacı olanlara ünvanlı təminat üçün əlverişli şərait yaradır.

Bazar münasibətləri şəraitində dövlətin sosial siyasəti elə formalaşmalıdır ki, öz kapitalına görə əhalinin gəlirlərinin artması təmin olunsun, ikincisi cəmiyyətin iqtisadi və sosial məsuliyyətinin artırılması yolu ilə himayədarlıq aradan qaldırılsın, üçüncüsü əhalinin ədalətli, düzgün sosial müdafiəsi mexanizmi yaradılsın.

İkinci qrupp institusional sosial siyasət adlanır. Burada dövlətin sosial siyasəti əhalinin sosial xidmətlərlə təmin olunmasında mühüm rol oynayır və xüsusi institutlar sisteminə nisbətən daha səmərəli vasitə kimi çıxış edir.

Sosial zəmanət sistemlərinin formalaşmasının mühüm prinsipləri aşağıdakılardır:

Sosial himayədarlıqdan imtina edərək, vətəndaşlara yalnız gəlir səviyyəsi prinsipi üzrə deyil, həm də onların əmək qabiliyyətliliyi dərəcəsindən asılı olaraq sosial zəmanət verilməlidir.

Əmək qabiliyyətini itirmiş əhali qruppu üçün sosial zəmanətin üstünlük təşkil edən forması isə onlara ölkə, ərazi istehlak fondlarından, müəssisələrin (təşkilatların) sosial fondlarından vaxtlı-vaxtında pul və natural ödənişlərin verilməsidir.

Sosial zəmanət sistemlərinin formalaşmasının əsas kriteriyalarına baxılarsa, onda öncə sosial normativlərin təyini zərurəti meydana çıxır. Çünki, zəmanətli və kompensasiya ödəncləri məhz bu normalara əsaslanmalıdır. Sosial normativ sistemləri dəyişməz qala bilməz. Əgər sosial siyasət həyat səviyyəsinin yüksəldilməsinə yönəlmişdirsə, onda bu özünü müvafiq göstəricilərdə büruzə verməlidir.

Funksional nöqteyi nəzərdən sosial-iqtisadi normativlər cari planlaşdırma, gəlirin səviyyəsini və vacib tələbatların tə-

minatının minimal sərhədini təyin edir. Eyni zamanda sosial-iqtisadi normativlər sosial proqnozlaşdırmanın, sosial sferanın faktiki vəziyyətini təyin edən etalondur.

- vahid sosial siyasətin aparılması; bu siyasət cəmiyyətin bütün üzvlərinə öz həyat səviyyələrinin və ailələrinin yaşayış səviyyəsini formalaşdırmaq üçün bərabər imkanlar verməlidir;

- cəmiyyətin bütün üzvləri üçün zəmanətli rifah səviyyəsinin təmin olunması.

Xüsusən burada əsas diqqət sosial proqramlara, yerli ehtiyatlar hesabına pul gəlirlərinin və onların əmtəə ödənişinin balanslaşdırılmasına, az təminatlı ailələr, uşaqlara, qoca və əlillərə kömək tədbirlərinin həyata həyata keçirilməsinə yönəldilməlidir.

Sosial məsələlərin həllində müəssisənin rolu hər şeydən əvvəl həmin müəssisədə təkrar işçi qüvvəsinin istehsalının genişləndirilməsindədir. İqtisadi sərbəstlik şəraitində müəssisənin sosial problemlərinin həllində fəaliyyəti genişlənməlidir.

Belə ki:

- peşə yönümü, işçi kadrların hazırlığı və təkrar istehsalı;

- normal iş şəraitinin təminatı;

- işçilərin və onların ailələrinin məişət və istirahət problemlərinin həlli.

Bu funksiyaların təminatında və maliyyələşdirilməsində müəssisənin sosial fondundan istifadə edilir. Həmin fondlardan istifadə kollektivin hüququnun olması kollektiv üçün vacib məsələdir, lakin bu heç də dövlət və yuxarı təşkilatların həmin fondun istifadəsinə nəzarət edilməsini rədd etmir.

Müəssisələrdə sosial fondların formalaşması, müəssisənin iqtisadi sərbəstlik dərəcəsini xarakterizə edir. Həmin sosial məqsədli fondların mövcudluğu müəssisədə kadrların möhkəmlənməsinə və onların əmək fəallığının artırılmasına əlavə imkan yaradır.

Sosial təminat proqramlarının hüquqi və maliyyə məsələləri xüsusi diqqət tələb edir. Mərkəzlə ərazi bölgüləri (rayonlar) arasında sosial müdafiə sferalarının funksiyalarının ayrılması,

məhdudlaşdırılması, maliyyə mənbələrinin müəyyənləşdirilməsini də tələb edir. Bu mənbələrə daxildir:

- ölkə üzrə büdcələr;

- yerli büdcələr;

- müəssisə və təşkilatların ayırdığı vəsaitlər;

- əhalidən yığılan vəsaitlər (vergi və məqsədli ödəmələr)

Sosial proqramların hüquqi təminatı konstitusiya, normativ sənədlər və aktlar vasitəsi ilə həyata keçirilir.

Pensiya təminatı respublikamızda pensiya sistemlərinin mövcud qaydaları üzrə aparılır.

Qeyd edək ki, bu məsələdə vəziyyət nisbətən ağırdır və təkmilləşdirilməsinə xüsusi ehtiyac vardır. Pensiya təminatlı işçinin yaşından, ümumi əmək stajından asılı olmalıdır və burada çoxlu sayda amillərin təsiri mütləq nəzərə alınmalıdır.

Əhaliyə məqsədli kömək göstərilməsində ölkə miqyaslı və yerli büdcələrdən ayırmaların rolu böyükdür. Burada əhalinin hansı təbəqəsinə, ilk növbədə kömək göstərilməli və imtiyazlar verilməsi məsələsi vacib məsələdir. Burada aşağıdakı amillərə xüsusi diqqət verilir:

- 80 yaşdan yuxarı və daha ahıl adamlara;

- tək yaşayan pensiyaçılara və pensiyaçı ər-arvada, özlərinə xidmət edə bilməyən ahıl adamlara;

- I və II qrup əlillərə;

- Çoxuşaqlı ərsiz və ya arvadsız (natamam) ailələrə, kiçik yaşlı uşaq tərbiyə edən nənə-babalara;

- Yetim uşaqlara, uşaq evi və internat-məktəb müdavimlərinə;

- Əlil uşağı və əlil ailə üzvi olan ailələrə;

- Qaçqın, köçkün, fəlakət (zəlzələ, müharibə, sel, daşqın və s.) nəticəsində zərər çəkmiş insanlara.

Əlbəttə, ilk kömək, adətən hər ailə üzvünə ən az gəlir düşən ailələrə, xəstələrə, əlillərə, fəlakətə düçar olanlara verilməlidir və bu məsələ ilə respublika rəhbərliyi, Nazirlər Kabineti xüsusi komissiyalar vasitəsilə məşğul olur.

Sosial təminat hüquqi norma olub, dövlət müavinət və kompensasiyaların təsirolunması və ödənilməsini tənzimləyir. O,

bir sıra digər hüquq normalara, əsasən əmək, ailə, mənzil və digərləri ilə birgə fəaliyyət göstərir. Bu hüquq normaları müəyyən təminat hüquqlarını müəyyənləşdirir. Məsələn, qadınların əməyinin müdafiəsini, hamilə və 3 yaşa qədər uşağı olan qadının işdən çıxarılmasının qadağan edilməsi normalarını özündə əks etdirir. Sosial gəlirlər siyasətində iki əsas istiqamət – dövlət zəmanəti və sosial təminat ayırd edilir. Dövlət zəmanəti cəmiyyətin normal inkişafının təmin edilməsinə yönəldilir və əhalinin marağının bütün tərəflərinə, yəni təhsilə, səhiyyəyə, mənzil siyasətinə, mədəniyyətə, idmana toxunur.

Dövlət, sosial təminat proqramlarının maliyyələşdirilməsi əsasən dövlət büdcəsinin hesabına həyata keçirilir. Sosial təminat dedikdə, maddi kömək və əhalinin müəyyən hissəsinə xidmət tədbirlər sistemi başa düşülür. İnkişaf etmiş bazar iqtisadiyyatında sosial müdafiə iki bir-birini tamamlayan hissədən ibarətdir.

Pul formasında və maddi formada vəsait birlikdə sosial müdafiə sistemini təşkil edir. Maddi formada vəsait dedikdə isə şəxslərə səhiyyə, işə düzəltmə, qocalara, əlillərə xidmət, ailəyə sosial xidmət və s. kimi xidmətlərin pulsuz göstərilməsi başa düşülür. Sosial təminat dövlət sığorta fondundan, dövlət büdcəsindən maliyyələşdirilir. Bazar iqtisadiyyatı sistemində sosial təminatın maliyyələşdirilməsində dövlət büdcə təminatı, dövlət qeyri-büdcə sosial sığortası, kollektiv sosial sığortası, fərdi sosial sığorta əsas rol oynayır.

Azərbaycan Respublikası Konstitusiyasının 38-ci maddəsinin 4 və 5-ci bəndlərinə əsasən: «4. Təqaüdlərin və sosial müavinətlərin minimum məbləği qanunla müəyyən edilir. 5. Dövlət xeyriyyəçilik fəaliyyətinin, könüllü sosial sığortanın və sosial təminatın başqa növlərinin inkişafı üçün imkanlar yaradır. Azərbaycan Respublikası Konstitusiyasının 38-ci maddəsinin I və III bəndlərində qeyd olunur ki; «1. Hər kəsin sosial təminat hüququ vardır. 2. Hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir».

Dövlətin sosial büdcə təminatlı əhalinin maddi cəhətdən təmin olunmamış hissəsinin minimum həyat səviyyəsini təmin etmək üçün dövlət köməyidir. Sosial müdafiədə maliyyələşmə mənbəyinə görə sosial sığorta və sosial köməyi ayırd edirlər.

Dövlət, qeyri-büdcə sosial sığortası, normal həyat səviyyəsinin yaradılmasına yönəldilir, işə götürənlərin, işçilərin mütləq sığorta ödəmələri və dövlət dotasiyası hesabına təmin edilir.

Kollektiv sosial sığorta zəmanət verilən həyat səviyyəsini təmin edir və işəgötürənlərin, işçilərin mütləq və könüllü ödəmələri hesabına maliyyələşdirilir. Burada subsidialaşdırma prinsipi əsas kimi götürülür.

Fərdi, şəxsi sığorta xoş güzəranı, firavanlığı təmin edir, fərdi könüllü ödəmələr hesabına maliyyələşdirilir. Əsas kimi ekvivalentlik prinsipi götürülür.

Ümumiyyətlə, sosial müdafiə sosial sığortadan daha geniş məfhumdur və onların obyektləri arasında bir sıra ziddiyyətlər durur. Sosial sığorta münasibətlərinin obyekti işləyən insandır, əsasən muzdlu işçidir, sosial müdafiənin obyekti isə ümumilikdə əhalidir və ilk növbədə hələ işləməyən uşaqlar və artıq işləməyənlərdir. Əgər sahibkarın marağı işçi qüvvəsinin təkrar istehsalı ilə məhdudlaşırsa, dövlətin marağını isə bütün əhalinin təkrar istehsal prosesinin genişləndirilməsi təşkil edir. Bunun nəticəsi olaraq hər bir inkişaf mərhələsində, cəmiyyət qarşısında seçilmiş sosial-iqtisadi inkişaf modelinə uyğun olaraq bu maraqların optimal əlaqələndirilməsi problemi dayanır. Son dövrlərdə sosial müdafiə konsepsiyası öz tərkibinə «sosial kömək» (himayədarlıq) anlayışını daxil etməklə, dövlət tərəfindən və yaxud onun nəzarəti altında çətin həyat vəziyyətinə düşən və iş stajından, sığorta ödəmələrinin həcmindən və s. asılı olmayaraq bütün vətəndaşlara verilən minimal sosial zəmanətin zəruriliyini təsdiqləməklə, gələcək inkişaf istiqamətini müəyyənləşdirmiş olur.

Sosial müdafiənin obyekti kimi həyat səviyyəsinin bütün əsas göstəriciləri kimi gəlirlər, təhsil, mədəniyyət, səhiyyə, mənzil, xidmətlər çıxış edir. Bu zaman sosial müdafiəyə mütəxəssis kimi

təhsil alma, əlillərin işə düzəldilməsi, əlillərə güzəşt, çoxuşaqlı analara güzəştlər, qaçqın və köçkünlərə yardım və güzəştlər və s. aid edilir.

Sosial siyasət konsepsiyasının əsas vəzifələrindən biri də yoxsulluq səviyyəsinin getdikcə azaldılmasıdır.

Sosial xidmətlərin funksiyası özü üçün normal həyat şəraitini təmin edə bilməyən maddi cəhətdən zəif əhali kütləsinin sosial müdafiəsinin realizə edilməsinə yönəldilmişdir. Bu vaxt dövlət işsizlikdən müdafiəyə yönəldilmiş tədbirlər həyata keçirir, uşaqlara və əmək qabiliyyəti olmayan insanlara qayğı göstərir. Bunları həyata keçirmək məqsədilə əhalinin sağlamlığının qorunması və möhkəmləndirilməsi üzrə dövlət proqramları yaradılır, maliyyələşdirilir, dövlət, bələdiyyə, özəl səhiyyə sistemlərinin inkişafı üzrə tədbirlər görülür, bədən tərbiyəsi, idman, ekologiya, sanitar-epidemioloji müsbət nailiyyətlərin inkişafına, insan sağlamlığının möhkəmləndirilməsinə yönəldilən bir çox işlər həyata keçirilir. Könüllü sosial sığorta müsbət qarşılanır, sosial təminatın və xeyriyyəçiliyin müxtəlif əlavə formalarının yaradılmasına imkan verir.

Demoqrafik ailə və gənclər siyasəti ilə ənənəvi olaraq sıx bağlı olan dövlət sosial siyasəti uşaqların, uşaqlı ailələrin sosial müdafiəsini yalnız çətin anlarda deyil, həm də sağlam mənalı gəncliyi ilə də təmin etməlidir. Bazar münasibətlərinin inkişafı şəraitində keçid iqtisadiyyatlı ölkələrin sosial müdafiə sistemlərinin transformasiyasının həyata keçdiyi konkret formalara aşağıdakılara aid etmək olar:

1. Ənənəvi sosial müdafiə sisteminin əsasən sığorta sistemi vasitəsilə həyata keçirir. Sosial sığorta hüquqi statusu olan təşkilati-maliyyə mexanizmidir və o, sosial müdafiə götürənin məsuliyyət və qarışıq maliyyə iştirakını nəzərdə tutur.

Bazar iqtisadiyyatlı ölkələrdə sosial sığortanın maliyyə resurslarının formalaşmasında əsas kimi konkret sığorta növləri və sığorta fondları üzrə sığorta ödəmələrinin dəqiq müxtəlifliyi götürülür ki, bu da sığorta müdafiəsinin konkret növünün müəyyən muxtariyyətini təmin etmiş olur.

2. Bazar iqtisadiyyatı strukturu üçün ənənəvi olan sosial müdafiə sistemini yaratmaq;

- pensiya sığortası;
- xəstəlik üzrə sığorta;
- işsizlikdən sığorta;
- tibbi sığorta;
- istehsalda bədbəxt hadisələrdən və peşə xəstəliyindən sığorta;
- ailə müavinəti;
- az təminatlılara müavinət.

Bu zaman sosial sığortanın əsas xətti kimi onun ayrı-ayrı növlərinin muxtariyyətinin sabit tendensiyası müşayət olunur. Belə ki, uzun illər bizdə mövcud olmayan işsizliyə görə sığorta meydana gəlmişdir, tibbi xidmət isə müstəqil sığorta mexanizminin formalaşmasına keçir.

3. Məhz qarışıq iqtisadiyyatda ictimai əhəmiyyət və aktuallıq kəsb edən sosial xidmət növlərinin sürətli inkişafı;

- əmək bazarında məşğulluq idarələri tərəfindən həyata keçirilən aktiv siyasətlə əlaqədar olan xidmətlər;
- ərazi sosial xidmətləri tərəfindən həyata keçirilən əhalinin sosial müdafiəsi üzrə xidmətlər.

Hal-hazırda beynəlxalq aləmdə sosial sığortadan geniş istifadə edən bir neçə sosial müdafiə modelləri fəaliyyət göstərir. Fikrimizcə, istər formalaşmış bazar iqtisadiyyatlı, istərsə də, keçid dövrü yaşayan ölkələrdə sosial müdafiə sahəsində həyata keçirilən və müsbət nəticələr verən tədbirlərin öyrənilməsi, onların bizim respublikanın iqtisadi-sosial vəziyyətinə uyğun olaraq gələcəkdə tətbiqi üçün faydalı hesab edilir.

Dərin sosial islahatları həyata keçirmək üçün cəmiyyətin əksər hissəsinin bu islahatları ədalətli hesab etməsi vacib hesab edilir. Bu baxımdan dövlətin cəmiyyət qarşısındakı öhdəlikləri bazar münasibətlərinə keçidlə əlaqədar müəyyən qədər dəyişir. Əgər əvvəllər, inzibati-amirlik sistemində dövlət ictimai həyatın təşkilatçısı kimi çıxış edirdisə, bazar şəraitində dövlətin rolu – vergi, polis, müdafiə funksiyalarına qədər minimumlaşdırılır. Lakin sosial innovasiyaların müvəffəqiyyətli olması onların

ictimai fikirə uyğunluğundan birbaşa asılıdır. Əks halda əhali bu innovasiyaları qəbul etməyəcək və dövlətin bu sahədə siyasətinin həyata keçirilməsinə açıq və yaxud gizli şəkildə mane olacaq. Belə qarşıdurmaların aradan qaldırılması təbliğat, digər tərəfdən isə səmərəli sosial yenidənqurmalara üstünlük vermək lazım gəlir.

Belə hallarda dövlət ədalətlilik və bərabərlik prinsiplərinə əsasən sosial həyatın humanizasiyası üzrə səmərəli tədbirlər həyata keçirməlidir. İslahatlar illəri ərzində iqtisadiyyatın vəziyyətinə adekvat gəlirlərin tənzimlənməsi mexanizmini, hər şeydən əvvəl, onların dövlət tərəfindən sosial təminat, vergi və qiymətqoyma vasitəsilə tənzim edilməsi mexanizmini yaratmaq lazımdır.

Burada ən vacib yollardan biri əhalinin sosial müdafiəsi sahəsində olan problemləri həll etməkdir. Əhalinin sosial müdafiəsini gücləndirmək və əmək haqqını qaldırmaq üçün ölkədə əməyin ödənilməsinə dair aparılan islahatlar dövlətin iqtisadi siyasətində əsas yer tutur və bu sahədə müntəzəm olaraq məqsədyönlü iş aparılır. Son illər dövlət tədbirlərinin həyata keçirilməsi nəticəsində işçilərin orta aylıq əmək haqqı 12 dəfədən çox artaraq 149,0 manat təşkil etmiş və 2005-ci illə müqayisədə isə 20,6% artmışdır.

2007-ci ilin əvvəllərinə ölkədə 1226,8 min nəfər pensiyaçı olmuş və onların sayının azalması «Əmək pensiyaları haqqında» və «sosial müavinətlər haqqında» qanunlara uyğun olaraq, sosial pensiyaların sosial müavinətlərlə əvəz edilməsi ilə əlaqədardır.

Aydındır ki, sosial siyasət nəinki sosial iqtisadi proseslərdən ayrılmamalı, həmçinin bu proseslərə fəal təsir göstərməyə borcludur. Bunun üçün isə tədricən sosial sahə üçün resursların stabilləşdirliməsi və ondan istifadə edilməsində iqtisadi metodlara keçilməsinə üstünlük vermək lazımdır. Beləliklə işləyənlərin əməyi ilə işləməyənlərin rifahı üçün şərait yaradılır.

Burada da minimum əmək haqqı vacib məsələlərdən biri sayılır. Minimum əmək haqqının iqtisadi məzmunu onun sosial zəmanətliliyindən ibarətdir, onun aşağı səviyyəsi isə işçi

qüvvəsinin qiymətdən düşməsinə gətirib çıxarır. Minimum əmək haqqındakı vəziyyətin köklü dəyişikliyə eztiyacı vardır, təcili tədbirlər görmək lazımdır ki, yaxın 1,5-2 ildə minimum əmək haqqının səviyyəsi indiki 60 manatdan da çox olmuş olsun.

İqtsadi islahatın gedişində və hər şeydən əvvəl, mülkiyyət formasının dəyişməsində sosial-əmək münasibətlərinin xarakteri və cəmiyyətin strukturu kökundən dəyişdi. Kütləvi özəlləşmə nəticəsində respublikada artıq kiçik müəssisələrin özəlləşdirilməsi başa çatıb, sosial-əmək müəssisələrinin iki prinsipial vacib yeni subyekti; hər birinin özünəməxsus marağı olan işverən sahibkarlar və muzdlu işçilər təbəqəsi formalaşıb. Ən başlıcası onu nəzərə almaq lazımdır ki, özəlləşdirmə – mülkiyyət formasının dəyişdirilməsinə yönələn siyasi-hüquqi aktdır və beləliklə, o, yalnız zəmin yaradır.

İslahatın gedişində əhalinin sosial təbəqələşməsi daha da dərinləşmiş oldu. Araşdırmalar göstərir ki, respublikada gəlirlərin çox hissəsi ərzaq məhsullarına sərf edilsə də, əhalinin ərzaq məhsulları istehlakı normal fizioloji qidalanmanı təmin etmir.

Cədvəl 4

Ərzaq məhsullarının istehlakı göstəriciləri

	Fizioloji norma(kq)	İstehlak (kq)	Müqayisə (%)
Çörək və çörək məmulatları	126	158,7	+26
Kartof	50	38,9	-22
Tərəvəz	106	87,2	-18
Meyvə	54,4	57,6	+6
Ət və ət məhsulları	38	16,3	-57
Balıq	12	1,9	-84
Süd və süd məhsulları	312	189,7	-39
Yumurta	211	107	-49
Şəkər	22	19,8	-10
Bitki yağı və marqarin	5,5	4,8	+13
Kərə yağı	9	6,4	-29

Cədvəldən göründüyü kimi, faktiki istehlak, fizoloji normalardan aşağı səviyyədə qalır.

Məhz buna görə də yaxın gələcəkdə respublikamızın əhalisini ərzaq məhsulları ilə təmin etmək üçün çox düşünülmüş və dəfələrlə ölçüb biçilmiş elmi əsaslara söykənən demoqrafik siyasət tədbirləri işlənib hazırlanmalı və dövlət səviyyəsində həyata keçirilməlidir. Bu, işin bir tərəfidir. Onun digər tərəfi demoqrafik proseslərə məqsədyönlü təsir göstərməkdir. Çünki ölkədə əhalinin sayı, onun artım sürəti, yaş-cins strukturu, miqrasiyası, peşə-ixtisas tərkibi, məşğulluq səviyyəsi, coğrafi cəhətdən yerləşməsi vəziyyətində baş verəcək dəyişiklikləri nəzərə almadan gələcəyin sosial-iqtisadi inkişaf istiqamətlərini işləyib hazırlamaq olmaz. Bu baxımdan bütünlükdə cəmiyyətin, ayrılıqda götürüldükdə hər bir ölkənin və regionun gələcək inkişaf konsepsiyasını demoqrafik inkişaf konsepsiyasız təsəvvür etmək qeyri-mümkündür.

Başlıca məqsəd isə demoqrafik proseslərə təsir göstərən ən mühüm amilləri nəzərə alaraq, yaxın gələcəkdə ölkəmizin sosial iqtisadi və demoqrafik inkişaf səviyyəsi və burada yaşayan əhalinin milli tərkibi, adət-ənənələri və məşğulluq xüsusiyyətləri nəzərə alınmaqla elə tədbirlər işləyib həyata keçirməkdir ki, bu, əhalinin özünün geniş təkrar istehsalı prosesinin ahəngdar gedişini təmin edən optimal doğum səviyyəsinin formalaşmasına və ölüm səviyyəsinin azalmasına imkan versin. Bunun üçün əvvəla, əhalinin doğum səviyyəsinin azalmasının sürətləndirilməsinin qarşısını almaq və onun sabitliyini təin etmək məqsədilə uşaqlı ailələrin dövlət səviyyəsində müdafiəsi təmin edilməli və doğum problemi ilə bağlı strateji tədbirlər sistemi həyat tərzinin elə tərəflərinin inkişafına yönəldilməlidir ki, o uşaqlı ailələrin butun yaşayış dövrlərində hərtərəfli inkişafına müsbət təsir göstərə bilsin; ikincisi, respublikada həyata keçirilən demoqrafik siyasəti vahid strateji istiqamətə malik olmalı, onun sosial iqtisadi inkişafını, əhalinin təkrar istehsalı və milli xüsusiyyətlərini özündə əks etdirməlidir; üçüncüsü, əhalinin normal təkrar istehsalı prosesinin həyata keçirilməsini təmin etmək məqsədilə

respublikada mövcud olan və yeni yaradılan ailələrin ən azı 75-80%-də 2-3, o cümlədən bütün ailələrin 40-45%-də 2 nəfər, 30-40%-də isə 3nəfər uşaq doğulub tərbiyə edilməsi üçün şərait yaradılmalı; 3-4 uşaqlı ailələrin ideal ailə kimi qiymətləndirilməsi və stimullaşdırılması məqsədilə onların sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün müxtəlif ödənclər və güzəştlər müəyyənləşdirilməli; çoxuşaqlı ailələrə maddi yardımı gücləndirmək məqsədilə xüsusi dövlət fondu yaradılmalı və buraya ayrı-ayrı dövlət və xüsusi müəssisələrdən, imkanlı ailələrin könüllü yardımından geniş istifadə edilməklə vəsait cəlb edilməsi təşkil edilməli; dördüncüsü, gənclərin arasında nikahın artırılması üçün gənc ailələrə maddi yardımın və müxtəlif güzəştlərin müəyyən edilməsi onların mənzillə təmin edilməsi və mənzil şəraitinin yaxşılaşdırılması dövlət səviyyəsində həll edilməli; xüsusilə, uşaqlar, körpələr və əmək qabiliyyətli yaşında əhali arasında ölüm səviyyəsinin azaldılması və onların mühafizəsinə diqqəti artırmaq üçün səhiyyə sistemi təkmilləşdirilməli, onun maddi-texniki bazası möhkəmləndirilməli, həkim kadrların, o cümlədən uşaq həkimlərinin hazırlanması və onların ixtisaslarının artırılmasına xüsusi qayğı göstərilməli və bu iş ciddi dövlət nəzarətinə götürülməli; demoqrafik siyasət tədbirləri ilə sıx surətdə bağlı olan əhali miqrasiyası məsələləri dövlətin ciddi nəzarəti altına alınmalı və bunun üçün respublikada qanunvericilik yolu ilə xüsusi qayda yaradılmalı, miqrasiyanın kortəbii baş verməsinin qarşısı alınmalı.

Bu gün respublikamızda əhalinin sosial müdafiəsi ilə əlaqədar tədbirləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir. Onun əsasnaməsi 11 yanvar 1999-cu ildə 72 saylı Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmişdir. Əsasnamədə əhalinin sosial müdafiəsi sahəsində Nazirliyin aşağıdakı tədbirlərin görməsi nəzərdə tutulur:

- aztəminatlı ailələrə və vətəndaşlara dövlət yardımı göstərilməsi üzrə tədbirlər sistemini hazırlayıb və həyata keçirilməsində iştirak edir;

- müəyyən olunmuş qaydada ünvanlı sosial köməkliyin meyarlarını müəyyən edir, onun həyata keçirlməsi mexanizmini hazırlayır;

- əhalinin həyat səviyyəsinin müvafiq icra hakimiyyəti orqanlarının iştirakı ilə öyrənir, təhlil edir və qiymətləndirir;

- Əlillərin Sosial Müdafiə Fonduna və Dövlət Əhalinin Məşğulluğuna Kömək Fonduna vəsaitlərin toplanmasını təşkil edir və təyinatı üzrə istifadəsinə nəzarət edir;

- Zərərli əmək şəraitli müəssisələrdə, ağır və əlvrişsiz təbii-iqlim şəraitli yüksək dağlıq rayonlarda çalışan işçilərin sosial müdafiəsi sahəsində qanunvericilik aktlarının təkmilləşdirilməsi ilə təkliflər hazırlayıb müvafiq orqanlara təqdim edir;

- Əhalinin sosial müdafiəsi məsələləri üzrə dövlət və sahə normativ aktlarının hazırlanmasını və tətbiqini əlaqələndirir;

- Protez vasitələri hazırlama fəaliyyət növü ilə məşğul olanlara xüsusi razılıq «lisenziya» verir;

- Əlillərin sosial, peşə və əmək reabilitasiyası sahəsində xüsusi proqramlar hazırlayır və həyata keçirir;

- Ölkə ərazisində tibbi sosial ekspertiza xidmətini həyata keçirir, əlillərin xüsusi hərəkət vasitələri ilə təmin olunması ilə, protezləşdirmə üzrə kompleks tədbirlər həyata keçirir;

- Pensiya və dövlət müavinətlərinin qanunvericiliyə uyğun olaraq təyin edilməsi və ödənilməsi, əhalinin ayrı-ayrı kateqoriyalarına tibbi, sosial xidmət, sanatoriya-kurort müalicəsi, əlillərin nəqliyyat vasitələri ilə təmin olunması üzrə kompleks işləri müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə həyata keçirilir.

Bundan əlavə 02 iyul 2001-ci il tarixli «Məşğulluq haqqında» Azərbaycan Respublikasının Qanunun 9-cu maddəsində sosial müdafiəyə xüsusi ehtiyacı olan vətəndaşların məşğulluğu üçün dövlət əlavə təminatlar verir. Bunlar aşağıdakılardır:

- dövlət əlavə iş yerləri və ixtisaslaşdırılmış müəssisələr, təşkilatlar(o cümlədən əlillərin əməyi üçün müəssisə və təşkilatlar) yaratmaq yolu ilə, xüsusi proqramlar üzrə təlim təşkil etməklə və başqa tədbirlər görməklə, sosial müdafiəyə xüsusi

ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların kateqoriyalarına(20 yaşadək gənclərə, yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlərə, əlil uşaqları tərbiyə edən qadınlara, əlillərə, cəzaçəkmə yerlərindən azad edilmiş vətəndaşlara, məcbur köçkünlərə, müharibə veteranlarına, şəhid ailələrinə) əlavə təminatlar verir.

- Müvafiq icra hakimiyyəti orqanları müəyyən olunmuş qaydada müəssisə, idarə və təşkilatlarda bu Qanunun 9.1 –ci maddəsində göstərilən vətəndaşlar üçün kvotanı müəyyən edirlər.

- Kvotanın miqdarı ərazi əmək bazarındakı vəziyyətdən asılı olaraq, müəssisələrindəki işçilərin orta siyahı sayının 5%-dən çox olmamaq şərti ilə təyin edilir;

- Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi qaydası və kvota şamil edilməyən müəssisələrin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Qeyd edək ki, əhalinin dövlət tərəfindən sosial müdafiə edilməsinin tənzimlənməsi əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında əsaslı dəyiştkliklərə gətirib çıxararaq ölkəni sosial cəhətdən inkişaf etmiş dövlətlər sırasına daxil edə bilər. Odur ki, hökumət qarşısında əhalinin yaşayış səviyyəsini sabitləşdirmək, yoxsulluğun səviyyəsini azaltmaq, əmək haqqı, pensiya və təqaüdlərin vaxtında ödənilməsini təmin etmək və onların yüksəldilməsinə nail olmaq, işsizliyin artmasının qarşısını almaq və digər təxirəsalınmaz məsələləri həll etmək zərurəti durur. Məlum olduğu kimi ölkə prezidentinin xüsusi fərmanı ilə əhalinin minimum əmək haqqı 2008-ci ilin 1 yanvarından 60 manat, minimum pensiya təminatı isə 70 manata çatmışdır.

Əhalinin həyat səviyyəsi onun həyat tərzi ilə sıx bağlıdır. Həyat səviyyəsi həyat tərzini frmalaşdıran şərtlərdən biridir. Həyat və yaşayış səviyyəsini öyrənməklə, istənilən ölkənin sosial inkişafı haqqında fikir söyləmək olar. Firavan həyat iqtisadi, coğrafi, mənəvi və milli amillərin təsirindən asılı olaraq formalaşır. Odur ki, müxtəlif ölkələrdə insanların həyat səviyyəsinə müsbət

təsir edən amillər fərqli olduğundan onların həyat tərzləri, yaşayış dəyərləri, həyata baxışı xeyli fərqli olur. Yeni iqtisadi münasibətlərə keçid cəmiyyətimizi daha bir problemlə – yoxsulluqla üzləşdirdi. Bu gün əhalinin yoxsulluğunu aşağıdakı səbəblərdə axtarmaq lazımdır:

- Sosial - iqtsiadi tənəzzülün qarşısının alınması;
- məşğulluğun təmin edilməsi;
- qaçqın və məcburi köçkünlərin məskunlaşması;
- əmək haqqı səviyyələrinin aşağı olması və s.

Araşdırmalar göstərir ki, bazar iqtisadiyyatına keçid dövründə az təminatlı əhali qruplarının həyat səviyyəsinin daha da aşağı düşməsi, yoxsullar ordusunun artması və sosial gərginliyin güclənməsi ilə nəticələnmişdir. Məhz buna görə də əsasən 1995 –ci ildən başlayaraq, indiyədək az təminatlı əhali qruplarının həyat səviyyəsinin dövlət tərəfindən tənzimlənməsi tədbirləri ilə müşaiyət olunur. Belə ki, bu dövrdən başlayaraq az təminatla əhalinin sosial müdafiəsi sahəsində və təminatı ilə əlaqədar bir sıra normativ-hüquqi aktlar qəbul olunmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 16 sentyabr tarixli 109-saylı qərarı ilə «Azərbaycan Respublikası əlilləri sosial müdafiə fondunun əsasnaməsi» təsdiq edilmişdir. Bu fond Azərbaycan Respublikasının «Əlilliyin qarşısının alınması, əlillərin reablitasıyası və sosial müdafiəsi haqqında» Qanununa müvafiq olaraq fəaliyyət göstərir və əlillərin sosial müdafiəsi işlərinin (pensiya təminatı istisna olmaqla) maliyyələşdirilməsini həyata keçirir.

Ümumiyyətlə, əhalinin sosial müdafiəsinin təşkili üçün Dövlət Sosial Müdafiə Fondu yaradılmışdır və 1999-cu il 27 oktyabr tarixli «Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondunun 2000-ci il büdcəsi haqqında» Azərbaycan respublikasının Qanununa əsasən fondun gəlir və xərcləri 1340000 milyon manat olmuşdur.

1999-cu il 4 iyun tarixli 676- İQD saylı «Əlilliyin qarşısının alınması, əlillərin reablitasiyası və sosial müdafiəsi haqqında» və «Veteranlar haqqında» «Azərbaycan Respublikası Qanunlarına

dəyişikliklər edilməsi və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununa əsasən onlar üçün yeni güzəştlər tətbiq edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 14 may tarixli 155 saylı sərəncamı ilə «Əlilliyin qarşısının alınması, əlillərin reablitasiyası üzrə 1999-2002-ci illər üçün dövlət proqramı» təsdiq edilmişdir.

21 may 1999-cu il tarixli 668 –saylı «Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında», 21 may 1999-cu il tarixli 669– saylı «Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanunları qəbul olunmuşdur. Bu Qanuna uyğun olaraq məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərə aşağıdakı sosial müdafiə tədbirləri tətbiq edilir (maddə 4):

- müvəqqəti yaşayış sahəsi ilə təmin ediməsi;
- məşğulluğun təmin edilməsi;
- sosial təminat;
- tibbi təminat;
- təhsil hüququnun təmin edilməsi;
- nəqliyyat və mənzil-kommunal güzəştləri;
- vergi güzəştləri.

Məcburi köçkünlərin birdəfəlik və mütəmadi pul yatırımları, ərzaq və sənaye məhsulları ilə təmin edilməmələri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir (maddə 9).

Qeyd edək ki, 19 avqust 1998-ci il tarixli 752 saylı Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə «Qaçqınların və məcburi köçkünlərin statusu haqqında» Qanununa dəyişiklər də edilmişdir.

Bu gün Azərbaycanda bir milyondan çox təqaüdçü var. Qeyd edək ki, ən geniş tətbiq edilən pensiya sistemi sosial sığorta prinsipinə əsaslanan üç pilləli sistemdir. Bu sistemin üç amili:

- cari gəlirdən ödənilən dövlət pensiayalarını;
- əlavə pensiya proqramları hesabına maliyyələşdirilən fond pensiyalarını;

- özəl fond pensiyalarını;

özündə birləşdirir.

Bu gün Azərbaycanda «Vətəndaşların pensiya təminatı haqqında» Azərbaycan Respublikası Qanununa (1992-ci il 22 saylı) 13 iyun 1997-ci il tarixli 321 İQD saylı Qanunla dəyişikliklər edilmişdir. 23 iyun 1998-ci il tarixli 159 saylı Nazirlər Kabinetinin qərarı ilə «Pensiya hesablanması üçün Respublika üzrə orta aylıq əməkhaqqının təsdiq olunması barədə» sənəd imzalanmış və eyni qərarla əmək haqqı barədə sənəd təqdim edə bilməyən qaçqın və məcburi köçkünlərin pensiya hesablanması üçün işləmiş olduqları iqtisadiyyatın sahələri üzrə 1997-ci ilin yekunlarına görə orta aylıq əmək haqqı məbləğləri təsdiq edilmişdir. Daha sonralar 24 dekabr 1999-cu ildə 296 saylı «İşləməyən pensiyaçıların sosial müdafisinin gücləndirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin sərəqcamı verilmişdir.

Hal-hazırda Azərbaycanda çox uşağı olanlara, uşağın anadan olması və tərbiyəsi ilə əlaqədar verilən dövlət müavinətlərinin, kompensasiya və güzəştlərinin vahid sistemi vardır. Uşağı olan vətəndaşların sosial müdafiəsi ailəyə zəmanətli maddi köməkliyi təmin edən dövlət müavinətləri sistemidir.

Bu gün faydalı sosial müdafiə üzrə dövlət proqramları işlənib hazırlanmışdır. Bu proqramların həyata keçirilməsi üçün külli miqdarda, lakin sosial problemlərin həlli üçün tam çatışmayan vəsaitlər xərclənir. Əhalinin sosial təminatında səmərəli məşğulluğun təmin edilməsi ən mühüm vasitələrdən hesab olunur. Azərabycan Respublikası Prezidentinin 2005-ci il 26 oktyabr tarixli 1068 nömrəli sərəncamı ilə «Azərbaycan Respublikasının məşğulluq strategiyası» (2006-2015-ci illər) təsdiq etmişdir. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının məşğulluq strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqrammı (2007-2010-cu illər) işlənilib hazırlanmışdır.

Dövlət proqramı məşğulluq sahəsində beynəlxalq hüquq normalarına, o cümlədən Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilmiş müvafiq konvensiyalara uyğun olaraq Milli

qanunvericilik bazasının təkmilləşdirilməsi, məşğulluq siyasətinin həyata keçirilməsi üzrə iqtisadi mümkün inkişafına, regional əmək bazarının inkişafına, yeni iş yerlərinin açılmasına, əhalinin səmərəli məşğulluğunun təmin edilməsinə, əmək bazarında işçi qüvvəsinin keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsinə, iş axtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə yönəldilmiş tədbirləri müəyyən edilməklə ardıcıl olaraq həyata keçirilməkdədir.

MÖVZU 14. TƏBİƏTDƏN İSTİFADƏ VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

Plan:

1. Dövlətin ekoloji siyasəti, onun mahiyyəti və vəzifələri.
2. Təbiətdən istifadə və mülkiyyət münasibətlərinin hüquqi tənzimlənməsi
3. Ətraf mühitin mühafizəsinin hüquqi tənzimlənməsi.
4. Dövlət ekoloji ekspertizası, onun həyata keçirilməsinin hüquqi əsasları. Ətraf mühitin mühafizəsinə nəzarət.

Məlum olduğu kimi, ölkə prezidenti İlham Əliyev cənabları ətraf mühitin mühafizəsi sahəsində yeritdiyi siyasət ekoloji problemlərin həllində xüsusi rola və əhəmiyyətə malikdir. Belə ki, o bu istiqamətdə düzgün olaraq ölkədə ekoloji problemlərin həllinə investisiya qoyuluşlarının getdikcə artırılmasına nail olmuşdur. Belə ki, ətraf mühitin mühafizəsinə və təbii resurslardan səmərəli istifadəyə yönədilmiş investisiyaların məbləği 2003-cü ilə nisbətən 2006-cı ildə 2 dəfə artırılaraq 8879,4 min manata çatdırılmışdır.

Ölkə prezidenti qeyd etmişdir ki, ekoloji məsələlərə diqqət, münasibət, eyni zamanda ölkənin ümumi siyasətinin, ümumimədəniyyətinin təzahürüdür. Neft-qaz tükənən sərvətlərdir. Onların müvəqqəti önəmi var. Ancaq təbiət, ətraf mühit – bu daimi sərvətdir. Belə ki, ekoloji problemlər bir sahə yox, bütünlükdə cəmiyyətin fəaliyyəti ilə şərtlənmiş olur. Beləliklə, dövlətin ekoloji siyasətinə ətraf mühitin qorunması və təbii resurslardan səmərəli istifadə olunmasının tənzimlənməsi tədbirlərinə aşağıdakıları aid etmək olar:

- yerüstü və yeraltı təbii sərvətlərdən səmərəli istifadə edilməsi;
- günəş və külək enerjisindən istifadə edilməsi;
- təbii təhlükə hadisələrindən mühafizə olunması;

- geometrik resurslardan istifadə olunması;
- nüvə enerjisindən dinc məqsədlər üçün istifadə olunması.

Təbiətdən istifadə Milli iqtisadiyyatın mühüm tərkib hissəsi olmaqla, son dərəcə mürəkkəb iqtisadi-təşkilatı idarə etmə strukturuna malikdir. Odur ki, ona aşağıdakı səviyyələrdə münasibət bəslənirlir. – makrosəviyyədə, regional səviyyədə və mikrosəviyyələrdə. Makrosəviyyədə təbii resursların aşkarlanması, çıxarılması, onların təkrar istehsalının həyata keçirilməsi, təbii resursların uçotu və ətraf mühitin mühafizəsinin təşkil edilməsi fəaliyyətlərini əhatə edən xüsusi orqanlar sistemidir.

Regional səviyyə, regionda fəaliyyət göstərən infrastruktur sahələri əhatə edir. məsələn, tullantıların toplanması, emal edilməsi, su axınları sistemi, təmizləyici komplekslər, regional ekoloji monitorinq sistemi, ərazinin qorunması və müdafiə edilməsi.

Mikrosəviyyədə – təbiətdən istifadəyə xidmət edən sahələr nəzərdə tutulur. Məsələn, ekoloji xidmət bölməsi, şöbələri, sexləri. Ümumilikdə, onların əsas vəzifəsi istehsalda texnogen vəziyyətin yaranmasına nəzarət etməkdir. Lakin ölkə ərazisinin 20%-nin erməni işğalçıları tərəfindən zəbt edilməsi nəticəsində regionun ekoloji-iqtisadi problemlərinin həlli daha da mürəkkəbləşmişdir.

Bütün dünyada cəmiyyətlə təbiətin qarşıhqlı əlaqəsindəki ziddiyyətlərin mövcud olması, təbii resurslara mülkiyyət hüququnun qeyri-müəyyənliyindən irəli gəlir. Ancaq və ancaq dəqiq mülkiyyət hüququnun olması təbiət dəyən zərərin əvəzinin ödənilməsinə və iqtisadi mexanizmlərin ekoloji sferaya yayılması imkanlarmı genişləndirə bilər. Buna görə də ekoloji-iqtisadi problemlərlə məşğul olan bütün tədqiqatçıların diqqət mərkəzində təbii resurslara mülkiyyət hüququnun müəyyənləşdirilməsi durur.

İlk növbədə nəzərə almaq vacibdir ki, təbii resurslara mülkiyyət hüququ müəyyən edilməlidir. Təbii resurslar dövlətə və xalqa məxsus olduğu üçün mülkiyyət hüququ hamıya şamil edilir. Yəni, təbi resurslardan hamı istifadə edə bilər, buna görə də

ondan kimin necə istifadə etməsinə nəzarət etmək olmur və ya nəzarət etmək mürəkkəbdir. Buna görə də onlar xüsusiləşdirilə və alqı-satqı obyektinə çevrilə bilməzlər (hava hövzəsi, çaylar, iri ekoloji sistemlər, landşaft, səs və elektromaqnit spektirləri).

Deməli, təbii resurslara mülkiyyət münasibətlərində başlıca vəzifə mülkiyyət subyektinin kimin olmasının müəyyən edilməsidir.

Azərbaycan Respublikasının mülkiyyət haqqında qanununda göstərilir ki, respublika ərazisi hüdudlarında torpaq (xüsusi mülkiyyətə verilməmiş sahələr) yerin təki, daxili sular və ərazi suları, qitə şelfi, xüsusi mülkiyyətdə olmayan bitkilər və heyvanlar aləmi, hava hövzəsi Azərbaycan Respublikası dövlətinin müstəsna mülkiyyətidir: habelə respublika öz ərazisinə bitişik Xəzər dənizi iqtisadi zonasının ehtiyatlarına beynəlxalq hüquqla təsdiq edilmiş həddlərdə sahiblik, onlardan istifadə və onlar barəsində sərəncam vermə hüququna malikdir.

Göründüyü kimi torpaq dövlətin mülkiyyəti olmaqla yanaşı, xüsusi mülkiyyətədə verilə bilər. Bir trəfdən o, dövlətin müstəsna hüquqi obyektidir, alqı-satqıya məruz qala bilməz, digər tərəfdən xüsusi mülkiyyətə verilə bilər. Bu halın özü ziddiyyətlidir. Çünki belə halda ondan istifadə üzərində nəzarət çətinləşir. Buna görə də ilk əvvəl təbii resursların hansı obyektlərinin, hansı sərhədlərdə və mülkiyyətin hansı formasında hansı subyektə verilməsi müəyyən edilməlidir.

Təbii resursların, ətraf mühitin elementlərinin mülkiyyətə verilməsi sərhədlərinin müəyyən edilməsində əsas prinsip kimi ekoloji sistemi bütövlüyünün-vahidliyinin qorunması nəzərə almır. Bu zaman elə obyektlərin bütövlüyü nəzərdə tutulur ki, onlarda tarazlılıq-nizamlılıq təmin oluna bilsin. Məsələn, hava hövzəsindən istifadə olunması. Bu zaman dövlət təyyarələrinin uçuşu ilə yanaşı xüsusi reyslər də fəaliyyət göstərirlər.Bu isə təbii sistemin iştirakçıları ilə onu idarə edənlər arasında mübahisələrə səbəb ola bilir. Buna görə də təbii sistem qorunub saxlanmasını və təkrar istehsalını həyata keçirməyi bacaran mülkiyyətçinin olmasını tələb edir. Mülkiyyət münasibətlərinin belə tənzimlənməsi məqsədilə müxtəlif təyinatlı qanunlar fəaliyyət

göstərməlidir. (hava hövzəsindən istifadə olunması haqqında qanun, su resurslarından istifadə qanunu və s.).

Mülkiyyət obyektini müəyyən edilərkən, ekosistemin tamlığı-vahidliyi prinsipindən əlavə resursların məhdudluğu prinsipi də nəzərə almalıdır. Əgər ətraf mühitin resursları boldursa, (limitləşdirilməmişdirsə) o zaman mülkiyyət hüququnun müəyyən edilməsi mübahisə'doğurmur. Lakin qlobal xarakterli təbii mühit ona neqativ təsir göstərilməsi nəticəsində tükənməyə meyllidir. Məsələn, balıq ehtiyatlarının azaldılması.

Təbii obektlərə mülkiyyət subyekti təsis edilərkən ekoloji-iqtisadi ictimailəşmə dinamikası ilə əlaqədar proses də nəzərə alınmalıdır. Ekoloji-iqtisadi ictimailəşmə, istehsalın ictimai xarakter daşıması ilə əlaqədar olub, təbiətlə cəmiyyət arasında enerji və informasiyaların mübadiləsi formasında çıxış edir. Bu özünü təbii-istehsal kompleksləri, sahələrarası sənaye qovşaqları, ərazi-istehsal birlikləri tullantısız istehsal müəssələri və s. formalarda büruzə verir. Ekoloji-iqtisadi ictimailəşmə ekoloji-iqtisadi sistemin vahidliyi prinsipi əsasında müəyyən edilir.

Ekoloji iqtisadi ictimailəşmə təbii resurslardan istifadənin ərazi təşkili prinsipini ifadə edir. Çünki, ətraf mühitin təmizliyi, bölünməz olmaqla kollektiv tələbatı ödəyən nemətdir. Bu onun təbii ictimai xarakterin təbii olması ilə əlaqədardır.

Torpaq və təbii resurslardan istifadə üçün böyük səlahiyyətlərə və sərəncam verici hüquqa malik olan subyektlərin təsbit edilməsi zamanı yuxarıda qeyd olunan prinsiplərdən əlavə təbii sərvətin ictimai dəyərliliyi (qiymətililiyi) də nəzərə alınmalıdır.

Təbii resurslara mülkiyyət formalarına vəsaitlərin kapital tutumu və dövriyyə sürəti də təsir göstərə bilər. Həmçinin təbiətdən istifadəyə mülkiyyət münasibətlərinin formalaşmasında xalqın, millətin qədim adət və ənənəsinin nəzərə alınması vacibdir. Mülkiyyət hüququ, müxtəlif formalarda özünü büruzə verir: - sahib olmaq, istifadə etmək, sərəncam vermək. Bunlar da öz növbəsində mülkiyyət subyektlərinin müxtəlifliyi ilə əlaqədardır. Onlar əsasən mülkiyyətin 3 funksiyasına əsaslanırlar.

l. Sərvətin məxsusluğunun müəyyən edilməsi və qeydə alınması.

2. İstehsal vasitələrindən istifadəyə daima maraq göstərmək mənbəyi kimi çıxış etmək.

3. Mülkiyyətdən effektli isttifadə və onun taleyi haqqında məsuliyyət daşımaq.

Birinci funksiya sərvətin xalqa məxsusluğunu, onun mülkiyyəti olduğunu ifadə edir. Mülkiyyətin qalan iki funksiyası isə aktiv, vadaredici xarakterə malik olub mülkiyyət subyektlərinin şəxsləndirilməsini tələb edir.

Təbii obyektlərdə mülkiyyət funksiyasına baxılarkən mühüm məsələlərdən biri də ona sistem kimi; - sosial (birinci funksiya), təsərrüfatçılıq (ikinci və üçüncü funksiyalar) baxılması ola bilər.

Sosial subyekt kimi, cəmiyyət, xalq, qəbilə, kollektiv, şəxsiyyət nəzərdə tutulur. Təsərrüfatçı subyekt kimi dövlət, respublika, (ölkə, vilayət) bələdiyyə, təşkilat müəssisə nəzərdə tutulur.

Eyni zamanda sosial subyektlər təsərrüfat subyektlərinin funksiyasını yerinə yetirə bilər. Lakin onların maraqlarının tam uyğun gəlməsində fərqlər vardır.

Təbii sərvətlərə inhisarçı buraxılmamalıdır. Çünki mülkiyyətin məzmunu və təbii resurslardan istifadə xalqın yaşayış fəaliyyətinin əsasıdır. Mülkiyyətə sahib olan şəxs «nə istəyirəm onu da edirəm» prinsipindən çıxış etməməlidir. Təbii resursların hər bir mülkiyyətçisi öz marağı ilə yanaşı dövlətin, xalqın millətin marağını da güdməlidir. Onlar hər biri təbii resurslardan istifadə etməklə bahəm, onların təkrar istehsalına diqqət yetirməli, təbiətə zərərverici hərəkətlərdən çəkinməlidirlər.

Ümumiyyətlə, təbiətdən istifadə və ona mülkiyyət hüquqi mürəkkəb struktura malikdir və onu ətraflı, dərindən öyrənilməsinə xüsusi ehtiyac vardır.

Ətraf mühitin mühafizəsi probleminin bu gün birinci dərəcəli siyasi, sosial – iqtisadi vəzifələr sırasına keçirilməsi təsadüfi deyildir. Belə ki, müasir dövrdə güclü sənaye potensialının yaranması, elmi-texniki tərəqqinin inkişafı, ətraf mühitin ekoloji problemlərinin meydana çıxması ilə xarakterizə olunur.

Problemin ciddiliyini nəzərə alaraq ətraf mühitin mühafizəsinin həlli başlıca olaraq hüquqi qanunlar əsasında aparılır.Müasir qanunvericilikdə ətraf mühitin mühafizəsinə cəmiyyətin sosial-iqtisadi inkişafı ilə əlaqəli şəkildə baxılır.

Ətraf mühitin mühafizəsinin hüquqi prinsipləri həm ilk dekretlərdə və keçmiş Sovet Dövlətinin qəbul edilmiş sənədlərində öz əksini tapmışdır. Belə ki, 1929-cu ildə Moskvada ətraf mühitin qorunmasma həsr olunmuş birinci Ümumrüsiya qurultayı, 1935-ci ildə isə birinci Ümumittifaq qurultayı keçirildi. Bu qurultaylar təbii ehtiyatların qorunması və onun ehtiyatlarından səmərəli istifadə məsələlərini müzakirə etmişdir. Sonrakı illərdə nəzərdə tutulmuş bir sıra tədbirlər həyata keçirilməyə başlandı, qoruqlar təşkil edildi, suvarma qurğuları tikildi, meşələrin müdafiəsi istiqamətində tədbirlər həyata keçirildi.

Belə ki, SSRİ-nin movcud olduğu dövrdə ətraf mühitin qorunması haqqında birinci qanun 27 oktyabr 1960-cı ildə verilmişdir. Müvafıq qanunlar müttəfıq respublikalarda da verilmişdir. Bu qanunlara əsasən ətraf mühitin qorunması olan obyektlərin sırasında Yerin təki, su, meşə, əkin sahələri, çəmənliklər, istirahət yerləri, şəhərətrafı yaşıllıq zonaları, heyvanlar aləmi, atmosfer daxil edilirdi. Ətraf mühitin qorunması haqqında qanun müəssisə rəhbərlərini, eləcə də ayrı-ayrı vətəndaşları təbii ehtiyatlardan düzgün istifadə etmədikləri halda ciddi məsuliyyətə cəlb etməyi də nəzərdə tuturdu.

Lakin bu sənədlərin qəbul edilməsinə baxmayaraq SSRİ-də ekoloji qanunuvericilik, demək olar ki, yox dərəcəsində idi. Qəbul olunmuş qərarlar deklarativ xarakter daşıyırdı.

Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Müstəqillik haqqında Konstitusiya aktı ilə əlaqədar, bütün qanunvericiliyi aktlarına yenidən baxmaq zərurəti yaranmışdı.

Azərbaycan Respublikasının Ali Sovetinin 25.02.1992-ci ildə «Təbiətin mühafizəsi və təbiətdən istifadə haqqında» qəbul etdiyi qərar 1999-cü ildə yenidən redaktə edilərək 8.06.1999-cu il «Ətraf mühitin mühafizəsi haqqında» qanun formasında

Respublika Prezidenti tərəfindən təsdiq olunmuşdur. Həmin qanun XIV fəsildən, 82 maddədən ibarətdir.

Qanunun ayrı-ayrı bölmələri və maddələri Azərbaycan Respublikasında ətraf mühitin mühafızəsinin hüquqi normativləri və aktları kimi qəbul edilmiş və tətbiq edilməkdədir.

Həmin qanunda ilk əvvəl ekologiya anlayışı və ekoloji mühitin əhatə etdiyi sahələr öz əksini tapmışdır. Qanunun ikinci fəsli ətraf mühitin mühafizəsində dövlətin hüquq və vəzifələri öz əksini tapmışdır. Göstərilmişdir ki:

-ətraf mühitin mühafızəsi sahəsində təsərrüfat və başqa fəaliyyətin ekoloji tarazlığa olan keyfiyyət normativlərini işləmək və təsdiq edilməsi qaydalarını müəyyən etmək;

-təbiətdən istifadəçilərə (sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərə) lazımi xüsusi icazənin verilməsi üçün təbiətdən istifadə foromaları siyahısı və xüsusi icazələrin verilməsi qaydalarının təsdiq edilməsi;

-ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqinin aparılması qaydalarını müəyyən etmək; -ekoloji auditor fəaliyyətinin aparılması qaydalarını müəyyən etmək;

-qanunvericilikdə müəyyən edilmiş qaydada təhlükəli təsərrüfat növlərinə, tullantıların və ətraf mühitə zərərli maddələrin artırılmasının xüsusi icazəni vermək, müqavilələlir (kontraktları) bağlamaq, limitlərin və kvortaları müəyyən etmək, təbiətdən istifadəyə xüsusi icazə verilir;

-ətraf mühitin mühafızəsi sahəsində dövlətin vəzifələri: ətraf mühitin ekoloji tarazlıq və təbiətdən istifadənin müxtəlif sahələri üzrə proqramları hazırlamaq;

-dövlət ekoloji ekspertizasiyasını təşkil etmək;

Ətraf mühitin mühafızəsi sahəsində vətəndaşların hüquq və vəzifələri bölməsində göstərilir.

Hər bir vətəndaş həyatı və sağlamlığı üçün əlverişli ətraf mühitin olması, onun vəziyyəti və vəziyyətinin, yaxşılaşdırılması bəradə tədbirlər haqqında məlumat almaq.

Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində onların sağlamlığına və əmlakına vurulan zərərə görə ödənc almaq;

Ətraf mühitin mühafızəsinə dair dövlət, hakimiyyət orqanlarına və təşkilatlarına müraciət etmək;

İnsan həyatına və ətraf mühitə mənfi təsir göstərən müəssisələrin, qurğuların və başqa ekoloji zərərli obyektlərin yerləşdirilməsi, tikintisi, yenidən qurulması və istismara verilməsi haqqında qərarların inzibatı və ya məhkəmə qaydasında ləğv edilməsini və həmçinin fiziki və hüquqi şəxslərin fəaliyyətinin məhdudlaşdırılmasını, müvəqqəti dayandırılmasını və hüquqi şəxslərin ləğv edilməsini tələb etmək;

Ətraf mühitin mühafızəsi haqqında qanunvericiliyin pozulması nəticəsində təsisçi təşkilatın, vəzifəli şəxslərin və vətandaşların məsuliyyətə cəlb edilməsi barədə müvaqif orqanlar və məhkəmələr qarşısında iddialar qaldırmaq. Təbiətdən istifadəçilər bölməsində göstərir ki, təbiətdən xarici və daxili istifadəçilərin hüquqları vardır. Onlar Azərbaycan Respublikasının ərazisində təbiətdən ümumi və fərdi qaydada istifadə etmək hüququna malikdirlər. Bu hüquq və vəzifələri həyata keçirmək üçün dövlət kadastrından istifadə edə bilərlər. Belə ki,ekoloji vəziyyətin qorunması, iqtisadiyyatın tələbatını ödəmək üçün təbii ehtiyatların kəmiyyət və keyfiyyət göstəricilərini müəyyən etmək məqsədilə, təbii ehtiyatların vahid sistem üzrə dövlət kadostrı aparılır. Dövlət kadostrı aparılan sahələr müvafiq qanunvericiliklə müəyyən edilir. Bu sahələr üzrə dövlət kadostrının aparılması qaydaları müvafıq icra hakimıyyəti orqanı tərəfindən təsdiq edilmiş əsasnamə ilə müəyyən edilir.

Həmin qanunun müvafiq maddələrində ətraf mühitin mühafizəsi sahəsində iqtisadi tənzimlənmə nəzərdə tutularaq göstərilir:

Təbiəti mühafizəni təmin etməyi və təbiətdən istifadəni tənzimləyən iqtisadi əsasları ekoloji təhlükəsizlik, təbii resurslardan səmərəli istifadə, onların bərpası və artırılması, tədbirlərinin

işlənib hazırlanmasına, planlaşdırılmasına və yerinə yetirilməsinə təbiətdən istifadəçilərin maddi marağını artırmaqdır;

Ətraf mühitin mühafizəsinin fəaliyyət sahələri və iqtisadi əsasları;

Ətraf mühitin mühafizəsi sahəsində tədbirlərin proqnozaşdırılması və maliyyələşdirilməsi; təbiətdən istifadəyə görə ödəmələr; ətraf mühitin çirklənməsinə görə ödəmələr və cərimələr; ətraf mühitin mühafizəsi sahəsində iqtisadi maraqlandırma; ətraf mühitin mühafizəsi fondlarının yaradılması, qrantlar; beynəlxalq qurumlardan ekoloji proqramları həyata keçirmək məqsədi ilə ayralın vəsaitlər.

Ətraf mühitin çirklənməsinə görə müəssisələrdən, təşkilatlardan və vətəndaşlardan alınan cərimələr bir qayda olaraq ətraf mühitin mühafizəsi sahəsində tədbirlərin maliyyələşdirilməsinə sərf edilir.

Ətraf mühitin qorunması üçün dövlət fondlarının yaradılması və onlardan istifadə olunması da bu qanun vasitəsilə tənzim olunur. Göstərilir ki, ətraf mühitin mühafizəsi üzrə fondlar ətraf mühitin mühafizəsində təxirə salınmaz tədbirlərin ona vurulan zərərin aradan qaldırılmasının və kompensasiya verilməsinin, ətraf mühitin mühafizəsi sahəsində başqa tədbirlərin maliyyələşməsi üçün yaradılır;

Ətraf mühitin mühafizəsi səhasində qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət və ictimai fondları yaradıla bilər;

Ətraf mühitin mühafızəsi üzrə dövlət fondunun vəsaitləri aşağıdakı tədbirlər üçün istifadə edilir.

Elmi-tədqiqat işlərinə, resursqənaətedici və ekoloji təmiz texnologiyaların tətbiqinə;

Təbiətdən istifadəçilər tərəfindən həyata keçirilən təbiətin mühafızəsi obyektlərinin tikintisinin, yenidən qurulmasının maliyyələşdirilməsini;

Ətraf mühitin çirkləndirilməsi nəticəsində dəymiş ziyanın bərpası sahəsində həyata keçirilən tədbirləri; Çirklənmə və başqa mənfı təsirlər nəticəsində vətəndaşlarm saxlamlığına və ətraf mühitə vurulmuş zəzərin bərpasına görə onlara müəyyən edilmiş

kompensasiyasının verilməsinə; Ətraf mühitin ekoloji tarazlığının bərpasına, proqramın, lahiyələrin, normativ-metodiki sənədlərin işlənməsinə və hayata keçirilməsinə; Ekoloji tərbiyə və təhsilə. Azərbaycan Respulikasının bu qanunu ilə ətraf mühitin mühafizə edilməsi üzərində nəzarət formasında öz əskini tapmışdır. Bu nəzarət ekoloji audit formasında həyata keçirilir.

Ekoloji audit — təbii resursların istifadəsi və bərpası üzrə hesabatların düzgün tərtib edilməsi də daxil olmaqla, təbiətdən istifadəsi tələbindən ekoloji tələblərin, ətraf mühitin mühafızəsi norma və qaydaların gözlənilməsi məqsədilə onların təsərrüfat və digər fəaliyyətinin müstəqil yoxlanılmasıdır.

Ekoloji audit məsləhəti - ekoloji auditorun ətraf mühitin mühafizəsi və onun keyfiyyətinin yaxşılaşdırılması, təbii resursların səmərəli və qənaətlə istifadəsi, bərpası, təbiətdən istifadəçi tərəfindən ekoloji tələblərə, ətraf mühitin mühafizəsi normalarına və qaydalarına riayət edilməsi üzrə məsləhətlərin verilməsidir.

Qanunla ətraf mühitin mühafizəsinə ziyan verən şəxslər məsuliyyətə cəlb olunurlar. Qanunda göstərilir ki, ətraf mühitin mühafızəsi haqqında qanunvericiliyin pozulmasında təqsirkar olan hüquqi və fiziki şəxslər, o cümlədən vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun məsuliyyət daşıyır. Onlar haqqında qaldırılmış iddialar məhkəmələr vasitəsilə həll olunurlar.

Beləliklə, Azərbaycan Respublikasının «ətraf mühitin mühafizəsi haqqında» qanun və ona müvafiq olaraq təsdiq edilmiş hüquqi normativ aktlara düzgün əməl edilməlidir. Belə ki, indi ölkədə beynəlxalq maliyyə qurumlarının dəstəyi ilə müxtəlif iri layihələr həyata keçirilir. Abşeron yarımadasının su təchizatının daha da yaxşılaşdırılması üçün Oğuz-Qəbələ zonasından sü kəmərinin çəkilməsinə başlanmışdır. Uzunluğu 264 km, diametri 2 metr olan kəmərin 2008-ci ildə istismara verilməsi nəzərdə tutulur. Hazırda ölkəmiz 18 beynəlxalq ekoloji konvensiyanın və bir çox beynəlxalq ekoloji təşkilatların tam hüquqlu üzvüdür. BMT-nin Ətraf mühit, İnkişaf və Ərzaq Proqramları, Sənaye

inkişaf təşkilatı, Qlobal ekologiya fondu, Dünya Bankı, Avropa İttifaqının TASİS Proqrammı, Ümumdünya Vəhşi Təbiət fondu, YUNESKO kimi dünyanın aparıcı beynəlxalq təşkilatlarla sıx əlaqələr qurulmuşdur.

Ölkədə ekoloji problemlərin və təbiətdən istifadənin tənzimlənməsi məqsədilə 2001-ci ildə Ekologiya və təbii sərvətlər Nazirliyi yaradılmışdır. Ölkədə ətraf mühitin qanunvericiliyini Avropa İttifaqı qanunvriciliyinə uyğunlaşdırılması istiqamətlərində mühüm tədbirlər həyata keçirilmişdir. Dövlət və qeyri-dövlət əmək mənafelərinin qorunmasına təminat verən bir sıra qanunlar qəbul edilmiş, 50-dən çox digər normativ-hüquqi aktları təsdiq edilmişdir.

Lakin qeyd olunması vacib sayılır ki, respublikanın hər bir vətəndaşı özünün ekologiyanın bir hissəsi olduğunu dərk etməsə, qanunun fəaliyyəti səmərəli ola bilməz. Çünki ekoloji problemlər dünyəvi xarakterlidir və onun mahiyyətini cəmiyyət üzvləri dərk etməlidirlər.

MÖVZU 15. XARİCİ-İQTİSADİ ƏLAQƏLƏRİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

Plan:

1. Xarici-iqtisadi əlaqələrin mahiyyəti və vəzifələri.
2. Xarici-iqtisadi əlaqələrin hüquqi tənzimlənməsi.
3. Xarici ticarət əlaqələrinin hüquqi tənzimlənməsi.

Sivilizasiyanın daim inkişafı, dövlətlərarası beynəlxalq iqtisadi əlaqələrin daha da genişlənməsinə səbəb olmaqla, vahid dünya iqtisadiyyatının yaranmasına səbəb olur. Tələbatın strukturunun daim mürəkkəbləşməsi, ehtiyatların azlığı dünya regionları arasında mübadilə vasitələrinin daha səmərəlilərinin seçilməsini tələb edir. Dünyanın müxtəlif regionlarında iqtisadi inkişaf və əhalinin artımı, qeyri-bərabər baş verir ki, bu da yeni bazarların inkişafına şərait yaradan beynəlxalq mübadilənin genişlənməsi zərurətini ön plana çəkir.

Xarici – iqtisadi əlaqələr dövlətlərin və onların subyektlərinin bütün iqtisadi sahələr üzrə müxtəlif formalı, beynəlxalq əməkdaşlığının kompleks sistemidir.

Xarici-iqtisadi əlaqələr iqtisadi və tarixi kateqoriyadır. Tarixi kateqoriya kimi xarici-iqtisadi əlaqələr sivilizasiyanın yetirməsidir.

İqtisadi kateqoriya kimi xarici-iqtisadi əlaqələr dövlətlər arasında və müxtəlif dövlətlərin iqtisadi subyektləri arasında bütün növ ehtiyatların hərəkəti zamanı yaranan iqtisadi münasibətlər sistemini əks etdirir. Bu ikitərəfli münasibətlər dövlətin iqtisadi həyatının bütün sferalarını və əsasən istehsal, ticarət və investisiya, maliyyə fəaliyyətini əhatə edir.

Xarici – iqtisadi əlaqələrin iqtisadi kateqoriya kimi mahiyyətini onun funksiyaları əks etdirir. Bu funksiyalara aiddir:

1. Təbii ehtiyatların və əməyin nəticələrinin maddi və dəyər formasında beynəlxalq mübadiləsinin təşkili və ona xidmət göstərilməsi;

2. Beynəlxalq əmək mübadiləsində məhsulların keyfiyyətinin dünya standartları səviyyəsində tanınması;

3. Beynəlxalq pul dövriyyəsinin təşkili.

Müasir xarici-iqtisadi əlaqələr dövlətlərin gəlilərinin artımına, məsrəflərinin azaldılması və ETT-nin sürətlənməsi amili kimi çıxış edir. Xarici-iqtisadi əlaqələrin idarəetmə mexanizminin və təşkilinin səmərəliliyi əlaqələrin təsnifatından çox asılıdır. Xarici-iqtisadi əlaqələrin təsnifatı dedikdə bu əlaqələrin müxtəlif qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün müəyyən xüsusiyyətlərə görə qruplara ayrılmasıdır. Xarici-iqtisadi əlaqələrin təsnifatı sistemi əlaqələrin forma və növlərindən ibarətdir.

Xarici-iqtisadi əlaqələrin növü bir xüsusiyyət əsasında formalaşan əlaqələrin məcmusudur ki, onlara da aşağıdakılar aiddir:

1. əmtəə axınının istiqaməti üzrə;

2. struktur xüsusiyyətlərinə görə;

Birinci növ əmtəənin bir dövlətdən digər dövlətə hərəkətini müəyyən edir.

Bu xüsusiyyətə görə XİƏ əmtəənin satışı və ölkədən çıxarılması ilə əlaqədar olan ixrac və əmtəələrin axını və ölkəyə gətirilməsi ilə əlaqədar olan idxala bölünür. Struktur xüsusiyyətinə görə XİƏ qrup tərkibini müəyyənləşdirir. O, dövlətin XİƏ fəaliyyətinin əsas məqsəd və iqtisadi maraq sferası ilə sıx bağlıdır. Struktur xüsusiyyətinə görə xarici-iqtisadi əlaqələr xarici ticarət, maliyyə, istehsal və investisiya əlaqələrinə bölünür. XİƏ-in formalarına ticarəti, barteri, turizmi, lizinqi və s. aid etmək olar. Xarici-iqtisadi əlaqələr müxtəlif tənzimləyicilərin, yəni dövlətin marağını qoruyan, vahid, səmərəli siyasi-iqtisadi sistemin inkişafına yönəldilən əlaqələrin yaranmasına təsir edən alətlərin təsiri altında formalaşır və həyata keçirilir. (sxem 2). Xarici-iqtisadi əlaqələrin tənzimləyiciləri iqtisadi və təşkilati-bölüşdürücü ola bilər.

İqtisadi tənzimləyicilər verilən əlaqələrin yaranması və həyata keçirilməsinin iqtisadi maraqlarına təsir edir. Onlara aiddir: tələb və təklifin nisbəti, dünya və daxili qiymətlərin,

tariflərin, valyuta məzənnələrinin, faiz dərəcələrinin nisbəti, əmtəələrin istehsalının həcmi, keyfiyyət və səmərəlilik üzrə inkişafının dünya və yerli səviyyələrinin nisbəti, iqtisadi stimullar, proqnozlar, planlar, proqramlar və s. nəzərə almaq lazımdır ki, bazar iqtisadiyyatında plan direktiv olmur. O, vacib makroiqtisadi proporsiyaların müəyyənləşdirilməsində və inkişafın perspektiv məqsədlərinin tapılmasında istifadə olunur.

Təşkilati-bölüşdürücü tənzimləyicilərə inzibati-amirlik xarakterli tənzimləyicilər aiddir. Onlar dövlətin və onun orqanlarının xarici-iqtisadi əlaqələrin formalaşması və inkişafına müxtəlif təsirini nəzərdə tutur. Onlara aşağıdakılar aiddir: əmtəələrin idxal və ixracını kvotalaşdırma və lisenziyalaşdırma, müxtəlif növ fəaliyyətlərin lisenziyalaşdırılması, əmtəələrin ixracında əldə olunan valyuta qazancının bir hissəsinin mütləq satışı mexanizmi, gömrük rejimi, əmtəələrin gətirilməsi və aparılmasının gömrük tərtibatı, valyuta nəzarəti, gömrük nəzarəti, ixrac nəzarəti, idxal nəzarəti və s.

Xarici-iqtisadi əlaqələrin dövlət tərəfindən aktiv tənzimlənməsi dövlətin xarici-iqtisadi siyasətinin əsas məqsədidir.

Xarici iqtisadi siyasətin tərkibini aşağıdakı Sxem 2-dən daha aydın görmək olar.

Sxem 2.



Azərbaycan Respublikasının xarici iqtisadi siyasəti dövlətimizin xarici ölkələrlə iqtisadi əlaqəlrini təiyn edir və tənzimləyir.

Xarici ticarət əlaqələri, struktur xüsusiyyətinə görə xarici iqitsadi əlaqələrin tərkib hissəsi olub, özündə əmtəənin, ticarət və barter xidmətinin turizm, injinirinq, reinjinirinq, informasiya mübadiləsi, rabitə, nəqliyyat xidməti kimi sahələrini, intellektual

mülkiyyətin isə françayzinq, nou-xau, konsaltinq kimi formalarını özündə əks edir.

Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası respublika və onun yerli istehsalçıları, sahibkarları üçün yeni imkanlar açır. Xarici ticarət əlaqələrinin məhz Azərbaycan Respublikasının bazar münasibətlərinə keçid dövründə formalarının, istiqamətlərin və inkişaf etdirilməsi xüsusiyyətlərinin öyrənilməsi, ölkəmiz üçün elmi və praktiki əhəmiyyət kəsb edir.

Bu gün Azərbaycan iqtisadiyyatının böyük hissəsinin xarici iqtisadiyyatdan asılılığı xarici ticarət sahəsində və siyasətində müəyyən addımların atılmasını vacib edir.

Belə ki, dövlət tənzimlənməsinin ümdə məsələlərindən biri, yerli istehsalçılara səmərəli şərait yaratmaq, daxili bazarı xarici təcavüzkarlardan qurtarmaqdır. Bunun üçün dövlət səmərəli antidempinq, proteksionist idxal-ixrac kvotalaşması, vergi və gömrük rüsumları, subsidiya tətbiq etmək və s. kimi tədbirlərdən məharətlə istifadə etməlidir. Bu zaman həmçinin yerli istehlakçıların mənafelərini də qorumalı, ixracatı artıraraq, get-gedə idxalatı azaltmalı, daxili bazarda məhsul bolluğunun təmin edilməsinə və idxal edilən məhsulun keyfiyyətinə nəzarət etməli, lazım gələrsə, yerli istehsalçıları vergi kredit güzəştləri göstərməlidir ki, Azərbaycan iqtisadiyyatı daha da inkişaf etməklə dünya ölkələri sırasında dövlətimizin layiqli yerini tutmağa imkan tapsın. Müəssisələrin təsərrüfat müstəqilliyinin və məsuliyyətinin artırılması, onlara xarici bazara sərbəst çıxmaq hüquqlarının verilməsi inkişaf etməkdə olan beynəlxalq kommersiya münasibətlərinin hüquqi tənzimlənməsinin zəruriliyini müəyyən edir. Ölkəmizdə xarici iqtisadi fəaliyyətin hüquqi tənzimlənməsinin mənbələri Azərbaycan Respublikasının Konstitusiyasından, Mülki Məcəlləsindən, Gömrük Məcəlləsindən, «Gömrük tarifləri haqqında», «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğvi qaydaları haqqında» qanunlardan, Azərbaycan Respublikası Prezidentinin fərmanlarından, Nazirlər Kabinetinin qərarla-

rından və digər normativ hüquqi aktlardan ibarətdir. İxrac-idxal əməliyyatlarını tənzimləyən əsas sənəd 24 iyun 1997-ci ili tarixli «Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında» fərmanla təsdiq olunmuş «Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydaları»dır. Bu qaydalar aşağıdakı idxal-ixrac əməliyyatlarını tənzimləyir:

- Azərbaycan Respublikasında istehsal, emal, təkrar emal olunan malların ixracı;
- kredit ixracı;
- təkrar ixrac (reeksport);
- konsiqnasiya yolu ilə ixrac əməliyyatları;
- müvəqqəti ixrac əməliyyatları;
- rezidentlərin öz vəsaiti hesabına idxal;
- Nazirlər Kabineti tərəfindən aparılan ixrac-idxal əməliyyatları;
- Müvafiq dövlət orqanlarından rəy və ya lisenziya alınmaqla aparılan idxal-ixrac əməliyyatları;
- Barter əməliyyatları;
- Kooperasiya əməliyyatları;
- Sərhədyanı ticarət və s.

Qaydalar həmçinin xarici ticarətdə hesablaşmaların və xarici ticarət əməliyyatlarının rəsmiləşdirilməsinin qaydalarını müəyyənləşdirir. Bu qaydalara müvafiq olaraq, ixrac-idxal əməliyyatları müstəsna olaraq Nazirlər Kabineti tərəfindən həyata keçirilən və ya bu əməliyyatlar üçün müvafiq icra hakimiyyəti orqanlarının rəyi və ya lisenziyası tələb olunan məhsullar və xidmətlərin bəzi növləri istisna olmaqla, Azərbaycan Respublikasında istehsal, emal və ya təkrar emal olunan məhsulun ixracı üçün və ya dövlət tərəfindən zəmanət verilmiş kreditlər cəlb edilmədən və konsiqnasiyaya əsaslanmadan rezidentlərin öz vəsaiti hesabına həyata keçirilən idxal üçün yalnız gömrük orqanlarında bəyannamənin tərtib edilməsi tələb olunur. Digərləri fərqli olaraq, dövlət müəssisələri və əmlakında dövlətin payı 30 faizdən az olmayan müəssisələr bağladıqları müqavilələri

İqtisadi İnkişaf Nazirliyində qeydiyyatdan keçirilməlidirlər. Silah və hərbi texnikanın, partlayıcı maddələrin, radioaktiv materialların, narkotik və psixotrop maddələrin, kimyəvi zəhərlərin, silahların və hərbi texnikanın yaradılması üçün texnologiyaların, materialların və avdanlığın ixracı və idxalı Nazirlər Kabineti tərəfindən həyata keçirilir. Etil (yeyinti) spirtinin, alkoqollu içkilərin (pivə istisna olmaqla) və tütün məmulatlarının idxalı iqtisadi inkişaf Nazirliyinin lisenziyası əsasında həyata keçirilir.

Beləliklə, ümumiqtisadi inkişaf strategiyasının əsas məqsədləri baxımından effektiv nəticə əldə edilməsi problemi ilə xarici bazarlarda həyata keçirilən fəaliyyətini xarakteri, daha konkret ifadə etsək, ölkənin ixrac siyasəti arasında determinoloji asılılıq mövcuddur.

Məhz bu nöqteyi-nəzərdən ixrac siyasətinin real gerçəkliyə, eləcə də ölkənin mövcud potensialına uyğunlaşırılması və qeyd edilən bazaya söykənməklə, optimallaşdırılması problemi mühüm əhəmiyyət kəsb edən məsələlər sırasına daxil edilməlidir.

Problemin həll edilməsi istiqamətləri kimi aşağıdakıların ön plana çəkilməsi məqsədəuyğundur.

1. İxrac siyasəti ilə ümumiqtisadi inkişaf strategiyası arasında üzv əlaqələrin formalaşdırılması və bu yönümdə həyata keçirilən fəaliyyətdə mahiyyət dəyişikliklərinin aparılması, daha doğrusu:

a) xarici bazarlarda fəaliyyətin ağırlıq mərkəzinin mikrosəviyyəyə subyektləri üzərinə keçirilməsində tədricilik prinsipinə sözsüz əməl edilməsi:

b) xarici bazarların məqsədli araşdırılması istiqamətində əsaslı dönüşə nail olunmaqla, mərkəzləşdirilmiş informasiya bankının yaradılması;

v) ixracın prioritet istiqamətləri üzərində iqtisadi üsullara əsaslanan dövlət nəzarətinin gücləndirilməsi;

2. İxracın mal strukturunda yanacaq-energetika kompleksinin xüsusi çəkisinin durmadan artması (61,3%) təhlükəli tendensiya hesab olunsa da, sonrakı prosesin, yəni əldə edilən vəsaitin yenidən sözügedən istehsalat sferasına yönəldilməsi,

daha böyük problemlər yaradar və Holland sindromunundan yaxa qurtarmağın mümkünsüzlüyü situasiyası meydana gələ bilər.

3. İxrac siyasəti ilə investisiya axınlarının, eləcə də yeni texnologiyanın ölkəyə cəlb edilməsi arasında inteqrativ bağlılığa nail olunması;

4. Xarici ticarət şəraitiinin optimallaşdırılması probleminin həll zəruriliyi nəzərə alınmaqla, mövcud satış bazarlarının kompleks tədqiqinin mütəmadi olaraq aparılması və alınan nəticələrə əsaslanmaqla məqsədli bazarların ya da, heç olmasa, məqsədli seqmentlərin seçilməsi;

5. Struktur islahatların prioritetliyinin praktikada bir mənalı qəbulu və bu əsasda da ixrac siyasətinin dönmədən və ardıcıl olaraq təkmilləşdirilməsi və s.

İxrac siyasəti, öz mahiyyəti və məzmunu etibarı ilə, eləcə də ölkə iqtisadiyyatına təsir imkanları baxımından milli iqtisadi inkişafın bütün aspekt və komponentləri ilə üzvi surətdə bağlıdır. Buna görə də, ixrac siyasətinə haradasa «inteqrativ ümumiləşdirici» kimi də baxmaq olar.

Respublika iqtisadiyyatının bazar prinsiplərinə keçdiyi və dünya təsərrüfat əlaqələrinə fəal surətdə qoşulduğu bir zamanda, onun beynəlxalq əmək bölgüsündə layiqli mövqe tutması, dünya iqtisadiyyatına səmərəli inteqrasiyası və milli dövlət mənafelərinin təminatı, ölkənin daxili resurslarından səmərəli istifadə olunması ilə yanaşı, xarici iqtisadi əlaqələr amillərindən maksimum istifadə edilməsini tələb edir. İqtisadi inkişafın məhz, bu iki mühüm amilinin dialektik, qarşılıqlı əlaqəsi zəminində milli iqtisadiyyatın tərəqqisi üçün daha əlverişli şərait yaradılmasına, cəmiyyətin və onun ayrı-ayrı üzvlərinin maddi və mənəvi inkişafı ilə bağlı olan problemlərin həll olunmasına nail olmaq olar. İnkişaf etmiş ölkələrin və eləcə də yeni sənaye ölkələrinin təcrübəsi göstərir ki, xarici iqtisadi faktorlar, onlardan lazımınca istifadə edildikdə milli iqtisadiyyatın inkişafı və yenidən qurulması üçün həlledici əhəmiyyət kəsb edə bilər.

Bununla əlaqədar olaraq keçid dövrünün çətinlikləri ilə qarşılaşan Azərbaycan iqtisadiyyatının müasir vəziyyəti onun xarici iqtisadi əlaqələrinin daha səmərəli qurulmasını və inkişafını zəruri etməklə, bütünlüklə xarici iqtisadi əlaqələr sisteminin islahatlaşdırılmasını, müəyyən mərhələlərə bölünməklə uzunmüddətli dövrü əhatə edən dəqiq xarici iqtisadi siyasət strategiyasının müəyyən edilməsini tələb edir. Bu birinci növbədə respublikanın xarici ticarət əlaqələrini ixrac potensialı və onlardan daha optimal istifadə olunması, idxalın strukturunun səmərələşdirilməsi, rəqabət qabiliyyətli milli istehsal sahələrinin yaradılması problemlərini ön plana çəkir.

Azərbaycan Respublikasının xarici iqtisadi siyasəti əsasən aşağıdakı prinsiplərə əsaslanır:

- təsərrüfat subyektlərinin və sahibkarların xarici iqtisadi əməliyyatlardan daimi xarici iqtisadi əlaqələrə keçidi;
- xarici iqtisadi fəaliyyətin uzunmüddətli perspektivə istiqamətləndirilməsi;
- daxili bazarın qorunması və stimullaşdırılması;
- dövlətin xarici iqtisadi siyasətinə onun xarici siyasətinin tərkib elementi kimi baxmaq.

Xarici-iqtisadi əlaqələrin fəaliyyətinin hüquqi tənzimlənməsi ölkənin iqtisadi təhlükəsizliyini, daxili bazarın qorunması, yerli istehsalın genişləndirilməsi, daxili bazarlarda rəqabətin güclənməsi, habelə yerli istehsalçıların xarici bazarlara çıxışının stimullaşdırılması baxımından olduqca əhəmiyyətlidir.

Beynəlxalq iqtisadi əlaqələrin hər bir formasının özünəməxsus hüquqi tənzimləmə mexanizmi var.

Xarici ticarət əlaqələri hüquqi cəhətdən 10 yanvar 1994-cü il tarixli «Azərbaycan Respublikasında xarici ticarətin səmərəliliyi» haqqında 5 aprel 1994-cü il tarixli «Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında», 17 dekabr 1996-cı il tarixli «Azərbaycan Respublikasında xarici ticarətin təkmilləşdirilməsi haqqında» 24 iyun 1997-ci il tarixli Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının

tənzimlənməsi qaydaları və s. bu fərman və qərarlar əsasında tənzimlənir.

Əvvəlki fəsillərdə qeyd etdiyimiz kimi, xarici ticarətin əlaqələrinin tənzimlənməsinin 2 metodu var: tarif və qeyri-tarif tənzimləmə metodları.

Qeyri-tarif tənzimlənməni sxematik olaraq aşağıdakı kimi göstərmək olar:

Sxem 3



Xarici ticarətin lisenziyalaşdırılması və kvotalaşdırılması əsasən iki məqsədlə həyata keçirilir; dövlətin iqtisadi maraqlarının qorunması məqsədilə və daxili bazarın tarazlığını poza biləcək idxal və ixracın qarşısını almaq məqsədilə.

Xarici ticarətin tənzimlənməsinin klassik metodu tarif, xüsusilə kömrük tarifi tənzimlənməsidir. Tarif metodu ölkəyə gətirilən və ölkədən aparılan mallardan kömrük rüsumlarının tutulmasından ibarətdir.

Əvvəlki bölmələrdə qeyd etdiyimiz kimi, dünya praktikasında kömrük rüsumlarının aşağıdakı əsas növləri vardır:

- spesifik mal vahidinə görə müəyyən edilmiş dəyərə hesablanan kömrük rüsumu;
- advaler-malın kömrük dəyərinə görə faiz hesablanan gömrük rüsumu;
- kombinə edilmiş hər iki növü birləşdirməklə, hesablanan gömrük rüsumu.

İdxal və ixrac rüsumları dövlət büdcəsinə əlavə vəsaitin cəlb edilməsini təmin etməklə yanaşı, dövlətin müəyyən maraqlarının qorunmasında iştirak edirlər. Bir qayda olaraq ən yüksək ixrac rüsumu dövlətin həmin məhsulla digər dövlətlər üzərində üstünlüyünü qoruyub saxlayır və onun satışından yüksək həcmdə vəsait əldə etmiş olur.

Xarici ticarət əlaqələrinin tarif tənzimlənməsinin elementlərindən biri də kömrük dəyəridir. Bu ölkəyə gətirilən məhsulların qiymətləndirilməsinin əsasında durur. Kömrük dəyəri aşağıdakı üsullarla müəyyən edilir:

- gətirilən malların sərbəstləşmə qiyməti ilə;
- eyni cinsli malların sövdələşmə qiyməti ilə;
- dəyərin toplanması üsulu ilə;
- dəyərin çıxılması üsulu ilə;
- ehtiyat üsulu ilə.

Əvvəlki bölmədə yazdığımız kimi xarici-iqtisadi fəaliyyətin tənzimlənməsinin tarif metodu 20 iyun 1995-ci il tarixli «Kömrük tarifi haqqında Azərbaycan Respublikası qanunu», 22 aprel 1998-ci il tarixli «Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatları üzrə kömrük rüsumlarının dərəcələri haqqında», Nazirlər Kabinetinin qərarı və digər normativ aktlara uyğun həyata keçirilir.

Azərbaycan Respublikasının əlverişli ticarət rejimi tətbiq etdiyi ölkələrin malları üçün kömrük rüsumlarının son həddi Milli Məclis tərəfindən müəyyən olunur.

Bəzən mövsümi xüsusi növ kömrük rüsumları da tətbiq olunur.

Mövsümi rüsumlar əsasən malların idxal və ixracını operativ tənzimləmək məqsədilə tətbiq olunur.

Azərbaycan Respublikasında idxal-ixracd əməliyyatlarının tənzimlənməsi qaydaları haqqında Azərbaycan Prezidentinin fərmanına əsasən müxtəlif növ idxal və ixrac əməliyyatlarının növləri aşağıdakılardır:

1. Respublikada istehsal, emal, təkrar emal olunan malların ixracından rezidentlər sərbəstdirlər və nəzərdə tutulan hallar istisna olmaqla onların fəaliyyətləri məhdudlaşdırıla bilməz.

2. Kredit ixrac əməliyyatları faktiki mal ixracından sonra haqqı müəyyən şərtlərlə və hər hansı müddət ərzində ödənilən malların ixrac əməliyyatlarını nəzərdə tutur.

3. Təkrar ixrac əməliyyatları Azərbaycana gətirilən xarici mənşəli malların yenidən işlənilmədən digər xarici əməliyyatlardır.

4. Konseqnasiya yolu ilə ixrac əməliyyatları xarici şəxslərlə bağlanmış müqavilələrə əsasən respublika hüdudlarından kənarda satışı müəyyən müddət ərzində aparılan malların ixracını nəzərdə tutur.

5. Müvəqqəti ixrac əməliyyatları xarici ölkələrdə xidmət göstərilməsi, lizinq əməliyyatlarının aparılması, sərgilərdə iştirak və s. üçün malların yenidən işlənmədən Azərbaycan Respublikasına qaytarılması şərti ilə ixracıdır.

6. Rezidentlərin öz vasitələri hesabına idxal.

7. Barter əməliyyatları, dəyəri ödənilmədən ekvivalent məbləğdə qarşılıqlı mal mübadiləsini nəzərdə tutur.

8. Kooperasiya əməliyyatları xammal, yarım fabrikatlar və məhsulların bu və ya digər (təmiz, emal, son məhsul şəklində gətirilmə və s.) məqsədilə müvəqqəti olaraq ixracını (və yaxud idxalını) nəzərdə tutur.

9. Sərhədyanı ticarət müstəsna olaraq müvafiq sərhədyanı ərazi çərçivəsində istehsal olunan, eləcə də müvafiq sərhədyanı ərazi çərçivəsində istehlakı nəzərdə tutulan respublikanın sərhədyanı ərazisində daimi yaşayış yeri olan bütün rezidentlər tərəfindən həm sərhəd dövlətlərlə beynəlxalq müqavilələrdə müəyyən olunmuş müvafiq sərhədyanı ərazidə xarici şəxslərlə həyata keçirilə bilər.

Sərhədyanı ərazilər və sərhədyanı ticarət qaydaları İqtisadi İnkişaf Nazirliyinin rəyi ilə ARNK tərəfindən müəyyən olunur. Bütün rezidentlər tərəfindən satılan malların ölkə ərazisindən çıxarılmasına kömrük orqanları tərəfindən yalnz onların haqqının ödənildiyi, yaxud akkreditiv və ya birinci dərəcəli bankların zəmanəti təqdim edildiyi barədə Azərbaycan Respublikasında valyuta əməliyyatlarının aparılması üçün icazəsi müvəkkil bankların bunu təsdiqləyən sənədi təqdim olunduqda icazə verilir.

Bütün rezidentlər tərəfindən xarici ölkələrdən mal alınması və xidmət göstərilməsi ilə bağlı olan idxal hesablaşmaları Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə müvafiq olaraq aparılır. İdxal hesablaşmalarına nəzarət müvafiq banklar tərəfindən həyata keçirilir.

Xarici ticarət əməliyyatlarının həyata keçirilməsi zamanı mallar respublikanın kömrük ərazisindən aparılmasına və gətirilməsinə kömrük orqanları, hesablaşmalarına isə müvəkkil banklar nəzarət edirlər. Mövcud qanunvericiliyinin və qaydaların pozulması halları barədə adı çəkilən orqanlar tədbirlər görülməsi üçün aidiyyəti dövlət orqanlarına təqdimat verməlidirlər.

Azərbaycan Respublikası vətəndaşlığının və xarici ölkə vətəndaşlarının işləmək üçün ölkədən getməsi və ölkəyə gəlmək məqsədlərini «Əmək miqrasiyası haqqında Azərbaycan Respublikasının qanunu» tənzimləyir. Bu qanunda göstərilir ki, əcnəbilər haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmək üçün fərdi icazə aldıqdan sonra Azərbaycan Respublikasında işləyə bilərlər.

Bunun üçün əcnəbilər mövcud İcra Hakimiyyəti Orqanları onları işə qəbul etmək istəyən hüquqi və fiziki şəxslər vasitəsilə müraciət etməlidirlər. Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici hüquqi şəxslərin, filial və nümayəndəliklərin rəhbərləri və onların müqavilələri vəzifəsinə cəlb olunan əcnəbilər həmçinin sahibkarlıq fəaliyyəti ilə məşğul olan əcnəbilərdir ki, onlara belə icazələr tələb olunmur.

Azərbaycan Respublikası vətəndaşları xarici hüquqi və ya fiziki şəxslərin birbaşa dəvəti, Azərbaycan Respublikasında dövlət qeydiyyatından keçmiş hüquqi şəxslərin vasitəçiliyi ilə fərdi yolla

xarici ölkələrdə işə düzələ bilərlər. Vətəndaşlar xarici ölkələrdə əmək fəaliyyəti ilə məşğul olduqda 1 ay müddətində Azərbaycan Respublikasının həmin ölkədəki diplomatik nümayəndəliklərində qeydiyyatdan keçməli və həmin ölkədə işləmələri barədə rəsmi sənəd təqdim etməlidirlər.

Ümumiyyətlə, qanunda əcnəbilərin Azərbaycan Respublikasında əmək miqrasiyası qaydaları, Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrə əmək miqrasiyasının tənzimlənməsi mexanizmləri əks olunmuşdur. Yuxarıda adları çəkilən hüquqi aktlardan başqa 11 dekabr 1998-ci ildə Azərbaycan BMT-nin «Bütün fəhlə miqrantları və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında» 18 dekabr 1990-cı il tarixli Beynəlxalq Konvensiyaya qoyulmuşdur. Əmək miqrasiyası prosesləri sosial-iqtisadi həyatın bir çox sahələrinə bilavasitə təsir etdiyini nəzərə alsaq, onların dövlət tərəfindən tənzimlənməsi və idarə olunmasının zəruriliyini daha aydın görərik.

NORMARİV HÜQUQİ AKTLAR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

I FƏSİL. ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Bu Qanunun vəzifəsi

Bu Qanun Azərbaycan Respublikasının qanunlarının və başqa normativ-hüquqi aktlarının hazırlanması, qüvvəyə minməsi, şərhi və bunlarla əlaqədar müvafiq dövlət orqanlarının qarşılıqlı fəaliyyət qaydalarını müəyyən edir.

Maddə 2. Azərbaycan Respublikasının normativ hüquqi aktlarının anlayışı

2.1. Azərbaycan Respublikasının normativ hüquqi aktı (bundan sonra — «normativ-hüquqi akt» adlanacaq) səlahiyyətli dövlət orqanı tərəfindən qəbul edilmiş, göstərişləri ümumi məcburi xarakter daşıyan, hüquq normalarını müəyyən edən, dəyişdirən və ya ləğv edən, dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş rəsmi yazılı sənəddir.

2.2. Azərbaycan Respublikasının qanunvericilik sistemi və ona daxil olan normativ hüquqi aktlar Azərbaycan Respublikası Konstitusiyasının 147-151-ci maddələri ilə müəyyən edilir.

Maddə 3. Normativ xarakterli aktlar

Azərbaycan Respublikasının normariv xarakterli aktları aşağıdakılardır:

3.1. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-6, 8-ci bəndlərinə və IV hissəsinə əsasən qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları;

3.2. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarları, təlimatları və izahları;

3.3. Yerli icra hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının qərarları;

3.4. Azərbaycan Respublikası Milli Bankının qərarları.

Maddə 4. Normativ hüquqi aktlar qəbul etmək səlahiyyətlərinin hüquqi əsası

Normativ hüquqi aktlar qəbul etmək səlahiyyəti olan orqanlar və bu səlahiyyətlərin hüdudları Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunları ilə müəyyən edilir.

Maddə 5. Normativ hüquqi aktların daha yüksək hüquqi qüvvəsi olan normativ hüquqi aktlara uyğunluğu

Normativ hüquqi aktlar Azərbaycan Respublikası Konstitusiyasına və onlardan daha yüksək hüquqi qüvvəsi olan başqa normativ hüquqi aktlara uyğun olmalıdır.

Maddə 6. Normativ hüquqi aktlar qəbul etmək səlahiyyətinin aşağı orqanlara verilməsi

6.1. Azərbaycan Respublikasının normativ hüquqi aktlar qəbul etmək səlahiyyəti olan dövlət hakimiyyət orqanları bu səlahiyyətlərin bir hissəsini, qanunla başqa hal nəzərdə tutulmayıbsa, başqa dövlət hakimiyyəti orqanına verə bilər.

6.2. Azərbaycan Respublikasının normativ hüquqi aktlar qəbul etmək səlahiyəti olan müvafiq hakimiyyəti orqanları bu səlahiyyətin bir hissəsini, qanunla başqa hal nəzərdə tutulmayıbsa, aşağı müvafiq icra hakimiyyəti orqanına verə bilər.

6.3. Səlahiyyəti vermə aktında verilən səlahiyyətin həcmi, müddəti və səlahiyyəti alan orqan göstərilməlidir.

6.4. Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddəsində müəyyən edilmiş səlahiyyətlərini başqa orqanlara verə bilməz.

6.5. Bu maddənin 6.1. bəndində göstərilən qaydada səlahiyyət almış orqan bu səlahiyyəti ayrı orqana verə bilməz.

6.6. Verilmiş səlahiyyətin həyata keçirilməsi məqsədilə normativ hüquqi akt qəbul edən orqan həmin səlahiyyətin verilməsi haqqında normativ hüquqi akta istinad etməlidir.

6.7. Verilmiş səlahiyyətin həyata keçirilməsi məqsədilə normativ hüquqi akt qəbul etmiş orqan onun qəbul edildiyi gündən etibarən 24 saat ərzində (qeyri-iş günləri nəzərə alınmamaq şərtilə) normativ hüquqi aktı səlahiyyəti verən orqana təqdim edir.

Səlahiyyəti vermiş orqan həmin aktı ləğv edə və ya dəyişdirə bilər.

6.8. Səlahiyyəti vermə aktında başqa hal nəzərdə tutulmamışdırsa, verilmiş səlahiyyəti həyata keçirən orqan bununla bağlı məsrəfləri özünün büdcə vəsaitləri həcmində müəyyən etməlidir.

Maddə 7. Normativ hüquqi aktların tətbiq edilmə qaydası

Normativ hüquqi aktların tətbiqi zamanı müxtəlif hüquqi qüvvəyə malik olan normativ hüquqi aktlar arasında ziddiyyət olduqda daha yüksək hüquqi qüvvəyə malik olan akt tətbiq olunur. Eyni hüquqi qüvvəyə malik olan normativ hüquqi aktlar arasında ziddiyyət olduqda isə daha sonra qüvvəyə minmiş normativ hüquqi akt tətbiq olunur.

Maddə 8. Azərbaycan Respublikasının dövlə müstəqilliyi elan edilənədək qüvvədə olmuş aktların hüquqi qüvvəsi

Azərbaycan Respublikasının dövlət müstəqilliyi elan edilənədək qüvvədə olmuş, sonradan ləğv edilməmiş və Azərbaycan Respublikasının Konstitusiyasına zidd olmayan aktlar Azərbaycan Respublikasında hüquqi qüvvəsini saxlayır.

Maddə 9. Normativ hüquqi aktların qəbul edilməsinin hüquqi əsasları

9.1. Azərbaycan Respublikasında normativ hüquqi aktların qəbul edilməsi qaydası.

Azərbaycan Respublikası Konstitusiyası və qanunvericiliyi ilə müəyyən edilir.

9.2. Müvafiq icra hakimiyyəti orqanlarının (Azərbaycan Respublikasının Prezidenti) normativ hüquqi aktlarının baxılması, qəbul edilməsi və təsdiqi qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Maddə 10. Normariv hüquqi aktlar qəbul etmək səlahiyyəti olan orqanlar

Normativ hüquqi aktlar qəbul etmək səlahiyyəti olan orqanlar Azərbaycan Respublikası Konstitusiyası ilə müəyyən edilir.

II FƏSİL. NORMATİV HÜQUQİ AKTLARIN HAZIRLANMASININ PLANLAŞDIRILMASI

Maddə 11. Normaiv hüquqi aktların layihələrinin hazırlanması planlarının təsdiqi

11.1. Azərbaycan Respublikası qanunvericilik işləri planlarının təsdiqi Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi ilə tənzimlənir.

11.2. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları (öz səlahiyyəti hüdudlarında Azərbaycan Respublikasının Nazirlər Kabineti, nazirliklər və digər mərkəzi icra hakimiyyəti orqanları) özlərinin hazırlayacaqları norımativ hüquqi aktların layihələrinin hazırlanması haqqında planları təsdiq edirlər.

Maddə 12. Normativ hüquqi aktların layihələrinin hazırlanması planlarında nəzərə alınan təkliflər

Normativ hüquqi aktların layihələrinin hazırlanması planları hazırlanarkən Azərbaycan Respublikası Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanlarının, Naxçıvan Muxtar Respublikasının, Azərbaycan Respublikası inzibati ərazi vahidlərinin, elmi idarələrin təklifləri, kütləvi informasiya vasitələrində və əhalinin müraciətlərində irəli sürülmüş təkliflər nəzərə alınır.

Maddə 13. Normativ hüquqi aktların layihələrinin hazırlanması planlarının müddətləri

Normativ hüquqi aktlar layihələrinin hazırlanmasının cari planları, bir qayda olaraq 6 aydan 1 ilədək müddətə tətbiq olunur.

Zəruri hallarda 5 illik müddət üçün perspektiv planlar nəzərdə tutula bilər. Bu planlarda qanunvericiliyin inkişaf isıiqamətləri, kodifikasiya və ya normativ sənədlərin başqa cür qaydaya salınması üzrə iri tədbirlər müəyyən olunur, normativ aktların sistemləşdirilmiş və yaxud yeniləşdirilmiş nəşrlərinin hazırlanması nəzərdə tutulur. Perspektiv planlar cari planlarda konkretləşdirilir və nəzərə alınır.

Maddə 14. Plandankənar layihələrin hazırlanması

Normativ-hüquqi aktların layihələrinin hazırlanması planları ən vacib və iri həcmli aktların hazırlanmasını nəzərdə tutur və yuxarı orqanların tapşırığı əsasında, habelə başqa zəruri hallarda plandankənar layihələrin hazırlanmasını istisna etmir.

III FƏSİL. NORMATİV HÜQUQİ AKTLARIN LAYİHƏLƏRİNİN HAZIRLANMASI

Maddə 15. Normativ hüquqi aktların layihələrinin hazırlanması üçün komissiyaların yaradılması

15.1. Normativ hüquqi aktın layihəsini hazırlayan orqan, bir qayda olaraq, layihəni hazırlamaq üçün həmin orqanın işçilərindən, mütəxəssis və alimlərdən ibarət komissiya yaradır.

15.2. Layihələrin hazırlanması işinə elmi idarələrin, marağı olan dövlət və qeyri-dövlət təşkilatlarının nümayəndələri cəlb edilə bilərlər.

15.3. Layihələrin hazırlanmasında layihələri tərtib edən orqan və qurumların hüquq bölmələrinin iştirakı zəruridir.

Maddə 16. Normativ hüquqi aktların layihələrinin hazır-lanması və ya sifariş edilməsi

Normativ hüquqi aktın ilkin layihəsinin, o cümlədən alternativ layihələrin hazırlanması dövlət orqanlarına, elmi idarələrə, qeyri-dövlət qurumlarına, ayrı-ayrı alim və mütəxəssislərə və ya onların kollektivlərinə tapşırıla, yaxud müqavilə ilə sifariş edilə, habelə ən yaxşı layihə üçün müsabiqə elan edilə bilər.

Maddə 17. Dövlət orqanlarının və inzibati-ərazi vahidləri nümayəndələrinin layihələrin hazırlanmasına cəlb edilməsi

17.1. Naxçıvan Muxtar Respublikasının və inzibati-ərazi vahidlərinin səlahiyyəti və mənafeyi ilə bağlı layihələr hazırlanarkən onların müvafiq orqanları bu işə cəlb olunurlar.

17.2. İqtisadiyyatın, dövlət idarəçiliyinin ayrı-ayrı sahələri üzrə layihələrin hazırlanmasına bu sahələrin inkişafı və vəziyyəti üçün cavabdeh olan müvafiq icra hakimiyyəti orqanları cəlb olunurlar.

Maddə 18. Qanunların layihələrinin yayılması

Azərbaycan Respublikası qanunlarının layihələri kütləvi informasiya vasitələri ilə və başqa üsullarla əhalinin nəzərinə çatdırıla bilər.

Maddə 19. Layihələrin ümumxalq müzakirəsinə verilməsi

Azərbaycan Respublikasının Milli Məclisi öz təşəbbüsü və ya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin təşəbbüsü ilə qəbul etdiyi qərarla Azərbaycan Respublikasının qanun layihələrini qanunla müəyyən edilmiş qaydada ümumxalq müzakirəsinə verə bilər.

Maddə 20. Əsas və konkretləşdirici layihələrə eyni vaxtda baxılması

Əsas normativ hüquqi aktı və onun müddəalarını inkişaf etdirən və ya konkretləşdirən başqa aktrların layihələri eyni vaxtda hazırlanır və baxılır, bu mümkün deyilsə, əsas layihədə və ya onun qüvvəyə minməsi barədə aktın layihəsində bu cür aktların hazırlanması və qəbul edilməsi tapşırığı nəzərdə tutulur.

Maddə 21. Layihəyə əlavə edilən sənədlər

Normativ hüquqi aktların layihələri onların işlənib hazırlanması zərurətindən əsaslandırmaqla, gələcək aktların məqsədlərini, əsas müddəalarının və qüvvədə olan qanunvericilik sistemində onların yerinin, onların tətbiqindən gözlənilən sosial-iqtisadi və başqa nəticələrin geniş xarakteristikası, habelə bu layihələrin qəbul edilməsiylə qüvvədə olan qanunvericiliyə dəyişikliyi nəzərdə tutan aktın layihəsi ilə birlikdə baxılımaq və təsdiq üçün təqdim edilir. Həm də layihələrin hazırlanmasında iştirak etmiş və layihə barədə razılığı alınmış kollektivlər və şəxslər, ortaya çıxan ixtilaflar və onlar barədə motivli rəy göstərilir. Həyata keçirilməsi əlavə maddi və başqa məsrəflər tələb edən layihə təqdim edilərkən onun maliyyə-iqtisadi əsasları da əlavə olunur.

Maddə 22. Normativ hüquqi aktların rekvizitləri

Normativ hüquqi aktın aşağıdakı rekvizitləri olmalıdır:

22.1. Normativ hüquqi aktın adı (qanun, fərman, qərar və s.);

22.2. Tənzimləmə predmetini əks etdirən normativ hüquqi aktın adı (başlığı);

22.3. Normativ hüquqi aktın qəbul edildiyi tarix və yer;

22.4. Müvafiq normativ hüquqi əks imzalamaq səlahiyyəti olan şəxsin imzası;

22.5. Normativ hüquqi aktın nömrəsi.

Maddə 23. Normativ hüquqi aktın strukturu

23.1. Özündə hüquq normlarını əks etdirən maddə və ya bənd normativ hüquqi aktın əsas struktur elementidir. Hüquq normaları «maddə» adı altında maddələr şəklində qanunlara daxil edilir. Digər normativ hüquqi aktlar «bənd» sözü yazılmadan bəndlərdən ibarətdir.

23.2. Normativ hüquqi aktların məzmunca yaxın maddələri (bəndləri) fəsillərdə birləşə bilərlər. Məzmunca yaxın olan bir neçə fəsillər bölmələrdə birləşə bilərlər.

23.3. Normativ hüquqi aktın maddələri ayrı-ayrı hüquq normalarını əks etdirən bəndlərə, bəndlər isə yarımbəndlərə bölünə bilər. Maddə, bənd və yarımbəndlərin daxilində abzaslara ayrılan hissələr ola bilər.

23.4. Məcəllənin daxili strukturu digər əsaslarla qurula bilər.

23.5. Normativ hüquqi aktın qəbul edilməsinin məqsəd və səbəblərini, onun qarşısında duran əsas vəzifələri izah etmək zərurəti olan hallarda normativ hüquqi akta giriş hissəsi (preambula) verilir.

23.6. Zəruri hallarda normativ hüquqi aktda istifadə edilən termin və anlayışların mənasını izah edən maddə həmin normativ hüquqi akta daxil edilə bilər.

23.7. Normativ hüquqi aktın fəsilləri və maddələrin adları olmalıdır.

23.8. Həcmcə kiçik, fəsilsiz olan normativ hüquqi aktın maddələri abzas ola bilər.

23.9. Normativ hüquqi aktın strukturuna əlavələr daxil edilə bilər.

23.10. Məcəllənin, zəruri halda həcmcə iri normativ hüquqi aktın strukturuna mündəricat daxil edilir.

Maddə 24. Normativ hüquqi aktlara əlavə və dəyişikliklər edilməsi

24.1. Normativ hüquqi aktın hissəsi (fəsli, maddəsi, bəndi) qüvvədən düşmüş hesab edildikdə, onlar qüvvədə olan aktdan çıxarılır, lakin onların nömrələri saxlanılır və normativ hüquqi aktın hissələrinin (fəsillərinin, maddələrinin, bəndlərinin) nömrələri dəyişmir.

24.2. Normativ hüquqi akta əlavə hissə (fəsil, maddə, bənd) əlavə edildikdə, onlar aktın hissələrinin nömrələrini təkrarlamaqla əlavə nömrə ilə daxil edilir.

Maddə 25. Normativ hüquqi aktlarda başqa aktların maddələrinə istinad edilməsi və aktlarda başqa aktların maddələrinin təkrarlanması

Zəruri hallarda normartiv hüquqi aktda digər aktların maddələrinə istinadlara, habelə yüksək səviyyəli aktlara istinad etməklə belə, normativ hüquqi aktların ayrı-ayrı müddəalarının təkrarlanmasına yol verilir.

Maddə 26. Normativ hüquqi aktların maddələrində başqa maddələrə istinad edilməsi

Hüquqi normaların arasında qarşılıqlı əlaqəni pozmamaq və yaxud təkrarlara yol verməmək zərurəti olduğu hallarda, normativ hüquqi aktın maddələrində həmin normativ hüquqi aktın başqa maddələrinə istinad edilə bilər.

Maddə 27. Normativ hüquqi aktın dili

Aktın mətni sadə, ədəbi dildə verilməlidir. Köhnəlmiş, çoxmənalı söz və ifadələrdən, obrazlı sözlərdən, epitet və metaforalardan istifadə edilməsinə yol verilmir.

Maddə 28. Normativ hüquqi aktda məsuliyyət tədbirlərinin nəzərdə tutulması

Dövlət və yerli özünüidarə orqanlarının, siyasi partiyaların, ictimai birliklərin, həmkarlar ittifaqları təşkilatlarının, onların vəzifəli şəxslərinin, hüquqi və fiziki şəxslərin vəzifələrini nəzərdə tutan aktlarda həmin vəzifələrin pozulmasına görə qüvvədə olan qanunvericiliklə məsuliyyət nəzərdə tutulmamışdırsa, bu cür məsuliyyət tədbirləri göstərilməlidir.

Maddə 29. Yeni normativ hüquqi aktın qəbul edilməsi ilə əlaqədar qüvvədə olan aktların öz qüvvəsini itirməsi və ya onlara dəyişikliklər və əlavələr edilməsi

29.1. Yeni aktın qəbul edilməsi ilə yeni normativ göstərişlərə zidd olan və ya yeni aktla tam əhatə olunan, yaxud formal olaraq qüvvədən düşməmiş, lakin faktik əhəmiyyətini itirən əməllər qəbul edilmiş bütün aktlar, yaxud onun hissələri bu Qanunla müəyyən edilmiş qaydada qüvvəsini itirmiş hesab olunur.

29.2. Yeni normativ hüquqi aktın qəbul edilməsi ilə əlaqədar olaraq zəruri hallarda qüvvədə olan normativ hüquqi aktlara onları qəbul etmiş orqan tərəfindən müvafiq dəyişikliklər və əlavələr edilir.

Maddə 30. Normayaradıcı orqanın ləğvi və ya yenidən təşkili hallarında onun aktlarının qüvvədən düşməsi, yayılması, onlara dəyişiklik və əlavələr edilməsi

Normayaradıcı orqanın ləğvi və ya yenidən təşkili zamanı onun aktlarının qüvvədən düşmüş hesab edilməsi, onların yayılması, onlara dəyişiklik və əlavələr edilməsi məsələləri həmin orqanın hüquqi varisi və yaxud yuxarı orqan tərəfindən həll edilir.

IV FƏSİL. NORMATİV HÜQUQİ AKTLARIN MÜSTƏQİL ELMİ EKSPERTİZASI

Maddə 31. Layihələrin elmi ekspertizası və onun məqsədi

31.1. Baxılmaq və qəbul olunmaq çün təqdim edilmiş normativ hüquqi akt layihəsinin keyfiyyətinin qiymətləndirilməsi üçün müstəqil elmi (hüquqi, iqtisadi, maliyyə, texniki, ekoloji və s.) ekspertiza keçirilə bilər.

31.2. Elmi ekspertizanın əsas məqsədləri:

31.2.1. Hazırlanan layihələrin yüksək keyfiyyətinin, əsaslılığının, qanuniliyinin və aktuallığının təmin edilməsi;

31.2.2. Qəbul edilən normativ hüquqi aktların elmi əsaslandırılmış sisteminin yaradılması;

31.2.3. Qəbul edilən aktların mümkün neqativ, sosial, iqtisadi, hüquqi, ekoloji və digər nəticələrinin aşkarlanması.

Maddə 32. Layihəni ekspertizaya göndərmək səlahiyyəti

Normativ hüquqi aktın layihəsi onu qəbul etmək səlahiyyəti olan orqanın rəhbərliyinin qərarı ilə elmi ekspertizaya göndərilə bilər.

Maddə 33. Qanun layihəsinin hazırlanmasında iştirak edən ekspertlərin hüquqları

Qanun layihəsinin ekspertizasında iştirak edən şəxslərin.

33.1. Azərbaycan Respublikası Milli Məclisinin Aparatında və başqa dövlət orqanlarındakı layihənin hazırlanması ilə bağlı material və sənədlərlə, o cümlədən razılaşdırma və ümumxalq müzakirəsi zamanı alınmış təklif, rəy, irad və başqa materiallarla tanış olmaq;

33.2. Müvafiq layihə müzakirə edilərkən, normativ hüquqi aktı qəbul etmək hüququ olan kollegial orqanların işində iştirak etmək hüquqları var.

Maddə 34. Ekspertlərin müstəqilliyi

Ekspertlər normativ hüquqi aktı qiymətləndirərkən müstəqildirlər və ekpertiza keçirmə tapşırığı verən orqandan asılı deyillər.

Maddə 35. Ekspert rəyinə baxılması

Qanunun layihəsi barədə ekspertlərin rəyinə layihə Azərbaycan Respublikasının Milli Məclisində müzakirə edilməmişdən qabaq daimi Komissiyaların iclasında baxılır.

Azərbaycan Respublikası Milli Məclisinə təqdim edilmiş və ekspertizaya göndərilmiş qanunun və ya başqa normativ hüquqi aktın layihəsi Azərbaycan Respublikasının Milli Məclisində yalnız ekspet rəyi verildikdən sonra müzakirə edilir.

V FƏSİL. NORMATİV HÜQUQİ AKTLARIN DƏRCİ VƏ BAŞQA FORMADA YAYILMASI

Maddə 36. Normativ hüquqi aktların dərci

36.1. Referendumla qəbul olunmuş aktlar, qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərmanları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları istisna olmaqla özündə dövlət sirləri əks etdirən normativ hüquqi aktların yayılması və qüvvəyə minməsi qaydası müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyənləşdirilir.

36.2. Rəsmi qaydada dərc olunmuş normativ hüquqi aktlar qüvvəyə mindikdən sonra onların hər hansı orqan tərəfindən yerlərə göndərilmə faktından asılı olmayaraq, bütün dövlət orqanları və vəzifəli şəxslər tərəfindən tətbiq və icra olunmalıdır.

Maddə 37. Normativ hüquqi aktın icraçılarının vəzifələri normativ hüquqi aktın icrası üçün məsul olan orqan və vəzifəli şəxslər

37.1. İcraçıları aktla tanış etməli (zəruri hallarda iltizamnamə ilə);

37.2. Zəruri hallarda aktların surətləri, onlardan çıxarışlarla icraçıları təmin etməli, aktları görünən yerlərdə asmalı, aktın qüvvəsi şamil edilən təşkilat, orqan və şəxslərin nəzərinə çatdırmaq üçün zəruri tədbirlər görməlidirlər.

Maddə 38. Normativ hüquqi aktlarm dərc olunması

38.1. Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları rəsmi nəşrlər sayılan «Azərbaycan» qəzetində və «Azərbaycan Respublikasının qanunvericilik toplusu»nda dərc olunur.

38.2. Azərbaycan Respublikası Milli Məclisinin qərarları «Azərbaycan» qəzetində və «Azərbaycan Respublikası Milli Məclisinin məlumatı»nda dərc olunur.

38.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları rəsmi nəşr sayılan «Azərbaycan Respublikası qanunvericilik toplusu» və «Respublika» qəzetində dərc olunur, zəruri hallarda onların

dərhal və geniş yayımının təmini üçün digər kütləvi informasiya vasitələrinin köməyindən istifadə olunur.

38.4. Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi) normativ hüquqi aktları müvafiq icra hakimiyyəti orqanı tərəfindən rəsmi nəşr sayılan «Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlarının bülleteni»ndə dərc olunur.

38.5. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikası Milli Məclisi və müvafiq icra hakimiyyəti orqanları qəbul etdikləri normativ hüquqi aktları rəsmi dərc edə bilərlər.

38.6. Bu maddədə göstərilmiş normativ hüquqi aktlar onu qəbul etmiş orqanlar və ya müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi) tərəfindən əhalinin geniş kütlələrinin tanış olması zərurəti nəzərə alınmaqla lazımi tirajda dərc edilir.

38.7. Normativ hüquqi aktlar həmçinin istənilən kütləvi informasiya vasitələri və nəşriyyatlar tərəfindən dərc oluna bilər.

Maddə 39. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərar və qərardadlarının dərci

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları və dərc olunmalı qərardadları rəsmi nəşr sayılan «Azərbaycan» qəzetində və «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc olunur.

Maddə 40. Azərbaycan Respublikası Mərkəzi seçki Komissiyasının aktlarının dərci.

Azərbaycan Respublikası Mərkəzi seçki Komissiyasının dərc olunmalı aktları rəsmi nəşr sayılan «Azərbaycan» qəzetində və rəsmi Mətbuat orqanında dərc olunur.

VI FƏSİL. NORMATİV HÜQUQİ AKTLARIN ZAMAN, MƏKAN VƏ SUBYEKTLƏRƏ GÖRƏ QÜVVƏSİ

Maddə 41. Normativ hüquqi aktların qüvvəyə minməsi müddəti

41.1. Azərbaycan Respublikası qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, onların özündə başqa müddət nəzərdə tutulmanmışdırsa, dərc edildiyi gündən qüvvəyə minir.

41.2. Müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının [Azərbaycan Respublikasının nazirlikləri, bütün digər mərkəzi və yerli icra hakimiyyəti orqanları başa düşülür (Azərbaycan Respublikası Prezidentinin nəzdində (yanında) yaradılan orqanlar istisna olmaqla)] normativ hüquqi aktları, yerli icra hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının və Azərbaycan Respublikası Milli Bankının normativ aktları müəyyən ediimiş qaydada dövlət qeydiyyatından keçdikdən sonra özlərində başqa qayda nəzərdə tutulmamışdırsa, dərc edildiyi gündən qüvvəyə minir.

41.3. Normativ hüquqi aktın hissəsinin (fəslinin, maddəsinin, bəndinin) qüvvəyə minməsi üçün normativ hüquqi aktın bütövlükdə qüvvəyə minməsinə dair müəyyən edilmiş müddətdən fərqli müddət müəyyən edilə bilər.

Maddə 42. Normativ hüquqi aktların qüvvəsinin geriyə şamil edilməsi

Normativ hüquqi aktların qüvvəsinin geriyə şamil edilməsi Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsi ilə tənzimlənir.

Maddə 43. Normativ hüquqi aktın qüvvədə olma müddəti

43.1. Normativ hüquqi akt, onun özündə ayrı hal nəzərdə tutulmamışdırsa, müddətsiz qüvvədə olur.

43.2. Akt bütövlükdə, yaxud onun bir hissəsi müvəqqəti qüvvədə ola bilər. Bu halda aktda onun və ya onun müvafiq hissəsinin qüvvədə olma müddəti göstərilir. Göstərilən müddət qurtaran kimi akt, yaxud onun müvafiq hissəsi əlavə elan olmadan qüvvədən düşür. Göstərilən müddət qurtaranadək aktı qəbul etmiş orqan aktın qüvvədə olma müddətinin artırılması və ya ona müddətsiz xarakter verilməsi haqqında qərar qəbul edə bilər.

Maddə 44. Normativ hüquqi aktın qüvvəsinin itirilməsi

44.1. Normativ hüquqi akt (onun hissəsi) aşağıdakı hallarda öz qüvvəsini itirir:

44.1.1. Müvəqqəti aktın (aktın hissəsinin) müddəti başa çatdıqda;

44.1.2. Əvvəllər qəbul edilmiş aktın müddəaları yeni qəbul edilmiş akta zidd olduqda;

44.1.3. Əvvəllər qəbul edilmiş aktın müddəaları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqaviləyə zidd olduqda;

44.1.4. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-3, 6, 8-ci bəndlərində nəzərdə tutulmuş hallarla əlaqədar Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı qəbul edildikdə;

44.1.5. Aktı qəbul etmiş və ya qanunla müəyyən edilmiş qaydada bu səlahiyyətləri almış orqan tərəfindən onun qüvvədən düşməsi və yaxud dayandırılması barədə qərar qəbul edildikdə.

44.2. Normativ hüquqi akt onu qəbul etmiş orqanın aktı ilə və ya bunun üçün qanunvericiliklə müvəkkil edilmiş orqanın aktı ilə qüvvədən düşmüş hesab edilir.

Maddə 45. Normativ hüquqi aktların məkana və subyektlərə görə qüvvəsi

45.1. Normativ hüquqi aktlar müvafiq olaraq Azərbaycan Respublikasının bütün ərazisində və ya inzibati-ərazi vahidinin ərazisində qüvvədə olur.

45.2. Normativ hüquqi aktların qüvvəsi qanunla müəyyən edilmiş hallar istisna olmaqla Azərbaycan Respublikasının vətəndaşlarına, Azərbaycan Respublikasının ərazisində daimi yaşayan və ya müvəqqəti olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə, habelə dövlət və yerli özünüidarə orqanlarının, siyasi partiyaların, ictimai birliklərin, həmkarlar ittifaqları təşkilatlarının və başqa hüquqi şəxslərin vəzifəli şəxslərinə tətbiq edilir.

VII FƏSİL. NORMATİV HÜQUQİ AKTLARIN ŞƏRHİ

Maddə 46. Normativ hüquqi aktların şərhini zəruri edən hallar

46.1. Normativ hüquqi aktın məzmununun müəyyən edilməsinə, məna və məqsədlərinin, qanunvericilikdə istifadə olunan istilahların aydınlaşdırılmasına onun şərhi deyilir.

46.2. Rəsmi şərh buna səlahiyyəti olan orqanlar tərəfindən verilə bilər.

Maddə 47. Azərbaycan Respublikası Konstiıusiyasının və qanunlarının rəsmi şərhinin verilməsi

Azərbaycan Respublikası Konstirusiyasının və Azərbaycan Respublikasının qanunlarının rəsmi şərhini Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi verir.

Maddə 48. Müvafiq icra hakimiyyəıi orqanların normativ hüquqi aktlarının rəsmi şərhi

Müvafiq icra hakimiyyəti orqanları qəbul etdikləri normativ hüquqi aktları rəsmi şərh edə bilərlər.

Maddə 49. Normativ hüquqi aktın şərhi zamanı akta dəyişikliklər olunmasının və konkretləşdirici normaların əlavə edilməsinin yolverilməzliyi

Normativ hüquqi akt şərh edilərkən ona dəyişikliklər edilməsinə, konkretləşdirici normalar əlavə olunmasına yol verilmir.

Genişləndirici və yaxud məhdudlaşdırcı təfsirə yalnız normativ hüquqi aktın mətni və mənası arasında açıq-aşkar fərq olanda yol verilir.

VIII FƏSİL. NORMATİV HÜQUQİ AKTLARIN SİSTEMLƏŞDİRİLMƏSİ VƏ UÇOTU

Maddə 50. Normativ hüquqi aktların məcmuə və topluları

Normativ hüquqi aktların rəsmi məcmuə və topluları, qanunvericilikdə başqa qayda nəzərdə tutulmayıbsa, həmin aktları qəbul edən orqanlar, yaxud onların tapşırığı ilə başqa orqanlar dərc edirlər.

Maddə 51. Normativ hüquqi aktların dövlət uçotu və dövlət qeydiyyatı

51.1. Azərbaycan Respublikasının bütün normativ hüquqi aktları dövlət uçotuna alınmaq üçün, Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanlarının (Azərbaycan Respublikasının nazirlikləri, bütün digər mərkəzi və yerli icra hakimiyyəti orqanları), yerli özünüidarə orqanlarının və Azərbaycan Respublikası Milli Bankının normativ aktları isə, həmçinin dövlət qeydiyyatı üçün müvafiq icra hakimiyyəti (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi) orqanına təqdim edilir.

51.2. Azərbaycan Respublikasının normativ hüquqi aktlarının dövlət uçotu və qeydiyyatı qaydası müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyən edilir.

IX FƏSİL. SON MÜDDƏALAR

Maddə 52. Normativ hüquqi aktların hazırlanmasının, nəşrinin və qeydiyyatının maliyyələşdirilməsi

Normativ hüquqi aktların müqavilə və ya sifarişlə hazırlanması, ən yaxşı layihə üçün müsabiqə keçirilməsi, onların ekspertizası, rəsmi, nəşri və sair üsulla yayılması, habelə dövlət qeydiyyatı ilə əlaqədar xərclər dövlət büdcəsi hesabına ödənilir.

Maddə 53. Bu Qanunun qüvvəyə minməsi qaydası

53.1. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

53.2. Bu Qanun qüvvəyə mindiyi gündən 6 sentyabr 1994-cü ildə qəbul olunmuş «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının qanunu qüvvədən düşmüş hesab edilsin.

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV
Bakı şəhəri, 26 noyabr 1999-cu il.
№ 761-IQ

BÜDCƏ SİSTEMİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

I FƏSİL. ÜMUMİ MÜDDƏALAR

Bu Qanun Azərbaycan Respublikasında büdcə sisteminin təşkilinin, büdcələrin tərtibi, təsdiqi, icrası və onların icrasına nəzarətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, habelə dövlət büdcəsi ilə büdcədənkənar dövlət fondlarının, yerli büdcələrin qarşılıqlı əlaqələrinin əsas prinsiplərini müəyyən edir.

Maddə 1. Qanunda istifadə olunan əsas anlayışlar

1.1. Bu Qanunun məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə olunur:

1.1.1. Büdcə — Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədi;

1.1.2. Büdcə təsnifatı — dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin, yerli büdcələrin və büdcədənkənar dövlət fondlarının gəlirlərinin, xərclərinin və maliyyələşmə mənbələrinin funksional, iqtisadi, təşkilati və digər prinsiplər əsasında qruplaşdırılması;

1.1.3. Büdcə ili — yanvar ayının 1-dən dekabr ayının 31-dək olan bir illik dövr;

1.1.4. Təsdiq olunan büdcə ayırmaları — qanunvericiliklə təsdiq olunan və dövlət büdcəsində, Naxçıvan Muxtar Respublikasının büdcəsində və yerli büdcələrdə maddələr üzrə xərclənə biləcək vəsaitin yuxarı həddi;

1.1.5. Büdcədənkənar dövlət fondları — qanunvericiliyə uyğun olaraq dövlət tərəfindən hüquqi şəxs qismində təsis edilmiş və dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondları.

1.1.6. Dövlət büdcəsindən və Naxçıvan Muxtar Respublikasının büdcəsindən kənarda əməliyyatlar — müvafiq icra hakimiyyəti orqanlarının və büdcə təşkilatlarının qanunvericiliklə müəyyən edilmiş qaydada büdcədən kənarda əldə etdikləri gəlirləri və həyata keçirdikləri xərcləri üzrə maliyyə əməliyyatları;

1.1.7. İcmal büdcə — dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin (büdcədənkənar əməliyyatlar da daxil olmaqla) və büdcədənkənar dövlət fondlarının gəlir və xərclərini funksional və iqtisadi təsnifata uyğun paraqraflar səviyyəsində əks etdirən maliyyə sənədi;

1.1.8. Büdcə kəsiri (defisit) — büdcə xərclərinin gəlirlərlə təmin olunmayan məbləği;

1.1.9. Büdcə artıqlığı (profisit) — büdcə gəlirlərinin büdcə xərclərindən artıq olan məbləği;

1.1.10. Dövlət büdcəsinin kassa icrası — büdcə gəlirlərinin büdcəyə daxilolmasını və xərclərinin büdcə təsnifatına uyğun olaraq xəzinədarlıq vasitəsilə ünvanlı istifadəsini təmin edən icra mexanizmi;

1.1.11. Büdcə gəlirləri — Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının və yerli özünüidarəetmə orqanlarının müvafiq qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada dövlət büdcəsinə, Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə daxil olan vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalar;

1.1.12. Büdcə xərcləri — büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən və yerli büdcələrdən qanunvericiliklə nəzərdə tutulan tələbatı ödəmək üçün ayrılan vəsait;

1.1.12.1. Mərkəzləşdirilmiş gəlir-dövlət büdcəsində müəyyən edilən normativlərə uyğun olaraq dövlət büdcəsi gəlirlərindən yerli gəlirlər çıxıldıqdan sonra formalaşan gəlir;

1.1.12.2. Mərkəzləşdirilmiş xərc — büdcə təsnifatına uyğun olaraq, dövlət büdcəsində nəzərdə tutulan müvafiq orqanların fəaliyyətinin və tədbirlərin maliyyələşdirilməsi ilə bağlı xərclər;

1.1.12.3. Yerli gəlir — dövlət büdcəsində müəyyən edilən normativlər əsasında formalaşan ayrı-ayrı şəhər və rayonlar üzrə gəlir;

1.1.12.4. Yerli xərc — büdcə təsnifatına uyğun olaraq, maliyyələşdirilməsi yerli gəlirlər və mərkəzləşdirilmiş gəlirlərdən ayrılan vəsait hesabına həyata keçirilən xərclər;

1.1.13. Büdcə ssudaları — dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə, yerli büdcələrdən bələdiyyə təşkilatlarına qaytarılmaq şərti ilə il ərzində müəyyən müddətə verilən maliyyə vəsaiti;

1.1.14. Dotasiya — dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə onların gəlir və xərclərini tənzimləmək məqsədilə əvəzsiz verilən maliyyə vəsaiti;

1.1.15. Qrant-daxili və xarici mənbələr hesabına əvəzsiz verilən məqsədli maliyyə yardımı;

1.1.16. Subvensiya — məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə verilən, lakin həmin məqsəd üçün və ya müəyyən edilmiş müddətdə istifadə edilmədikdə geri qaytarılan maliyyə vəsaiti;

1.1.17. Subsidiya — dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə əvəzsiz verilən maliyyə vəsaiti;

1.1.18. Məqsədli büdcə fondları — dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrin tərkibində konkret tədbirlərin həyata keçirilməsi üçün formalaşan və istifadə edilən pul vəsaiti;

1.1.19. Sekvestr — dövlət büdcəsi, Naxçıvan Maxtar Respublikasının büdcəsi və yerli büdcələrin gəlirləri yerinə yetirilmədikdə, müdafiə olunmuş xərc maddələri istisna olmaqla, büdcə ilinin qalan ayları üzrə xərclərin müəyyən olunmuş qaydada ixtisarı;

1.1.20. Müdafiə olunan xərc maddələri — büdcə ili ərzində maliyyələşdirilməsinə sekvestr tətbiq olunmayan, qanunvericiliklə müəyyən edilmiş büdcə xərcləri;

1.1.21. Dövlət borcu — müvafiq xərclərin maliyyələşdirilməsi üçün dövlət zəmanəti əsasında alınan və müəyyən olunmuş müddətlərdə qaytarılmasına öhdəlik götürülən maliyyə vəsaiti;

1.1.22. Toplu maliyyə balansı — konkret dövr üçün ölkədə maliyyə vəsaitinin yaranma mənbələri və istifadə istiqamətləri barədə məlumatları özündə əks etdirən maliyyə sənədi;

1.1.23. Büdcə təşkilatı — maliyyələşdirilməsi bilavasitə Azərbaycan Respublikasının dövlət büdcəsi və Naxçıvan Muxtar Respublikasının büdcəsi hesabına həyata keçirilən idarə və təşkilatlar;

1.1.24. Büdcənin tərtibi prosesində iştirak edən təşkilatlar— mərkəzi və yerli icra hakimiyyəti orqanları və onların struktur bölmələri, büdcə gəlirlərinin icrasını təmin edən orqanlar, dövlət büdcəsindən maliyyələşən və (və ya) maliyyə yardımı alan təşkilatlar, büdcədənkənar dövlət fondları və vergi ödəyiciləri, zərurət yarandıqda, bələdiyyələr.

Maddə 2. Büdcə sistemi haqqında qanunvericilik

Büdcə sistemi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikası Konstitusiyasından, bu Qanundan, bu Qanuna müvafiq olaraq hər büdcə ili üzrə qəbul edilən dövlət büdcəsi haqqında qanundan, digər qanunlardan və normativ hüquqi aktlardan, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Maddə 3. Büdcə sistemi

3.1. Azərbaycan Respublikasında büdcə sistemini Azərbay-can Respublikasının dövlət büdcəsi (bundan sonra — dövlət büdcəsi), Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələr təşkil edir.

3.2. Büdcə sistemi bu sistemə daxil olan büdcələrini vahid prinsiplər əsasında fəaliyyətinə və onların müstəqilliyinə əsaslanır.

3.3. Büdcə sisteminin vahidliyi tənzimləyici mədaxil mənbələrindən istifadə etmək, məqsədli büdcə fondları yaratmaq, maliyyə ehtiyatlarını müxtəlif səviyyəli büdcələr arasında bölüşdürmək vasitəsilə büdcələrin qarşılıqlı əlaqəsinə əsaslanır.

Büdcə sisteminin vahidliyi eyni büdcə təsnifatı, büdcə sənədləri və formalarından istifadə olunması, büdcələrin icrasına dair müntəzəm hesabatın və icmal büdcə hesabatının hazırlanması və qanunvericiliklə müəyyən olunmuş qaydada təqdim edilməsi yolu ilə təmin edilir.

3.4. Büdcələrin müstəqilliyi mövcud qanunvericiliyə uyğun olaraq mədaxil mənbələrinin və vahid büdcə təsnifatı çərçivəsində xərclərinin istiqamətlərini müəyyənləşdirmək hüququnun olması ilə təmin edilir.

Maddə 4. Büdcə təsnifatı

4.1. Azərbaycan Respublikasının büdcə sisteminə daxil olan büdcələr və büdcə təşkilatları**,** habelə büdcədənkənar dövlət fondları üzrə maliyyə əməliyyatlarının (o cümlədən büdcə təşkilatlarının büdcədənkənar əməliyyatlarının) müqayisəsini təmin etmək məqsədilə Azərbaycan Respublikasında vahid büdcə təsnifatı tətbiq olunur.

4.2. Büdcə təsnifatı büdcə gəlirlərinin təsnifatından, büdcə xərclərinin funksional, iqtisadi, təşkilati və sair prinsiplər əsasında tərtib olunmuş təsnifatından ibarətdir.

Büdcə təsnifatının gəlirlər, funksional, iqtisadi, təşkilati və sair üzrə tərkibi qanunvericiliklə müəyyən edilir.

Maddə 5. Məqsədli büdcə fondları

5.1. Məqsədli büdcə fondları dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin və yerli büdcələrin tərkib hissəsi kimi yaradıla bilər. Bu fondlar müstəqil mədaxil mənbələrinə malik ola bilərlər.

5.2. Məqsədli büdcə fondları üzrə daxilolmalar və xərclər büdcələrin gəlir, xərc hissələrində ayrıca göstərilməklə müvafiq maliyyə əməliyyatları xəzinədarlıq vasitəsilə həyata keçirilir.

5.3. Məqsədli büdcə fondlarının vəsaiti, təyinatı üzrə istifadə olunmalıdır və onların başqa məqsədlər üçün xərclənməsinə yol verilmir.

5.4. Məqsədli büdcə fondlarının hesablarında ilin sonuna qalan vəsait onların növbəti ildə gəlirlərinə daxil edilir.

5.5. Məqsədli büdcə fondları müstəqil mədaxil mənbələrinə malik olmayaraq nıüvafiq büdcələrdən ayırmalar hesabına formalaşdıqda, bu fondlar həmin büdcələrin xərc hissəsində əks etdirilir. İlin sonuna fondların hesablarında qalan istifadə olunmamış vəsait maliyyələşdirmə mənbəyinə qaytarılır.

Maddə 6. Ehtiyat fondları

6.1. Dövlət büdcəsində, Naxçıvan Muxtar Respublikasının büdcəsində və yerli büdcələrdə nəzərdə tutulmayan xərclər, təbii fəlakət, digər fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, habelə dövlət və yerli əhəmiyyətli tədbirlərin həyata keçirilməsi üçün məbləği müəyyən edilən ehtiyat fondu yaradılır.

6.2. Ehtiyat fondunda vəsaitin həcmi növbəti büdcə ilinin gəlirinin 5 faizindən artıq olmamaqla və əvvəlki illərdə bu xərcin faktiki icrası baş verən fövqəladə halların və 6.1-ci maddədə nəzərdə tutulan digər tədbirlərin statistikası nəzərə alınmaqla müəyyən edilir.

6.3. Ehtiyat fondunun vəsaitinin istifadə müddəti büdcə ilinin sonunda başa çatır.

6.4. Ehtiyat fondunun vəsaitindən istifadə qaydaları müvafiq icra hakimiyyəti orqanı və bələdiyyələr tərəfindən təsdiq edilir.

6.5. Ölkənin sosial-iqtisadi həyatı üçün mühüm əhəmiyyət kəsb edən, lakin maliyyələşdirilməsinə vəsait nəzərdə tutulmayan tədbirlər üçün dövlət büdcəsində məbləği büdcə xərclərinin 2 faizindən çox olmamaqla, Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu yaradılır.

6.6. Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondunun vəsaiti yalnız müvafiq icra hakimiyyəti orqanının sərəncamları ilə müəyyən edilmiş xərclərin maliyyələşdirilməsinə istifadə olunur.

6.7. Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondunun vəsaiti ölkədə seçkilərin və referendumların keçirilməsinə, habelə Azərbaycan Respublikası Prezidentinin fəaliyyətinin təbliği məqsədilə xərclənə bilməz.

Maddə 7. Müdafiə olunan xərc maddələri

7.1. Büdcəyə daxilolmaların vəziyyətindən asılı olmayaraq, iqtisadi təsnifatın aşağıdakı maddələri üzrə xərclər müdafiə olunan xərc maddələri hesab edilir və onlara sekvestr tətbiq olunmur:

7.1.1. əməkhaqqı;

7.1.2. əməkhaqqına üstəlik;

7.1.3. pensiya, başqa sosial müavinətlər və ödənişlər;

7.1.4. dövlətin daxili və xarici borclarına xidmətlə bağlı xərclər;

7.1.5. hər il üçün dövlət büdcəsi haqqında qanuna uyğun olaraq müdafiə olunması zəruri sayılan digər maddələr üzrə xərclər.

II FƏSİL. DÖVLƏT BÜDCƏSİ

Madcfə 8. Dövlət büdcəsinin məqsədi

Azərbaycan Respublikası dövlət büdcəsinin məqsədi ölkənin iqtisadı, sosial və digər strateji proqramlarının və problemlərinin həlli, dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanmasını və istifadəsini təmin etməkdir.

Azərbaycan Respublikasının dövlət büdcəsi mərkəzləşdirilmiş gəlir və xərclərdən, yerli gəlir və xərclərdən ibarətdir.

Maddə 9. Dövlət büdcəsinin gəlirləri

9.1. Dövlət büdcəsinin gəlirləri aşağıdakılardan ibarətdir:

9.1.1. dövlət vergiləri;

9.1.2. qrantlar;

9.1.3. digər gəlirlər;

9.1.4. daxili və xarici mənfeə fefdgfl-aknan qrantlar və transfertlər;

9.1.5. Azərbaycan Respublikasının qanunvericiliyi i1ə müəyyən edilən.

9.2. Dövlət büdcəsi gəlirlərinin yığımı Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq həyata keçirilir. Gəlirlərin məbləğinin yuxarı həddi dövlət büdcəsinin qanunla təsdiq olunmuş göstəriciləri ilə məhdudlaşmır.

9.3. Qanunvericiliklə nəzərdə tutulmuş həcmdən artıq ödənilmiş vergilərin, rüsumların, digər ödənişlərin və daxilolmaların büdcədən qaytarılması dövlət büdcəsi gəlirlərinin azaldılmasına aid edilir.

Maddə 10. Dövlət büdcəsinin xərcləri

10.1. Dövlət büdcəsinin xərclərinə aşağıdakılar daxildir:

10.1.1. cari xərclər, o cümlədən əməkhaqqı, əməkhaqqına üstəlik, pensiya və başqa sosial müavinətlər və ödənişlər, malların satın alınması və başqa xidmətlər üzrə xərclər, faiz üzrə ödənişlər, qrantlar, subsidiyalar və cari köçürmələr;

10.1.2. əsaslı xərclər, o cümlədən əsas vəsaitlərin alınması, kapital qoyuluşları və səhmlərin alınması;

10.1.3. kreditlər üzrə borclara, faizlərə xidmət xərcləri və layihələrdə pay iştirakı.

10.2. Büdcə xərcləri müvafiq büdcə təsnifatına uyğun olaraq, təsdiq olunmuş büdcə ayırmaları həddində cari, investisiya, innovasiya və digər xərclərin maliyyələşdirilməsinə yönəldilir.

10.3. Hər ilin dövlət büdcəsində təsdiq edilmiş ayırmalar həmin məqsədlər üçün xərclərin ən yüksək səviyyəsini göstərir. İl ərzində faktiki xərclər bu məbləğdən çox ola bilməz.

10.4. Hər ilin dövlət büdcəsi üzrə təsdiq edilmiş ayırmaların icra müddəti büdcə ilinin sonunda başa çatır.

Maddə 11. Dövlət büdcəsi layihəsinin tərtibi prosesi və büdcə təqvimi

11.1. Dövlət büdcəsi layihəsinin tərtibi prosesi növbəti büdcə ilinə 11 ay qalmış başlanır və büdcə layihəsinin Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edildiyi günədək olan dövrü əhatə edir.

11.2. Növbəti büdcə ili üzrə dövlət büdcəsinin layihəsi ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi proqnozları, məqsədli proqramlar, iqtisadiyyatın sahələrinin, inzibati rayonların, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisələrin cari və növbəti il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi əsasında hazırlanır.

11.3. Dövlət büdcəsi layihəsinin tərtibi prosesinə yanvar ayının üçüncü on günlüyü ərzində müvafiq icra hakimiyyəti orqanının mətbuatda dərc olunan qərarı ilə başlanılır. Bu qərara uyğun olaraq fevral ayının sonunadək müvafiq icra hakimiyyət orqanı tərəfindən tərtib edilmiş ölkənin orta müddətli iqtisadi və sosial inkişaf proqramı dəqiqləşdirilir.

11.4. Dəqiqləşdirilmiş ortamüddətli iqtisadi və sosial inkişaf proqramına müvafiq olaraq, cari ilin mart ayında növbəti il üçün ilkin ortamüddətli büdcə proqnozu (gəlirlər, xərclər, kəsir və maliyyələşmə) və investisiya proqramı tərtib edilir.

11.5. Cari ilin aprel ayının 15-dək dövlət büdcəsinin və investisiya proqramının ilkin layihəsi hazırlanaraq büdcə-vergi siyasətinin əsas istiqamətləri, büdcə təsnifatının bölmələri səviyyəsində gəlir və xərclərin yuxarı həddi, dövlət borcları, prioritet xərclər, növbəti büdcə ili və sonrakı üç il üçün icmal büdcə proqnozu ilə birlikdə baxılmaq üçün müvafiq icra hakimiyyəti orqanına təqdim olunur.

11.6. Cari ilin may ayının 1-dək müvafiq icra hakimiyyəti orqanı tərəfindən növbəti il üzrə dövlət büdcəsinin layihəsi və sonrakı üç il üçün icmal büdcə göstəricilərinin tərtibinə dair təlimat məktubu hazırlanır və büdcənin tərtibində iştirak edən təşkilatlara göndərilir. Bu təlimatda aidiyyəti məlumatlarla yanaşı təşkilatlar və hər bölmə üzrə xərclərin yuxarı həddinə, cari xərclərə dair təsdiq olunmuş normalara, formalara, ətraflı büdcə təklifinin müvafiq icra hakimiyyəti orqanına təqdim edilməsi üçün yardımçı sənədlər daxil olmaqla gəlirlərin və xərclərin təhlilinə (qiymətləndirilməsinə) dair məlumatlar verilir.

11.7. Büdcə təşkilatlarının xərcləri müəyyən edilərkən onların büdcədənkənar vəsaitləri nəzərə alınır.

11.8. Dövlət büdcəsinin gəlirlərinin icrasını təmin edən orqanlar və Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən təşkilatlar təlimata uyğun olaraq hazırlanmış büdcə layihəsini cari ilin iyul ayının 1-dək müvafiq icra hakimiyyəti orqanına təqdim edirlər.

11.9. Bu Qanunun 11.8.-ci maddəsinə əsasən təqdim olunmuş büdcə layihələrində aşağıdakılar əks etdirilir:

11.9.1. Funksional və iqtisadi təsnifatların paraqrafları üzrə keçən ildə faktiki və cari ilin sonuna gözlənilən büdcə xərclərinin məbləği, Naxçıvan Muxtar Respublikası, ölkənin şəhər və rayonları üzrə, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş vergi ödəyicilərinin qrupları üzrə keçən ildə əldə edilmiş və cari ildə gözlənilən büdcə gəlirlərinin məbləği, hesablanmış büdcə gəlirlərinin keçən ildə faktiki və cari ildə gözlənilən məbləği, büdcə gəlirlərinin keçən ildə faktiki və cari ilin sonuna gözlənilən qalığı;

11.9.2. Funksional və iqtisadi təsnifatın paraqrafları və Naxçıvan Muxtar Respublikası, respublikanın şəhərləri, rayonları üzrə keçən ildə əldə edilmiş büdcədənkənar gəlirlərin və xərclərin məbləği, gəlirlərin və xərclərin keçən ilin sonuna qalığı, cari ildə və növbəti büdcə ilində büdcədənkənar gəlirlərin, xərclərin məbləğləri;

11.9.3. Funksional və iqtisadi təsnifatın paraqrafları və Naxçıvan Muxtar Respublikası, respublikanın şəhər və rayonları üzrə, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş vergi ödəyicilərinin qrupları üzrə növbəti il üçün təklif olunan büdcə gəlirlərinin və xərclərinin həcmi, ödənilməli olan verginin və ödənişlərin məbləği, büdcə-vergi siyasətində nəzərdə tutulmuş tədbirlərin qiymətləndirilməsinə dair göstəricilər**;**

11.9.4. İqtisadi və funksional təsnifat, Naxçıvan Muxtar Respublikası, respublikanın şəhər və rayonları üzrə, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş vergi ödəyicilərinin qrupları üzrə sonrakı üç il üçün gəlirlərin və xərclərin qiymətləndirilməsi;

11.9.5. Maliyyələşdirmə mənbəyi göstərilməklə növbəti il və sonrakı üç il üçün iqtisadi və funksional təsnifatın paraqrafları üzrə investisiya proqramları üzrə xərclərin həcmi.

11.10. Avqust ayının 1-dək müvafiq icra hakimiyyəti orqanları tərəfindən cari ilin altı ayının faktiki nəticələri nəzərə alınmaqla növbəti il üzrə və orta müddətli makroiqtisadi göstəricilər, habelə sosial, iqtisadi və investisiya proqramları dəqiqləşdirilir.

11.11. Müvafiq icra hakimiyyəti orqanı makroiqtisadi göstəricilərin dəqiqləşdirilmiş proqnozuna və hazırlanmış proqramlara əsasən dövlət büdcəsinin layihəsində gəlirləri və xərcləri yenidən hesablayır.

11.12. Dövlət büdcəsi layihəsinin dəqiqləşdirilmiş göstəricilərini əsas gotürməklə müvafiq icra hakimiyyəti orqanı iyul-avqust aylarında dövlət büdcəsinin gəlirlərinin icrasını təmin edən orqanlarla və büdcə təşkilatları, həmçinin Naxçıvan Muxtar Respublikasının icra hakimiyyəti orqanları ilə, zərurət olduqda bələdiyyələrlə və mülkiyyət formasından asılı olmayaraq hüquqi

şəxslərlə alınmış büdcə layihələri üzrə müzakirələr aparır. Müzakirələrin nəticələri protokollarla rəsmiləşdirilir.

11.13. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət büdcəsinin tərtibi üçün lazım olan əsaslandırıcı materiallar və hesablamalar mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, habelə onların struktur bölmələrindən, dövlət büdcəsindən, maliyyələşdirilən büdcə təşkilatlarından, zərurət yarandıqda mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq digər hüquqi şəxslərdən, bələdiyyələrdən və büdcədənkənar dövlət fondlarından tələb oluna bilər.

11.14. Dövlət büdcəsindən maliyyə yardımları almaq istəyən bələdiyyələr cari ilin may ayının 1-dək aşağıdakı sənədləri və məlumatları müvafiq icra hakimiyyəti orqanına təqdim edirlər:

11.14.1. Cari ilin gözlənilən və ötən ilin büdcəsinin faktiki nəticələri barədə arayış;

11.14.2. Növbəti büdcə ili üzrə yerli büdcələrin nəzərdə tutulan gəlirləri və xərcləri, dövlət büdcəsindən ayrılacaq dotasiyanın və digər maliyyə yardımlarının həcminin əsaslandırılması;

11.14.3. Ötən ildə yerli büdcənin icra vəziyyəti barədə auditor rəyi;

11.14.4. Müvafıq icra hakimiyyəti orqanının sorğusuna görə digər materiallar.

11.15. Növbəti büdcə ili üzrə dövlət büdcəsininvə icmal büdcənin layihəsi və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri cari ilin sentyabr ayının 15-dək müvafiq icra hakimiyyəti orqanına təqdim edilir.

11.16. Növbəti büdcə ili üzrə dövlət büdcəsinin və icmal büdcənin layihəsi sonrakı üç il üçün icmal büdcəsinin göstəriciləri və bu Qanunla müəyyən edilən digər sənədlərlə birlikdə sentyabr ayının 25-dək müvafiq icra hakimiyyəti orqanına təqdim edilir.

11.17. Növbəti il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələrinin və sonrakı üç il üçün icmal büdcənin tərtibi prosesində iştirak edən təşkilatlar tərəfindən qanunvericiliklə müəyyən edilən sənədlərin vaxtında müvafiq icra hakimiyyəti orqanına təqdim edilməməsi büdcənin tərtibi prosesinin pozulmasına səbəb olarsa,

həmin təşkilatların vəzifəli şəxsləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Maddə 12. Dövlət büdcəsinin layihəsi ilə birlikdə hazırlanan və təqdim olunan sənədlər

12.1. Növbəti büdcə ili üzrə dövlət büdcəsi ilə bağlı aşağıdakı sənədlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilir:

12.1.1. Növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsi və qanun layihəsinə dair izahat;

12.1.2. Azərbaycan Respublikasının növbəti büdcə ili və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri;

12.1.3. Büdcə-vergi siyasətinin əsas istiqamətləri;

12.1.4. Dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulan məqsədli proqramlar;

12.1.5. Büdcə gəlirləri təsnifatının, funksional, iqtisadi və təşkilati təsnifatların paraqrafları səviyyəsində gəlirlərin və xərclərin layihəsi;

12.1.6. Dövlət borcları və dövlət zəmanəti ilə digər öhdəliklərə dair məlumat;

12.1.7. Növbəti il üzrə icmal büdcənin funksional və iqtisadi təsnifata uyğun olaraq paraqraflar səviyyəsində layihəsi;

12.1.8. Növbəti il üzrə dövlət büdcəsinin və icmal büdcənin, habelə sonrakı üç il üzrə icmal büdcənin layihələrinə uyğun olaraq mühüm investisiya layihələrini özündə əks etdirən dövlət investisiya proqramlarının layihələri;

12.1.9. Azərbaycan Respublikasının ərazisi üzrə toplu maliyyə balansı;

12.1.10. Qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olunması nəzərdə tutulduğu hallarda növbəti büdcə ili üzrə büdcədənkənar dövlət fondlarının büdcələri haqqında qanun layihələri;

12.1.11. Növbəti büdcə ili üzrə gəlirlərin və xərclərin ötən ilin faktiki və cari ilin gözlənilən nəticələri ilə (gəlirlərin təsnifatı üzrə,

xərclərin funksional, iqtisadi və təşkilati təsnifatının paraqrafları səviyyəsində) müqayisəsi;

12.1.12. Funksional, iqtisadi və təşkilati təsnifatın paraqrafları səviyyəsində cari ilin dövlət büdcəsinin gözlənilən icrasının vəziyyəti;

12.1.13. Cari ilin icmal büdcəsinin gözlənilən icrasına dair məlumat;

12.1.14. Büdcədənkənar əməliyyatlara dair icmal hesabat;

12.1.15. Keçən büdcə ilində, faktiki və cari büdcə ilində gözlənilən maliyyələşdirmə mənbələri barədə hesabat;

12.1.16. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən digər sənədlər.

Maddə 13. Növbəti büdcə ili üzrə dövlət büdcəsinə dair sənədlərin Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilməsi

Növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsi ona əlavə edilmiş digər sənədlərlə birlikdə cari ilin oktyabr ayının 15-dən gec olmayaraq Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsinin 2-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisinin müzakirəsinə və təsdiqinə təqdim edilir.

Maddə 14. Dövlət büdcəsi haqqında qanun layihəsinin dərc edilməsi

Növbəti il üçün dövlət büdcəsinin layihəsi bu Qanunun 12.1.1-12.1.10-cu maddələrində göstərilən sənədlərlə birlikdə Azərbaycan Respublikasının Milli Məclisinə daxil olduğu tarixdən 10 gün ərzində mətbuatda dərc edilir.

Maddə 15. Növbəti büdcə ili üzrə dövlət büdcəsi layihəsinin müzakirəsi və təsdiqi

15.1. Növbəti büdcə ili üzrə dövlət büdcəsi layihəsinin müzakirəsi və təsdiqi Azərbaycan Respublikasının Milli Məclisinin Daxili Nizamnaməsinə uyğun olaraq həyata keçirilir.

15.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada Azərbaycan Respublikasının Milli Məclisinin iclasında növbəti büdcə ili üzrə dövlət büdcəsinin müzakirəsində icra hakimiyyəti orqanları iştirak edir.

Büdcə layihəsinin müzakirəsi zamanı Azərbaycan Respublikası Milli Bankının İdarə Heyətinin sədri qarşıdakı il üçün pul siyasətinin əsas istiqamətləri barədə Azərbaycan Respublikası Milli Məclisinə məlumat verir.

15.3. Növbəti büdcə ili üzrə dövlət büdcəsinin layihəsi Azərbaycan Respublikasının Milli Məclisində cari ilin dekabr ayının 20-dən gec olmayaraq təsdiq edilir.

15.4. Növbəti büdcə ili üzrə dövlət büdcəsinin layihəsi müəyyən olunmuş müddət ərzində təsdiq olmadıqda, müvafiq icra hakimiyyəti orqanı dövlət büdcəsi təsdiq olunanadək hər ay üzrə ötən ilin xərclərinin on ikidə biri qədərində (müdafiə olunmuş xərc maddələri üzrə tam) maliyyələşmənin aparılmasının müvəqqəti qaydalarını müəyyənləşdirir. Eyni qayda büdcədənkənar dövlət fondlarının idarəetmə və əməliyyat xərclərinə də şamil edilir.

Maddə 16. Növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanunla təsdiq olunan əsas göstəricilər

16.1. Növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanunla aşağıdakı əsas göstəricilər təsdiq olunur:

16.1.1. gəlirlərin və xərclərin ümumi məbləği;

16.1.2. vergilərin dərəcələri;

16.1.3. mədaxil mənbələri üzrə gəlirlərin məbləği;

16.1.4. mənbələr üzrə qrantlar və transfertlər;

16.1.5. ayrı-ayrı gəlirlərin büdcələr arasında bölgüsü və ayırma normaları;

16.1.6. funksional və iqtisadi təsnifata uyğun olaraq paraqraflar səviyyəsində xərclərin məbləği:

16.1.7. Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə verilən qrantların, dotasiyaların, subsidiyaların və subvensiyaların məbləği;

16.1.8. digər büdcə ssudalarının ümumi məbləği və istiqamətləri;

16.1.9. daxili və xarici dövlət borclarının faizləri və əsas məbləğləri üzrə ödənişlər;

16.1.10. dövlətin üçüncü tərəf qarşısında öhdəliyinin yuxarı həddi;

16.1.11. və sair beynəlxalq öhdəliklərin məbləği;

16.1.12. ehtiyat fondlarının məbləği;

16.1.13. Azərbaycan Respublikasının daxili və xarici borclanmasının (il ərzində götürülə biləcək dövlət borcunun, o cümlədən dövlət istiqrazları hesabına cəlb ediləcək vəsaitin məbləği) və büdcə ili ərzində veriləcək maliyyə zəmanətləri üzrə məbləğin yuxarı həddi;

16.1.14. xərclərin maliyyələşdirilmə ardıcıllığı;

16.1.15. dövlət büdcəsinin müdafiə olunan xərc maddələri;

16.1.16. dövlət büdcəsi kəsirinin yuxarı həddinin məbləği;

16.1.17. Azərbaycan Respublikası Dövlət Neft Fondunun gəlirləri nəzərə alınmadan icmal büdcə kəsirinin yuxarı həddinin məbləği;

16.1.18. icmal büdcənin xərclərinin yuxarı həddinin məbləği;

16.1.19. təsdiq olunması zəruri hesab edilən digər göstəricilər.

16.2. Dövlət büdcəsindən maliyyələşən büdcə təşkilatlarına və onlar tərəfindən tədbirlərin keçirilməsinə ayrılan vəsaitin məbləği qanunla təsdiq olunmuş xərc maddələri çərçivəsində təşkilati təsnifata uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

16.3. Növbəti büdcə ili üzrə dövlət büdcəsi təsdiq edildikdən və qanunvericilikdə nəzərdə tutulmuş qaydada imzalandıqdan sonra mətbuatda dərc olunur.

Maddə 17. Növbəti büdcə ili üzrə dövlət büdcəsinin təsdiq olunmuş göstəricilərinin büdcə təşkilatlarına çatdırılması

17.1. Müvafiq icra hakimiyyəti orqanı növbəti büdcə ili üzrə dövlət büdcəsinin təsdiq olunmuş göstəriciləri əsasında onun büdcə

təsnifatına uyğun olaraq mənbələr üzrə gəlirlərinin və xərclərinin rüblük, zəruri hallarda aylıq bölgüsünü müəyyən edir.

17.2. Təsdiq olunmuş dövlət büdcəsinin göstəriciləri, gəlir və xərclərin bölgüsü müvafiq icra hakimiyyəti orqanı tərəfindən bir ay müddətində büdcə təşkilatlarına çatdırılır.

17.3. Dövlət büdcəsi xərclərinin təşkilatlar üzrə bölgüsündə nəzərdə tutulmuş ayırmaların müəyyən olunmuş müddətdə büdcə təşkilatlarına çatdırılmasına görə müvafiq icra hakimiyyəti orqanlarının rəhbərləri Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Maddə 18. Dövlət büdcəsinin icrası

18.1. Dövlət büdcəsi müvafiq icra hakimiyyəti orqanları, onların tabeliyindəki təşkilatlar tərəfindən dövlət xəzinədarlığı vasitəsilə icra edilir.

18.2. Dövlət büdcəsindən maliyyələşən təşkilatların vəzifəli şəxsləri tabeliyində olan müəssisələrin həyata keçirdikləri maliyyə əməliyyatlarına, xərc normalarına və müvafiq maliyyə qaydalarına riayət etməmələrinə görə məsuliyyət daşıyırlar. Bu qaydalara riayət etməyən, o cümlədən vəsaitin hərəkətinə və istifadəsinə dair məlumatı təqdim etməyən, həmin vəsaitin təyinatını dəyişən büdcə təşkilatlarına qarşı qanunvericiliklə nəzərdə tutulmuş tədbirləri həyata keçirə bilər.

18.3. Dövlət büdcəsinin gəlirlərinin icrasını təmin edən orqanlar müəyyən edilmiş formalara uyğun olaraq aylıq, rüblük və ilin əvvəlindən artan yekunla gəlirlərin təsnifatı üzrə hesabatları müvafiq icra hakimiyyəti orqanına təqdim edirlər.

18.3.1. Büdcə təşkilatları və dövlət büdcəsindən maliyyə yardımları alan təşkilatlar həmin vəsaitlərdən istifadə barədə müəyyən olunmuş qaydada aylıq, rüblük və ilin əvvəlindən artan yekunla funksional, iqtisadi və təşkilati təsnifat üzrə hesabatları müvafiq icra hakimiyyəti orqanına təqdim edirlər.

18.4. Zərurət yarandıqda müvafiq icra hakimiyyəti orqanları təsdiq olunmuş büdcə ayırmaları həddində, bölmələrin xərc maddə-

ləri və funksional təsnifatın paraqrafları səviyyəsində iqtisadi təsnifatın yarımmaddələri arasında müvafiq dəyişikliklər edə bilər.

Maddə 19. Dövlət büdcəsinin kassa icrası

19.1. Dövlət büdcəsinin kassa icrası dövlət xəzinədarlığı vasitəsilə həyata keçirilir. Dövlət xəzinədarlığı dövlət maliyyəsindən istifadə sahəsində şəffaflığı təmin etmək məqsədilə dövlət büdcəsindən maliyyələşən bütün idarə, müəssisə və təşkilatlar üzrə maliyyə əməliyyatlarının müvafiq uçot qaydalarına uyğun uçotunu aparır.

19.2. Dövlət büdcəsinə bütün daxilolmalar və ödəmələr, büdcədənkənar haqlar (ödənişlər), büdcədənkənar dövlət fondları (Azərbaycan Respublikası Dövlət Neft Fondunun gəlirləri, əməliyyat xərcləri, beynəlxalq banklarda və digər maliyyə institutlarında vəsaitin yerləşdirilməsi ilə bağlı xərclər istisna olmaqla) dövlət büdcəsinin kəsirinin bağlanması üçün dövlət təminatı ilə alınmış kreditlər üzrə əməliyyatlar və digər dövlət maliyyə əməliyyatları qanunvericiliklə müəyyən edilmiş qaydalara uyğun olaraq dövlət xəzinədarlığı vasitəsilə icra edilir.

19.3. Büdcə təşkilatlarının satın aldığı mallara, qəbul etdiyi iş və xidmətlərə görə dövlət xəzinədarlığı tərəfindən qabaqcadan dövlət (büdcə) öhdəlikləri götürülür və bu öhdəliklər çərçivəsində satınalmalardan yaranan kreditor borcları xəzinədarlıq tərəfindən ödənilir.

19.4. Dövlət büdcəsinin icrası prosesində qəbul edilmiş öhdəliklər üzrə əməliyyatlar büdcə ili qurtardıqdan sonra həyata keçirilə bilməz. Belə öhdəliklər üzrə ödəmələr növbəti büdcə ilindəki ayırmalar hesabına təmin olunur.

19.5. İlin sonuna bütün xəzinə hesablarının qalıqları dövlət büdcəsinin vahid xəzinə hesabına (məqsədli təyinatlı maliyyələşmələr istisna olmaqla) köçürülür və həmin vəsait növbəti ilin aidiyyəti büdcə xərclərinin ödənilməsinə və dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsinə yönəldilə bilər.

19.6. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 22.2-ci maddəsində nəzərdə tutulan vergi orqanlarının maddi həvəsləndirmə və inkişaf fonduna vəsaitin ayrılması həmin ilin vergi daxilolmalarının azaldılması hesabına həyata keçirilir.

19.7. Dövlət xəzinədarlığının öhdəsində olan nağd pul vəsaiti onun vahid hesabında müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş müvəkkil banklarda saxlanılır.

19.8. Vahid xəzinə hesabının idarə edilməsinin və bu hesabdan vəsaitin silinməsinə sərəncam verilməsinin müstəsna səlahiyyəti dövlət xəzinədarlığına məxsusdur.

Dövlət xəzinədarlığının razılığı olmadan bu hesabdan hər hansı formada vəsaitin köçürülməsi və ya götürülməsi qadağandır.

19.9. Büdcə təşkilatları əldə etdikləri büdcə və büdcədənkənar gəlirləri tam həcmdə və vaxtında vahid xəzinə hesabına köçürməlidirlər.

19.10. Dövlət büdcəsinin icrasına dair hesabatın layihəsi və icmal hesabat müvafiq icra hakimiyyəti orqanı tərəfindən hazırlanır.

19.11. Büdcə təşkilatları tərəfindən malların (işlərin və xidmətlərin) satın alınması Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

19.12. Dövlət büdcəsindən və Naxçıvan Muxtar Respublikasının büdcəsindən maliyyələşən təşkilatlar dövlət xəzinədarlığının yazılı icazəsi olmadan bank hesabı açа və ya belə hesabdan istifadə edə bilməzlər. Qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada dövlət xəzinədarlığı əvvəllər verdiyi icazəni geri çağıra bilər.

Maddə 20. Dövlət büdcəsinin icrası barədə hesabat

20.1. Dövlət büdcəsinin icrası barədə aylıq hesabat hesabat ayından sonrakı ayın 25-dək tərtib olunur və müvafiq icra hakimiyyəti orqanlarına təqdim edilir. Hesabatda dövlət büdcəsinin icrası funksional və iqtisadi təsnifat əsasında ilin əvvəlindən artan yekunla əks etdirilir.

20.2. Dövlət büdcəsinin icrası barədə rüblük hesabat növbəti rübün birinci ayının sonunadək Azərbaycan Respublikasının Milli Məclisinə və müvafiq icra hakimiyyəti orqanlarına təqdim olunur. Hesabat mətbuatda dərc edilir. Rüblük hesabatda başqa göstəricilərlə yanaşı, gəlir və xərclərin icrasının müqayisəli təhlili verilir. Xərclərin maliyyələşdirilməsində faktiki göstəricilərlə təsdiq olunmuş

rəqəmlər arasında fərq yarandıqda, hesabatda bu fərqlə bağlı izahat və dövlət əhəmiyyətli layihələrə dair məlumatlar da əks olunur.

20.3. Dövlət büdcəsinin icrası barədə illik hesabat və müvafiq qanun layihəsi təsdiq olunmaq üçün növbəti ilin may ayının 15-dən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunur. Hesabat özündə digər məlumatlarla yanaşı bütün dövlət borcları, il ərzində götürülən borclar və verilən dövlət təminatları**,** buraxılmış dövlət istiqrazları və ehtiyat fondlarından il ərzində istifadə haqqında məlumatları da əks etdirir.

20.4. Dövlət büdcəsinin gəlirlərinin icrası barədə hesabat dövlət büdcəsinin gəlirlərini təmin edən orqanlar və dövlət xəzinədarlığı tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formalarda aylıq, rüblük və ilin əvvəlindən artan yekunla gəlirlərin təsnifatı üzrə təqdim edilmiş hesabatlar əsasında hazırlanır.

20.5. Azərbaycan Respublikası Hesablama Palatası öz nizamnaməsinə uyğun olaraq dövlət büdcəsinin icrası barədə hesabatlara və müvafiq qanun layihələrinə dair rəy verir.

20.6. Azərbaycan Respublikasının Milli Məclisi təqdim olunmuş sənədləri müzakirə edir və müvafiq hesabat ili üzrə dövlət büdcəsinin icrası barədə qanunu təsdiq edir.

20.7. İcmal büdcənin icrası barədə rüblük və illik hesabatlar (büdcənin gəlirləri, xərcləri, dövlət borcunun məbləği, kreditlər və s. məlumatlar da daxil olmaqla) mətbuatda dərc edilir.

Maddə 21. Dövlət büdcəsinin icrasına nəzarət

21.1. Dövlət büdcəsinin icrasına nəzarəti Azərbaycan Respublikasının Milli Məclisi və onun Hesablama Palatası həyata keçirir.

21.2. Dövlət büdcəsinin icrasına nəzarəti öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

21.3. Dövlət büdcəsindən maliyyələşən büdcə təşkilatlarının rəhbərləri onlara tabe təşkilatlarda gəlir və xərclərin müəyyən edilmiş qaydada uçotunun aparılması və vəsaitin təyinatı üzrə istifadəsinə görə qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

21.4. Dövlət büdcəsindən maliyyələşdirilən müəssisə və təşkilatların maliyyə-təsərrüfat fəaliyyətində maliyyə qaydaları pozulduqda, müvafıq icra hakimiyyəti orqanı qanunvericilikdə nəzərdə tutulmuş qaydada tədbirlər həyata keçirir.

Maddə 22. Dövlət büdcəsinin və icmal büdcənin auditi

Dövlət büdcəsinin və icmal büdcənin gəlirlərinin və xərclərinin, o cümlədən büdcədənkənar dövlət fondlarının auditi qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının Hesablama Palatası tərəfindən aparılır.

Maddə 23. Dövlət büdcəsinə yenidən baxılma və xərclərə sekvestr tətbiq olunması

23.1. Dövlət büdcəsinin gəlirləri və xərcləri arasında tarazlığın təmin olunması onun tərtibinin və icrasının mühüm şərtidir.

23.2. Dövlət büdcəsinin icrası prosesində onun gəlirləri və xərcləri arasında tarazlığın pozulması təhlükəsi yarandıqda müvafiq icra hakimiyyəti orqanının təklifi ilə Azərbaycan Respublikasının Milli Məclisi qarşısında dövlət büdcəsinə yenidən baxılması barədə məsələ qaldırıla bilər. Bu zaman dövlət büdcəsinin icrasının vəziyyəti barədə Azərbaycan Respublikası Hesablama Palatasının rəyi olmalıdır.

23.3. Dövlət büdcəsinin icrası prosesində gəlirlər təsdiq olunmuş məbləğdən az daxil olduqda funksional və iqtisadi təsnifat üzrə xərclər (müdafiə olunan xərc maddələri istisna olmaqla) mütənasib şəkildə, təşkilati təsnifat üzrə xərclər isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada azaldılır.

23.4. Dövlət büdcəsinin icrası barədə rüblük hesabatlarda büdcənin gəlirləri üzrə faktiki daxilolmalar həmin dövr üçün təsdiq edilmiş göstəricilərdən 20 faiz az olduqda həmin hesabatlar Azərbaycan Respublikası Milli Məclisinin müvafiq komissi-yala-rında müzakirə edilir.

23.5. Dövlət büdcəsinin icrası prosesində büdcənin gəlirləri üzrə faktiki daxilolmalar ilin birinci yarısı üzrə nəzərdə tutulan göstəricilərdən 30 faiz az olduğu halda, müdafiə olunmuş xərc

maddələrinin maliyyələşdirilməsi üçün vəsait çatmadıqda, büdcə kəsirinin nisbi göstəricisi təsdiq olunmuş səviyyəni keçdikdə və ilin sonunadək yuxarıda göstərilənləri aradan qaldırmaq barədə müvafiq icra hakimiyyəti orqanları tərəfindən əsaslandırılmış təklif olmadıqda müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikası Milli Məclisi qarşısında büdcədə dəqiqləşdirmə aparılması barədə oktyabr ayının 1 -dən gec olmayaraq məsələ qaldırır. Cari ilin dəqiqləşdirilmiş dövlət büdcəsi haqqında qanun layihəsini Azərbaycan Respublikasının Milli Məclisi oktyabr ayının 15-dən gec olmayaraq təsdiq edir.

Maddə 24. Dövlət büdcəsinin kəsiri

24.1. Dövlət büdcəsi kəsirinin məbləği növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanunla müəyyən edilir.

24.2. Büdcə kəsirinin maliyyələşməsi dövlət borcu, kredit və digər mənbələr hesabına həyata keçirilir.

Maddə 25. Dövlət borcu və ona xidmət göstərilməsi

25.1. Ölkənin sosial və iqtisadi inkişaf proqramlarının yerinə yetirilməsini təmin etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının qərarı ilə dövlətin təminatı əsasında borc alına bilər.

25.2. Dövlətin adından borc almaq və onu idarə etmək hüququ müvafiq icra hakimiyyəti orqanına məxsusdur.

25.3. Büdcə ili ərzində alınan dövlət borcunun məbləği, onun istifadəsi və dövlət borcuna xidmət göstərilməsi ilə bağlı xərclər dövlət büdcəsində əks etdirilir.

25.4. Büdcə gəlirlərinin həcmindən və ayırmaların səviyyəsindən asılı olmayaraq dövlət borcu üzrə xidmətlər (əsas borc, faiz) tam və vaxtında həyata keçirilməlidir.

Faizlər və borclar kredit müqaviləsinə, yaxud dövlət qiymətli kağızlarının şərtlərinə əsasən vaxtında ödənilməlidir.

25.5. Daxili və xarici dövlət borclarının yuxarı həddi müvafiq büdcə ili üçün dövlət büdcəsi haqqında qanunla müəyyənləşdirilir.

25.6. Müvafiq icra hakimiyyəti orqanı dövlət borcları üzrə sənədlərin əslinə uyğun olaraq borcların uçotunu aparır və hər rüb onlar haqqında məlumatları mətbuatda dərc etdirir.

Maddə 26. Dövlət büdcəsi ilə Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələr arasında qarşılıqlı əlaqə Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrlə dövlət büdcəsinin qarşılıqlı əlaqəsi gəlir mənbələrinin, gəlirlərin dotasiya, subvensiya və büdcə ssudaları şəklində bölüşdürülməsi vasitəsilə həyata keçirilir.

Maddə 27. Dövlət büdcəsi ilə büdcədənkənar dövlət fondları arasında qarşılıqlı əlaqə

27.1. Dövlət büdcəsinin, büdcədənkənar dövlət fondları büdcələrinin tərtibi, icrası və icrasına nəzarət üzrə əməliyyatların əlaqələndirilməsi müvafiq icra hakimiyyəti orqanı və büdcədənkənar dövlət fondları tərəfindən birgə hazırlanmış və təsdiq olunmuş tədbirlər planı vasitəsilə həyata keçirilir. Tədbirlər planı mətbuatda dərc edilir.

27.2. Büdcədənkənar dövlət fondlarının bütün xərcləri (Azərbaycan Respublikası Dövlət Neft Fondunun əməliyyat xərcləri və beynəlxalq banklarda və digər maliyyə institutlarında vəsaitin yerləşdirilməsi ilə bağlı xərclər istisna olmaqla) icmal büdcənin xərclərinə daxil edilir. Onların əsaslı xərcləri yalnız Dövlət İnvestisiya Proqramına daxil olan layihələrin maliyyələşdirilməsinə yönəldilir.

27.3. Yerli büdcəyə daxil edilən layihələrin maliyyələşdirilməsi üçün büdcədənkənar dövlət fondlarından ayrılan vəsait müvafiq yerli büdcə vasitəsilə istifadə olunur.

27.4. Büdcədənkənar dövlət fondları ölkədaxili kommersiya fəaliyyətinə sərmayələr qoymur, kreditlər və borc zəmanətləri vermirlər. Azərbaycan Respublikasının Dövlət Neft Fondu səhmlərin alınmasını yalnız beynəlxalq bazarlarda yüksək reytinqli peşəkar menecerlər vasitəsilə həyata keçirir.

27.5. Büdcədənkənar dövlət fondlarının gəlir və xərclərinə dair hesabat formaları və onların təqdim edilməsi dövriliyi Azərbaycan

Respublikası Hesablama Palatasının və büdcədənkənar dövlət fondlarının rəyi nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Büdcədənkənar dövlət fondları bu hesabatları müvafiq icra hakimiyyəti orqanlarına və Azərbaycan Respublikası Hesablama Palatasına təqdim edirlər və rübdə bir dəfə mətbuatda dərc etdirirlər.

III FƏSİL. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ BÜDCƏSİNİN TƏRTİBİ, TƏSDİQİ, İCRASI VƏ İCRASINA NƏZARƏT

Maddə 28. Naxçıvan Muxtar Respublikasının büdcəsi

28.1. Naxçıvan Muxtar Respublikasının büdcəsi Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının Konstitusiyaları ilə, bu Qanunla və digər qanunvericilik aktları ilə müəyyən edilir.

28.2. Naxçıvan Muxtar Respublikasının büdcəsi Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən olunmuş dövlət vergiləri, digər ödənişlər, həmin vergi və ödənişlərə görə hesablanmış faiz və sanksiyalar, habelə digər daxilolmalar hesabına formalaşır.

28.3. Naxçıvan Muxtar Respublikasının büdcəsinin vəsaiti Muxtar Respublikanın sosial və iqtisadi inkişafı, əhalinin rifahının yaxşılaşdırılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə istifadə edilir.

Maddə 29. Naxçıvan Muxtar Respublikasının büdcəsinin tərtibi, təsdiqi, icrası və icrasına nəzarət.

29.1. Naxçıvan Muxtar Respublikasının büdcəsinin layihəsi bu Qanunla müəyyən edilmiş dövlət büdcəsinin təqviminə və Naxçıvan Muxtar Respublikasının qanunvericiliyinə uyğun olaraq tərtib olunur.

29.2. Növbəti il üzrə Naxçıvan Muxtar Respublikasının büdcəsi cari ilin dekabr ayının 25-dən gec olmayaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən təsdiq edilir və Naxçıvan Muxtar Respublikasının mətbuatında dərc olunur.

29.3. Naxçıvan Muxtar Respublikasının büdcəsinin icrası bu Qanuna və Naxçıvan Muxtar Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

29.4. Naxçıvan Muxtar Respublikasının büdcəsinin kassa icrası dövlət xəzinədarlığı vasitəsilə həyata keçirilir.

29.5. Naxçıvan Muxtar Respublikasının büdcəsinin icrasına nəzarəti Azərbaycan Respublikasının Hesablama Palatası və Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həyata keçirir.

IV FƏSİL. YERLİ BÜDCƏLƏRİN TƏRTİBİ, TƏSDİQİ, İCRASI VƏ İCRASINA NƏZARƏT

Maddə 30. Yerli büdcə

30.1. Yerli büdcə bələdiyyə statusuna uyğun olaraq özünüidarəetmə prinsiplərini reallaşdırmaq, bələdiyyələrin Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənləşdirilmiş səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaitidir.

30.2. Yerli büdcənin tərtibi və icrası büdcə sisteminin qanunvericiliklə müəyyən edilmiş ümumi prinsipləri əsasında və Azərbaycan Respublikasında tətbiq olunan büdcə təsnifatına uyğun olaraq həyata keçirilir.

Maddə 31. Yerli büdcənin müstəqilliyi

31.1. Yerli büdcənin müstəqilliyi öz mədaxil mənbələrinin və bələdiyyənin yerli büdcə vəsaitinə sərəncam vermək barədə müstəsna hüququnun olması ilə təmin edilir.

31.2. Bələdiyyələrin müraciəti və qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla qanunvericilik və icra hakimiyyəti orqanlarının bələdiyyələrin büdcə fəaliyyətinə müdaxiləsinə yol verilmir.

31.3. Bələdiyyələr maliyyə ilinin sonuna büdcədə əmələ gəlmiş sərbəst maliyyə qalıqlarına müstəqil sərəncam verirlər.

Maddə 32. Bələdiyyələrlə dövlət hakimiyyəti orqanları arasında büdcə münasibətləri

32.1. Bələdiyyələr yerli büdcələrin tərtibində, təsdiqində və icrasında müstəqildirlər.

32.2. Dövlətin yerli büdcələrə maliyyə dəstəyi aşağıdakı yollarla həyata keçirilir:

32.2.1. İnvestisiya mühitini yaxşılaşdırmaqla və səmərəli iqtisadi siyasəti həyata keçirməklə, istehsal və xidmət sahələrinin inkişafına şərait yaratmaq;

32.2.2. Yerli sosial-iqtisadi inkişaf proqramlarını yerli büdcələrin vəsaiti hesabına maliyyələşdirmək mümkün olmadıqda, dövlət büdcəsindən dotasiya və subvensiya ayırmaq.

32.3. Qanunvericilik və icra hakimiyyəti orqanları bələdiyyələrə əlavə səlahiyyətlər həvalə etdikdə onları bu səlahiyyətlərin həyata keçirilməsi üçün zəruri maliyyə vəsaiti ilə təmin edirlər.

32.4. İcra hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar nəticəsində yerli büdcələrin gəlirlərinin azalması və ya xərclərinin artması baş verdikdə, uyğun azalma və ya artma məbləğləri bu qərarları qəbul edən orqanlar tərəfindən kompensasiya olunur.

32.5. Bələdiyyə qanunvericiliklə nəzərdə tutulmuş qaydada yerli büdcənin icrasına dair məlumatı statistika orqanlarına və müvafiq icra hakimiyyəti orqanına təqdim edir.

32.6. Qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla dövlət bələdiyyələrin xərc öhdəliyinə görə məsuliyyət daşımır.

Maddə 33. Yerli büdcənin gəlirləri

33.1. Yerli büdcənin gəlirlərinə Azərbaycan Respublikasının müvafıq qanunları ilə müəyyən edilmiş vergilər və digər ödənişlər, habelə həmin vergi və ödənişlərə görə hesablanmış faiz və sanksiyalar aid edilir.

33.2. Yerli vergi və ödənişlərin hesablanması, ödənilməsi və güzəştlərin verilməsi qaydası, habelə onların dərəcələrinin yuxarı həddi qanunla müəyyən edilir, tətbiqi qaydaları isə bələdiyyələrin qərarları ilə müəyyənləşdirilir.

33.3. Qanunvericiliklə nəzərdə tutulmuş qaydada bələdiyyələr yerli əhəmiyyətli tədbirlərin maliyyələşdirilməsi üçün könüllü birdəfəlik ödənişlər barədə qərarlar qəbul edə bilərlər. Könüllü birdəfəlik ödənişlər yalnız məqsədli təyinatı üzrə istifadə olunur.

Maddə 34. Yerli büdcələrin xərcləri

34.1. Yerli büdcələrin xərclərinin həcmi və istiqamətləri büdcə təsnifatına uyğun olaraq bələdiyyələr tərəfindən müəyyənləşdirilir.

34.2. Yerli büdcələrin xərclərinin öz gəlirləri ilə təmin olunmayan hissəsi (yerli büdcənin kəsiri) dövlət büdcəsindən alınan dotasiya ilə örtülə bilər.

34.3. Dövlət büdcəsindən dotasiya, subvensiya və ssuda alan yerli büdcənin xərclərinin hesablanmasında tətbiq olunan normativlər dövlət büdcəsinin xərclərinin hesablanması üçün tətbiq olunan xərc normativlərindən yüksək olmamalıdır.

34.4. Dotasiyanın yuxarı həddinin hesablanmasında bələdiyyənin ərazisində yaşayan əhalinin sayı və ölkənin maliyyə ehtiyatlarının formalaşmasında onun xüsusi çəkisi və digər amillər nəzərə alına bilər.

34.5. Əlavə səlahiyyətlərin həyata keçirilməsi üçün qanunvericilik və icra hakimiyyəti orqanları tərəfindən ayrılan məqsədli vəsait, o cümlədən subvensiya hesabına xərclərin maliyyələşdirilməsi yerli büdcənin məxaric hissəsində ayrıca sətirlə göstərilir.

Maddə 35. Yerli büdcənin tərtibi

35.1. Yerli büdcənin layihəsi bələdiyyə ərazisində fəaliyyət göstərən bələdiyyə müəssisələrinin və digər hüquqi şəxslərin, habelə fiziki şəxslərin təsərrüfat fəaliyyətinin qiymətləndirilməsi, sosial-iqtisadi proqnozlar və məqsədli proqramlar əsasında formalaşır.

35.2. Dövlət büdcəsindən dotasiya almaq nəzərdə tutulduqda yerli büdcənin layihəsi bu Qanunun 11.14-cü maddəsi ilə müəyyən edilən sənədlər və məlumatlar birgə may ayının 1-dək müvafıq icra hakimiyyəti orqanına təqdim olunur.

35.3. Yerli büdcə layihəsinin tərtibi prosesi növbəti büdcə ilinə 11 ay qalmış başlanır və büdcə layihəsinin bələdiyyə iclasına təqdim edildiyi günədək davam edir. Yerli büdcə layihəsinin tərtibinə və bələdiyyə iclasına təqdim edilməsinə bələdiyyə sədri cavabdehdir və bu məqsədlə o, bələdiyyənin daimi və başqa komissiyalarını, bələdiyyə qulluqçularını və mütəxəssisləri cəlb edə bilər.

Maddə 36. Yerli büdcənin müzakirəsi və təsdiqi

36.1. Növbəti büdcə ili üçün yerli büdcə haqqında qərar layihəsi müvafiq sənədlərlə birlikdə cari ilin oktyabr ayının 15-dən

gec olmayaraq bələdiyyə iclasının müzakirəsinə və təsdiqinə təqdim edilir. Yerli büdcənin layihəsi bələdiyyə iclasına təqdim edildiyi tarixdən 10 gün ərzində yerli əhalinin onunla tanış olması məqsədi ilə dərc edilir.

36.2. Növbəti büdcə ili üzrə yerli büdcənin layihəsi bələdiyyənin qərarı ilə cari ilin dekabr ayının 25-dən gec olmayaraq təsdiq edilir.

Maddə 37. Yerli büdcənin icrası

37.1. Yerli büdcənin kassa icrası bələdiyyənin müraciəti əsasında dövlət xəzinədarlığı vasitəsi ilə və ya qanunvericiliklə müəyyən edilmiş digər üsullarla həyata keçirilə bilər.

37.2. Bələdiyyələrin gəlir və xərc əməliyyatları onların müraciətləri əsasında dövlət xəzinədarlığı vasitəsilə həyata keçirildikdə uçot-hesabatın təşkili üzrə texniki xidməti dövlət xəzinədarlığı təmin edir. Bələdiyyələrin maliyyə əməliyyatları dövlət xəzinədarlığı vasitəsilə həyata keçirilmədiyi hallarda, belə əməliyyatlar üzrə ödəmə və uçot-hesabat işlərinin aparılması qaydaları qanunvericiliklə müəyyən edilir.

37.3. Bələdiyyələr büdcə ilindən sonrakı ilin birinci iş günü gəlir və xərclər üzrə əməliyyatların dövlət xəzinədarlığı vasitəsilə həyata keçirilməsindən imtina edə bilərlər.

37.4. Yerli büdcələrin icrası prosesində bələdiyyələr büdcənin dəqiqləşdirilməsi barədə qərar verə və dövlət büdcəsindən alınmış məqsədli vəsait istisna olmaqla, mədaxil və məxaric maddələrində büdcə təsnifatı üzrə təsdiq edilmiş təhsisat həddində dəyişikliklər apara bilərlər.

37.5. Yerli büdcələrin icrası zamanı qəbul edilmiş öhdəliklər üzrə əməliyyatlar büdcə ili qurtardıqda başa çatır və istifadə olunmayan vəsait bələdiyyələrin sərəncamında qalır.

37.6. Bələdiyyələr maliyyə əməliyyatları apararkən bütün maliyyə qaydalarına riayət edilməsinə və maliyyə vəsaitindən təyinatı üzrə istifadə olunmasına görə məsuliyyət daşıyırlar.

37.7. Yerli büdcənin icrası haqqında illik hesabat bələdiyyələrin nizamnaməsində müəyyən edilmiş qaydada təsdiq edilir və bu barədə bələdiyyənin ərazisində yaşayan əhaliyə məlumat verilir.

Maddə 38. Yerli büdcənin tarazlaşdırılması

Yerli büdcələrin icrası prosesində mədaxil mənbələri üzrə daxil olan vəsait azalarsa və bu, büdcə kəsirinin son həddini aşmasına səbəb olarsa, müdafiə olunan xərc maddələri istisna olmaqla, digər xərclərə sekvestr tətbiq edilir.

Maddə 39. Yerli büdcənin icrasına nəzarət

39.1. Yerli büdcənin icrasına, o cümlədən sərf edilən vəsaitin təsdiq edilmiş büdcə göstəricilərinə uyğunluğuna bələdiyyə nəzarət edir və bu məqsədlə ildə bir dəfədən az olmayaraq müstəqil auditorları cəlb edir.

39.2. Qanunvericilik və icra hakimiyyəti orqanlarının bələdiyyələrə verdikləri səlahiyyətlərin yerinə yetirilməsi üçün ayırdıqları maliyyə vəsaitinin istifadəsinə nəzarəti həmin orqanlar həyata keçirirlər.

Maddə 40. Yekun müddəalar

40.1. Bu Qanun 2003-cü il yanvarın 1-dən qüvvəyə minir.

40.2. Bu Qanun qüvvəyə mindiyi gündən «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, №23, maddə 998), «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununun qüvvəyə minməsi qaydası barəsində Azərbaycan Respublikası Milli Məclisinin Qərarı (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, №23, maddə 999), «Dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, №7, maddə 391) qüvvədən düşmüş hesab edilir.

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV
Bakı şəhəri, 2 iyul 2002-ci il

"AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ BANKI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikası Milli Bankının hüquqi statusunu, onun məqsəd, funksiya və səlahiyyətlərini, habelə idarəetmə və təşkilati strukturunu müəyyən edir, dövlətin mərkəzi bankı kimi dövlət hakimiyyəti orqanları ilə və digər şəxslərlə münasibətlərini tənzimləyir.

I FƏSİL. ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Azərbəycan Respublikasının Milli Bankı

1.1. Azərbaycan Respublikasının Milli Bankı (bundan sonra - Milli Bank) Azərbaycan Respublikasının mərkəzi bankıdır.

1.2. Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin II hissəsinə müvafiq olaraq Milli Bank dövlətin müstəsnə mülkiyyətindədir.

1.3. Milli Bankın məqsədi, funksiya və səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası ilə və bu Qanunla müəyyənləşdirilir. Milli Bank öz fəaliyyətində həmçinin Azərbaycan Respublikasının digər qanunvericilik aktlarını və Azərbaycan Respublikasının tərəfdarçıxdığı beynəlxalq müqavilələri rəhbər tutur.

1.4. Milli Bankın mərkəzi aparatı Bakı şəhərində yerləşir.

Maddə 2. Milli Bankın hüquqi statusu

2.1. Milli Bank dövlət orqanıdır, onun Azərbaycan Respublikasının Dövlət gerbi təsviredilmiş və adı yazılmış möhürü vardır.

2.2. Milli Bank müstəqil balansa, nizamnamə kapitalına və digər əmlaka malikdir. Milli Bank balansında ölən əmlaka qanunvericiliyə uyğun olaraq sahiblik, istifadə və sərəncam hüquqlarını həyata keçirir. Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, Milli Bankın razılığı olmadan kapitalının və digər əmlakının özgəninkiləşdirilməsinə yol verilmir.

Maddə 3. Milli Bankın ərazi idarələri

Milli Bank Azərbaycan Respublikasında ərazi idarələrini açа bilər.

Maddə 4. Milli Bankın məqsədləri

4.1. Milli Bankın fəaliyyətinin əsas məqsədi öz səlahiyyətləri daxilində qiymətlərin sabitliyininin təmin edilməsidir.

4.2. Milli Bankın fəaliyyətinin məqsədi, həmçinin, bank və ödəniş sistemlərinin sabitliyini və inkişafını təmin etməkdir.

4.3. Mənfəət götürmək Milli Bankın əsas məqsədi deyildir.

Maddə 5. Milli Bankın funksiyaları

5.0. Öz məqsədlərinə nail olmaq üçün Milli Bank:

5.0.1. dövlətin pul və valyuta siyasətini müəyyən edir və həyata keçirir;

5.0.2. nağd pul dövriyyəsini təşkil edir, Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin II hissəsinə və bu Qanuna müvafiq olaraq pul nişanlarının tədavülə buraxılmasının və tədavüldən çıxarılmasını həyata keçirir;

5.0.3. manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsini mütəmadi müəyyən edir və elan edir;

5.0.4. qanunvericiliyə uyğun olaraq valyuta tənzimini və nəzarətini həyata keçirir;

5.0.5. sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarını saxlayır və idarə edir;

5.0.6. qanunvericiliyə uyğun olaraq hesabat tədiyə balansını tərtib edir və ölkənin proqnoz tədiyə balansının hazırlanmasında iştirak edir;

5.0.7. "Banklar haqqında" Azərbaycan Respublikası Qanununa, bu Qanuna və onlara müvafiq qəbul etdiyi normativ xarakterli aktlara uyğun olaraq bank fəaliyyətini lisenziyalaşdırır və tənzimləyir, qanunla müəyyən edilmiş qaydada bank fəaliyyətinə nəzarəti həyata keçirir;

5.0.8. ödəniş sistemlərinin fəaliyyətini təşkil edir, əlaqələndirir, tənzimləyir və onların üzərində nəzarəti qanuna uyğun olaraq həyata keçirir;

5.0.9. bu Qanunla və digər qanunlarla nəzərdə tutulmuş başqa funksiyaları həyata keçirir.

Maddə 6. Milli Bankın müstəqilliyi

Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş funksiya və səlahiyyətlərini həyata keçirərkən Milli Bank müstəqildir və bu zaman hər hansı dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları, fiziki və hüquqi şəxslər onun fəaliyyətinə hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhdudiyyət qoya bilməz, qanuna zidd təsir və müdaxilə edə bilməz.

Maddə 7. Milli Bankın hesabatlığı

7.1. Milli Bank öz fəaliyyəti barədə yalnız Azərbaycan Respublikası Prezidentinə hesabat verir.

7.2. Milli Bankın Azərbaycan Respublikası Prezidenti qarşısında hesabatlığı aşağıdakılardan ibarətdir:

7.2.1. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndinə müvafiq olaraq Milli Bankın İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsindən;

7.2.2. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərinə müvafiq olaraq Milli Bankın İdarə Heyəti sədrinin və onun müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsidən;

7.2.3. Bu Qanunun 58-ci maddəsinə müvafiq olaraq Milli Bankın fəaliyyətinin yoxlanılması üçün auditorun təyin edilməsindən və zəruri hallarda auditor yoxlamasının növbədənkənar qaydada keçirilməsindən;

7.2.4. Milli Bankın idarə Heyətinin sədri tərəfindən ildə iki dəfə Milli Bankın əsas məqsəd və funksiyalarının həyata keçirilməsi barədə hesabatın, habelə audit rəyi ilə təsdiq edilmiş ilin yekunları

üzrə maliyyə hesabatının və hesabat əməliyyat büdcəsi barədə hesabatın Azərbaycan Respublikası Prezidentinə təqdim edilməsi.

7.3. Büdcə layihəsinin müzakirəsi zamanı Milli Bankın İdarə Heyətinin sədri qarşıdakı il üçün pul siyəsətinin əsas istiqamətləri barədə Azərbaycan Respublikası Milli Məclisinə məlumat verir.

Maddə 8. Milli Bankın normativ xarakterli aktları

8.1. Milli Bank qanunla onun səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə bütün banklar, bank olmayan kredit təşkilatları, habelə digər şəxslər üçün məcburi normativ xarakterli aktları müstəqil qəbul edir.

8.2. Milli Bankın normativ xarakterli aktları qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət qeydiyyatına alınır.

8.3. Milli Bankın bu Qanunla nəzərdə tutulmuş funksiyalarının və səlahiyyətlərinin həyata keçirilməsi ilə bağlı müəyyən etdiyi maliyyə, prudensial və statistik hesabat formaları dövlət qeydiyyatına alınmır.

Maddə 9. Beynəlxalq əməkdaşlıq

9.1. Milli Bank qanunvericiliyə, habelə Azərbaycan Respub-likasının tərəfdaş çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq onun səlahiyyətlərinə aid edilən məsələlər üzrə xarici dövlətlərin mərkəzi bankları ilə qarşılıqlı münasibətlərdə, habelə beynəlxalq maliyyə-kredit təşkilatlarında Azərbaycan Respublikasını təmsil edir.

9.2. Milli Bank fəaliyyətinin müxtəlif sahələri üzrə xarici dövlətlərin mərkəzi bankları ilə əməkdaşlıq haqqında müqavilələr bağlaya bilər, həmçinin xaricdə yerləşən dövlət və özəl mərkəzi klirinq (prosessinq) idarələri ilə öz adından və ona müvafiq səlahiyyətlər verildiyi halda Azərbaycan dövləti adından klirinq və hesablaşmalar haqqında sazişlər və başqa müqavilələr bağlaya bilər.

9.3. Milli Bank pul, valyuta və bank nəzarəti sahələrində əməkdaşlıq məqsədi daşıyan beynəlxalq və regional təşkilatların kapitallarında və fəaliyyətlərində qanunvericiliklə müəyyən edilmiş qaydada iştirak edə bilər.

II FƏSİL. MİLLİ BANKIN KAPİTALI

Maddə 10. Milli Bankın kapitalı

10.1. Milli Bankın kapitalı onun nizamnamə kapitalından və kapital ehtiyatlarından ibarətdir.

10.2. Milli Bankın nizamnamə kapitalı 50 milyard manatdır.

10.3. Milli Bankın kapital ehtiyatları tədavülə buraxılmış nağd milli valyutanın 15 faizi miqdarında müəyyən edilir və hesabat ilinin mənfəətindən ayırmalar hesabına formalaşdırılır.

Maddə 11. Milli Bankın mənfəəti

11.1. Milli Bankın mənfəəti Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq gəlirlərdən xərclərin çıxılması ilə hesablanır.

11.2. Milli Bankın gəlirləri bu Qanuna müvafiq olaraq həyata keçirdiyi fəaliyyətdən əldə etdiyi gəlirlərdən və qanunvericiliyə zidd olmayan digər mənbələrdən daxil olan vəsait hesabına formalaşır.

Maddə 12. Milli Bankın mənfəətinin bölüşdürülməsi

12.1. Hesabat ilinin mənfəəti ilk növbədə bu Qanunun 10.3-cü maddəsində nəzərdə tutulmuş normativə uyğun olaraq Milli Bankın kapital ehtiyatlarının formalaşdırılmasına yönəldilir.

12.2. Kapital ehtiyatları formalaşdırıldıqdan sonra Milli Bankın reallaşdırılmış mənfəətinin sərbəst qalığı dövlət büdcəsinə köçürülür.

12.3. Reallaşdırılmış mənfəətin sərbəst qalığı Milli Bankın illik maliyyə hesabatı auditor rəyi ilə təsdiqləndikdən sonra dövlət büdcəsinə köçürülür.

Maddə 13. Xarici valyutada və qızılda olan aktivlərin və passivlərin yenidən qiymətləndirilməsi manatın məzənnəsinin və qızılın dəyərinin dəyişməsi ilə əlaqədar hesabat ili ərzində Milli Bankın balansında xarici valyutada və qızılda olan aktiv və passivlərin yenidən qiymətləndirilməsi nəticəsində yaranan fərq Bankın kapital ehtiyatlarında əks olunur və bu Qanunun 10.3-cü

maddəsində nəzərdə tutulmuş normativin hesablanması zamanı nəzərə alınmır.

Maddə 14. Milli Bankın maliyyə etibarlılığı

14.1. Milli Bank müflis elan oluna bilməz.

14.2. Milli Bankın aktivləri onun passivlərinin məbləğindən aşağı düşdükdə yaranmış kapital çatışmazlığı dövlət tərəfindən ödənilir.

III FƏSİL. MİLLİ BANKIN DÖVLƏT HAKİMİYYƏTİ ORQANLARI İLƏ MÜNASİBƏTLƏRİ

Maddə 15. Milli Bankın dövlətlə münasibətlərinin əsasları

15.1. Bu Qanunun 14-cü maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, Milli Bank dövlətin öhdəlikləri üçün, dövlət isə Milli Bankın öhdəlikləri üçün cavabdeh deyildir.

15.2. Milli Bank Azərbaycan dövlətinin bankıdır. Milli Bank Azərbaycan dövlətinin maliyyə agenti kimi çıxış edə bilər.

15.3. Milli Bank bu Qanunla müəyyən olunmuş məqsədlərinə uyğun olaraq dövlətin iqtisadi siyasətinin həyata keçirilməsinə səlahiyyətləri daxilində yardım edir.

Maddə 16. Milli Bankın dövlətə kreditləri

16.1. Milli Bank Azərbaycan Respublikasının dövlət büdcəsi kəsirinin birbaşa maliyyələşdirilməsi üçün dövlətə kredit vermir.

16.2. Dövlət büdcəsində qısamüddətli vəsait çatışmazlığı yarandıqda, Milli Bank müvafiq icra hakimiyyəti orqanı ilə bağlanmış müqaviləyə əsasən gəlir gətirən dövlət borc qiymətli kağızları ilə təmin edilməsi şərti ilə dövlətə ən çoxu 6 ay müddətinə və cari ildə ödənilmək şərti ilə milli valyutada (manatla) kredit verə bilər. Belə kreditlərin verilmiş və ödənilməmiş hissəsinin ümumi məbləği son üç il ərzində dövlət büdcəsinin orta gəlirlərinin 3 faizindən çox ola bilməz.

16.3. Milli Bank tərəfindən Azərbaycan dövlətinin buraxdığı borc qiymətli kağızların almasının dövlətə kreditlərin verilməsi hesab olunur. Belə əqdlər yalnız təkrar bazarda bağlanıla bilər və onlara bu Qanunun 16.2-ci maddəsinin şərtləri şamil olunur.

16.4. Pul siyasətinin həyata keçirilməsi ilə əlaqədar tələb olunduğu halda bu Qanunun 16.2-ci maddəsinin şərtləri tətbiq edilmir, bu şərtlə ki, dövlət borc qiymətli kağızlarının alqı-satqısı təkrar bazarda həyata keçirilmiş olsun.

Maddə 17. Milli Bank dövlətin bankı kimi

17.1. Milli Bank müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış şərtlərlə dövlət xəzinədarlıq hesablarına xidmət göstərir.

17.2. Pul siyasətinin həyata keçirilməsi ilə əlaqədar tələb olunduqda Milli Bank müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış şərtlərlə dövlətdən müddətli depozitlər qəbul edə bilər.

17.3. Milli Bank Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanlarının, habelə dövlət və büdcədənkənar dövlət fondlarının bank hesablarına xidmət göstərə bilər.

Maddə 18. Milli Bankın dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı münasibətləri

18.1. Milli Bank Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarına dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərinə, o cümlədən büdcə-vergi, qiymət-tarif tədbirlərinə, habelə dövlətin daxili və xarici borcunun həcminə və idarə edilməsinə dair təkliflər verə bilər.

18.2. Milli Bank bilavasitə Milli Bankın funksiya və səlahiyyətlərinə aid edilən məsələlər və bank məsələləri üzrə sorğu əsasında qanunların və digər normativ hüquqi aktların layihələrinə dair rəy verə bilər.

Maddə 19. Milli Bank dövlətin maliyyə agenti kimi

Milli Bank müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış şərtlərlə dövlətin maliyyə agenti funksiyalarını həyata keçirə bilər. Maliyyə agenti olaraq Milli Bank dövlətin borc qiymətli kağızlarını yerləşdirmək və onlarla digər əməliyyatlar aparmaqla dövlət borcuna xidmət göstərə, habelə qanunla müəyyən edilmiş hallarda və qaydada başqa maliyyə əməliyyatlarını apara bilər.

IV FƏSİL. MİLLİ BANKIN TƏŞKİLATI STRUKTURU VƏ İDARƏ OLUNMASI

Maddə 20. Milli Bankın təşkilati strukturu

20.1. Milli Bankın təşkilati strukturuna İdarə Heyəti, mərkəzi aparat, ərazi idarələri daxildir. Milli Bankın mərkəzi aparatı daxili audit bölməsindən, habelə İdarə Heyətinin müəyyən etdiyi digər struktur bölmələrdən ibarətdir.

20.2. Milli Bankın mərkəzi aparatına daxil olan bütün struktur bölmələri və qurumları İdarə Heyəti tərəfindən təsdiq edilmiş əsasnamələrə uyğun olaraq fəaliyyət göstərir.

Maddə 21. Milli Bankın İdarə Heyəti

21.1. Milli Bank İdarə Heyəti tərəfindən idarə olunur. Milli Bankın İdarə Heyətinin tərkibi yeddi nəfərdən ibarətdir. İdarə Heyətinin tərkibinə sədr, Milli Bankda daimi əsaslarla işləyən dörd üzv və iki kənar üzv daxildir.

21.2. İqtisadiyyat və ya hüquq sahəsində ali təhsilə, iqtisadiyyat, hüquq, maliyyə və ya bank sahəsi üzrə peşəkar təcrübəyə malik olan, mülkiyyət əleyhinə, iqtisadi fəaliyyət sahəsində, qulluq mənafeyi əleyhinə, habelə ağır və xüsusi ilə ağır cinayətlərə görə məhkum olunmayan, habelə xarici dövlətlərin qarşısında heç bir öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşla-rı İdarə Heyətinin üzvləri ola bilərlər.

21.3. Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvləri, bələdiyyələrin seçkili üzvləri, habelə dövlət hakimiyyəti və ya bələdiyyə orqanında qulluqda olan şəxslər eyni zamanda Milli Bankın İdarə Heyətinin üzvləri ola bilməzlər.

21.4. Milli Bankın İdarə Heyətinin üzvləri Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 10-cu bəndinə, 95-ci

maddəsinin I hissəsinin 15-ci bəndinə və II hissəsinə müvafiq olaraq vəzifəyə təyin və vəzifədən azad edilirlər.

21.5. İdarə Heyətinin üzvləri vəzifəyə 5 il müddətinə təyin edilirlər.

21.6. Milli Bankın İdarə Heyətinin sədri Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə müvafiq olaraq Milli Bankın İdarə Heyətinin üzvləri sırasından İdarə Heyəti üzvünün səlahiyyət müddətinə vəzifəyə təyin edilir.

21.7. Milli Bankın İdarə Heyəti sədrinin birinci müavini və digər müavinləri Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə müvafiq olaraq Milli Bankın İdarə Heyəti üzvləri sırasından İdarə Heyəti üzvünün səlahiyyət müddətinə vəzifəyə təyin edilirlər.

21.8. İdarə Heyətinin üzvləri Milli Bankda daimi əsaslarla işlədiyi dövrdə elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, digər ödənişli fəaliyyətlə, habelə sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilməzlər. Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, İdarə Heyətinin Milli Bankda daimi əsaslarla işləyən üzvləri hüquqi şəxslərin idarəetmə orqanlarında vəzifə tuta bilməzlər.

21.9. Milli Bankın İdarə Heyətinin üzvləri, habelə onların yaxın qohumları (ər-arvad, valideynlər, ər-arvadın valideynləri, baba, nənə, övlad, övladlığa götürülən, qardaş və bacı) Milli Bankın nəzarət etdiyi kredit təşkilatlarında mühüm iştirak payına malik ola bilməzlər.

21.10. İdarə Heyətinin üzvləri siyasi partiyaların üzvü ola bilməz və ictimai birliklərdə vəzifə tuta bilməzlər.

21.11. Milli Bankın İdarə Heyəti sədrinin və onun müavinlərinin vəzifə maaşları Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə müvafiq laraq müəyyən edilir.

21.12. İdarə Heyətinin Milli Bankda daimi əsaslarla işləyən digər üzvlərinin vəzifə maaşları İdarə Heyəti sədrinin və onun müavinlərinin vəzifə maaşları nəzərə alınmaqla İdarə Heyəti tərəfindən müəyyən edilir.

Maddə 22. Milli Bankın İdarə Heyətinin səlahiyyətləri

22.0. Milli Bankın İdarə Heyəti:

22.0.1. Hər il üçün dövlətin pul və valyuta siyasətini müəyyənləşdirir və təsdiq edir;

22.0.2. Pul siyasətinin alətlərinə dair qərarlar qəbul edir, o cümlədən uçot dərəcəsini, özünün əməliyyatları üzrə faiz dərəcələrini, açıq bazarda əməliyyatların şərtlərini müəyyən edir;

22.0.3. Yeni nümunəli pul nişanlarının tədavülə buraxılması və köhnə nümunəli pul nişanlarının tədavüldən çıxarılması barədə qərar qəbul edir;

22.0.4. Valyuta tənzimi və nəzarətinin həyata keçirilməsi, habelə manatın başqa valyutalara mübadilə məzənnəsinin müəyyən olunması qaydasını təsdiq edir;

22.0.5. Milli Bankın büdcəsini və ona dəyişiklikləri təsdiq edir;

22.0.6. Milli Bankın kapital ehtiyatlarının formalaşdırılması və istifadə olunması qaydasını müəyyən edir;

22.0.7. Milli Bankın illik maliyyə hesabatını təsdiq edir;

22.0.8. Beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanılması və idarə olunması strategiyası və qaydalarını müəyyən edir;

22.0.9. Kredit təşkilatlarına bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaların verilməsi və ləğv edilməsi barədə qərar qəbul edir;

22.0.10. Kredit təşkilatları üçün iqtisadi tənzimləmə (prudensial) normativləri müəyyən edir;

22.0.11. Qanunvericiliklə müəyyən olunmuş hallarda banklara müvəqqəti inzibatçının təyin edilməsi və səlahiyyətinə xitam verilməsi haqqında qərar qəbul edir;

22.0.12. Azərbaycan Respublikasının bank sistemində xarici kapitalın iştirak limitini müəyyənləşdirir;

22.0.13. Milli Bankın təşkilati strukturunu və idarəetmə prosedurlarını müəyyən edir;

22.0.14. Milli Banka işə qəbul və əməkdaşların qiymətləndirilməsi qaydalarını, habelə Milli Bankın İdarə Heyətinin nomenklaturasına daxil olan vəzifələri müəyyənləşdirir, həmin vəzifələrə təyinatları və vəzifələrdən azad edilmələri təsdiq edir;

22.0.15. Milli Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin rəhbərinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən vəzifəyə təyin edilməsi və vəzifədən azad edilmə-sinə razılıq verir;

22.0.16. Milli Bankın İdarə Heyəti sədrinin və onun müavinlərinin vəzifə maaşları nəzərə alınmaqla Milli Bankın əməkdaşlarının əməyinin ödənilməsi formalarını və miqdarını müəyyənləşdirir;

22.0.17. Milli Bankın normativ xarakterli aktlarını təsdiq edir;

22.0.18. Bu Qanunla Milli Bankın İdarə Heyətinin səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll edir.

Maddə 23. İdarə Heyətinin iclasları

23.1. Milli Bankın İdarə Heyətinin iclasları ayda bir dəfədən az olmayaraq keçirilir.

23.2. İdarə Heyətinin iclaslarına Milli Bankın İdarə Heyətinin sədri, o olmadıqda bu Qanunda nəzərdə tutulmuş qaydada onun səlahiyyətlərini həyata keçirən İdarə Heyətinin üzvü sədrlik edir.

23.3. İdarə Heyətinin iclaslarını Milli Bankın İdarə Heyətinin sədri çağırır. İclaslar İdarə Heyətinin azı digər iki üzvünün tələbi ilə də çağırıla bilər.

23.4. İdarə Heyətinin üzvlərinə iclasın keçirilməsi yeri və vaxtı, habelə gündəliyinə çıxarılan məsələlər barədə bir qayda olaraq iclasa azı 3 gün qalmış məlumat verilir.

23.5. İdarə Heyətinin iclası İdarə Heyəti üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətli sayılır və bunlardan biri sədr, yaxud onu əvəz edən şəxs olmalıdır.

23.6. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli və bu məsələnin müzakirəsində iştirak etməməlidir. Bu zaman həmin üzv məsələyə dair səsvermədə iştirak etmir və onun iştirakı yetərsay müəyyən edilərkən nəzərə alınmır.

23.7. İdarə Heyətinin qərarları iclasda iştirak edən İdarə Heyəti üzvlərinin adi səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda,

iclasa sədrlik edən həlledici səsə malikdir. İdarə Heyətinin üzvü İdarə Heyətinin qəbul etdiyi qərarla razı olmazsa, bu barədə özünün əsaslandırılmış rəyini bildirə bilər.

23.8. İdarə Heyetinin iclaslarının protokolu tərtib edilir. Protokolu iclasa sədrlik edən və İdarə Heyətinin katibi imzalayır.

23.9. İdarə Heyətinin katibini Milli Bankın İdarə Heyətinin sədri İdarə Heyətinin üzvü olmayan əməkdaşlar sırasından təyin edir.

Maddə 24. Milli Bankın İdarə Heyətinin sədri

24.1. Milli Bankın İdarə Heyətinin sədri Milli Bankın İdarə Heyətinin işini təşkil edir və eyni zamandə Milli Bankın icra strukturuna başçılıq edir.

24.2. Milli Bankın İdarə Heyətinin sədri aşağıdakı səlahiyyətlərə malikdir:

24.2.1. Etibarnamə təqdim etmədən Milli Bankı Azərbaycan Respublikası daxilində və qanunvericiliklə müəyyən edilmiş qaydada xaricdə təmsil edir;

24.2.2. İdarə Heyətinin təsdiq etdiyi normativ xarakterli aktları imzalayır;

24.2.3. Milli Bankın bütün əməkdaşları üçün məcburi olan əmr və sərəncamlar verir;

24.2.4. İdarə Heyətinin nomenklaturasına daxil olmayan şəxsləri vəzifəyə təyin edir və vəzifədən azad edir;

24.2.5. İdarə Heyəti sədrinin müavinləri və Milli Bankın digər rəhbər işçiləri arasında vəzifə bölgüsünü aparır;

24.2.6. Milli Bankın fəaliyyətinə dair İdarə Heyətinin səlahiyyətinə aid edilməyən məsələləri həll edir;

24.2.7. bu Qanunla nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirir.

24.3. Milli Bankın İdarə Heyətinin sədri olmadıqda onun səlahiyyətləri birinci müavin tərəfindən həyata keçirilir. Birinci müavin olmadıqda həmin səlahiyyətlər Milli Bankın İdarə Heyəti sədrinin müəyyən etdiyi qaydada digər müavini və ya İdarə Heyətinin üzvü tərəfindən həyata keçirilir.

Maddə 25. İdarə Heyəti üzvlərinin səlahiyyyətinə vaxtından əvvəl xitam verilməsi

25.1. Milli Bankın İdarə Heyətinin sədri və digər üzvləri vaxtından əvvəl Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 10-cu bəndi ilə müəyyən edilmiş qaydada, o cümlədən aşağıda göstərilən hallar nəzərə alınmaqla öz vəzifəsindən azad oluna bilər:

25.1.1. Azərbaycan Respublikası Prezidentinə istefa haqqında ərizə təqdim etdikdə;

25.1.2. müvafiq tibbi arayışa əsasən xəstəliklə əlaqədar 6 aydan çox müddətdə öz vəzifələrini icra edə bilmədikdə, bu şərtlə ki, Milli Bankın İdarə Heyəti Azərbaycan Respublikası Prezidenti qarşısında vəsadətlə çıxış edir;

25.1.3. məhkəmənin qüvvəyə minmiş qərarı ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;

25.1.4. məhkəmənin qüvvəyə minmiş hökmü ilə cinayət törətməkdə təqsirli bilindikdə;

25.1.5. İdarə Heyətinin üzvünə dair bu Qanunun 21-ci maddəsində nəzərdə tutulmuş tələb və məhdudiyyətlər pozulduqda.

25.2. Vaxtından əvvəl səlahiyyətlərinə xitam verilməsi ilə razı olmayan İdarə Heyətinin üzvü qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəməyə şikayət verə bilər.

Maddə 26. İdarə Heyəti üzvlərinin istefaya getməsi

26.1. Milli Bankın İdarə Heyəti sədrinin və İdərə Heyətinin digər üzvlərinin istefası haqqında qərar ərizə verildikdən sonra 2 ay ərzində qəbul edilir. Qərar bu dövrdə qəbul edilməzsə, istefa haqqında ərizə verən şəxs ərizənin verildiyi tarixdən 3 ay sonra istefaya getmiş hesab edilir.

26.2. Milli Bankın İdarə Heyəti sədrinin və İdarə Heyətinin digər üzvlərinin istefası haqqında ərizənin rədd edilməsi barədə qərar qəbul edildikdə, ərizə verən şəxs belə qərarın qəbul olunduğu tarixdən 1 ay sonra istefaya getmiş hesab edilir, bu şərtlə ki, o, istefa haqqında ərizənin rədd edilməsi barədə qərar qəbul olunduqdan

sonra 2 həftə ərzində istefa haqqında ərizəni təsdiq edən əlavə ərizə təqdim etmiş olsun.

Maddə 27. Daxili audit

27.1. Milli Bankın daxili audit bölməsi aşağıdakıları həyata keçirir:

27.1.1. Milli Bank üzrə risklərin idarə olunması sahəsində adekvat prosedurların və nəzarət mexanizmlərinin vəziyyətini qiymətləndirir, onların daim tətbiq olunmasına nəzarət edir;

27.1.2. Qanunvericiliyə əməl olunmasını təmin etmək məqsədilə Milli Bankın struktur bölmələrinin auditini həyata keçirir;

27.1.3. Audit zamanı aşkar etdiyi nöqsanların aradan qaldırılması, habelə uçot və hesabat, daimi nəzarət prosedurları və mexanizmləri barədə Milli Bankın İdarə Heyətinə və struktur bölmələrinə tövsiyələr verir;

27.1.4. Milli Bankın İdarə Heyətinin müəyyən etdiyi digər səlahiyyətləri həyata keçirir.

27.2. Daxili audit bölməsi bilavasitə Milli Bankın İdarə Heyətinin sədrinə tabedir.

V FƏSİL. PUL SİYASƏTİ

Maddə 28. Pul siyasəti

28.1. Milli Bank qarşıdakı il üçün dövlətin pul siyasətinin əsas istiqamətlərini oktyabr ayının 1-dən gec olmayaraq Azərbaycan Respublikası Prezidentinə təqdim edir və dekabr ayının 31-dək kütləvi informasiya vasitələrində ictimaiyyətə açıqlayır.

28.2. Pul siyasətinin əsas istiqamətlərini açıqlayarkən Milli Bank cari ildə həyata keçirilən pul siyasətinin yekunlarını, habelə qarşıdakı il üçün müəyyən etdiyi pul siyasətinin məqsəd və vəzifələrini, Milli Bankdan asılı olan və asılı olmayan amilləri də əks etdirməklə onların həyata keçirilməsi yollarını göstərir.

Maddə 29. Pul siyasətinin alətləri

29.1. Pul siyasəti aşağıdakı alətlər vasitəsilə həyata keçirilir:

29.1.1. açıq bazarda əməliyyatların aparılması;

29.1.2. faiz dərəcələrinin müəyyənləşdirilməsi;

29.1.3. kredit təşkilatları üçün məcburi ehtiyatların müəyyənləşdirilməsi;

29.1.4. kredit təşkilatlarının yenidən maliyyələşdirilməsi;

29.1.5. depozit əməliyyatlarının aparılması;

29.1.6. bank əməliyyatlarının məhdudlaşdırılması;

29.1.7. beynəlxalq təcrübədə qəbul edilmiş pul siyasətinin digər alətləri.

29.2. Milli Bank bu Qanunla müəyyən edilmiş məqsəd və funksiyalarına uyğun olaraq bu Qanununun 29.1-ci maddəsində göstərilənlərdən özünün məqbul hesab etdiyi alətləri tətbiq edir.

Maddə 30. Açıq bazarda əməliyyatlar

30.1. Milli Bank açıq bazarda aşağıdakı əməliyyatları apara bilər:

30.1.1. bu Qanunun 16-ci maddəsinin tələblərini nəzərə almaqla dövlətin buraxdığı qiymətli kağızlarla alqı-satqı və digər əməliyyatlar;

30.1.2. özünün buraxdığı qiymətli kağızlarla alqı-satqı və digər əməliyyatlar;

30.1.3. xarici valyuta ilə alqı-satqı və digər əməliyyatlar.

30.2. Pul siyasətinin həyata keçirilməsi məqsədi ilə buraxılan Milli Bankın borc qiymətli kağızlarının buraxılışı və dövriyyəsi qaydaları qanunvericiliklə müəyyən edilir.

Maddə 31. Faiz dərəcələrinin müəyyənləşdirilməsi

31.1. Milli Bank uçot dərəcəsini və öz əməliyyatları üzrə faiz dərəcələrini müəyyənləşdirir.

31.2. Milli Bank uçot dərəcəsini müəyyənləşdirərkən ölkədəki mövcud makroiqtisadi durumu və maliyyə bazarının vəziyyətini nəzərə alır.

31.3. Milli Bank öz əməliyyatları üzrə faiz dərəcələrini pul bazarının likvidlik vəziyyətini nəzərə alaraq özünün açıq bazar, yenidənmaliyyələşdirilmə və depozit əməliyyatları üzrə faiz dərəcələrini təsbit etməklə və ya hərraclarda tələb və təklif əsasında müəyyənləşdirir.

31.4. Milli Bank müəyyən etdiyi uçot dərəcəsini və öz əməliyyatları üzrə faiz dərəcələrini dərc etdirir.

Maddə 32. Məcburi ehtiyatların müəyyənləşdirilməsi

32.1. Milli Bank kredit təşkilatlarına məcburi ehtiyatlar saxlamaq barədə göstəriş verə bilər. Ehtiyatlar depozitlərin faizi nisbətində müəyyən edilir və Milli Bankda saxlanılır. Tələb olunan ehtiyatların norması, hesablanması və saxlanması qaydası Milli Bankın İdarə Heyəti tərəfindən müəyyən edilir.

32.2. Məcburi ehtiyatlar təmin edilmədikdə Milli Bank ehtiyatı təmin etməyən kredit təşkilatına və onun inzibatçılarına qarşı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş inzibati tənbeh tədbirlərini tətbiq edə bilər.

Maddə 33. Kredit təşkilatlarının yenidən maliyyələşdirilməsi

33.1. Pul siyasətinin həyata keçirilməsi məqsədilə Milli Bank tərəfindən kredit təşkilatlarının yenidən maliyyələşdirilməsi həyata

keçirilir. Bu zaman verilən kreditlər dövlət qiymətli kağızları, dövlətin və digər etibarlı emitentlərin qarantiyaları və zaminliyi, xarici valyuta, qızıl, müxtəlif formada qiymətli metallar və digər aktivlərlə təmin olunmalıdır. Belə kreditlər 6 aydan çox olmayan müddətə verilir və həmin müddətə uzadıla bilər.

33.2. Yenidən maliyyələşdirilmənin forma, qayda və şərtlərini Milli Bankın İdarə Heyəti müəyyən edir.

33.3. Kreditlər yalnız milli valyutada (manatla) kredit təşkilatlarının baş idarələrinə verilir.

Maddə 34. Depozit əməliyyatları

Milli Bank özünün müəyyən etdiyi şərtlərlə və qarşılıqlı razılaşma əsasında kredit təşkilatlarından depozitlər cəlb edə bilər.

Maddə 35. Bank əməliyyatlarının məhdudlaşdırılması

Pul siyasətinin həyata keçirilməsi məqsədilə istisna hallarda qanunvericiliyə müvafiq olaraq Milli Bank kredit təşkilatları tərəfindən aparılan ayrı-ayrı əməliyyatları müvəqqəti məhdudlaşdıra, o cümlədən onların əməliyyatları üzrə faiz dərəcələrinin aşağı və yuxarı hədlərini müəyyənləşdirə bilər.

VI FƏSİL. NAĞD PUL TƏDAVÜLÜNÜN TƏŞKİLİ

Maddə 36. Pul vahidi

36.1. Azərbaycan Respublikasının Konstitusiyasının 19-cu maddəsinin I hissəsinə müvafiq olaraq Azərbaycan Respublikasının pul vahidi manatdır. Bir manat 100 (yüz) qəpikdən ibarətdir. Pul nişanları kağız və metal pul formasında tədavülə buraxıla bilər.

36.2. Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin III hissəsinə müvafiq olaraq Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilrnəsi qadağandır.

36.3. Milli Bankın buraxdığı pul nişanları, o cümlədən yubiley və xatirə pul nişanları Azərbaycan Respublikasının bütün ərazisində nominal dəyərləri ilə hər növ ödənişlərin həyata keçirilməsi, hesablara daxil edilməsi və pul köçürmələri zamanı hökmən qəbul edilməlidir.

36.4. Manatla qızıl və ya digər qiymətli metallar arasında rəsmi nisbət müəyyən edilmir. Tədavülə buraxılmış pul nişanları Milli Bankın borc öhdəliyidir və onun bütün aktivləri ilə təmin edilir.

36.5. Saxta pul nişanlarının hazırlanması və satışı ilə məşğul olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

36.6. Pul nişanlarının saxta olması barədə ekspert rəyini Milli Bank verir.

36.7. Pul nişanlarının saxtalaşdırılması üzrə cinayət işinin məhkəmə icraatı başa çatdıqdan sonra saxta pul nişanları Milli Banka təhvil verilir.

Maddə 37. Pul tədavülünün təşkili

37.0. Azərbaycan Respublikasının ərazisində nağd pul tədavülünün təşkili üçün Milli Bank aşağıdakıları həyata keçirir:

37.0.1. Pul nişanlarına olan tələbatı müəyyənləşdirir;

37.0.2. Pul nişanlarının istehsalını təşkil edir və ya hazırlanmasına sifariş verir, onların daşınmasını və saxlanmasını təmin edir;

37.0.3. Pul nişanlarının ehtiyatlarını yaradır və həmin ehtiyatlara sərəncam verir;

37.0.4. Milli Bank və kredit təşkilatları tərəfindən nağd pulun saxlanması və inkassasiyası qaydalarını müəyyən edir;

37.0.5. Milli Bankda və kredit təşkilatlarında kassa əməliyyatlarının aparılması qaydalarını müəyyənləşdirir;

37.0.6. tədavülə yararsız olan pul nişanlarının əlamətlərini və onların dəyişdirilməsi qaydalarını müəyyən edir.

Maddə 38. Pul nişanlarının tədavülə buraxılması

38.1. Yeni nümunəli pul nişanlarının tədavülə buraxılması haqqında qərarı Milli Bankın İdarə Heyəti qəbul edir. Milli Bank tədavülə buraxdığı pulların nominallarını, ölçüsünü, tərtibatını, mühafizə elementlərini, habelə digər bədii və texniki xüsusiyyətlərini müəyyən edir.

38.2. Milli Bankın İdarə Heyəti yubiley və xatirə pul nişanlarının tədavülə buraxılması haqqında qərar qəbul edə bilər. Milli Bank müəyyən etdiyi qaydada və qiymətlərlə buraxdığı yubiley və xatirə pul nişanlarının satışını təşkil edir.

38.3. Milli Bank qiymətlər miqyasının dəyişdirilməsi (denominasiya) ilə əlaqədar yeni pul nişanlarının tədavülə buraxılması haqqında qərarı müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla qəbul edir.

Maddə 39. Pul nişanlarının tədavüldən çıxarılması

39.1. Denominasiya halları istisna olmaqla, Milli Bank tədavüldə olan kağız və metal pulun yeni nümunəli pul nişanlarına dəyişdirilməsi haqqında qərar qəbul edir.

39.2. Milli Bank tədavüldə olan pul nişanlarının dəyişdirilməsi haqqında qərarını, habelə yeni pul nişanlarının təsvirini və pulların dəyişdirilməsi qaydaları haqqında məlumatı kütləvi informasiya vasitələrində dərc etdirir.

39.3. Yeni pul nişanlarının tədavülə buraxılması ilə əlaqədar pulların dəyişdirilməsi zamanı dəyişdirilmənin məbləğləri, yaxud subyektləri üzrə hər hansı məhdudiyyətə yol verilmir. Dəyişdirilməli olan pul nişanları Milli Bankın müəyyən etdiyi müddətdə, lakin bir ildən az olmamaq şərti ilə qanuni ödəniş vasitəsi sayılır. Həmin müddətdən sonra pul nişanları Milli Bank tərəfindən müddətsiz olaraq dəyişdirilir.

39.4. Saxta pul nişanlarının tədavüldən çıxarılması, məhv edilməsi və bununla əlaqədar müvafiq tədbirlərin görülməsi qaydaları Milli Bankın İdarə Heyəti tərəfindən müəyyən edilir.

39.5. Saxta pul nişanlarının dəyəri ödənilmir və onlar geri qaytarılmır. Bu qayda xarici valyutada olan saxta pul nişanlarına da şamil edilir.

Maddə 40. Pul nişanlarının dəyişdirilməsi

Milli Bank tədavülə yararlı pul nişanlarını məhdudiyyətsiz dəyişdirir. Saxta olmayan, bütöv bir hissədən ibarət səthinin 60 faizindən az olmayan hissəsini və ya eyni əskinasa məxsus hissələrdən ibarət səthinin 100 faizini saxlamış pul nişanlarının nominal dəyəri Milli Bank tərəfindən məhdudiyyətsiz ödənilir. Pul nişanının hissələrinin eyni əskinasa məxsus olması yalnız Milli Bank tərəfindən müəyyənləşdirilə bilər.

Maddə 41. Pul nişanlarının məhvi

41.1. Saxta pul nişanları istisna olmaqla tədavüldən çıxarılmış pul nişanları müvafiq icra hakimiyyəti orqanı tərərfindən müəyyən edilmiş qaydalar əsasında məhv edilir.

41.2. Milli Bank tədavüldən çıxarılmış kağız və metal pulların çap formalarının və ştamplarının məhv olunmasını təmin edir.

VII FƏSİL. BEYNƏLXALQ QIZIL-VALYUTA EHTİYATLARININ İDARƏ OLUNMASI

Maddə 42. Beynəlxalq qızıl-valyuta ehtiyatları

42.1. Milli Bank dövlətin pul siyasətinin həyata keçirilməsi, ölkənin beynəlxalq öhdəlikləri üzrə hesablaşmaların vaxtında aparılması üçün beynəlxalq qızıl-valyuta ehtiyatlarını İdarə Heyətinin müəyyən etdiyi strategiya çərçivəsində saxlayır və idarə edir.

42.2. Milli Bank İdarə Heyətinin müəyyən etdiyi strategiya və qaydalar çərçivəsində aşağıdakı aktivlərdən ibarət beynəlxalq qızıl-valyuta ehtiyatlarını saxlayır və idarə edir:

42.2.1. Qızıl, digər qiymətli metallar və qiymətli daş-qaşlar;

42.2.2. Kağız və metal pul formasında sərbəst dönərli xarici valyuta;

42.2.3. Xarici dövlətlərin mərkəzi banklarının və ya digər maliyyə idarələrinin hesablarında Milli Bankın sərbəst dönərli xarici valyutada saxladığı vəsaitlər;

42.2.4. Beynəlxalq Valyuta Fondunun xüsusi borcalma hüquqları və Beynəlxalq Valyuta Fondunda ehtiyat mövqeyi;

42.2.5. Xarici dövlətlərin, mərkəzi bankların və ya beynəlxalq maliyyə təşkilatlarının buraxdığı, yaxud təminat verdiyi qiymətli borc kağızları;

42.2.6. Beynəlxalq aləmdə qəbul olunmuş digər ehtiyat aktivləri.

42.3. Milli Bank beynəlxalq qızıl-valyuta ehtiyatlarının idarə edilməsində bu sahədə ixtisaslaşmış maliyyə təsisatlarının xidmətlərindən İdarə Heyətinin müəyyən etdiyi strategiya çərçivəsində istifadə edə bilər.

42.4. Beynəlxalq qızıl-valyuta ehtiyatları dövlətin pul siyasətinin həyata keçirilməsi, ölkənin beynəlxalq öhdəlikləri üzrə hesablaşmaların vaxtında aparılması üçün Milli Bankın mülahizəsinə görə təhlükəli səviyyəyədək azaldıqda və ya azalması qorxusu olduqda Milli Bank müvafiq icrə hakimiyyəti orqanına ehtiyatların belə azalmasına gətirib çıxarmış və ya gətirib çıxara biləcək səbəbləri qabaqcadan göstərməklə beynəlxalq qızıl-valyuta ehtiyatı mövqeyi haqqında hesabat və əsaslandırılmış təkliflər təqdim edir.

Maddə 43. Beynəlxalq qızıl-valyuta ehtiyatları haqqında məlumat

Milli Bank beynəlxalq qızıl-valyuta ehtiyatlarının ümumi miqdarı barədə rübdə birdəfədən az olmayaraq kütləvi informasiya vasitələrində məlumat dərc etdirir.

VIII FƏSİL. ÖDƏNİŞ SİSTEMLƏRİNİN TƏŞKİLİ

Maddə 44. Ödəniş sistemləri üzrə səlahiyyətlər

44.1. Milli Bank ödəniş, o cümlədən hesablaşma və klirinq (prosessinq) sistemlərinin sabit işləməsini təmin etmək məqsədi ilə onların fəaliyyətini təşkil edir, əlaqələndirir, tənzimləyir və onların fəaliyyətinə nəzarət edir.

44.2. Milli Bank normativ xarakterli aktları ilə müəyyən edilmiş qaydada klirinq (prosessinq) təşkilatlarının fəaliyyətinə icazələr verir və nəzarəti həyata keçirir.

44.3. Milli Bank Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq ölkədə nağdsız hesablaşmaların və kredit təşkilatları vasitəsilə pul köçürmələrinin aparılması qaydalarını və şərtlərini, habelə ödəniş sənədlərinin forma və məzmununu müəyyən edir.

44.4. Milli Bank Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və digər normativ hüquqi aktlara uyğun olaraq bank hesablarının növlərini, onların açılması, aparılması və bağlanması qaydalarını müəyyən edir.

44.5. Milli Bank kredit təşkilatlarının istifadə etdikləri elektron hesablaşma və pul köçürmələri, habelə klirinq (prosessinq) sistemlərinin etibarlığının və təhlükəsizliyinin, habelə bank informasiyasının mühafizəsinin təmin edilməsinə aid minimum tələbləri müəyyən edə bilər.

44.6. Milli Bank qanunvericiliyə müvafiq olaraq ödəniş sistemlərinin təşkili sahəsində digər səlahiyyətləri həyata keçirir.

Maddə 45. Kredit təşkilatları arasında hesablaşmaların təşkili

Milli Bank ölkə ərazisində fəaliyyət göstərən kredit təşkilatları arasında hesablaşmaları Milli Bankda milli valyutada (manatda) açdıqları müxbir hesabları vasitəsilə, yaxud beynəlxalq təcrübəyə uyğun olaraq Milli Bankın müəyyən etdiyi digər üsullarla təşkil edir.

IX FƏSIL. KREDİT TƏŞKİLATLARI İLƏ MÜNASİBƏTLƏR

Maddə 46. Kredit təşkilatları ilə münasibətlərin əsas prinsipləri

46.1. Milli Bank Azərbaycan Respublikasının bank sisteminin sabit işini təmin etmək, bank kreditorlarının və əmanətçilərinin maraqlarını qorumaq məqsədilə bank fəaliyyəti üzərində lisenziyalaşdırma, tənzimləmə və nəzarət funksiyalarını bu Qanuna, "Banklar haqqında" və "Kredit İttifaqları haqqında" Azərbaycan Respublikası qanunlarına, Milli Bankın normativ xarakterli aktlarına və səmərəli bank nəzarəti üzrə beynəlxalq təcrübəyə uyğun olaraq həyata keçirir.

46.2. Milli Bank qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, kredit təşkilatlarının cari fəaliyyətinə qarışmır.

46.3. Milli Bank kredit təşkilatlarının öhdəlikləri üçün, kredit təşkilatları isə Milli Bankın öhdəlikləri üçün cavabdeh deyildir.

46.4. Bu Qanunda nəzərdə tutulmuş hallarda Milli Bank banklar üçün sonuncu instansiya kreditoru kimi çıxış edə bilər.

46.5. Öz funksiya və səlahiyyətlərini həyata keçirərkən Milli Bank kredit təşkilatlarının ona məlum olan fəaliyyəti haqqında məlumatı yalnız qanunvericilikdə nəzərdə tutulmuş hallarda açıqlaya bilər.

Maddə 47. Lisenziyalaşdırma

47.1. Milli Bank Azərbaycan Respublikasında bank fəaliyyətinin həyata keçirilməsi üçün kredit təşkilatlarına xüsusi icazələrin (lisenziyaların), onların filial və şöbələrinə, habelə nümayəndəlik fəaliyyətinin həyata keçirilməsi üçün yerli və xarici bankların nümayəndəliklərinə icazələrin verilməsində və onların ləğv edilməsində müstəsna səlahiyyətə malikdir.

47.2. Bank fəaliyyətinin həyata keçirilməsi üçün verilən lisenziyaların və icazələrin forma və məzmununu Milli Bank müəyyənləşdirir.

Maddə 48. Tənzimləmə və nəzarət

48.1. Kredit təşkilatlarının fəaliyyətinin tənzimlənməsi və nəzarəti üzrə Milli Bank aşağıdakıları həyata keçirir:

48.1.1. Bank fəaliyyəti üzrə normativ xarakterli aktları qəbul edir;

48.1.2.Prudensial normativləri, habelə onların hesablama metodlarını və tətbiqi qaydalarını müəyyən edir;

48.1.3. Kreditlər və digər aktivlər üzrə ehtimal olunan zərərlərin ödənilməsi üçün banklar, xarici bankların yerli filialları və bank olmayan kredit təşkilatları tərəfindən yaradılan xüsusi ehtiyat fondunun hesablanması və formalaşdırılması qaydasını müəyyən edir;

48.1.4. Hesabat və yoxlamalar əsasında kredit təşkilatlarının maliyyə vəziyyətini qiymətləndirir və bunun əsasında maliyyə hesabatlarında müvafiq düzəlişlərin edilməsi barədə kredit təşkilatlarına icrası məcburi olan göstərişlər verir;

48.1.5. Banklarda və xarici bankların yerli filiallarında korporativ idarəetmə standartlarını müəyyən edir və tətbiqinə nəzarəti artırır;

48.1.6. Qanunla müəyyən edilmiş hallarda və qaydada kredit təşkilatlarında, habelə onların törəmə təsərrüfat cəmiyyətlərində yoxlamalar aparır;

48.1.7. Bank xidmətləri bazarında inhisarçılıq fəaliyyətinin qarşısının alınması məqsədilə səlahiyyətli dövlət orqanı qarşısında məsələ qaldırır;

48.1.8. Kredit təşkilatlarına və onların inzibatçılarına qarşı qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada təsir (təshih) tədbirlərini, sanksiyaları tətbiq edir;

48.1.9. Qanuna müvafiq surətdə həyata keçirdiyi nəzarət tədbirlərinin nəticələri tələb etdiyi hallarda kredit təşkilatlarının idarəetmə orqanlarının iclaslarında müşahidəçi qismində iştirak edir, kredit təşkilatlarının inzibatçıları ilə məsləhətləşmələr aparır;

48.1.10. Qanunla nəzərdə tutulmuş hallarda bankların maliyyə sağlamlaşdırılması tədbirləri çərçivəsində onların Milli Bank qarşısında kredit öhdəliklərinin yerinə yetirilməsinin xüsusi şərtlərini müəyyən edir;

48.1.11. Qanunla nəzərdə tutulmuş hallarda banklara və xarici bankların yerli filiallarına müvəqqəti inzibatçı təyin edir, zəruri hallarda bankın öhdəlikləri üzrə moratorium tətbiq edilməsi barədə məhkəməyə müraciət edir;

48.1.12. Lisenziyası ləğv olunmuş banklar və xarici bankların yerli filialları haqqında qanunvericiliyə müvafiq tədbirlər görür;

48.1.13. Qanunla nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirir.

48.2. Kredit təşkilatları ücün prudensial normativləri müəyyən edərkən Milli Bank kredit təşkilatlarının növləri üzrə fərqli normativləri və onların hesablanması metodlarını müəyyənləşdirə bilər.

Maddə 49. Sonuncu instansiya kreditoru

Bank kreditorlarının və əmanətçilərin maraqları baxımından Milli Bank özünün müəyyən etdiyi qayda və şərtlər daxilində qısamüddətli likvidlik problemi ilə üzləşmiş kredit təşkilatlarına tam təminatlı kreditlər verə bilər. Belə kreditlər 6 aydan çox olmayan müddətə verilir və zəruri hallarda 6 ayadək müddətə uzadıla bilər.

Maddə 50. Kredit təşkilatları ilə əməkdaşlıq

Kredit təşkilatları ilə qarşılıqlı fəaliyyət məqsədilə Milli Bank kredit təşkilatlarının, onların ictimai birliklərinin (assosiasiyalarının) nümayəndələrini cəlb etməklə bank işinin mühüm məsələləri barəsində məsləhətləşmələr apara, əməli təkliflər hazırlamaq üçün ictimai əsaslarla fəaliyyət göstərən şuralar, işçi qruplar yarada bilər.

Maddə 51. Xarici tənzimləmə və nəzarət orqanları ilə əməkdaşlıq

51.1. Kredit təşkilatları üzərində lisenziyalaşdırma, tənzimləmə və nəzarət funksiyalarının effektiv surətdə həyəta keçirilməsi məqsədilə Milli Bank xarici ölkələrin bank tənzimi və nəzarəti orqanları ilə bank nəzarəti sahəsində qanunvericiliklə müəyyən edilmiş qaydada sazişlər bağlaya və əməkdaşlıq edə bilər.

51.2. Bu cür əməkdaşlıq Milli Bankla xarici ölkənin bank tənzimi və nəzarəti orqanı arasında fəaliyyət göstərən və ya fəaliyyətə başlamaq istəyən subyektlər haqqında informasiya mübadiləsini, birgə nəzarətin həyata keçirilməsini əhatə edə bilər, bu şərtlə ki, həmin orqan aldığı informasiyanın məxfiliyini qoruyacaq və yalnız bank nəzarəti məqsədləri ilə istifadə edəcəkdir.

Maddə 52. Məlumat mübadiləsi

Milli Bank maliyyə sektorunun digər seqmentlərində tənzimləmə və nəzarət funksiyalarını həyata keçirən dövlət orqanları ilə qarşılıqlı əməkdaşlıq əsasında tənzimləmə və nəzarət obyektləri haqqında qanunvericiliklə müəyyən edilmiş qaydada məlumat mübadiləsi apara bilər, bu şərtlə ki, tərəflər aldığı informasiyanın məxfiliyini qoruyacaq və yalnız nəzarət məqsədləri üçün istifadə edəcəklər.

Maddə 53. Mübahisələrin həlli

Milli Bankın lisenziyalaşdırma, tənzimləmə və nəzarət funksiyalarının icrası ilə əlaqədar qəbul etdiyi qərarlar barəsində mübahisələrə məhkəmə qaydasında baxılır. Şikayətin verilməsi həmin qərarın icrasını dayandırmır.

X FƏSİL. ƏQDLƏR VƏ ƏMƏLİYYATLAR

Maddə 54. Milli Bankın əqdləri və əməliyyatları

54.1. Milli Bank öz məqsədlərinə nail olmaq üçün yerli və xarici kredit təşkilatları ilə aşağıdakı əməliyyatları aparmaq hüququna malikdir:

54.1.1. Çekləri, vekselləri, qjymətli metalları və daş-qaşları, habelə bunlardan hazırlanmış məmulatı almaq, satmaq və saxlamaq;

54.1.2. Xarici valyutanı, habelə xarici valyutada təqdim etdikləri ödəniş sənədlərini və öhdəliklərini almaq və satmaq;

54.1.3. Qarantiyalar və zəmanətlər vermək;

54.1.4. Bank hesabları, o cümlədən depozit hesabları açmaq;

54.1.5. Hesablaşma, kassa, depozit əməliyyatları aparmaq, qiymətli kağızların və başqa sərvətlərin saxlanması və idarə olunması üçün onları qəbul etmək;

54.1.6. Hər hansı valyutada çekləri və vekselləri ödənişə təqdim etmək;

54.1.7. Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan hallarda beynəlxalq təcrübədə qəbul edilmiş digər bank əməliyyatlarını həyata keçirmək.

54.2. Milli Bank bank əməliyyatlarının aparılması üçün haqq tutmaq hüququna malikdir.

54.3. Milli Bank öz əməkdaşlarına, habelə qanunvericilikdə nəzərdə tutulmuş hallarda fondlara bank xidmətləri göstərə bilər.

54.4. Hesablaşma və klirinq (prosessinq) əməliyyatlarının dəstəklənməsi məqsədilə Milli Bank həmin əməliyyatları həyata keçirən təşkilatlara bank hesabları aça bilər.

54.5. Milli Bank xarici dövlətlərin hökumətlərinə, mərkəzi banklarına və pul siyasətini tənzimləyən orqanlarına, habelə Milli Bankın və ya Azərbaycan Respublikasının üzv olduqları beynəlxalq təşkilatlara bank xidmətləri göstərə bilər.

54.6. Milli Bank etibarlı emitentlər tərəfindən buraxılmış likvidli borc qiymətli kağızlarını almaq hüququna malikdir.

54.7. Milli Bank qanunvericiliklə qadağan olunmayan mülki-hüquqi əqdləri bağlaya bilər.

Maddə 55. Qadağan olunan fəaliyyət

55.0. Milli Bank aşağıdakı fəaliyyətləri həyata keçirə bilməz:

55.0.1. bu Qanunda nəzərdə tutulmuş şəxslərdən başqa, digər hüquqi və fiziki şəxslərlə bank əməliyyatları aparmaq;

55.0.2 istehsal, ticarət, sığorta və bu Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, digər kommersiya fəaliyyəti ilə məşğul olmaq;

55.0.3. Milli Bankın fəaliyyətini, Milli Bank qarşısında olan öhdəliklərin icrasını, habelə Milli Bankın əməkdaşlarının sosial ehtiyaclarını təmin etmək üçün zəruri olan hallar istisna olmaqla, daşınmaz əmlak üzərində tam və ya qismən əşya hüquqlarını almaq, satmaq və ya başqa tərzdə əldə etmək.

XI FƏSİL. MİLLİ BANKIN MALİYYƏ UÇOTU VƏ HESABATI

Maddə 56. Milli Bankın hesabat ili

Milli Bankın hesabat ili yanvar ayının 1-də başlanır və dekabr ayının 31-də başa çatır.

Maddə 57. Maliyyə uçotu və hesabatı

57.1. Milli Bankın maliyyə uçotu və hesabatı Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq aparılır.

57.2. Milli Bankın illik maliyyə hesabatı balansdan, mənfəət və zərər, habelə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan və onlara verilən izahat qeydlərindən ibarətdir.

Maddə 58. Milli Bankın auditi

58.1. Milli Bankın fəaliyyəti yalnız Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə müvafiq olaraq bir və ya bir neçə il müddətinə təyin edilmiş auditor tərəfindən ildə bir dəfə yoxlanılır.

58.2. Zəruri hallarda Azərbaycan Respublikası Konstitusi-yasının 109-cu maddəsinin 32-ci bəndinə müvafiq olaraq auditor yoxlaması növbədənkənar qaydada təyin edilə bilər.

58.3. Milli Bankın auditi Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparılır. Auditlə bağlı xərclər Milli Bankın vəsaiti hesabına ödənilir.

58.4. İlin yekunları haqqında auditor rəyi ilə təsdiqlənmiş maliyyə hesabatı, habelə hesabat əməliyyat büdcəsi Azərbaycan Respublikası Prezidentinə təqdim edilir.

58.5. Audit rəyi ilə təsdiq edilmiş ilin yekunlarına dair maliyyə hesabatı audit başa çatdıqdan sonra ən geci 1 ay müddətində kütləvi informasiya vasitələrində dərc olunur.

XII FƏSİL. YEKUN MÜDDƏALAR

Maddə 59. Milli Bankın əməkdaşları

59.1. Bu Qanunun tələbləri nəzərə alınmaqla Milli Bankla əməkdaşlar arasında əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

59.2. Milli Bankın əməkdaşları elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul ola bilməzlər.

59.3. Milli Bankın İdarə Heyətinin üzvləri, habelə İdarə Heyəti tərəfindən müəyyən olunmuş vəzifələri tutan əməkdaşlar krediti yalnız Milli Bankdan ala bilərlər. Həmin əməkdaşlar kredit təşkilatlarından aldıqları kredit kartları haqqında Milli Bankın İdarə Heyətinin müəyyən etdiyi qaydada İdarə Heyətinə məlumat verirlər.

59.4. Milli Bankın İdarə Heyəti tərəfindən müəyyən olunmuş vəzifələri tutan əməkdaşlar kredit təşkilatlarının və onların törəmə təsərrüfat cəmiyyətlərinin təsisçisi və iştirakçısı, onların idarəetmə orqanlarının üzvü ola bilməzlər.

59.5. Milli Bankın əməkdaşlarına dövlət qulluqçularının pensiya təminatı sistemi şamil edilir.

59.6. Milli Bank öz əməkdaşlarının sosial müdafiəsi məqsədi ilə əlavə tədbirlər görə bilər.

Maddə 60. Məxfilik

Milli Bankın İdarə Heyətinin üzvləri və əməkdaşları vəzifələrinin icrası ilə əlaqədar onlara məlum olmuş xidməti məlumatı, o cümlədən dövlət və bank sirrinə aid olan mətumatı işlədikləri dövrdə və işdən azad olunduqdan sonra yalnız qanunvericilikdə müəyyən olunmuş hallarda açıqlaya bilərlər.

Maddə 61. Məhkəmə iddialarından müdafiə

Milli Bankın İdarə Heyətinin üzvləri və əməkdaşları bu Qanunla müəyyən edilmiş funksiya və səlahiyyətlərini həyata keçirərkən hər hansı hərəkəti və ya hərəkətsizliyi nəticəsində yaranmış zərər

üçün məsuliyyət daşımır, bu şərtlə ki, həmin hərəkətin və ya hərəkətsizliyin qanunsuz və ya vicdansız olduğu sübut edilməsin.

Maddə 62. Təhlükəsizlik

Milli Bank öz fəaliyyətinin təhlükəsizliyini təmin etmək məqsədilə müvafiq tədbirlər görür. Milli Bankın respublika ərazisində pul və digər qiymətlilərin təhlükəsiz daşınması ilə məşğul olan struktur bölmələri zirehli nəqliyyat vasitələri ilə təchiz edilir, müvafiq əməkdaşları xüsusi geyimlə, habelə qanunvericilikdə müəyyən olunmuş qaydada xidməti (odlu) silah və döyüş sursatları ilə təmin edilir.

Maddə 63. İnformasiyanın toplanması

Öz funksiyalarının həyata keçirilməsi məqsədilə Milli Bank dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarından, hüquqi şəxslərdən və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən zəruri statistik məlumat ala bilər.

Maddə 64. Nəşrlər

64.1. Milli Bank illik hesabatını dərc etdirir. Milli Bankın illik hesabatı ölkədəki makroiqtisadi vəziyyəti, həyata keçirilən pul siyasətinin yekunlarını, bank sisteminin vəziyyətini, həbelə Milli Bankın maliyyə vəziyyətini, o cümlədən əməliyyat büdcəsinin nəticələrini əks etdirir.

64.2. Milli Bank ayda bir dəfədən az olmayaraq pul və maliyyə bazarlarının vəziyyəti haqqında informasiya bülletenləri buraxır.

64.3. Milli Bank bank sistemi haqqında ümumiləşdirilmiş statistika, habelə iqtisadi məsələlərə aid məqsədəuyğun saydığı digər məlumatı dərc etdirə bilər.

64.4. Milli Bankın icmal balansı hər ay kütləvi informasiya vasitələrində dərc olunur.

Maddə 65. Güzəştlər

Milli Bank Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq vergi güzəştlərinə malikdir, dövlət rüsumu və yığımlarının bütün növlərinin ödənilməsindən azaddır.

Maddə 66. Qanunun qüvvəyə minməsi

66.1. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

66.2. Bu Qanun qüvvəyə mindikdən dərhal sonra Milli Bank öz nizamnamə kapitalını mənfəəti hesabına, mənfəəti kifayət etmədikdə isə kapital ehtiyatları hesabına bu Qanunun 10.2-ci maddəsində nəzərdə tutulmuş həddə çatdırır.

66.3. Bu Qanunun qüvvəyə mindiyi gündən "Azərbaycan Respublikasının Milli Bankı haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, 3, maddə 172) və ona edilmiş bütün dəyişikliklər və əlavələr qüvvədən düşmüş hesab edilir.

Azərbaycan Respublikasının Prezidenti
İlham ƏLİYEV
Bakı şəhəri, 10 dekabr 2004-cü il

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU İNVESTİSİYA FƏALİYYƏTİ HAQQINDA

Bu Qanun Azərbaycan Respublikasının ərazisində investisiya fəaliyyətinin (sərmayədarlığın) ümumi sosial, iqtisadi və hüquqi şərtlərini müəyyənləşdirir.

Qanun investisiyanın Azərbaycan Respublikası iqtisadiyyatına intensiv cəlb olunmasına, ondan ölkənin sosial-iqtisadi bazasının, habelə beynəlxalq iqtisadi əməkdaşlığın və inteqrasiyanın inkişafı uçün səmərəli istifadə edilməsinə yönəldilmişdir və mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir.

I FƏSİL. ÜMUMİ MÜDDƏALAR

Maddə 1. İnvestisiya anlayışı

İnvestisiya - gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir.

Belə vəsait və sərvətlər aşağıdakılardır:

- pul vəsaiti, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər və digər qiymətli kağızlar;
- daşınan və daşınmaz əmlək (binalar, qurğular, avadanlıq və başqa maddi sərvətlər);
- müvafiq qaydada rəsmiləşdirilmiş elmi-təcrübi və digər intellektual sərvətlər;
- bu və ya digər istehsal növünün təşkili üçün zəruri olan ancaq vərdiş və istehsalat təcrübəsi kimi tərtib edilmiş texniki, texnoloji, kommersiya və digər biliklərin məcmusu ("nou-hau")
- torpaqdan, sudan və digər ehtiyatlardan, binalardan, qurğulardan, avadanlıqlardan istifadə hüquqları, habelə müəlliflik hüququndan irəli gələn və başqa əmlak hüquqları;
- başqa sərvətlər.

Əsas fondların yaradılmasına və təkrar istehsalına, habelə maddi istehsalın digər formada investisiya yönəldilməsi kapital qoyuluşları şəklində həyata keçirilir.

Maddə 2. İnvestisiya fəaliyyəti

1. İnvestisiya fəaliyyəti investorların investisiya qoyuluşu və onun həyata keçirilməsi ilə əlaqədar bütün hərəkətlərinin məcmusudur.

2. İnvestisiya fəaliyyətinin aşağıdakı növləri vardır:

-Azərbaycan Respublikasının vətəndaşları, qeyri-dövlət müəssisə, idarə, təşkilat və qurumları tərəfindən həyata keçirilən özəl investsiya fəaliyyəti;

- Dövlət hakimiyyət və idarəetmə orqanları, habelə dövlət müəssisə, idarə və təşkilatları tərəfindən büdcələrin, büdcədənkənar fondların, özlərinə məxsus və borc vəsaitinin hesabına həyata keçirilən dövlət investisiya fəaliyyəti;

- xarici vətəndaşlar, hüquqi şəxslər, dövlətlər, beynəlxalq maliyyə təşkilatları, habelə vətəndaşlığı olmayan şəxslər tərəfindən həyata keçirilən xarici investisiya fəaliyyəti;

- Azərbaycan Respublikasının və xariçi dövlətlərin vətəndaşları, hüquqi şəxsləri və dövlətlər tərəfindən həyata keçirilən birgə investisiya fəaliyyəti.

3. İstehsalata və sosial sahəyə elmi-texniki tərəqqinin nailiyyətlərini tətbiq etmək üçun investisiya fəaliyyətinin bir forması kimi innovasiya fəaliyyəti həyata keçirilə bilər. İnnovasiya fəaliyyətinə aşağıdakılar daxildir:

- uzunmüddətli elmi-texniki proqramların həyata keçirilməsi;
- iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi məqsədi ilə məhsuldar qüvvələrin vəziyyətində keyfiyyət dəyişiklikləri etmək üçün fundamental tədqiqatların maliyyələşdirilməsi;
- texnika və textologiyanın prinsipcə yeni, qənaətcil işlənib hazırlanması, buraxılması, yayılması və tətbiqi.

Maddə 3. İnvestisiya fəaliyyətinin obyektləri

İqtisadiyyatın bütün sahələrində hər hansı əmlak, o cümlədən əsas fondlar və dövriyyə vəsaiti, qiymətli kağızlar, məqsədli pul əmanətləri, elmi-texniki məhsullar, intellektual sər-

vətlər, digər mülkiyyət obyektləri, habelə əmlak hüquqları investisiya fəaliyyətinin obyekti ola bilər.

Yaradılması və istifadə edilməsi Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyənləşdirilmiş sanitariya-gigiyena, radiasiya, ekologiya, arxitektura və digər normaların tələblərinə uyğun gəlməyən, habelə vətəndaşların, hüquqi şəxslərin və dövlətin qanunla müdafiə edilən hüquq və mənafələrini pozan obyektlərə investisiya qoyulması qadağandır.

Maddə 4. İnvestisiya fəaliyyətinin subyektləri

1. Azərbaycan Respublikasının və xarici ölkələrin vətəndaşları və hüquqi şəxsləri, vətəndaşlığı olmayan şəxslər, habelə dövlətlər investisiya fəaliyyətinin subyektləri (investorları və iştirakçıları) ola bilərlər

2. Özünə məxsus olan, borc götürdüyü və ya cəlb etdiyi maliyyə intellektual sərvətləri investisiya obyektlərinə qoymaq haqqında qərar qəbul edən, habelə onlardan istifadə olunmasını təmin edən subyektlər investorlardır (sərmayədarlardır).

İnvestorlar investisiya fəaliyyətində əmanətçi, kreditor və alıcı qismində çıxış edə, habelə investisiya fəaliyyətinin istənilən iştirakçısının funksiyalarını yerinə yetirə bilərlər.

3. İnvestisiya niyyətinin həyata keçirilməsini sifarişlərin icraçısı qismində və ya investorların tapşırığı əsasında təmin edən Azərbaycan Respublikasının və xarici dövlətlərin vətəndaşları və hüquqi şəxsləri, habelə vətəndaşlığı olmayan şəxslər investisiya fəaliyyətinin iştirakçılarıdır.

Maddə 5. İnvestisiya fəaliyyəti haqqında qanunvericilik

Azarbaycan Respublikası ərazisində investisiya fəaliyyətinin həyata keçirilməsi zamanı yaranan münasibətlər bu Qanunla və Azərbaycan Respublikasının digər qanunları və onların əsasında qəbul edilmiş qanunvericilik aktları, habelə bəynəlxalq müqavilələri ilə tənzimlənir.

Azərbaycan Respublikası investisiyalarının xarici dövlətin ərazisində investisiya fəaliyyəti həmin dövlətin qanunvericiliyi ilə tənzimlənir.

II FƏSİL. İNVESTİSİYA FƏALİYYƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ

Maddə 6. İnvestisiya fəaliyyati subyektlərinin hüquqları

1. Azərbaycan Respublikası ərazisində mülkiyyat formasından və təsərrüfat fəaliyyətinin növündən asılı olmayaraq inves-tisiya fəaliyyətinin bütün subyektləri investisiya fəaliyyətinin həyata keçirilməsi sahəsində bərabər hüquqlara malikdirlər.

Bu Qanunla və ya Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə investisiya qoyulması qadağan edilən və ya obyektlərdən başqa, hər hansı obyektə investisiya investorun müstəsna hüququdur və qanunla qorunur.

2. İnvestor müstəqil surətdə investisiya qoyuluşunun məqsədini, istiqamətini, növünü və həcmini müəyyənləşdirir, onun həyata keçirilməsi üçün müqavilə əsasında, o cümlədən müsabiqə (tender) və hərrac yolu ilə fiziki və hüquqi şəxsləri investisiya fəaliyyətinin hər hansı iştirakçısı qismində cəlb edir.

3. Azərbaycan Respublikasının qanunvericilik aktlarına uyğun olaraq investor Azərbaycan Respublikasının ərazisində investisiyanın obyektlərinə və nəticələrinə sahiblik, istifadə və sərəncam verмək, həmçinin reinvestisiya və ticarət əməliyyatları həyata keçirmək hüquqlarına malikdir.

Azarbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş mülkiyyət hüququ əmələ gətirməyən obyektlərə investisiya qoyulması sonradan onlara sahiblikdə, əməli idarəetmədə və ya belə obyektlərin istismarından əldə edilən gəlirdə investorun iştirakı hüququnu istisna etmir.

4. İnvestorun qərarı ilə investisiyaya və onun nəticələrinə sahiblik, istifadə və sarəncam hüquqları qanunla müəyyənləşdirilmiş qaydada digər fiziki və hüquqi şəxslərə verilə bilər. Hüquqların bu cür verilməsi zamanı yaranan qarşılıqlı münasibətləri onlar müstəqil surətdə müqavilə əsasında nizama salırlar.

5. İnvestor investisiya qoyuluşu üçün maliyyə vəsaitini kredit, qanunvericiliklə müəyyən edilmiş qaydada qiymətli kağızlar buraxılışı və borc kimi da cəlb edə bilər.

Azərbaycan Respublikasının qanunları ilə başqa hallar nəzərdə tutulmayıbsa investor öhdəliklərinə real təminat vermək məqsədi ilə girov qoymaq üçün yalnız özünə məxsus və ya özünün tam təsərrufat səlahiyyətində olan əmlakdan istifadə edə bilər.

Azərbaycan Respublikası ərazisinin hüdudlarından kənarda ipoteka krediti hesabına-investor kimi çıxış edən dövlət müəssisələrinin invertisiyaları üçün Azərbaycan dövləti tərəfindən təminat verilir.

6. Azərbaycan Respublikası qanunvericiliyinə zidd olmadıqda, investorun fiziki və hüquqi şəxslərdən birbaşa və ya vasitəçilik yolu ilə istənilən miqdarda və növdən olan əmlakı tərəflərin müəyyənləşdirdiyi qiymətlərlə və şərtlərlə almaq hüququ vardır.

7. Dövlət və bələdiyyə mülkiyyətinin, habelə başa çatdırılmamış tikinti obyektlərinin özəlləşdirilməsində investorlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş şərtlərlə və qaydada iştirak edə bilərlər.

Maddə 7. İnevstisiya fəaliyyati subyektpərinin vəzifələri

1. İnvestisiya fəaliyyətinin subyektləri Azərbaycan Respublikası qanunveriçiliyi ilə müəyyən olunmuş hallarda və qaydada müvafiq olaraq aşağıdakıları həyata keçirməyə borcludurlar:

- maliyyə vəsaiti və maddi sərvətlər əsasında həyata keçirdikləri investisiyanın həcmi və maliyyələşdirilməsi mənbəyi barədə yerli banklara və ya maliyyə orqanlarına müvafiq orqanların arayışını təqdim etmək;
- əsaslı tikinti və icazə tələb edən digər işlər üçun müvafiq dövlət orqanlarından və xüsusi xidmətlərin zəruri icazə və ya razılıq almaq;
- texnoloji, sanitariya-gigiyena, radiasiya, ekologiya və arxitektura tələblərinə əməl edilməsi baxımından investisiya layihələri üçün ekspertiza rəyi almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada müəyyənləşdirilən norma və standartlara, habelə bəynəlxalq norma və standartlara əməl etmək;

- dövlət orqanlarının və vəzifəli şəxslərin öz səlahiyyətləri daxilində, Azərbaycan Respublikasının qanunvericilik aktlarına uyğun verdikləri tələbləri yerinə yetirmək;
- müəyyələşdirilmiş qaydada mühasibat və statistika hesabatları təqdim etmək;
- haqsız rəqabətə yol verməmək və antiinhisar tənzimlənməsinin tələblərinə əməl etmək.

2. Müvafiq attestasiya tələb edən xüsusi növ işlərin yerinə yetirilməsi üçün investisiya fəaliyyyətinin iştirakçıları lisenziya almalıdırlar. Belə işlərin siyahısını Azərbaycan Respublikasının Ali Soveti, onlara lisenziya verilməsinin qaydasını isə Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyənləşdirir.

Maddə 8. İnvestisiya fəaliyyətinin subyektləri arasında münasibətlər

İnvestisiya fəaliyyətinin subyektləri arasında münasibətləri tənzimləyən əsas hüquqi sənəd müqavilədir (kontraktdır).

Müqavilənin bağlanması, tərəflərin seçilməsi, öhdəliklərin, təsərrüfat münasibətlərinin Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan hər hansı şərtlərinin müəyyənləş-dirilməsi investisiya fəaliyyəti subyektlərinin müstəsna səlahiyyətinə daxildir. Dövlət orqanlarının və vəzifəli şəkslərin mövcud qanunvericilik aktları ilə müəyyənləşdirilmiş həddən artıq investisiya fəaliyyəti subyektlərinin müqavilə münasibətlərinə qarışmasına yol verilmir.

Maddə 9. İnvestisiya fəaliyyətinin maliyyələşdirilməsi mənbələri

İnvestisiya fəaliyyəti aşağıdakı mənbələrdən maliyyələşdirilə bilər:

-investorun özünün maddi və intellektual sərvətləri, maliyyə vəsaiti və təsərrüfatdaxili ehtiyatları (mənfəət, amortizasiya ayırmaları, fiziki və hüquqi şəxslərin pul yığımları, əmanətləri, qəza və təbii fəlakət nəticəsində dəymiş ziyanın ödənilməsi üçün sığorta orqanlarının müvafiq ödənişləri və s.);

- investorun borc maliyyə vəsaiti (bank və büdcə kreditləri, istiqrazlar və digər vəsait);

- investorun cəlb edilmiş maliyyə vəsaiti (əmək kollektivlərinin, vətəndaşların, hüquqi şəxslərin payları və digər haqları, səhmlərin satışından əldə edilən vəsait);

- büdcədən və büdcədənkənar fondlardan investisiya məqsədli təxsisatlar;

- xarici investisiya;

-müəssisələrin, təşkilatların və vətəndaşların əvəzsiz və xeyriyyə haqları, iaşələr və s.

Zərurət yarandıqda investisiya fəaliyyatini həyata keçirmək məqsədilə müvafiq investisiya fondları və digər təsisatları yaradıla bilər.

III FƏSİL. İNVESTİSİYA FƏALİYYƏTİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ

Maddə 10. İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsinin məqsədi

İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi vahid iqtisadi, elmi-texniki və sosial siyasət yeridilməsi məqsədi ilə həyata keçirilir və Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf proqramında nəzərdə tutulmuş həcmlərdə respublika və yerli büdcələr hesabına maliyyələşdirilir.

İctimai tələbatın ödənilməsinin daha vacib istiqamətlərində investisiya fəaliyyətini həyata keçirən investorlara Azərbaycan Respublikasının qanunvericilik aktları ilə nəzərdə tutulan güzəştlər verilir.

Maddə 11. İnvestisiya faaliyyətinin dövlət tənzimləməsinin formaları

1. İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsinə dövlət investisiyasının idarə olunması, habelə investisiya fəaliyyəti

şərtlərinin tənzimlənməsi və bu şərtlərə investisiya fəaliyyətinin bütün subyektləri tərəfindən əməl edilməsinə nəzarət daxildir.

2. Dövlət investisiyasının idarə olunması respublika və yerli dövlət hakimiyyət və idarəetmə orqanları tərəfindən həyata keçirilir və büdcə, büdcədənkənar vəsaitin və həmin orqanlar tərəfindən cəlb edilən başqa vəsaitin planlaşdırılmasından, investisiyanın şərtlərinin müəyyənləşdirilməsindən və bunlarla bağlı digər məsələlərin həllindən ibarətdir.

3. İnvestisiya fəaliyyətinin dövlət tənzimlənmələri aşağıdakı vasitələrlə həyata keçirilir:

-vergitutma obyektlərinin və obyektlərinin, vergi dərəcələrinin və güzəştlərinin fərqləndirildiyi vergi sisteminin tətbiqi;

- kredit və amortizasiya siyasətinin həyata keçirilməsi, o cümlədən əsas fondların sürətli amortizasiyası yolu ilə. Amortizasiya üzrə güzəştlər ayrı-ayrı iqtisadi sahalər, əsas fondların və avadanlığın müxtəlif növləri və elementləri üçün dəyişkən və fərqli müəyyən edilə bilər;

- ayrı-ayrı region, sahə və istehsalatların inkişafı üçün subvensiya, subsidiya, büdcə borclarının verilməsi;

- dövlət norma və standartlarının müəyyənləşdirilməsi;

- antiinhisar tədbirlərin görülməsi;

- mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi;

-torpaqdan, sudan və başqa təbii ehtiyatlardan istifadə şərtlərinin müəyyənləşdirilməsi;

- qiymətqoyma siyasətinin həyata keçirilməsi;

- investisiya layihələrinin ekspertizasının keçirilməsi;

- başqa tədbirlər.

Maddə 12. Respublika ərazisində dövlət investisiyalarına dair qərarların qəbul edilməsi qaydası

1. Respublika ərazisində dövlət investisiyalarına dair qərarlar respublikanın iqtisadi və sosial inkişaf proqnozları, məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi sxemi, bu investisiyaların məqsədəuyqunluğunu müəyyənləşdirən texniki-iqtisadi

əsaslandırmalar, məqsədli elmi-texniki və kompleks proqramlar əsasında qəbul edilir.

2. Respublika üzrə məqsədli kompleks proqramların layihələri Azərbaycan Respublikasının, Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilmiş qaydada əlaqədar dövlət orqanlarının və ictimai təşkilatların iştirakı ilə işlənib hazırlanır və Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə respublikanın sosial-iqtisadi inkişafının əsas istiqamətlərinin tərkibində Azərbaycan Respublikası Ali Soveti tərəfindən təsdiq edilir.

3. Həyata keçirilmə müddəti iki ilə qədər olan və fövqəladə vəziyyət, qəzalar və təbii fəlakətlərlə bağlı dövlət investisiyaları haqqında qərarları Azərbaycan Respublikasının Nazirlər Kabineti müvafiq mərkəzi və yerli dövlət idarəetmə orqanlarının təklifləri əsasında qəbul edir.

Maddə 13. Əsaslı tikintidə işlərin yerinə yetirilməsi üçük dövlət sifarişinin yerləşdirilməsi qaydası

1. Respublika ərazisində dövlət investisiyasının həyata keçirilməsi formalarından biri əsaslı tikintidə işlərin yerinə yetirilməsi üçün dövlət sifarişidir.

2. Dövlət sifarişi, bir qayda olaraq, müəssisə və təşkilatlar üçün bu sifarişin iqtisadi sərfəliyi nəzərə alınmaqla müsabiqə (tender) əsasında yerləşdirilir. Bu zaman həmin müəssisə və təşkilatlar üçün qanunvericiliklə müəyyən güzəştlər də nəzərdə tutula bilər.

3. Respublika dövlət sifarişi obyektləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyənləşdirdiyi qaydada istismara qəbul olunur.

Maddə 14. İnvestisiyaların dövlət ekspertizası

1. Budcə və büdcədənkənar vəsaitlər, o cümlədən xarici investisiya hesabına maliyyələşdirilən respublika, dövlətlərarası və regional investisiya layihə və proqramları Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyənləşdirdiyi qaydada mütləq dövlət ekspertizasından keçirilməlidir.

Başqa mənbələr hesabına maliyyələşdirilən investisiyalar ekoloji, seysmoloji və sanitariya-gigiyena tələblərinə əməl edilməsi baxımından Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyənləşdirdiyi qaydada dövlət ekspertizasından keçirilməlidir.

2. Zərurət olduqda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin yaratdığı ekspert komissiyası ayrı-ayrı investisiya layihələrini və proqramlarını ekspertizadan keçirə bilər.

Maddə 15. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və respublika tabeli dövlət hakimiyyət və idarəetmə orqanları öz səlahiyyətləri ərazilərində investisiya fəaliyyətinin subyektləri tərəfindən istehsal və sosial obyektlərin yaradılması yolu ilə investisiya fəaliyyətini tənzimləyirlər.

İnvestisiya məqsədləri üçün yerli büdcədən istifadə etmək, sosial infrastruktur obyektləri tikdirmək, tikinti üçün torpaq sahəsi ayırmaq, torpaqdan istifadə şərtlərinin, sosial sahə və təbiəti mühafizə təyinatlı obyektlərin tikintisi həcminin və müddətlərinin, habelə tikinti norma və qaydalarının pozulduğu halda tikintinin dayandırılması haqqında səlahiyyətli dövlət orqanları qarşısında məsələ qaldırmaq yerli dövlət hakimiyyət və idarəetmə orqanlarının müstəsna səlahiyyəitnə aiddir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi investisiyanın dövlət tənzimlənməsi məqsədilə bu Qanuna zidd olmayan əlavə şərtlər müəyyənləşdirə bilər.

Maddə 16. İnvestisiya fəaliyyətində qiymətqoyma

İnvestisiya fəaliyyəti prosesində məhsulların, işlərin və xidmətlərin dəyəri sərbəst qiymət və tariflərlə, o cümlədən müsabiqələrin (tenderin) nəticələrinə əsasən, qanunvericilik aktları ilə nəzərdə tutulmuş hallarda isə dövlət tərəfindən tənzimlənən qiymət və tariflərlə müəyyənləşdirilir.

Tikintidə müqavilə qiymətləri tövsiyə edilən dövlət smeta normalarından və qiymətlərindən istifadə etməklə də müəyyənləşdirilə bilər.

IV FƏSİL. İNVESTİSİYA FƏALİYYƏTİ SUBYEKTLƏRİNİN HÜQUQLARININ TƏMİNATI VƏ İNVESTİSİYANIN QORUNMASI

Maddə 17. İnvestisiya fəaliyyəti subyektlərinin hüquqlarının təminatı

Dövlət investisiya fəaliyyətinin həyata keçirilməsi şərtlərinin sabitliyinə, onun subyektlərinin hüquqlarının və qanuni mənafelərinin qorunmasına təminat verir.

İnvestisiya fəaliyyətinin subyektləri arasında bağlanmış müqavilənin şərtləri bu müqavilənin bütün müddəti ərazində və hətta o bağlandıqdan sonra qanunvericiliklə subyektlərin vəziyyətini pisləşdirən və ya hüquqlarını məhdudlaşdıran şərtlər müəyyən edildikdə belə, əgər onlar müqavilə şərtlərinin dəyişdirilməsi barədə razılığa gəlməyiblərsə, qüvvəsini saxlayır.

Dövlət orqanları və onların vəzifəli şəxsləri qanunvericiliklə yol verilən və onların fəaliyyətinə daxil olan hallardan başqa, investisiya fəaliyyəti subyektlərinin işinə qarışa bilməzlər.

Bu Qanunla müəyyənləşdirilən hallardan başqa, investisiya qoyulan obyektlərin seçilməsindən investorların hüquqları məhdudlaşdırıla bilməz.

Dövlət orqanları və başqa orqanlar investorların və investisiya fəaliyyətinin digər subyektlərinin hüquqlarını pozan aktlar qəbul etdikdə, investisiya fəaliyyəti subyektlərinə dəyən zərəri bu orqanlar tam həcmdə ödəməlidirlər. Zərərin ödənilməsi barədə mübahisələrə aidiyyatı üzrə məhkəmə və ya arbitraj məhkəməsi baxır.

Maddə 18. İnvestisiyanın qorunması

1. Dövlət mülkiyyət formasından asılı olmayaraq butün investisiyaların, o cümlədən xarici investisiyanın qorunmasına təminat verir.

İnvestisiyanın qorunması Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi, habelə başqa dövlətlərlə bağladığı müqavilələrlə təmin edilir.

İnvestorlar, o cümlədən xarici investorlar investisiyanı idarə, istifadə və ona xitam verməyə maneçilik törədə bilən ayrıseçkilik xarakterli tədbirləri istisna edən, habelə qoyulmuş sərvətlərin və investisiyanın nəticələrinin respublikadan aparılması şərtləri və qaydasını müəyyənləşdirən bərabər hüquqi rejimlə təmin olunurlar.

2. Azərbaycan Respublikasının sonrakı qanunvericiliyi investisiya qoyuluşu şəraitini pisləşdirdikdə investisiya fəaliyyətinə dair bağlanmış müqavilədə nəzərdə tutulan müddətdə investisiyanın qoyulduğu zaman qüvvədə olmuş qanunvericilik tətbiq edilir.

3. Azərbaycan Respublikası ərazisində investisiya əvəzsiz milliləşdirilmir, rekvizisiya edilmir və onlara nəticələrinə görə digər oxşar tədbirlər tətbiq olunmur. Belə tədbirlər investorlara vurulmuş zərərin, o cümlədən itirdikləri faydanın əvəzi tam həcmdə real dəyər üzrə ödənilməklə yalnız Azərbaycan Respublikasının qanunvericilik aktları əsasında həyata keçirilə bilər. Zərərin ödənilməsi qaydası həmin qanunvericiliklə müəyyən-ləşdirilir.

İnvestorların qoyduğu və ya əldə etdiyi məqsədli bank əmanətləri, səhmlər və digər qlymətli kağızlar, əldə edilmiş əmlak və ya icarə hüquqları üçün ödənişlərin əvəzi Azərbaycan Respublikasının qanunvericilik aktlarına uyğun olaraq alındıqda, investorların öz hərəkətləri və ya onların iştirakı ilə edilmiş hərəkətlər nəticəsində istifadə olunan və ya itirilən məbləğlər istisna edilməklə, investorlara qaytarılır.

4. İnvestisiyalar sığortalana bilər, qanunvericiliklə nəzərdə tutulan hallarda isə hökmən sığortalanmalıdır.

Maddə 19. İnvestisiya fəaliyyəti subyektlərinin məsuliyyəti

1. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş tələblərə və ya investisiya fəaliyyətinin subyektləri arasında bağlanmış müqavilə (kontrakt) öhdəliklərinə əməl olunmadıqda tərəflər həmin aktlarla müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyırlar.

2. Dövlət orqanları investisiya fəaliyyətinin, həyata keçirilməsinə dair öhdəliklərini və ya qanuni əsaslar üzrə onlara həvalə edilmiş vəzifələri yerinə yetirmədikdə, yaxud lazımınca yerinə yetirmədikdə investisiya fəaliyyətinin digər subyektləri qarşısında həmin öhdəliklərə görə əmlak məsuliyyəti daşıyırlar.

3. Qanunvericiliyin tələblərinin və müqavilə öhdəliklərinin pozulmasına görə cərimənin və dəbbə pulunun, habelə dəymiş zərərin ödənilməsi təqsirkar tərəfi, qanunvericiliklə və müqavilə ilə digər hal nəzərdə tutulmayıbsa, tələblərin və öhdəliklərin tam yerinə yetirilməsindən azad etmir.

4. İnvestisiya fəaliyyətinin həyata keçirilməsi zamanı yaranan müvafiq olaraq məhkəmə, arbitraj məhkəməsi və ya münsiflər məhkəməsi baxır.

Maddə 20. İnvestisiya fəaliyyətinin dayandırılması və ya ona xitam verilməsi şərtləri

1. İnvestisiya fəaliyyətinin dayandırılmasına və ya ona xitam verilməsinə aşağıdakıların qərarı ilə yol verilir:

- investorların özünün, (bu zaman investorlar investisiya fəaliyyətinin digər iştirakçılarına dəymiş zərəri ödəyirlər);
- səlahiyyətli dövlət,orqanların.

2. İnvestisiya fəaliyyətinin dayandırılması və ya ona xitam verilməsi barədə salahiyyətli dövlət orqanının qərarı aşağıdakı hallarda qəbul edilə bilər:

- onun davam etdirilməsi Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyənləşdirilmiş ekoloji, seysmoloji, sanitariya-gigiyena, arxitektura və başqa normaları, vətəndaşların və hüquqi şəxslərin, dövlətin qanunla qorunan hüquq və mənafelərini pozduqda;
- investor qanunla müəyyənləşdirilmiş qaydada müflis elan edildikdə;
- qəza və təbii fəlakat baş verdikdə.

Belə hallarda investisiya fəaliyyətinin subyektlərinə zərərin ödənilməsi qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilir.

Maddə 21. Beynəlxalq müqavilələr

Azərbaycan Respublikasının beynəlxalq müqaviləsində investisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydalardan fərqli qaydalar müəyyən olunduqda, bəynəlxalq müqavilənin qaydaları tətbiq edilir.

Azərbaycan Respublikasının Prezidenti
Heyder ƏLİYEV
Bakı şəhəri, 13 yanvar 1995-ci il. № 952

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN Q Ə R A R I

«İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi barədə

1. «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respub-likası Qanunu imzalandığı andan qüvvəyə minsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti iki ay ərzində Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktlarının «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasından ötrü tədbirlər görsün və həmin Qanunun icrası üçün zəruri aktları qəbul esin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri R.Quliyev
Bakı şəhəri, 13 yanvar 1995-ci il. № 953

XARİCİ İNVESTİSİYANIN QORUNMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının 7 aprel 1992-ci il tarixli,, 97 saylı, 5 noyabr 1996-cı i. tarixli, 188-1QD saylı; 23 mart 2001-ci il tarixli qanunlarına əsasən edilmiş dəyişikliklərlə

Bu Qanun Azərbaycan Respublkasının ərazisində xarici investisiya qoyuluşunun hüquqi və iqtisadi prinsiplərini müəyyən edir. Qanun xalq təsərrüfatında xarici maddi və maliyyə ehtiyatlarının, qabaqcıl xarici texnikanın və texnolokiyanın, idarəetmə təcrübəsinin cəlb olunmasına, bunlardan səmərəli istafadə edilməsinə yiyənəlmişdir və xarici investorların hüquqlarının müdafiəsinə təminat verir.

I BÖLMƏ. ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Xarici investisiya haqqında qanunvericilik

Azərbaycan Respublikasının ərazisində xarici investisiya ilə bağlı münasibətlər bu Qanuna, Azərbaycan Respublikasının başqa qanunvericilik aktları və beynəlxalq müqavilələri ilə nizama salınır.

Maddə 2. Xarici investorlar

Azərbaycan Respublikasında xarici investorlar aşağıdakılar ola bilər:

a) xarici hüquqi şəxslər;

b) xarici vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər və xaricdə daimi yaşayış yeri olan Azərbaycan Respublikası vətəndaşları; bu şərtlə ki, onlar vətəndaşı olduqları və ya daimi yaşadıqları ölkədə təsərrüfat fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış olsunlar;

c) xarici dövlətlər;

ç) beynəlxalq təşkilatlar.

Maddə 3. Xarici investisiya və onun qoyulması formaları

Xarici investorların mənfəət əldə etmək məqsədilə sahibkarlıq fəaliyyəti və başqa növ fəaliyyət obyektlərinə qoyduqları əmlakın və əmlak hüquqlarının bütün növləri, o cümlədən intellektual fəaliyyətin nəticələrinə hüquqlar və əşya hüquqlarına aid olmayan digər hüquqlar xarici investisiyadır.

Xarici investorlar Azərbaycan Respublikası ərazisində aşağıdakı yolla investisiya qoya bilərlər:

a) Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə birlikdə yaradılan müəssisələrdə, təşkilatlarda payçılıq iştirakı;

b) tamamilə xarici investordara məxsus olan müəssisələr yaradılması;

c) müəssisələrin, əmlak komilekslərinin, binaların, qurğuların, müəssisələrdə iştirak payının, səhmlərin, istiqrazların va digər qiymətli kağızların, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə xarici investorlara məxsus ola bilən başqa əmlakın əldə edilməsi;

ç) torpaqdan və başqa təbii ehtiyatlardan istifadə hüquqlarının, habelə digər əmlak hüquqlarının əldə edilməsi;

d) Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə xarici investisiya qoyuluşunun başqa formalarını nəzərdə tutan müqavilələr bağlanması.

Maddə 4. Dövlətlətsizləşdirmədə və özləşdirmədə xariçi investorların iştirakı

Dövlət və bələdiyyə müəssisələrinin, habelə başa çatdırılmamış tikinti obyektlərinin özəlləşdirilməsində xarici investorlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilən şərtlərlə və qaydada iştirak edə bilərlər.

Maddə 5. Xarici investisiyanın hüquqi rejimi

Bu Qanunda nəzərdə tutulmuş istisnalarla, xarici investisiyanın, habelə investisiya qoyuluşu sahəsində xarici investorların fəaliyyətinin hüquqi rejimi Azərbaycan Resiublikasının hüquqi

şəxslərinin və vətəndaşlarının əmlakı, əmlak hüquqları, habelə investisiya fəaliyyəti üçün yaradılmış rejimdən az əlverişli ola bilmz.

Xalq təsərrüfatının üstünlük verilən sahələrində və ayrı-ayrı ərazilərdə xarici investisiya üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə əlavə vergi güzəştləri və başqa güzəştlər müəyyən edilə bilər.

Maddə 6. Fəaliyyət növləri

Xarici investisiyalı müəssisələr Azərbaycan Respublikasının qanunvericilik aktları ilə qadağan olunmamış hər hansı fəaliyyət növu ilə məşğul ola bilərlər.

Xarici investisiyalı müəssisələr Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi siyahıdakı ayrı-ayrı fəaliyyət növləri ilə yalnız xüsuri icazə (lisenziya) əsasında məşğul ola bilərlər.

Maddə7. Xarici investisiya üçün ərazi məhdudiyyətləri

Azərbaycan Respublikasının qanunvericilik aktları ilə elə ərazilər müəyyən edilə bilər ki, müdafiənin, milli təhlükəsizliyin, ətraf təbii mühitin və əhalinin müdəfiəsinin təmin olunması mülahizələrinə görə bu ərazilərdə xarici investisiyalı müəssisələrin fəaliyyəti məhdudlaşdırılsın və ya qadağan edilsin.

Maddə 8. İnvestisiya fəaliyyətinin əlaqələndirilməsi

Azərbaycan Respublikasının Nazirlər Kabineti xarici investisiyanın cəlb edilməsi və ondan istifadə olunması tədbirlərini hazırlayıb həyata keçirir, investisiyanın fəaliyyətini əlaqələndirir, xarici investorlara və xarici investisiyalı müəssisələrə kömək göstərir.

II BÖLMƏ. XARİCİ İNVESTİSİYA ÜÇÜN DÖVLƏT TƏMİNATLARI

Maddə 9. Xarici investisiyanın hüquqi müdafiəsi

Azərbaycan Respublikasının ərazisində xarici investisiya hüquqi cəhətdən tam və qeyd-şərtsiz müdafiə olunur. Belə müdafiə Azərbaycan Respublikasının bu Qanunu, başqa qanunve-ricilik aktları və beynəlxalq müqavilələri ilə təmin olunur.

Maddə 10. Qanunvericiliyin dəyişdirilməsi ilə bağlı tə-minatlar

Azərbaycan Respublikasının sonrakı qanunvericiliyi investisiya qoyuluşu şəraitini pisləşdirdikdə on il ərzində xarici investisiyaya investisiyanın qoyulduğu zaman qüvvədə olmuş qanunvericilik tətbiq edilir.

Bu müddəa müdafiənin, milli təhlükəsizliyin və ictimai qaydanın təmin olunması, vergitutma, kredit və maliyyə, ətraf mühitin əhalinin əxlaq və sağlamlığının mühafizəsi barəsində Azərbaycan Respublikası qanunvericiliyinin dəyişdirilməsinə şamil edilmir.

Maddə 11. Mililəşdirmə və rekvizisiya ilə bağlı təminatlar

Azərbaycan Respublikasında xarici investisiya, Azərbaycan Respublikasının xalqına və dövlət mənafelərinə zərər vuran müstəsna hallar istisna olmaqla, milliləşdirilmir.

Milliləşdirmə haqqında qərarı Azərbaycan Respublikasının Ali Soveti qəbul edir.

Təbii fəlakət, qəza, epidemiya, epizootiya və fövqəladə xarakter daşıyan başqa hallar istisna olmaqla, xarici investisiya rekvizisiya edilmir.

Rekvizisiya haqqında qərarı Azərbaycan Respublikasının Nazirlər Kabineti qəbul edir.

Milliləşdirmə və rekvizisiya tədbirləri görüldükdə xarici investora təxirə salınmadan müqabil və səmərəli kompensasiya ödənilir.

Maddə 12. Xarici investorların zərərinin kompensasiya edilməsi və ödənilməsi

Xarici investorlara ödənilən kompensasiya investisiyanın mil1iləşdirmə və ya rekvizisiya haqqında qərarın qəbul olunduğu vaxtdakı real dəyərinə uyğun olmalıdır.

Kompensasiya xarici valyuta ilə ödənilir və investorun arzusu ilə xaricə götürülə bilər.

Xariçi investorlar dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin Azərbaycan Respublikası qanunvericilnyinə zidd olan hərəkətləri nəticəsində düşdükləri zərərin, o cümlədən itirdikləri faydanın ödənilməsi hüququna malikdirlər. Kompensasiyanın və zərərin ödənilməsi məbləğləri, bunun ödənilməsi müddətləri və qaydası haqqında mübahisələr öz səlahiyyətləri daxilində müvafiq olaraq Azərbaycan Respublikasının Ali Arbitraj Məhkəməsində, Azərbaycan Respublikasının Ali Məhkəməsində, habelə tərəflərin sazişi və ya Azərbaycan Reslubliksının beynəlxalq müqaviləsi ilə nəzərdə tutulmuş hallarda münsiflər məhkəməsində həll olunur.

Maddə 13. İnvestisiya fəaliyyətinə xitam verildikdə təminatlar

İnvestisiya fəaliyyətinə xitam verildikdə xarici investorun hüququ var ki, ona çatası investisiyanı və investisiya ilə əlaqədar gəlirləri investisiya fəaliyyətinə xitam verildiyi zaman real dəyər üzrə pul və əmtəə formasında alsın.

Maddə 14. Xarici valyuta ilə gəlirlərin və başqa məbləğlərin köçurülməsinə təminatlar.

Müvafiq, vergi və rüsumları ödədikdən sonra xarici investorların investisaya ilə əlaqədar qanuni əsaslarla xarici valyuta şəklində əldə etdikləri gəlirləri və başqa məbləğləri, o cümlədən kompensasiyaları və zərərin ödənilməsi məbləğlərini xaricə köçürməsinə təninat verilir.

Maddə 15. Mənfəətdən istifadə üçün təminatlar

Azərbaycan Respublikası ərazisində xarici investorların götürdükləri mənfəət həmin pul vahidi şəklində yenidən investisiya kimi qoyula bilər Azərbaycan Respublikasının banklarında saxlana bilər. Azərbaycan Respublikaşı Milli Bankının müəyyən etdiyi qaydada və şərtlərlə xarici valyuta almaq üçün sərf edilə bilər.

III BÖLMƏ. XARİCİ İNVESTİSİYA QOYULMUŞ MÜƏSSİSƏLƏRİN YARADILMASI VƏ FƏALİYYƏTİ

Maddə 16. Xarici investisiyalı qoyulmuş müəssisələr

Xarici investisiyalı müəssisələr səhmdar cəmiyyətləri, məhdud məsuliyyətli cəmiyyətlər, digər təsərrüfat cəmiyyətləri və ortaqlıqları şəklində, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan hər hansı başqa formalarda yaradılır.

Azərbaycan Respublikasının ərazisində xarici investorların pay iştirakı ilə müəssisələr (birgə müəssisələr); tamamilə xarici investorlara məxsus olan müəssisələr (xarici müəssisələr); xarici hüquqi şəxslərin nümayəndəlikləri (büroları, kontorları agentlikləri) yaradıla və fəaliyyət göstərə bilər.

Birgə və xarici müəssisələr Azərbaycan Respublikasının hüquqi şəxsləridir.

Xarici investisiyalı müəssisələrin yaradılması qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Xarici investisiyalı bankların yaradılmasının xüsusiyyətləri Azərbaycan Respublikasının banklar və bank fəaliyyəti haqqında qanunvericilik aktları ilə müəyyən edilir.

Maddə 17. Ekspertiza

Xarici investisiyalı müəssisə yaradarkən onun təsisçiləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada sanitariya-gigiyena və ekoloji tələblərə riayət olunmasına dair ekspertiza rəyi almalıdırlar. Xarici investisiyalı müəssisə fəaliyyət göstərdiyi dövrdə və ləğv edilərkən belə rəy almalıdır.

İri miqyaslı tikinti və rekonstruksiya aparılması və ya iri faydalı qazıntı yataqlarının işlənlməsi ilə əlaqədar belə müassisələr yaradılarkən texniki-ekoloji layihələrin müvafiq ekspertizasının keçirilməsi də tələb olunur.

Maddə 18. Dövlət qeydiyyatı

Xarici investisiyalı müəssisəni səlahiyyət verilmiş dövlət orqanı dövlət qeydiyyatına almalıdır. Qeydiyyatın qaydasını, habelə bunun üçün zəruri olan təsis sənədlərinə və başqa sənədlərə verilən tələbləri Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.

Xarici investisiyalı müəssisə qeydə alındığı andan hüquqi şəxs hüquqları əldə edir. Qeydiyyatı aparmış orqan qeydəalma haqqında məlumatı mətbuatda dərc etdirir.

Xarici investisiyalı müəssisələrin qeydə alınması haqqında məlumat vəkil edilmiş dövlət orqanının tutduğu respublika reyestrinə daxil edilir.

Xarici investisiyalı müəssisəni dövlət qeydiyyatına almaqdan yalnız o halda istina edilə bilər ki, belə müəssisənin yara-dılması qaydası haqqında Azərbaycan Respublikasının qanunvericiliyi pozulmuş olsun, yaxud qeydiyyat üçün zəruri sənədlər müəyyən edilmiş tələblərə uyğun gəlməsin, habelə qarşıdakı fəaliyyət növləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilmiş olsun.

Dövlət qeydiyyatını almaqdan imtina olunduqda bu barədə Azərbaycan Respublikasında məhkəmə qaydasında şikayət oluna bilər.

Maddə 19. Törəmə müəssisələr, filiallar və nümayəndəliklər

Xarici investisiyalı müəssisə Azərbaycan Respublikasının qanunvericiliyində və xarici dövdətlərin müvafiq qanunverici-liyində müəyyənləşdirilmiş şərtlərə riayət etməklə Azərbaycan Respublikasında və xaricdə hüquqi şəxs hüquqlarına malik törəmə müəssisələr, habelə filiallar və nümayəndəliklər yarada bilər.

Azərbaycan ərazisindəki filiallar və nümayəndəliklər Azərbaycan Respublikasının bank idarələrində hesablar açmaq hüququna malikdirlər.

Maddə 20. Müəssisələrin birləşməsi

Xarici investisiyalı müəssisələr Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş şərtlərlə və qaydada birləşib assosiasiyalar, konsernlər, konsorsiumlar və başqa birliklər yarada bilər.

Belə müəssisələr əvvəllər yaradılmış birliklərə daxil ola bilər.

Maddə 21. Birgə müəssisə iştirakçılarının əmanətlərinin qoyulması

Birgə müəssisənin nizamnamə fonduna hər bir iştirakçının əmanətlərinin qoyulması müddətləri, məbləği, qoyulması və qiymətləndirilməsi qaydası təsis sənədlərində nəzərdə tutulur. Birgə müəssisə iştirakçılarının müəssisinin nizamnamə fonduna əmanət kimi qoyduğu əmlakın dəyəri birgə müəssisə iştirakçıları arasında razılığa əsasən müəyyən edilir.

Maddə 22. Ehtiyat fondu

Xarici investisiyalı müəssisələrdə nizamnamə fondunun 25 faizinədək məbləğdə ehtiyat fondu yaradılır. Ehtiyat fondu illik ayırmalar yolu ilə yaradılır. Ayırmaların məbləğini və valyutanın növünü müəssisə müstəqil müəyyən edir.

Maddə 23. Respublika ərazisində məhsulun satışı və göndərilməsi

Xarici investisiyalı müəssisə istehsal etdiyi məhsula (işlərə, xidmətlərə) qiymət qoymaq, respublikanın daxili bazarında onun satışını, şərtlərini müəyyən etmək, bu bazardan məhsul (işlər, xidmətlər) göndərənləri seçmək ixtiyarına malikdir.

Maddə 24. Azərbaycan Respublikasının ərazisində xarici valyuta ilə hesablaşmalar

Azərbaycan Respublikasının ərazisində xarici investisiyalı müəssisələrin hesablaşma zamanı xarici valyutadan, habelə xarici valyuta şəklində, tədiyə sənədlərindən istifadə etməsinə Azər-

baycan Respublikasının valyuta tənzimlənməsi haqqında qanunvericiliyi ilə müəyyən olunmuş qaydada yol verilir.

Maddə 25. Məhsul ixracı və idxalı

Tamamilə xarici investorlara məxsus müəssisələr və nizamnamə fondunun 30 faizindən çoxu xarici investisiyadan ibarət olan müəssisələr öz istehsal etdikləri məhsulu (işləri, xidmətləri) lisenziyasız ixrac edə bilərlər. Xarici investisiyalı müəssisə özünün təsərrüfat fəaliyyəti üçün məhsulu (işləri, xidmətləri) lisenziyasız idxal edə bilər.

Məhsulun (işlərin, xidmətlərin) xarici investisiyalı müəssisələrin istehsal etdiyi məhsula aid edilməsi qaydasını Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.

Xarici investisiyalı müəssisələrin öz məhsulunu ixrac etməkdən valyuta ilə əldə etdikləri satış pulu onların sərəncamında qalır.

Maddə 26. Gömrük vergisi

Birgə müəssisənin nizamnamə fonduna xarici investorun əmanəti kimi və ya tamamilə xarici investora məxsus müəssisənin yaradılması üçün Azərbaycan Respublikasına gətirilən əmlak gömrük rüsumundan azad edilir və ondan idxal vergisi tutulmur.

Xarici investisiyalı müəssisənin əcnəbi işçilərinin öz ehtiyacları üçün Azərbaycan Respublikasına gətirdikləri əmlak gömrük rüsumundan azad edilir.

Maddə 27. Sığorta

Azərbaycan Respublikasının qanunvericiliyi ilə məcburi sığortalama nəzərdə tutulmadıqda, xarici investisiyalı müəssisə öz əmlakının, istehsal, maliyyə və başqa risqlərinin sığortalanıb-sığortalanmayacağını özü həll edir.

Maddə 28. Vergitutma

Xarici investisiyalı müəssisələr, habelə xarici investorlar Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilən vergiləri ödəyirlər.

Maddə 29. Xarici investisiyalı müəssisələrin fəaliyyətinin vergi tutmaq məqsədilə yoxlanması

Vergi tutmaq məqsədilə xarici investisiyalı müəssisələrin maliyyə və kommersiya fəaliyyətini auditor təşkilatları yoxlayırlar.

Azərbaycan Respublikasının qanunvericilik aktlarında belə müəssisələrin fəaliyyətinin ayrı-ayrı cəhətlərini yoxlamağın həvalə edildiyi vergi orqanları və başqa dövlət orqanları zərurət olduqca və yalnız öz səlahiyyəti daxilində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yoxlama apara bilər.

Vergi orqanları va başqa orqanlar, onların vəzifəli şəxsləri kommersiya sirrinin açılmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

Maddə 30. Mühasibat uçotu və hesabat

Xarici investisiyalı müəssisə Azərbaycan Respublikasında qüvvədə olan qaydalara, yaxud istəsə, həmçinin xarici investorun mənsub olduğu ölkədə qüvvədə olan qaydalara müvafiq surətdə mühasibat uçotu və hesabat aparır.

Maddə 31. Öhdəliklərin təmin edilməsi

Xarici investisiyalı müəssisə götürdüyü öhdəliklərin bütün növlərini təmin etmək, o cümlədən borc vəsaiti cəlb etmək üçün öz əmlakından istifadə edə bilər. Öhdəlikləri təmin etmək üçün o, binalar, qurğular, avadanlıq üzərində əmlak hüquqlarından və digər əmlak hüquqlarından, o cümlədən torpaqdan istifadə hüququndan istifadə edə bilər.

Maddə 32. İntellektual fəaliyyət nəticələrinə hüquqlar və digər qeyri-əşya hüquqları

Xarici investisiyalı müəssisələrin intellektual fəaliyyət nəticələrinə olan hüquqları, habelə digər qeyri-əşya hüquqları (nouhau, kommersiya sirri və s.) Azərbaycan Resiublikasının qanunvericilik aktlarına müvafiq surətdə müdafiə olunur və həyata keçirilir.

Maddə 33. Əmək münasibətləri

Xarici investisiyalı müəssisədə istehsal və əmək münasibə-tləri, o cümlədən işəgötürmə və işdən azadetmə, əmək və istirahət rejimi, əmək haqqı, təminat və kompensasiya məsələləri, kollektiv müqavilə (saziş) və fərdi əmək müqavilələri (bağlaşmalar) ilə tənzimlənir.

Kollektiv və fərdi əmək müqavilələrinin şərtləri həmin müəssisənin işçilərinin vəziyyətini Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş şəraitə nisbətən pisləşdirə bilməz.

Xarici investisiyalı müəssisənin əcnəbi işçilərinin əməyinin ödənilməsi, onlara məzuniyyətlər verilməsi, onların pensiya təminatı məsələləri həmin işçilərin hər biri ilə bağlanan fərdi əmək müqavilələrində (bağlaşmalarda) həll edilməlidir. Bu işçilər xarici valyuta ilə aldıqları əmək haqqını gəlir vergisi ödədikdən sonra xaricə köçürə bilərlər.

Maddə 34. Sosial sığorta və təminat

Xarici investisiyalı müəssisənin işçilərinin sosial sığortası və sosial-təminatı (əcnəbi işçilərin pensiya təminatı istisna olmaqla) Azərbaycan Respublikası qanunvericiliyinin normaları ilə tənzimlənir.

Xarici investisiyalı müəssisə əcnəbi işçilərin pensiya təminatı uçün tədiyələri onların daimi yaşadıqları ölkələrin müvafiq fondlarına həmin ölkələrin valyutası ilə və şərtləri üzrə keçirir.

Müəssisə yerli və əcnəbi işçilərin dövlət sosial sığortası üzrə ayırmaları və yerli işçilərin pensiya təminatı üçün ayırmaları

Azərbaycan Respublikasının müəssisələri və təşkilatları üçün müəyyənləşdirilmiş dərəcələr üzrə ödəyir.

Maddə 35. Ləğvetmə

Xarici investisiyalı müəssisə Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş hallarda və qaydada ləğv edilə bilər.

Xarici investisiyalı müəssisə ləğv edilərkən onun yığdığı aktivlərdən real dəyəri üzrə vergi tutulur.

IV BÖLMƏ. XARİCİ İNVESTORLARIN QİYMƏTLİ KAĞIZLAR ƏLDƏ ETMƏSİ

Maddə 36. Dövlət qiymətli kağızlarının əldə edilməsi

Xarici investorlar dövlət qiymətli kağızlarını Azərbaycan Respublikasının qanunvericiliyində müəyyənləşdirilən şərtlərlə və qaydada əldə edirlər.

Maddə 37. Müəssisələrin iştirak hissələrini, paylarını, səhmlərini və başqa qiymətli kağızlarının xarici investorların əlda etməsi

Xarici investorlar Azərbaycan Respublikasının ərazisində yerləşən müəssisələrin iştirak hissələrini, paylarını, səhmlərini və başqa qiymətli kağızlarını Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada əldə edə bilərlər.

V BÖLMƏ. XARİCİ İNVESTORLARIN TORPAQDAN İSTİFADƏ HÜQUQLARINI VƏ BAŞQA ƏMLAK HÜQUQLARINI ƏLDƏ ETMƏSİ

Maddə 38. Torpaqdan və başqa təbii ehtiyatlardan istifadə hüququ

Xarici investorlara və xarici investisiyalı müəssisələrə torpaqdan və başqa təbii ehtiyatlardan istifadə hüquqlarının, o cümlədən torpağın icarəsi hüququnun verilməsi Azərbaycan Respublikasının Torpaq məcəlləsi və Azərbaycan Respublikasının başqa qanunvericilik aktları ilə tənzimlənir.

Maddə 39. İcarə

Xarici investorların və xarici investisiyalı müəssisələrin icarəsinə əmlakı icarəyəverən müqavilələr əsasında və Azərbaycan Respublikasının icarə qanunvericiliyinə müvafiq surətda verir.

Maddə 40. Konsessiya müqavilələri

Xarici investordara faydalı qazıntı yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, digər təbii ehtiyatların istifadəyə verilməsi hüquqları Azərbaycan Respublikası Nazirlər Kabinetinin onlarla bağladığı və Azərbaycan Respublikası Ali Sovetinin təsdiq etdiyi konsessiya müqavilələri əsasında verilir.

Müqavilədə başqa şərt qoyulmayıbsa, konsessiya müqaviləsi şərtlərinin birtərəfli qaydada dəyişdirilməsinə yol verilmir.

VI BÖLMƏ. SƏRBƏST İQTİSADİ ZONALARDA XARİCİ İNVESTİSİYA

Maddə 41. Sərbəst iqtisadi zonalarda xarici investorların və xarici investisiyalı müəssisələrin fəaliyyəti

Azərbaycan Respublikasında xarici investorların, xarici investisiyalı müəssisələrin təsərrüfat fəaliyyəti üçün güzəştli rejimin müəyyən edildiyi ərazi sərbəst iqsadi zona sayılır.

Sərbəst iqtisadi zonaların yaradılması qaydası, xarici investorların və xarici investisiyalı müəssisələrin orada qeydə alınması, təsərrüfat fəaliyyəti və başqa fəaliyyət ilə məşğul olması şərtləri Azərbaycan Respublikasının sərbəst iqtisadi zonalar haqqında qanunvericiliyi ilə müəyyən edilir.

VII BÖLMƏ. YEKUN MÜDDƏALARI

Maddə 42. Mübahisələrə baxılması

Azərbaycan Respublikasında xarici investorlar və xarici investisiyalı müəssisələr ilə Azərbaycan Respublikasının dövlət orqanları, müəssisələri, ictimai təşkilatları və başqa hüquqi şəxsləri arasında mübahisələrə, xarici investisiyalı müəssisənin iştirakçıları arasında mübahisələrə, habelə xarici investisiyalı müəssisənin iştirakçıları ilə həmin müəssisə arasında mübahisələrə məhkəmələrdə, yaxud tərəflərin razılığına əsasən münsiflər məhkəməsində, o cümlədən xaricdəki münsiflər məhkəməsində, Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş hallarda isə təsərrüfat mübahisələrinə baxan orqanlarda baxılır.

Maddə 43. Beynəlxalq müqavilələr

Azərbaycan Respublikasının beynəlxalq müqaviləsində bu Qanundakından fərqli qaydalar müəyyən edildikdə beynəlxalq müqavilənin qaydaları tətbiq olunur.

Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 15 yanvar 1992-ci il №57

İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Konstitusiyası Bakı 1995
2. Azərbaycan Respublikası Əmək Məcəlləsi. Bakı 2001
3. Azərbaycan Respublikası Vergi Məcəlləsi.
4. Azərbaycan Respublikası Kömrük Məcəlləsi.
5. Azərbaycan Respublikasının Qanunları. 1992-2005-ci illər.
6. Azərbaycan Respublikası Prezidentinin sərəncam və fərmanları. 1992-2005-ci illər.
7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları. 1992-2005-ci illər.
8. Azərbaycan Respublikası Nazirliklərinin, Komitələrinin və digər dövlət orqanlarının normativ-hüquqi aktları. 1992-2005-ci illər.
9. Azərbaycan Respublikası Milli Bankının normativ hüquqi aktları. 1992-2005-ci illər.
10. Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsinə dair qanunverici sənədlər toplusu. Bakı 1997
11. Antiinhisar fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunu. Bakı 1993
12. Azərbaycan Respublikasının «Qiymətli kağızlar və fond birjası haqqında» Qanunu Bakı 1994
13. Azərbaycan Respublikası lizinq haqqında qanunu. Bakı 1994
14. Azərbaycan Respublikası investisiya haqqında qanunu. Bakı 1995
15. Azərbaycan Respublikasının islahatlar haqqında qanunu.
16. Azərbaycan Respublikasının özəlləşdirmə haqqında qanunu. Bakı 1992
17. Azərbaycan Respublikasının sahibkarlıq haqqında qanunu. Bakı 1992.
18. Морозова Т.И. Государственное регулирование экономики. М. 2002 г.

19. Орешин В.П. Государственное регулирование национальной экономики. М. 1999 г.
20. Роик В.Д. Социальное страхование: история, проблемы, пути совершенствования. М. 1994
21. Сафнов А.А. Новые инструменты государственной политики занятости «Общество и экономика» 1997 №8
22. Экономика труда и социальные отношения. Учебно-методические материалы. М. Изд-во РАГС 1997
23. Якушев Л.П. Социальная защита. Учебное пособие. М. 1998
24. Приватизация и антимонопольное регулирование (зарубежный опыт). М. Изд-во РАУ 1992
25. Экономическая реформа и инвестиционная политика. Под. Ред. Н.А.Волгина. М. Изд-во РАГС 1996
26. Алексеев М.Ю. Рынок ценных бумаг. М. Финансы и статистика. 1992
27. Всемирный Банк. Госцдарство в меняющемся мире. М. Прайм-ТАСС. 1997
28. Кочетов Э. Ориентиры внешнеэкономической деятельности М. Экономика 1992
29. Перская В. Внешнеэкономическая деятельность специфика, государственноре регулирование. М.Петровский двор 1998
30. Хубиева К.А. «Экономический рост и вектор развития современной России» М. 2004
31. Шамхалов Ф. «Государство и экономики, основы взаимодействие» М. 2005
32. Сомофалова и другие. «Государственное развитие национальной экономики» М. 2006
33. Морозова Г.Г. «Экономическая политика» М. 2006.
34. Allahverdiyev H.B. redaktəsi ilə «Sosial-iqtisadi proqnozlaşdırmanın əsasları» dərs vəsaiti Bakı 2006
35. Allahverdiyev H.B və Məmmədov Z.T. «investisiya prosesinin dövlət tənzimlənməsi» Bakı 2005

36. Allahverdiyev H.B. «Strateji planlaşdırma» dərslik Bakı 2005

37. Allahverdiyev H.B. «Dövlətin qiymət siyasəti və iqtisadiyyatın tənzimlənməsində onun rolu» «İqtisadiyyat və audit»№2, 2007

38. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. «Milli iqtisadiyyatın dövlət tənzimlənməsi» dərslik Bakı 2007

39. Allahverdiyev H.B. Bazar şəraitində planlaşdırmanın problemləri «Nəzəriyyə və praktika» jurnalı Bakı №1 1992-ci il.

40. Allahverdiyev H.B. «Bazar iqtisadiyyatı şəraitində idarəetmə strukturlarının təkmilləşdirilməsi problemləri» Nəzəriyyə və praktika jurnalı Bakı 1996

41. Allahverdiyev H.B. «Keçid dövründə bazar iqtisadiyyatının tənzimlənməsi problemləri» «Nəzəriyyə və praktika» jurnalı Bakı 1997 № 1-2

42. Allahverdiyev H.B. «Sosial infrastrukturun tənzimlənməsinin regiona problemləri» «Nəzəriyyə və praktika» jurnalı Bakı 1999 № 1-2

43. Allahverdiyev H.B. «Xarici investisiyaların tənzimlənməsi problemləri» «Nəzəriyyə və praktika» jurnalı Bakı 1999 № 1-2

44. Allahverdiyev H.B. «Bazar iqtisadiyyatına keçid şəraitində ərzaq təhlükəsizliyi və onun tənzimlənməsi problemləri» «Nəzəriyyə və praktika» jurnalı Bakı 2000 № 3-4

45. Allahverdiyev H.B. «Keçid iqtisadiyyatının struktur problemləri və onun tənzimlənməsinin əsas istiqamətləri» «Nəzəriyyə və praktika» jurnalı Bakı 2001 № 1-2-

46. Allahverdiyev H.B. «Qloballaşma şəraitində Milli mənafelərin və iqtisadi təhlükəsizliyin aktual problemləri» «Nəzəriyyə və praktika» jurnalı Bakı 2007

47. Allahverdiyev H.B. «Bazar münasibətləri şəraitində ali və orta ixtisaslı iqtisadçı kadrların hazırlanması problemləri» «Nəzəriyyə və praktika» jurnalı Bakı 1997 № 1-2

48. Nağıyev Ə., Novruzov V., Allahverdiyev H., Əlirzayev Ə. «Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı» Bakı 1998

Allahverdiyev H.B. İqtisadiyyatın hüquqi tənzimlənməsinin əsasları

Dərs vəsaiti

Çapa imzalanıb . 06. 2009. Kağız formatı 60x84 1/16.
Həcmi ç.v. Sifariş . Sayı 00.

" İqtisad Universiteti " nəşriyyatı.
AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6